AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ VƏ SİYASİ - HÜQUQİ
TƏDQİQATLAR İNSTİTUTU

«Sosial fəlsəfə» şöbəsi

# FƏLSƏFƏ VƏ HƏYAT

**Elmi məqalələr toplusu**
**I**
**buraxılış**

1981

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

Bakı-2005

*Kod 664107*

Fəlsəfə və həyat. Elmi məqalələr toplusu. I buraxılış.
Bakı: «*Səda*» nəşriyyatı-2005, səh.

Redaksiya heyəti:

**Yusif Rüstəmov-** AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru, professor.

**Əbülhəsən Abbasov-** AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, sosial fəlsəfə şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru, professor, Rusiya Pyotr Elm və İncəsənət Akademiyasının müxbir üzvü

**Afaq Rüstəmova-** filologiya elmləri namizədi, aparıcı elmi işçi

**Dilqəm İsmayılov-** fəlsəfə elmləri namizədi, böyük elmi işçi

**Həlimə Məmmədova-** məsul katib

Məcmuə AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitunun «Sosial fəlsəfə» şöbəsinin 2 mart 2005-ci il tarixli qərarı (2 saylı protokol) və İnstitutun Elmi Şurasının 18 mart 2005-ci il tarixli qərarı (4 saylı protokol) ilə çapa məsləhət görülmüşdür.
Tematik elmi məqalələr məcmuəsi AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitunun «Sosial fəlsəfə» şöbəsində çapa hazırlanmışdır.

Məcmuədə müasir cəmiyyətimizin aktual problemləri, transformasiya şəraitində ictimai inkişaf məsələləri sosial fəlsəfənin tədqiqat obyektləri kimi araşdırılır. İctimai tərəqqidə ideya-nəzəri innovasiyaların rolu, bilinqvizm və diqlossiya, Azərbaycanda çoxpartiyalılığı şərtləndirən amillər və demokratikləşmənin spesifikliyi, insan haqqlarının təmin olunmasının sosial-hüquqi mexanizmləri, qloballaşma və milli mədəniyyət, idarəetmə və sinergizm, elmin sinergetik obrazı və insan fəaliyyəti, sahibkarlıq fəaliyyəti və iqtisadi təfəkkür, terrorizm və miqrasiya, cəmiyyətdə marginallıq problemi və başqa əhəmiyyətli mövzular araşdırılır. Təqdim olunan yazılarda konkret nəzəri-praktiki təklif və tövsiyələr irəli sürülür.
Kitab alim-mütəxəssislər, rəhbər işçi və siyasətçilər, dissertant, aspirant və tələbələr üçün faydalı ola bilər.

*ISBN 5-86874-133-1* © Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu



## MÜNDƏRİCAT

1. Abbasov Ə.F.
**İdeya-nəzəri innovasiyalar ictimai inkişafın mühüm vasitəsi kimi** ... 6
2. Rüstəmova A.B.
**Bilinqvizm və diqlossiya** ... 15
3. İsmayılov D.Y
**Müasir şəraitdə Azərbaycanda çoxpartiyalılığı şərtləndirən amillər** ... 23
4. Mustafayev F.Q.
**Mədəniyyət və qloballaşma** ... 29
5. Axundov A.M.
**Xalq yaradıcılığında sosiallıq və sosial ədalət axtarışları** ... 35
6. Rüstəmova A.B.
**Erməni terrorizmi** ... 47
7. İsmayılov D.Y.
**Demokratikləşmə cəmiyyətin təkmilləşdirilməsinin mühüm amili kimi** ... 55
8. Allahverənov A.K.
**«Marginal insan» anlayışının təkamül dinamikasına qısa nəzər** ... 66
9. Əsgərov İ.S.
**Sahibkarlıq fəaliyyəti və iqtisadi təfəkkür** ... 75
10. Qurbanov F.M.
**Elmin sinergetik obrazı və insan fəaliyyəti** ... 81
11. Allahverənov A.K.
**İdarəetmə və sinergizm: ontoloji-qnoseoloji aspektləri** ... 91
12. Rəhimov M. Q.
**Şəxsiyyət azadlığı və KİV** ... 101
13. Hacıyev R.S.
**Cəmiyyətimizin müasir sosial-mənəvi durumuna**

**fəlsəfi baxış** .......... 110
14. Ağayeva T.H.
**Nitqin formalaşması sosial adaptasiyanın istiqaməti kimi** .......... 114
15. Исмайлов А.
**О социально-юридическом механизме обеспечения прав человека** .......... 117
16. Qarayev F.S.
**Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə törədilən cinayətlərin təşkilində və reallaşmasında kompüter-informasiya mexnologiyalarının rolu** .......... 123
17. Zeynalova M.
**Azərbaycan qadınları ictimai-siyasi həyatda niyə fəal deyillər?** .......... 136
18. Nəbiyev F.
**Hüquqi təfəkkürün əxlaqi determinantları** .......... 147
19. Məmmədova H.Ə.
**Sinergetikanın kateqoriyaları haqqında** .......... 152
20. Nuri Z.
**Qlobal mədəniyyət və konformizm** .......... 157
21. Аллахверанов К.К.
**Рационализация потребностей как важный фактор в обеспечении интересов общества** .......... 162
22. Şirinov Ə.A.
**Miqrasiya proseslərində iştirakçı ölkələrə bəzi institusional təsirlər** .......... 169
23.Sadıxlı S.Q.
**Şərəf və ləyaqətin müdafiəsi hüququ və Azərbaycan qanunlarında onun yeri** .......... 176
24. Исмайлов Ф.Д.
**Проблема обновления общества и вопросы воспитаиия личности** .......... 184
25. Ибрагимова С.А.



**К понятию национального и религиозного в совроменном Азербайджане** .......... 193
26. Зульфалиева Азиза
**Азербайджано-российские политические отношеиия: перспективы сотрудничества на современном этапе** .......... 198
27. Əsədova N.Ş.
**Qloballaşma və milli mədəniyyət** .......... 205
28. Əliyev Z.
**Azərbaycan diasporu (orta əsrlərdən XIX əsrə qədər)** .......... 210
29. Mirzəyev İ.
**Stress anlayışı və onun növləri haqqında** .......... 217
30. Nəbiyev Ç.
**Həyata ictimai-psixoloji baxış** .......... 223
31. Тагиева М.
**Языкавое выражение категорий диалектики** .......... 227
32.Гушкари. Б.М.
**Философия науки** .......... 231
33. Əliyev L.H.
**Azərbaycanın ictimai-siyasi fikir tarixində M.F.Axundovun rolu** .......... 235
34.İbrahimliH.
**Demokratiyaya- demokratik seçkilərə (Ukrayna təcrübəsi)** .......... 239

**Əbülhəsən Fərhad oğlu Abbasov,**
Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, sosial fəlsəfə şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru, Rusiya Pyotr Elm və İncəsənət Akademiyasının müxbir üzvü

## İdeya-nəzəri innovasiyalar ictimai inkişafın mühüm vasitəsi kimi

Cəmiyyətin və dövlətin innovasiyalara olan kəskin kütləvi tələbatı bu gün bir fakt olaraq qalmaqdadır. İctimai transformasiyanın hazırkı mərhələsində qarşıya çıxan məsələlərin həll olunma zərurətindən qaynaqlanan bu tələbat çoxşaxəli və çoxsəviyyəlidir. İnnovasion tələbat yeni iqtisadi üsul və formalardan tutmuş yeni sosial təşkilatlanma və idarəetmə məsələlərinə qədər problemləri əhatə edir. Biz, bir tərəfdən, qabaqcıl elmi-texniki və texnoloji nailiyyətləri mənimsəməli və mənimsəyərək də müvafiq iqtisadi, təsərrüfat sistemi daxilində bu nailiyyətlərdən səmərəli istifadə etməli, digər tərəfdən, fərdi və kollektiv yaradıcılıqda, daha yüksək birgəyaşayış və birgəfəaliyyət mədəniyyətinə yol açan ictimai-siyasi norma və prinsiplər əsasında təşkilatlanıb tənzimlənən əlverişli mühit yaratmalıyıq. Sözsüz ki, bu istiqamətlər üzrə son on il ərzində xeyli işlər görülüb və bu fakt danılmazdır. Lakin görüləsi işlər hələ çoxdur və burada bir mühüm məsələyə xüsusi diqqət yetirilməlidir. Söhbət hansı məsələdən gedir?

Tarixi təcrübə, o cümlədən başqa ölkələrin təcrübəsi göstərir ki, həqiqi innovasion tələbat o vaxt və o yerdə etibarlı surətdə ödənilir ki, yeniləşmə istəyində olan cəmiyyətdə mənəvi (ruhi) çevriliş baş verir, iqtisadiyyat, idarəetmə, siyasi və bütövlükdə ictimai həyat elmi biliklərə və mütərəqqi təcrübəyə



arxalanmaqla qurulur, fəaliyyət göstərir. Həm də söhbət yalnız artıq əldə edilmiş, başqa xalqlar tərəfindən qazanılıb ortaya qoyulmuş elmi biliklərdən getmir. "Özgəsinin atına minən tez düşər" deyirlər. Qabaqcıl ölkələrin elmi, texniki-texnoloji, iqtisadi və mədəni nailiyyətlərindən istifadə mümkündür və vacibdir, ancaq, heç olmasa, halallıq naminə özümüz də zəhmət çəkib nəsə etməliyik. Haramçılıqla uzağa getmək olmaz! Allah da bu haramçılığa görə tənbəl, ələbaxan, məsuliyyətsiz xalqları, yalnız "tükənməz" sərvətləri hesabına firavan yaşamaq istəyən ölkələri daim cəzalandırıb, əməlli başlı silkələyib ki, ayılsınlar, dünyaya açıq gözlə baxıb işə girişsinlər, "neftim, qazım var!" deyib fironluq iddiasında olmasınlar.

Yalnız elmi sərvətlərə arxalanmaqla bəşəriyyət öz həqiqi təkamülünü - ibtidai aqrar həyat tərzindən industrial və postindustrial- informasion cəmiyyətlər səviyyəsinə sıçrayış edə bilmiş, kütləvi cəhalətdən kütləvi maariflənməyə doğru getmiş, yüksək şüur və mədəniyyət səviyyəsinə çatmışdır. Məhz bu əsasda "diri tərpənişli" və nizamsevər xalqlar tayfa-qəbilə, etnik pərakəndəlikdən yaxa qurtararaq millətləşmə prosesinə daxil olmuş, millətləşərək və deməli, dövlətləşərək qlobal dünyanın formalaşmasında fəal və nüfuzlu qüvvəyə çevrilmişlər. Aydındır ki, bu xalqların da milli təhlükəsizliyi və müdafiəsi daha etibarlı və möhkəmdir. Və hazırda onlar öz milli təhlükəsizlik və müdafiə məsələlərini heç də yalnız bu günün təhdidləri, həyatlarına bilavasitə təhlükə yaradan motivlərin təsiri altında həll etmirlər. "Döyülmə qorxusu" klassik millətlər üçün artıq keçmiş mərhələdir; onlar o yaşa çatıblar ki, şüurlu surətdə qazandıqları tarixi təcrübəyə, ağıla, ictimai ideallar uğrunda apardıqları zəngin mübarizə dərslərinə, özünü doğrultmuş sosial-siyasi, iqtisadi və mənəvi prinsiplərə və, ən başlıcası, elmi biliklərə söykənərək öz

yollarını davam etdirirlər. Çünki vaxtında mayası özlərindən olan mənəvi (ruhi) çevrilişlər silsiləsini həyata keçirə bilmişlər.

Bu çevrilişlər silsiləsində həm təbiətşünaslıqda və riyazi elmlərdə, həm də sosiohumanitar, insan və cəmiyyət haqqında elmlərdə ciddi irəliləyişlər baş verib, təbiət qanunlarının kəşfi və bu əsasda yeni texniki-texnoloji vasitələrin, yeni məhsuldar qüvvələrin formalaşması ilə yanaşı, ictimai həyatın optimal təşkilinə və tənzimlənməsinə dair müxtəlif konsepsiyalar hazırlanıb, indiki və gələcək həyatın etibarlı təminatı üçün, ardıcıl olaraq, ideya və ideallar irəli sürülüb.

İstər elmi-texniki və texnoloji irəliləyiş, istərsə də sosial rekonstruksiya baxımından klassik millətlər statusuna yüksəlmiş xalqlar üçün bir cəhət daim səciyyəvi olub - **ideala doğru cəhd**. Ortaya ideya qoymaq, konkret hədəfə hesablanmış konsepsiya hazırlamaq, ideala doğru cəhd və kütləvi fəallıq, bu ideal uğrunda dözümlü və əzəmətli mübarizə kimi cəhətlər onların milli tarixində önəmli və şərəfli yer tutur. Bu məqamları mən məqsədli surətdə xüsusi vurğulayır və qabardıram. Belə ki, bizim mətbuatda, hətta elmi yazılarda ideya və yaxud hansısa ideal uğrunda mübarizəni lüzumsuz və bəzən də ziyanlı şey kimi qələmə verirlər. İdeya naminə fəaliyyəti yalnız mənfi nəticələrlə yekunlaşan inqilabçılıq, yaxud da xəyalpərəstliyə, utopiyaya uymaq mənasında səciyyələndirirlər. Qəribədir ki, analoji yanlış fikirlər bəzi siyasətçilər tərəfindən daha çox və tez-tez səslənir. Elə bu yaxınlarda onlardan biri müsahibəsində deyir: "Biz artıq tarixi təcrübədən çıxış edərək inqilabın əleyhinə olmalıyıq. Çünki inqilabçılar, Hote demişkən, xeyirxah niyyətlər güdsələr də, xalqa bədbəxtçilik gətirirlər. Bir də ki, inqilabçılar ideya uğrunda vuruşurlar, evolyusiya, yəni təkamül tərəfdarları isə insan naminə çalışırlar. Bizdə ideya uğrunda mübarizə aparanlar çox azdır. Biz həyat ideyası naminə deyil, həyat naminə fəaliyyət göstərməliyik." Bir başqası isə, görün, nə ilə



fəxr edir (xəcalət çəkmək əvəzinə!): "Mən o vaxtlar Leninin, Marksın heykəllərinin uçurulmasında təşəbbüskar olmuşam." Belə yerdə, həqiqətən, insanın hiddətdən çatlaması mümkündür. Maraqlıdır, keçmişdə komsomol-partiya fəallarından olmuş, marksizmi-leninizmi təbliğ edə-edə dövlət məmuru işləmiş, bu gün isə özünü demokratiya mücadili sayan həmin o şəxs, doğrudanmı, Səddam Hüseynlə Karl Marksın arasında fərqi görmür, ideya daşıyıcısına qarşı törətdiyi cinayəti anlamır?

Nəsə, qayıdaq inqilab və ideya uğrunda mübarizə əleyhinə, həyat naminə çalışmaq istəyində olan siyasətçinin fikirlərinə. "Tarixi təcrübədən çıxış edərək inqilabın əleyhinə olmalıyıq" deyir o. Birincisi, tarixi təcrübə indiyə qədər inqilabın lehinə və ya əleyhinə olmağı deyil, bəşəri inkişafda inqilabların mümkün və hətta zəruri olduğunu əsaslandırır. Və bu inqilablar müxtəlif ola bilər: "silahlı"dan "məxməri" və "narıncı"ya qədər. İkincisi, ideya uğrunda vuruşanlar,yəni inqilabçılar həmişə xalqa bədbəxtlik gətiriblərsə, İsa peyğəmbərin, Məhəmməd peyğəmbərin inqilabi, ilk növbədə mənəvi çevrilişə səbəb olmuş fəaliyyətlərini necə başa düşmək olar? Axı, onların özü də inqilab liderləri olublar! Bəs holland, ingilis, fransız burjua inqilablarını necə qiymətləndirək? Yalnız bədbəxtlik gətirən hadisələr kimi?! Yaxud da götürək Böyük Oktyabr inqilabını və onun təsiri altında yalnız Rusiyada deyil, bütün dünyada baş vermiş dəyişiklikləri. Yəqin ki, bu inqilabın nəticəsi olan Sovetlər İttifaqını hörmətli siyasətçimiz, bəziləri kimi, yalnız qara boyalarla işarələmir, SSRİ və dünya xalqlarına mütləq mənada bədbəxtlik gətirmiş tarixi hadisə kimi qiymətləndirmir. Və ümumiyyətlə, inqilabları xətti-şablon təfəkkürə əlverişli olan "yaxşı - pis" dixotomiyası çərçivəsində dəyərləndirmək səhv yanaşmadır.

Üçüncüsü, hörmətli siyasətçimiz həyat naminə fəaliyyəti həyat ideyası naminə fəaliyyətdən birmənalı surətdə ayırır,

birincini məqbul və faydalı, ikincini isə lüzumsuz və ziyanlı hesab edir. Çox qəribə və paradoksal mövqe deyilmi? Axı, insan fəaliyyəti öz məzmun və təyinatına görə həmişə başqa canlıların fəaliyyətindən köklü surətdə fərqlənir. Başqa canlılara yalnız heyvani tələbat və instinktlərdən doğan kortəbii, şüursuz, ideyasız-filansız fəaliyyət məxsusdursa, Homo Sapiensə şüurlu, konkret ideyaya, nəzəri konseptə, necə deyərlər, əvvəlcədən təfəkkürdə və təfəkkür vasitəsilə yoğrulub hazırlanmış plan-prospektə söykənən fəaliyyət xasdır. Xüsusən də insan və insanlıq naminə fəaliyyətdən söhbət gedirsə! Maraqlıdır, partiya sədri olan hörmətli siyasətçimiz həqiqətənmi insan naminə fəaliyyəti ideyasız hesab edir? Əgər belədirsə, onda rəhbərlik etdiyi partiyanın məramnaməsində vurğulanan ideolioji prinsiplər, baxışlar nəyə lazımdır?!

Düzdür, siyasət tarixində ideyasız, prinsipsiz əməllər az olmayıb, lakin dünya elmində asan uğur, mənfəət əldə etmək naminə törədilən belə riskli əməllərə **avantüra** deyirlər. Avantürizmi isə elə bizim hörmətli siyasətçimizin özü, haqlı olaraq, siyasətdən uzaqlaşdırmağa çalışır: "Həmişə demişəm və yenə də təkrar edirəm ki, mən siyasətdə həm avantürizmi, həm də utopizmi inkar edirəm." Söz yox ki, "inkar edirəm" əvəzinə "rədd edirəm" deyilsə, daha müvafiq olardı.

O ki qaldı utopizmə, burada da mütləq inkarçılıqı, maksimalizmi düzgün hesab etmək olmaz, xüsusən də biz müsəlmanlar üçün! Onsuz da son yüzilliklər boyu müsəlmanlar o qədər maddiyyata alüdə olublar ki, heç utopiya deyilən nəsnədən ehtiyatlanmağa ehtiyac qalmayıb. Təki biz müəyyən qədər utopist olaydıq!

Utopiyadan ehtiyatlanma bu gün o səviyyədədir ki, hətta heç bir əsas olmadığı halda "utopiyaya varmaq olmaz!" şüarı ilə rastlaşırıq. Bu yaxınlarda mənim bir aspirantımın müdafiəsində rəsmi opponentin dissertasiya barəsində dediyi iradlardan birincisi belə idi: "Dissertasiyada vətəndaş cəmiyyətinin əsas parametrləri göstərilir. Bu parametrləri ciddi qəbul etsən, qurulması mümkün olmayan bir cəmiyyət haqqında düşünürsən. Ona görə də utopiyaya qapılmaq olmaz. Vətəndaş cəmiyyətini bu parametrlərlə ideallaşdırmaq olmaz." Söhbət burada o parametrlərdən gedir ki, onlar artıq bir çox inkişaf etmiş ölkələrdə öz təsdiqini və təminatını tapmış, necə deyərlər, aprobasiyadan keçərək ictimai həyatın reallığına çevrilmişlər. Bizim üçün isə, hələ də, onlar reallaşması mümkün olmayan utopiya elementləri kimi qalmalıdır! - opponentin fikrinin məntiqi davamı olaraq!

Sosial idrakın, siyasi təfəkkürün, siyasi şüurun məhsuldarlığını, yaradıcılıq gücünü və perspektivliyini bildirən cəhətlərdən biri budur: cəmiyyətin mövcud olduğu və olmalı olduğu vəziyyətlər arasındaki ziddiyyətləri həll etmək qabiliyyəti. Ziddiyyətlərin nəzəri həlli sosial idrak və siyasi təfəkkürlə bağlıdırsa, onların praktiki həlli siyasi iradə və bu iradənin reallaşmasına yönəlmiş adekvat üsul və formalarla, konkret fəaliyyət texnologiyaları ilə bağlıdır. Əgər sosial idrakın, siyasi təfəkkürün şərti bağlanğıcını hansısa problem situasiya təşkil edirsə, şərti yekununu (sonunu) **ideya** təşkil edir. Sosial-siyasi şüur səviyyəsində bu ideya tədricən konseptuallaşır, nəzəri konstruksiyanın müəyyənedici və sistemləşdirici elementi kimi çıxış edir. Konkret-nəzəri cəhətdən dolğunlaşan ideya gələcəyin təsviri (obrazı) olan **idealın** təməlinə çevrilir.

Gələcək vəziyyətin təsviri olan **ideal**, özünün kamillik dərəcəsindən, rasional və yaxud da irrasional tərəflərin üstünlüyündən asılı olmayaraq, zamanda istiqamətlənmə, hədəf "nöqtəsi" rolunu daşıyır. Məhz ideal obraz olduğu üçün də utopiya ilə çarpazlaşan, üst-üstə düşən cəhətləri vardır.

Ümumiyyətlə, "ideal" anlayışı utopik şüurun mühüm **konstruktiv** elementidir. Həm ideala, həm də utopiyaya transsendentlik, yəni **reallıqdan kənaraçıxma** xasdır. Lakin

utopiyada transsendentlik daha radikaldır: bu, yalnız gerçəkliyin sərhədlərindən kənaraçıxma deyil, həm də mümkün olanın sədlərini aşmaqdır. Utopiyada gələcək bu qünün davamı kimi deyil, indinin mütləq alternativi kimi çıxış edir. Bu mənada utopizmin inkar edilməsi məqbul sayıla bilər, bu şərtlə ki, bütövlükdə ideya, ideal, ideyayaradıcı fəaliyyət tarixin arxivinə göndırilməsin.

Onu da vurğulamaq istərdim ki, həqiqi siyasi liderin **başlıca qabiliyyəti** məhz gələcək vəziyyətin təsvirini - idealını yaratmaqdan, bunu silahdaşlarına, kütlələrə çatdırmaqdan və idealın həyata keçməsi istiqamətində təşkilati peşəkarlıq və idarəetmə səriştəsi göstərməkdən ibarətdir. Bu amillər yoxdursa, liderliyə iddialı şəxs heç vaxt insanlar üçün ruhlandırıcı mənbə, sövqedici sima ola bilməz və önəmli bir məqsədə çatmaqda addımbaşı məğlubiyyətlərlə üzləşər. **Ideal** ortaya qoymaq və ona nail olmaq yollarını, vasitələrini, texnologiyasını bilmək - perspektiv və operativ təfəkkürə, gerçəkliyin inkişaf dinamikasına, zaman-məkan tələblərinə müvafiq surətdə düşünmək və hərəkət etmək qabiliyyətinə malik olmaq deməkdir. Lider strateji məqamları dərindən anlamaq, adekvat taktiki addımları müəyyənləşdirmək, əməli səriştə göstərmək xüsusiyyətləri ilə fərqlənir. Məntiqi olaraq, o, həm aparıcı ideoloq, həm müdrik strateq, həm də mahir taktık kimi fəaliyyət göstərməyi bacarmalıdır. Xüsusən də ciddi ictimai sarsıntılar və yeniləşmələr dövründə! Belə anlarda siyasətin və siyasətçi fəaliyyətinin mayasını daha çox **ideya**, məğzini isə hədəf qismində götürülmüş **ideala** xidmət təşkil edir. Elə bu kontekstdən də, ilk növbədə, konkret siyasətə və siyasətçiyə qiymət verilməli, onların tarixi rolu müəyyənləşdirilməlidir. Həmçinin, ideal uğrunda aparılan işin konkret nəticələri obyektiv dəyərləndirilməlidir. "Mən, konkret olaraq, hansı müsbət nəticəni əldə etmişəm?" sualı hamıdan çox elə siyasətçinin özünü düşündürməlidir...



Məsuliyyət və vicdan hissi qalıbsa! "Minus"ları Rusiya, ABŞ, İran və Avropada, yaxud da xalqın səviyyəsində axtarmalı deyil! Xalqın bir yeganə günahı varsa, o da ambisiyalarının əsası və sərhəddi olmayan qısır "siyasətçi"ləri ortadan silib-süpürməməsindədir.

Bir sözlə, cəmiyyətlərin dolğun həyatı və təminatlı gələcəyi tarixin inkişaf dinamikasına cavab verən yeni ideya və ideallarin mövcudluğu şəraitində mümkündür, yəni innovasion potensialın artması və reallaşması ilə bağlıdır. Burada, şübhəsiz, insan faktoru, şəxsi təşəbbüs əhəmiyyətli rola malikdir. Belə ki, hansısa ixtiranı, ideyanı, bir qayda olaraq, insan yaradır; o, innovasion prosesə elə subyektiv komponent gətirir ki, bu prosesin özünün gələcəkdə istiqamətlənməsinə təsir göstərir, yanaşmaları və düşüncə tərzini dəyişir, hətta qeyri-ənənəvi dəyərlərin və leksikanın da formalaşmasına səbəb olur.

Lakin fərdi insan yaradıcılığı, ayrıca bir şəxsin və ya qrupun fədakarlığı, zəruri faktorlar olsa da, bütövlükdə problemin əsaslı həlli demək deyil. Problemə xüsusi dövlət qayğısı gərəklidir. İqtisadiyyatda, elmi-texniki, texnoloji və başqa sahələrdə olduğu kimi, sosial nəzəriyyələrin, ictimai xarakterli ideya və ideallarin hazırlanmasında da dövlətin üzərinə böyük məsuliyyət düşür. Burada da innovasion proses dövlət tərəfindən idarə olunmalı və tənzimlənməlidir, cəmiyyətin sosial sifarişlərinə hərtərəfli və həssas münasibət göstərilməlidir. Dövlət, yeri gələrsə, innovasion prosesə mərkəzləşmiş təsirdən çəkinməməli, sosial ideyaların hazırlanıb tətbiq edilməsi məsələsində başlıca koordinator qismində çalışmalıdır. O, bir nov ideyalar bazarının həm təşkilatçısı, həm də idarəedicisi (meneceri) olmalıdır.

Effektli milli innovasion strategiya bu gün dövlət tərəfindən həyata keçirilən sitstemli fəaliyyət olmadan mümkün deyil. Bu strateqiyanın istiqamətləri, reallaşma mexa-

nizmləri, qanunverici əsasları, vəzifələrin prioritetliyi və icra qaydaları məhz dövlət tərəfindən müəyyənləşdirilməlidir. Başlıca qayğı isə yaradıcı insan amilinin önə çəkilməsində və zəruri yeniliklərə həssas innovasion mühitin yaradılmasından ibarət olmalıdır. İlk növbədə böyük innovasion potensiala malik yaradıcı və təşəbbüskar insanlara, onların əldə etdikləri nailiyyətlərə mövcud olduğundan qat-qat artıq diqqət və qayğı göstərilməlidir. Elə etməliyik ki, yaradıcı şəxslər xarici təşkilat və fondların öz məqsədləri naminə ayırdıqları qrantların girovuna çevrilməsinlər, öz dövlətinin və xalqının xidmətində dayansınlar. Bir sözlə, innovasiyaların stimullaşdırılmasına üstünlük verilməli, zəruri olarsa, bu istiqamətdə yeni üsullar tətbiq edilməli, dövləti zəmanətlər verilməlidir. Ən vacibi, lazımi maliyyə və maddi-texniki yardımlar ayrılmalıdır. O şərtlə ki, onlar ünvanlı olsun və bilavasitə " yük daşıyan" insanlara çatsın. Bu mənada bazar iqtisadiyyatının mütərəqqi prinsipləri rəhbər tutulmalı, müftəxor, ziyanverici "bürokratik eşalon"un mənimsəmələrinə yol verilməməlidir. Yalnız bu halda dövlət sosiomədəni və ideoloji innovasiyaların beşiyi önündə dayana bilər, sosial inkişaf konsepsiyalarının yaradılmasına və tətbiqinə öz böyük töhvəsini vermiş olar.

Düşünürəm ki, innovasion prosesin aparıcı vektoru cəmiyyətimizin indiki inkişaf problemlərinin həllinə tuşlanmalıdır. Belə ki, davam edən sistemli transformasiyanın mahiyyəti, mərhələləri, spesifik cəhətləri daha da dərindən və konkret təhlil olunmalı, Azərbaycanda ictimai yeniləşmənin başlıca qayəsini təşkil edən demokratikləşmənin xüsusiyyətləri, ona təsir göstərən obyektiv və subyektiv amillər, cəmiyyətdaxili və xarici determinantlar öyrənilməlidir. Bu kontekstdə "**pozitiv konsensus**" və "**demokratik konsolidasiya**"məsələləri olduqca böyük əhəmiyyət kəsb edir. Ölkəmizin gələcək taleyi bu məsələlərin həllindən bilavasitə asılıdır.



Sosial-fəlsəfi və politoloji araşdırmalar sistemində prioritet yer tutmalı olan "pozitiv konsensus" və "demokratik konsolidasiya" problemi, sadəcə olaraq, bir nəzəri məsələ deyil. O, ictimai transformasiyanın məqsəd və nəticələrini səciyyələndirən, ifadə edən praktiki məsələdir. Cəmiyyətdə sosial-iqtisadi maraqların uzlaşması, siyasi mühitin tarazlaşdırılması, mənəvi psixoloji iqlimin sağlamlaşdırılması pozitiv konsensus vasitəsilə demokratik konsolidasiyanın reallaşmasından keçir. Yalnız demokratik konsolidasiya şəraitində ümumxalq maraqlarının və milli mənafenin təmin olunması mümkündür.

**Afaq Baloğlan qızı Rüstəmova,**
**AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnsitutu, sosial fəlsəfə şöbəsinin aparıcı elmi işçisi, filologiya elmləri namizədi .**

## Bilinqvizm və diqlossiya.
## (sosial-linqvistik təhlil)

Hər bir ictimai hadisə kimi bilinqvizm (ikidillilik) obyektiv və subyektiv faktorların təsiri nəticəsində yaranan və inkişaf edən bir prosesdir. Müxtəlif dillərdə danışan insanların bir-biri ilə ünsiyyətindən doğan ehtiyac isə bu şəraitə zəmin yaradır. Bu termin cəmiyyətin müəyyən bir hissəsinə, bütövlükdə ölkəyə və ya bir fərdə aid edilə bilər. Adətən "bilinqvizm" termini ilə yanaşı təkdillilik və çoxdillilik terminləri də işlədilir. İstər bilinqvizm, istərsə də təkdillilik, çoxdillilik məfhumları çox mürəkkəb və coxcəhətli mahiyyət daşıdığından bir çox elm sahələrinin diqqət mərkəzindədir. Bu səbəbdən də bu sahələrə müxtəlif yanaşmalar mövcuddur. Bir

sıra alimlər bilinqvizmi linqvistikanın, sosiolinqvistikanın, psixologiyanın, pedaqogikanın tədqiqat əhatəsinə aid edirlər.

Bilinqvizmin sosial - linqvistik istiqamətdə təhlili onun sosial fenomen kimi tədqiqini nəzərdə tutur. Bilinqvizmə dəqiq bir tərif vermək çətindir, çünki bu proses çox müxtəlif təzahür formalarına malikdir. Bu mənada A.D.Şveytserin tərifi daha məqsədəuyğun təsir bağışlayır. Onun fikrincə: "Bilinqvizm eyni dil kollektivində iki dilin sosial situasiyadan asılı olaraq müvafiq kommunikativ sferalarda birgə fəaliyyəti deməkdir." [А.Д.Швейцер. Современная социолингвистика. Теория, проблемы, методы. М., Наука, 1976, с.115.]

Təməlində sosial mahiyyət daşıyan bu problemə aid çoxlu sayda əsərlər yazılmışdır. Bunların sırasında K.X.Xanazarovu [К.Х Ханазаров. Сближение наций и национальные языки в СССР. Ташкент, 1963.], Y.D.Deşeriyevi [Ю.Д.Дешериев. Развитие младописьменных языков народов СССР. М., 1958], İ.K.Belodedi [И.К.Белодед. Развитие языков социалистических наций. Киев. 1969] və s. göstərmək olar. Bu sahə ilə əlaqədar M.S.Cunusovun və M.N.Quboqlonun da problemin sosial mahiyyətinin aydınlaşdırılması ilə əlaqədər tədqiqat əsərləri mövcuddur. Lakin bu səpkidə yazılan bütün əsərlərdə bilinqvizmin nəzəri cəhətlərinə dair qiymətli fikirlər olsa da, onun funksional mahiyyəti ilə bağlı məsələlər reallığı tam şəkildə ifadə etmir. Xüsusilə keçmiş SSRİ məkanında yaşayan xalqların həyatında rus dilinin ünsiyyət vasitəsi kimi ictimai mahiyyətinin hədsiz dərəcədə şişirdilməsi sadə məsələ deyil. SSRİ məkanında yaşayan bütün xalqların dil seçimində azad olduqları iddia edilsə də, əslində mövcud siyasi şərait yalnız rus dilinin sərbəst fəaliyyətinə imkan verirdi və bu da, şübhəsiz ki, bu ərazidə yaşayan xalqların dil seçiminə öz mənfi təsirini göstərməyə bilməzdi. Məhz bu səbəbdən də keçmiş SSRİ məkanında yaşayan xalqlar müstəqillik əldə etdikdən sonra da bu səhv ideoloji



1581

istiqamətin təzahürlərini tamamilə aradan götürə bilmirlər. Bu ərazidə yaşayan xalqlar metropoliyanın təsirinin müxtəlif təzahürlərini bu gün də yaşayır. Bu təzahürlər müxtəlif keyfiyyətlər şəklində cəmiyyətdə mövcud dil şəraitinə təsir edir, onun sağlam inkişafına mane olur, ünsiyyət proseslərini ağırlaşdırır.

Şübhəsiz ki, sovet hakimiyyəti dövründə Azərbaycanda istər sosial, istərsə də iqtisadi, həmçinin də elmin müxtəlif sahələrinin inkişafını danmaq olmaz. Xüsusilə bu dövrdə Azərbaycan dilinin nəzəri problemləri, qrammatik quruluşunun tədqiqi və təhlili sahələrində mükəmməl işlər görülmüş və dəyərli nailiyyətlər əldə edilmişdir.

Rus dilinin köməyi ilə istər sovetlər ərazisində yaşayan xalqların, istərsə də digər ölkələrin ədəbiyyat nümunələri Azərbaycan oxucusuna təqdim edilmişdir. Azərbaycan ədəbi nümunələrinin rus dilinə tərcüməsi də bu sahədə uğurlu işlərdən hesab oluna bələr. Azərbaycan dili çox zəngin ədəbi ənənələrə malik, tarixin bütün dövrlərində geniş funksional imkanları olan mükəmməl bir dildir. Bə bu dilin imkanlarından istifadə edilərək təhsil, elm, mədəniyyət, kütləvi informasiya vasitələrinin inkişafında o dövrdə böyük nailiyyətlər əldə edilmişdir. Təbii ki, bu da bütövlükdə Azərbaycan mədəniyyətinin inkişafına təkan vermişdir. Lakin o dövrdə Sovet İttifaqında xalqların qapalı şəraitdə yaşaması onları dünyada baş verən hadisələrdən təcrid saxlayırdı, yəni hər şey bir əldən idarə edilirdi. Bu isə xalqların daxilndə baş verən mədəni proseslərə, həmçinin də xarici əlaqələrlə bağlı mübadilələrin harmonik inkişafına böyük zərbə vururdu. Yəni üzdə olan, təsəvvür yaradan proseslərin daha dərin qatlarında istər oktyabr çevrilişinə qədərki dövrdə, itərsə də Sovetlər dövründə Rusiyanın apardığı assimilyasiya siyasəti milli şüurun boğulmasına, xalqların milli adət-ənənələrinin sıradan çıxarılmasına , bütövlükdə belə bir böyük ərazidə "ruslaşdırma" siyasətinin yeridilməsinə yönəldilmişdi.

Müstəqillik əldə etdikdən sonra ölkəmizdə istər Azərbaycan



AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

dilinin, istərsə də bu ərazidə müxtəlif səviyyələrdə funksiyaya malik digər dillərin normal inkişafına münbit şərait yaranmışdır. Azərbaycan xalqının bir millət kimi formalaşmasında əlahiddə rolu olan, əsrlərdən bəri bu ərazidə yaşayan bütün etnosların (tarixin müəyyən məqamlarında daha geniş ərazilərdə) əsas ünsiyyət vasitəsi və doğma dili sayılan Azərbaycan dili istər dövlət dili kimi, istərsə də ünsiyyət vasitəsi kimi həqiqi sərbəst fəaliyyət imkanını müstəqillik dövründə əldə edə bilmişdir.

Azərbaycanda bu gün mövcud ikidillilik (bilinqvizm) şəraitində Azərbaycan dili burada yaşayan xalqlara qarşı məcburi təsir mahiyyəti daşımır. Əksinə, Azərbaycan dili xalqların bütün sahələrdə (siyasi, iqtisadi, mədəni) harmonik inkişafına təkan verir, ölkədə baş verən quruculuq işlərində bütün xalqların yaxından iştirak etmələrinə şərait yaradır. Deyilənlər bir daha onu təsdiq edir ki, dilin kommunikativ funksiyası ilə yanaşı onun ictimai funksiyası da mühüm məsələdir. Müxtəlif dillərin cəmiyyət həyatında tutduğu mövqeyini, müxtəlif dil daşıyıcılarının fəaliyyət dairəsini müqayisə etdikdə dillərin sosial "yükü"nün eyni olmadığı məlum olur. Bütün etnosların, etnik qrupların öz dili var və onlar, ən azı, məişət səviyyəsində ünsiyyət vasitəsi kimi istifadə olunur. Lakin bu dillərin böyük əksəriyyəti bu və ya digər sahələrdə dilin bütövlükdə fəaliyyətini təmin edən dil üslublarını özündə ehtiva edə bilmir və bu, mümkün də deyil. Məhəlli miqyasdan, adi danışıq dilindən çoxaspektli peşəkar dil üslublarını əhatə edən həqiqi böyük dil miqyasına qalxmaq çox az dillərə müyəssər olur. Bunun üçün təkcə əhalinin sayı və hətta mədəni inkişaf səviyyəsi kifayət deyil. Bunun üçün həm də dövlətçilik ənənəsi lazımdır. [S.Xəlilov. Heydər Əliyev və azərbaycançılıq məfkürəsi. B., "Azərbaycan Universiteti" nəşriyyatı, 2002, s.79.]

1999-cu il əhalinin siyahıyaalınmasına dair cədvəldə əhalinin milliyyəti və sərbəst danışdığı dillər haqqında məlumatlara nəzər yetirək:[1]



| Millətlər | əhali cəmi | Danışdığı dillər | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Öz millətinin dilində | Azərbaycan | rus | türk | gürcü | ingilis | alman | fransız | ərəb | fars | ləzgi | talış | Digər dillər |
| A | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| **ölkə üzrə əhali– cəmi** | **7953438** | **7893437** | **336955** | **741094** | **9262** | **9866** | **27248** | **2759** | **1585** | **1526** | **2578** | **5364** | **103941** | **26263** |
| Azərbaycanlı | 7205464 | 7193038 | - | 590501 | 8489 | 9359 | 23759 | 2297 | 1349 | 1351 | 2349 | 4978 | 103789 | 19505 |
| Ukraynalı | 28984 | 9382 | 3094 | 22572 | 92 | 36 | 431 | 47 | 14 | 16 | 21 | 16 | 44 | 69 |
| Rus | 141687 | 141218 | 23508 | - | 214 | 122 | 1720 | 232 | 99 | 29 | 61 | 153 | 64 | 363 |
| Türk | 43454 | 41437 | 17924 | 6264 | - | 103 | 107 | 19 | 2 | 22 | 16 | 25 | 2 | 2056 |
| Tatar | 30011 | 26249 | 22483 | 25116 | 29 | 2 | 108 | 10 | 9 | 4 | 3 | 15 | 13 | 44 |
| A | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| Talış | 76841 | 74937 | 61367 | 4129 | 25 | 0 | 59 | 2 | 10 | 12 | 34 | 5 | - | 31 |
| Ləzgi | 178021 | 172692 | 118121 | 57829 | 189 | 20 | 502 | 46 | 69 | 27 | 23 | - | 8 | 287 |
| Yəhudi | 8916 | 7861 | 5204 | 5924 | 3 | 10 | 127 | 25 | 8 | 1 | 10 | 21 | 3 | 98 |
| Kürd | 13075 | 7453 | 11448 | 552 | 19 | 1 | 9 | 4 | 0 | 2 | 3 | 7 | 1 | 51 |
| Erməni | 120745 | 120639 | 433 | 362 | 1 | 3 | 2 | 1 | 0 | 0 | 0 | 4 | 2 | 5 |
| Avar | 50871 | 50251 | 36320 | 12153 | 38 | 136 | 87 | 15 | 0 | 31 | 6 | 15 | 1 | 89 |
| Gürcü | 14877 | 14626 | 9373 | 3929 | 71 | 0 | 50 | 20 | 2 | 0 | 1 | 2 | 2 | 36 |
| Udin | 4152 | 4118 | 2051 | 2837 | 0 | 2 | 4 | 0 | 2 | 0 | 0 | 2 | 0 | 3 |
| Saxur | 15877 | 15776 | 131160 | 2272 | 13 | 20 | 27 | 1 | 1 | 3 | 4 | 23 | 0 | 81 |
| Tat | 10922 | 9789 | 7401 | 2365 | 18 | 0 | 30 | 9 | 4 | 2 | 17 | 19 | 0 | 60 |
| digər millətlər | 9541 | 3971 | 5068 | 4289 | 61 | 52 | 226 | 31 | 16 | 26 | 30 | 79 | 12 | 3485 |

Siyahıyaalınma zamanı sorğu olunan hər bir şəxs milliyətini özü müəyyən etmişdir. Uşaqların milliyəti valideynlərin dediklərinə əsasən yazılmışdır.

[1]Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən tərtib edilmişdir.

Cədvəldən məlum olur ki, Azərbaycanda yaşayan əhalinin 94,6 % -i Azərbaycan dilində, 9,3 % -i rus dilində, 0.3 % -i ingilis dilində sərbəst danışa bilir.

Bilinqvizm haqqında danışan zaman diqlossiya hadisəsi barədə də fikir söyləməyə ehtiyac yaranır. Diqlossiya anlayışını ilk dəfə elmi dövriyyəyə 1959-cu ildə Amerika tədqiqatçısı Ç.Ferqüson daxil etmişdir. Diqlossiya ( yun.di –iki, glotta – dil) ikidilliliyin variantı və ya növü kimi təqdim olunur. Diqlossiya əsasən eyni dilin iki və ya daha çox formasının müxtəlif dil şəraitlərində istifadəsi deməkdir. Mahiyyəti etlbarı ilə bilinqvizmdə eyni cəmiyyətdə və ya kollektivdə iki dilin fəaliyəti nəzərdə tutulursa, diqloissiyada bir dilin müxtəlif formalarının funksiyası nəzərdə tutulur. Bu mənada bir çox alimlər bunu dilin funksiyasında bir-birinə qarşı proseslər kimi qəbul edirlər.

Azərbaycan xalqının mədəniyyətinin tarixində ideyalar mübarizəsinin mürəkkəb və gərgin dövrləri olub . XIX əsrin axırları, XX əsrin əvvələri xalqın dili, bu dilin azad inkişafı, saflığı uğrunda mübarizələrlə əlamətdar olmuşdur. O dövrdə Azərbaycanda dil sahəsində baş verən hadisələr cox mürəkkəb xarakter daşıyırdı. Belə ki, bu sahədə bilinqvizmlə (rus-Azərbaycan) yanaşı, diqlossiya prosesləri gərgin bir situasiya yaratmışdı və bu ətrafda qızğın mübahisələrə səbəb olmuşdu. Azərbaycan ziyalılarını o dövrdə narahat edən əsas problem yazı dili məsələsi idi. Ziyalıların bir qismi osmanlı türkçəsi əsasında Azərbaycan dilinin təkmilləşməsini irəli sürdükləri halda, digər bir qismi isə xalq dilinə yaxın yazılı dilin inkişafına tərəfdar idilər. Mükəmməl ədəbu dil yaratmaq probleminin vacibliyini hamı dərk edirdi və mövcud dil şəraiti (diqlossiya) ziyalıları seçim qarşısında qoymuşdu.

Ya osmanlı türkcəsində dil prosesləri inkişaf etdirilməli, ya da xalq dilinə yaxın ədəbi və yazılı dilin inkişafı təmin edilməli idi.

Əli bəy Hüseynzadə "Tərəqqi" qəzetində yazdığı "Yazımız, dilimiz, ikinci elimiz" başlıqlı məqaləsində osmanlı ədəbi dilinin qəbul edilməsini istəmiş və bu fikri müdafiə etmişdir. Başda C.Məmmədquluzadə və M.Ə.Sabir olmaqla, Abbas Səhhət, F.Köçərli, Ə.Haqverdiyev və b. isə öz azəri xalq ləhcəsini ədəbi və yazılı dilin əsası kimi götürülməsini tələb edirdilər. [A.Həşimova. XX əsrin birinci yarısında Azərbaycan mühacirəti. B., Bilik, 1992 s.49.]

Sovetlər dövründə "burjua ideoloqu" damğası vurulmuş, lakin həyatı boyu Azərbaycanın tərəqqisi uğrunda çalışan Əli bəy Hüseynzadənin dillə bağlı özünəməxsus fikirləri var idi. O, "osmanlı dili"ni şiddətlə müdafiə edənlərdən olmuşdur. Buna müqabil Ziya Göyalpın irəli sürdüyü sadə türkcə davası o dövrdə Azərbaycanda böyük əks-sədaya səbəb olmuşdu. M.Ə Rəsulzadə bu məsələyə münasibətini belə bildirmişdir: " Mətbuat dil məsələsi ilə məşğul idi. Bu məsələdə Ziya nəzəriyyəsinin müdafiəçisi oldum". [Mirzə Bala Məmmədzadə. "Azərbaycan məcmuəsi" № 1" (36), 1955.]

Ə.Hüseynzadə ana dilinin xalqın danışıq dilinə istinadən sadələşdirilməsinə və xalqın bütün təbəqələrinin başa düşə biləcəyi bir səviyyəyə çatdırılmasına qarşı çıxırdı. Onun məsələlərə bu şəkildə münasibəti etiraza səbəb olmuş, C.Məmmədquluzadə, Qafur Rəşad, Ömər Faiq və başqaları tərəfindən tənqid edilmişdir. Lakin qeyd etmək lazımdır ki, Azərbaycan ədəbiyyatı və dili barədə səhvlərinin bir çoxunu sonralar Əli bəy özü də etiraf etmişdir.

M.Ə.Rəsulzadə "Osmanlı dili" ilə "Azəri türkcəsi" tərəfdarları arasında gedən mübahisəyə osmanlı dilində nəşr

olunan "Şəlalə" qəzetində yazdığı "Dil ictimai bir amil" və "Yeni dilçilər və türkçülər" sərlövhəli məqalələrində dilin ictimai xarakter daşıdığını önə çəkmiş və onun geniş xalq kütləsi tərəfindən başa düşülməsini zəruru amil saymışdır. Bu məqamda yeni Azəri türkcəsinin meydana gəlməsini alqışlamış və 1915-ci ildə təsis etdiyi "Açıq söz" qəzetini də bu ədəbi türkcədə nəşr etdirmişdir.

Məlumdur ki, məsələni C.Məmmədquluzadə və "Molla Nəsrəddinçilər" Ə.Hüseynzadədən fərqli şəkildə həll etdilər. Yəni onlar öz yazılarında birbaşa xalqın adi danışıq dili səviyyəsinə endilər. Bu tərəqqipərvər addım isə xalqa yaxın olamaq, siyasi, sosial və iqtisadi məsələləri onlara ana dilində başa salmaq, cəmiyyət işlərində fəal olmalarını təmin etmək mahiyyəti daşıyırdı. O dövrdə osmanlı türkçəsində çox dəyərli əsərlər yazılmış və du gün də bu əsərlər ədəbiyyatımızın nadir inciləri hesab olunurlar. Lakin o dövrün ziyalıları dilin sosial mahiyyətini dərindən dərk edərək, bütövlükdə cəmiyyətin ümumi, hərtərəfli inkişafını təmin etmək üçün hamıya anlaşıqlı olan dil variantını seçdilər.

İstər bilinqvizm, istərsə də diqlossiya dərin sosial lmahiyyət daşıdığından bu proseslərin geniş sosial kontekstdə öyrənilməsinə böyük ehtiyac var.



**Dilqəm Yunis oğlu İsmayılov,**
**Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, sosial-fəlsəfə şöbəsinin böyük elmi işçisi, fəlsəfə elmləri namizədi**

## Müasir şəraitdə Azərbaycanda çoxpartiyalılığı şərtləndirən amillər

Keçid dövrünü yaşayan Azərbaycan cəmiyyətində müasir siyasi mühitin bərqərar olması prosesi gedir. Posttotalitar cəmiyyətin gələcək inkişaf perspektivləri siyasi partiyaların yaranması və formalaşmasından az asılı deyildir. Bu proses bir tərəfdən demokratik sosiumun özünütənzimləmə mexanizminin tərkib hissəsi, digər tərəfdən, modernləşmənin mühüm vasitəsidir.

Cəmiyyətin siyasi transformasiyasının dinamikası siyasi plüralizmin inkişafı ilə sıx bağlıdır. Bu isə öz əksini siyasi partiyaların və hərəkatların fəaliyyətində, sosial və siyasi sistemin keyfiyyət dəyişikliyində tapır. Lakin Azərbaycan cəmiyyətində partiyalaşma prosesi elə də sadə getməmişdir. Siyasi partiyaların institusionallaşması üçün minimum vətəndaş cəmiyyətinin demokratik siyasi mədəniyyəti tələb olunur, burada sosial strukturun subyektlərinin maraqlarının kristiallaşması zərurətə çevrilir.

Keçid dövrünün əvvəllərində partiyalaşmanın özünəməxsus xüsusiyyətlərindən biri o idi ki, həmin vaxt birpartiyalı sistemdən çoxpartiyalılığa transformasiya olunmaqdan yox, o vaxtkı partiya-dövlət sisteminin yenidən qurulmasından, yeni dövlətçiliyin və ona adekvat olan partiya sisteminin yaradılmasına cəhdlər göstərilməsindən söhbət gedirdi.

Bu gün çoxpartiyalılığın reallığa çevrilməsi partiya sistemlərinin təkamülünün, cəmiyyətin sosial, siyasi və partiya

sistemlərinin qarşılıqlı əlaqəsinin həll olunmayan məsələlərinin kompleks tədqiqini tələb edir. Müasir mərhələdəki siyasi partiyaların əksəriyyəti sinfi partiya olmadığını iddia edir, bəziləri ideoloji və sosial mənsubiyyətdən qaçır, yalnız demokratiyaya sədaqətli olduğunu nümayiş etdirir. Praktik olaraq bu hal paradoksal vəziyyət yaradır. Bu kontekstdə siyasi partiyaların siyasi, sosial və ideoloji istiqamətlərinin müəyyən edilməsi çox zəruridir. Bu mənada sosial strukturla müəyyən qrupların, təbəqələrin, siniflərin, etnosların sosial-siyasi mənafelərinin ifadəsi kimi çoxpartiyalılığın qarşılıqlı təsiri də nəzərdən qaçırılmamalıdır. Məsələyə bu mövqedən yanaşdıqda siyasi və partiya sistemlərinin bir-birinə qarşılıqlı təsiri də unudulmamalıdır. Bütün bunlardan çıxış edərək qeyd etmək lazımdır ki, bir tərəfdən siyasi partiyaların bir təşkilat kimi, digər tərəfdən dəyişən sosial və siyasi mühitdən asılı olan, habelə ölkədəki siyasi proseslərə müstəqil təsir göstərən siyasi qurum kimi öyrənilməsi zəruridir.

Çoxpartiyalılığın sosial-siyasi əsasları problemi Azərbaycanda- politoloji ədəbiyyatda zəif öyrənilmişdir. Praktik olaraq bu mövzuya dair birbaşa tədqiqat işi yoxdur. Lakin qeyd etmək lazımdır ki, 90-cı illərdə və yeni əsrin başlanğıcında çoxpartiyalı sistemə maraq artmış, çoxpartiyalılıq fenomeninin müxtəlif aspektlərinin öyrənilməsində mühüm irəliləyiş olmuşdur.

Qeyd etmək lazımdır ki, müasir siyasi partiyaların formalaşması və funksiya göstərməsinə, çoxpartiyalılığın nəzəri cəhətdən təhlilinə dair daha çox Qərb ölkələri alimlərinin (A.Bednar, F.Bro, M.Düverjye, R.Mixels, L.Sanisteban, P.Şaran, R.-J.Şvarsenberq, O.Xoffe, D.Xeld, Fukuyama və b.), habelə Rusiya tədqiqatçılarının ( E. Astaxova, A.Butenko, D.İ.Vidrin, V.Vyunitski, Q.Q. Diliqenskiy, V.Q.Smolenskiy, L.A.Şvıdçenko, V.Yadov) elmi əsərlərində rast gəlinir.



Çoxpartiyalılıq probleminin tədqiqi cəmiyyətin sosial-sinfi strukturunun analizi ilə bilavasitə bağlıdır. Sosial strukturun konfliktoloji, inteqrasiyon və sinfi prizmadan təhlili müxtəlif təbəqələrə bölünmüş cəmiyyətin strukturyaradıcı mexanizminin öyrənilməsi vasitəsilə mümkündür. Müasir Azərbaycan cəmiyyətində ənənəvi mövcud olan sosial strukturdan yeni struktura keçid və yeni sosial qrupların yaranması prosesi gedir. Bu mənada, məsələyə həm də yeni stratifikasiya nəzəriyyəsi prizmasından yanaşılmalıdır. Məlumdur ki, postsosialist ölkələrində olduğu kimi Azərbaycan cəmiyyətində də yeni sosial qruplar, təbəqələrin (xüsusilə orta sinfin) əmələ gəlməsi və köhnə sosial-sinfi strukturun aradan çıxması prosesi gedir. Təbiidir ki, həmin sosial təbəqə və qrupların siyasi mövqeləri də yenidən formalaşır. Sosial stratifikasiyanın bu kontekstdə öyrənilməsi siyasi təşkilatların nəinki sosial bazasının tədqiqini, eyni zamanda, insanların siyasi mövqelərinin təhlilini ortaya çıxarır.

Sosial strukturla siyasi-partiya sisteminin əlaqəsi məhz bu zaman meydana gəlir. Bu əlaqə sosial qrupların öz siyasi tələblərini dərk etməsi prosesində ortaya çıxır. Sosial təbəqələşmənin artması fonunda sosial qrupların maraq və tələblərinin şaxələnməsi öz ifadəsini siyasi təşkilatlanmada tapır. Partiyalar o vaxt meydana çıxır ki, bu və ya digər təbəqənin siyasi arenada dərk edilmiş maraqlarının ödənilməsində, qeyri-formal təşkilatların hakimiyyət strukturlarına təsiri yolu ilə reallaşdırmasında çətinliklər üzə çıxır.

Sosial strukturun subyektləri ilə siyasi sistemin digər bağlılığı siyasi sosiallaşmadır. Azərbaycan cəmiyyətində siyasi sosiallaşmaya birbaşa təsir edən siyasi mədəniyyət tiplərinin təhlilinə də ehtiyac vardır. Azərbaycan cəmiyyətinin ictimai şüurundakı siyasi meylliliyin daxili ziddiyyətliliyi, mürəkkəbliyi, çoxistiqamətliliyi siyasi hakimiyyət münasibətləri prosesində

sosial struktur subyektlərinin iştirakının spesifikliyini şərtləndirir.

Qeyd etmək lazımdır ki, çoxpartiyalılığı tədqiq edərkən cəmiyyətdə dominant rol oynayan əsas siyasi istiqamətlərin tipləşdirilməsi zərurətə çevrilir. Məlumdur ki, cəmiyyətdə ***liberal-demokratik islahat tərəfdarları*** (rəqabət, xüsusi mülkiyyət, modernləşmə), ***mötədil islahatçılar*** (liberalizmə yaxın olan, islahatların neqativ cəhətlərinə əsas diqqəti yönəltməyən), ***mühafizəkarlar, sosialist ideyaların (müxtəlif modifikasiyalarda) tərəfdarları*** bir-birindən fərqli mövqedən çıxış edirlər. Sözsüz ki, müəyyən ideoloji istiqamətin «təmiz» daşıyıcıları olan sosial qrupları müəyyən etmək kifayət qədər çətindir. Məlumdur ki, hər bir sosial qrup və təbəqədə bu və ya digər ideoloji istiqamətin daşıyıcıları vardır.

Siyasi mədəniyyətin, siyasi istiqamətin müəyyən edilməsində sosial xarakterlərin analizi zamanı Qərb tədqiqatçılarının metodikasından istifadə daha məqsədəuyğundur. Sözsüz ki, cəmiyyətin sosial strukturunda sosial qrupların və təbəqələrin yaranması prosesi cəmiyyətin şaquli bölgüsünə əsaslanır. Belə bir şəraitdə çoxpartiyalılığın formalaşması üçün siyasi vəziyyət aşağıdakıları tələb edir:

- dövlət tərəfindən yardım (maddi kömək, bina verilməsi və s.);
- siyasi partiyalara münasibətdə dövlət siyasətinin müəyyən edilməsi (burada əsas cəhət partiyaların və seçki sistemlərinin qeydiyyata alınmasıdır );
- partiya sistemlərini ümumdövlət mənafeləri və ictimai tələbatlarla uyğunlaşdırmaq;
- yeni sosial strukturun formalaşmasına, o cümlədən orta sinfin əmələ gəlməsinə imkan yaratmaq.

Parlament və prezident seçkilərinin demokratik, ədalətli keçirilməsi siyasi partiyaların fəallığını artırır, yeni siyasi partiyaların formalaşmasına müsbət təsir göstərir. Azərbaycanın siyasi sistemində bir sıra amillər vardır ki, demokratiyanın taleyi və partiya sistemlərinin perspektivi haqqında ciddi narahatçılıq yaradır. Elə etmək lazımdır ki, cəmiyyətin perspektivli gələcəyinə azadlığın məhdudlaşdırılması, siyasi institutların fəaliyyətinə əngəllər törədilməsi yolu ilə sədd çəkilməsin və demokratiyanın inkişafına siyasi hakimiyyətlə müxalif siyasi partiyalar arasında konsensusun yoxluğu mane olmasın .

Birpartiyalı avtoritar sistemdən çoxpartiyalılığa keçid Azərbaycan cəmiyyətinin 90-cı illərdəki təkamülünün ən mühüm nəticələrindəndir. Siyasi partiyaların bərqərar olması prosesi hələ başa çatmadığına görə Azərbaycanda partiya sistemlərinin subyektlərinin formalaşmasından danışmağa əsas vermir. Azərbaycanda partiyalaşma prosesinin özünəməxsus cəhətlərindən biri budur ki, cəmiyyətin siyasi həyatında siyasi partiyaların rəqabəti zəifdir və bu rəqabətin sivil formada, demokratik yolla aparılması vərdişləri hələ yaranmamışdır. Digər cəhət isə ondan ibarətdir ki, siyasi partiyaların bir çoxu ideoloji əsasda, partiya institutları ətrafında deyil, ayrı-ayrı şəxslər ətrafında yaranmışdır və proses davam etməkdədir.

Siyasi partiyaların yaranması mərhələlərlə gedir. Azərbaycanda partiyalaşma prosesi 90-cı illərin ortalarınadək çox güclü getmişdir. Siyasi təbliğat, sosial baza toplamaq mərhələsini sonralar siyasi fəaliyyətin inkişaf etdirilməsi mərhələsi əvəz etmişdir.

Partiyaların yaranması prosesində «yuxarıdan» və «aşağıdan» yaranma mexanizmindən istifadə olunmuşdur. Siyasi partiyaların və ictimai-siyasi birliklərin proqram sənədləri göstərir ki, ümumi cəhətlərin kristallaşması cəhdləri müxtəlifdir. Siyasi partiyaların və ictimai-siyasi birliklərin təbliğat-təşviqat mərhələsi əsasən özlərinə tərəfdar toplamaqdan, sosial baza yaratmaqdan ibarət olub. Buraya icazə verilməmiş mitinqlərdən tutmuş ümumdövlət miqyasında imza toplanmasınadək fəaliyyət aiddir. Xronoloji olaraq bu mərhələ 90-cı illərin so-

nunadək davam etmişdir. Bu vaxtdan başlayaraq partiya sistemlərinin subyektləri öz fəaliyyətini proqram məqsədlərini həyata keçirməyə yönəltmişlər. Bu isə əsasən hakimiyyət uğrunda mübarizə və hakimiyyət strukturlarına təsir göstərmək vasitəsilə həyata keçirilmişdir.

Siyasi partiyaları və ictimai-siyasi təşkilatları tiplərə ayırarkən ideoloji mənsubiyyət, sosial baza, təşkilati prinsiplər əsas götürülməlidir. Qeyd etmək lazımdır ki, Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar bir-birindən proqram məqsədlərinə, ideya-siyasi istiqamətlərinə, təşkilati strukturlarına, iş formaları və metodlarına görə fərqlənirlər. Belə ki, sosial-demokrat və liberal-demokrat ənənələrində oxşarlıq bu iki ideya-siyasi cərəyana mənsub təşkilatların yaxınlaşmasını nə dərəcədə şərtləndirirsə, mühafizəkar ənənələr sağ yönümlü partiyaları bu iki cərəyana mənsub partiyalardan müəyyən məsafədə saxlayır.

Azərbaycandakı siyasi qüvvələrin sosial-siyasi əsaslarına görə təhlil etdikdə belə nəticə hasil olur ki, partiya subyektlərinin təkamül istiqaməti əsasən sağ istiqamətə doğru olmuşdur. «Mərkəzçi» qüvvələrin meydana gəlməsi isə təbliğati üsul olub, ictimai mənafeləri qoruyan imicini yaratmaq üçün edilən cəhdlərlə bağlı olmuşdur. Sağdan və soldan «mərkəzə» doğru meyllilik polietnik cəmiyyətə daha çox xasdır. Ötən əsrin 90-cı illərində meydana çıxmış Dağlıq Qarabağ problemi, ləzgi, talış etnoslarının mərkəzdənqaçma meyllərinin təzahürü milli məsələdə azərbaycançılıq prinsipinin populyarlaşmasına səbəb olmuşdur. Millətimizin adının türk yox, azərbaycanlı, milli dilimizin türk dili yox, Azərbaycan dili kimi Konstitusiyada təsbit olunması məhz yuxarıda dediklərimizi təsdiq edir.

Digər tərəfdən, siyasi mərkəzçilik ideyası orta sinif, təbəqə və qrup konsepsiyası ilə bağlıdır. Azərbaycanda orta sinfin faizinin aşağı olduğunu nəzərə alsaq, mərkəzçilik ideyasının orta təbəqələrin mənafeyi ilə az bağlılığı nəticəsinə gəlmək



olar. Daha doğrusu, mərkəzçi mövqe sosial mənsubiyyətlə az adekvatdır. Orta sinfin yoxluğu hakimiyyət strukturlarına güclü təsir edəcək ümummilli partiyanın formalaşmasını çətinləşdirir. Dərnək, klub tipli (ziyalılar tərəfindən yaradılmış) partiyaların bir hissəsi siyasət meydanında qalsalar da, bir çoxunun siyasət səhnəsində fəaliyyəti yox dərəcəsindədir. Cırtdan (kiçik, «divan partiyaları», yəni üzvlərinin sayı bir divana sığışan), peyk partiyaların bir hissəsi nüfuzlu müxalifət partiyalarının, digər hissəsi isə hakim partiyanın ətrafında təzyiq qrupları səviyyəsindədir. Sosial narazılığın konstitusion mübarizə səviyyəsinə qaldırılması isə siyasi partiyalaşma təkamülünün göstəricisidir.

**Firuz Qədimalı oğlu Mustafayev,**
**Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, sosial-fəlsəfə şöbəsinin aparıcı elmi işçisi, fəlsəfə doktoru**

## Müasir sivilizasiya: Mədəniyyət və qloballaşma

Kiçik dünyanın böyük mahiyyəti: qloballaşma.

Qloballaşma müasir insanın təkcə maddi və mənəvi həyatına deyil, habelə insan nəsillərinin yüzillər, minillər boyu formalaşmış təsəvvür və biliklərinin məcmusuna təsir göstərməkdədir. XXI əsrin adamı artıq ətrafda baş verən proses və hadisələrə yeni bucaq altında baxmalı olur. Elmi nailiyyətin sonucu kimi meydana gələn qloballaşma özündənəzəlki (və ya özünəqədərki) elmi qənaət və informasiyaların üstündən bir növ xətt çəkməkdədir. İndi bizim təkcə zaman və məkan dailində

mövcud olan nəsnələrlə bağlı deyil, hətta, zaman və məkanın özü haqqındakı bilik və təsəvvürlərimiz də dəyişməkdədir.

Artıq nə zaman ötən əsrdəki «zaman»dıp, nə də ki, «məkan». Daha doğrusu, zaman və məkan öz əzəli-zahiri mövcudluğunda qalır; fəqət bizim uzun əsrlər boyu «əsaslandırdığımız», ənənəvi şəkildə qəbul etdiyimiz həmin anlayışlar yeni mahiyyət almışdır. Bu gün real zaman və məkanla yanaşı «virtual» zaman və məkan anlayışları da öz «varlığını» ortaya qoymuşdur. Əslində elə bu özü də bir reallıqdır, mövcudluqdur və biz istər-istəməz bu mövcudluqla, reallıqla barışmalıyıq.

İndi qloballaşma həyatımızın ütün sahələrinə nüfuz etməkdədir. Əvvəlki təsərrüfat sahələrinin, elmi başların yeniləşməsi böyük sıçrayışlarla müşaiyət olunmaqdadır. İndi «əvvəlki» anlayışını bütün parametrlər üzrə qeyd-şərtsiz «(sonra)kı» (post) əvəz etməkdədir. Artıq industrial öz «postunu» postindustriala təhvil verib. İndi elmi-fəlsəfi cərəyanlardakı yenilər (neo) və yeniliklər də ən son və «(sonra)kı» (post) terminologiyası ilə yüklənmişdir: realizm-postrealizmə, modernizm-postmodernizmə, romantizm-postromantizmə ... çevrilmişdir. Təkcə sosial-iqtisadi-mənəvi həyatın deyil, siyasi müstəvinin özündə belə kəskin dönüş və dəyişikliklər meydana gəlmişdir; belə ki, bir çox ölkələrdə siyasi idarə formaları, habelə ərazi vahidləri yeni keyfiyyət və kəmiyyət formaları ilə əvəzlənmişdir. Artıq sosializm düşərgələri dağılmış, sovet sistemi tarixin arxivinə qatılmışdır; indi sovet məkanı- postsovet məkanına çevrilmişdir.

Bizə elə gəlir ki, qloballaşma nə qədər geniş vüsət alsa da, onun mənəvi həyatımıza təsiri nisbətən böyük maneələrlə müşaiyət olunur. Bu da təsadüfi deyildir: insan həyatının özü (sözün geniş mənasında) mühafizəkar səciyyə daşıyır. Fəqət bütün bu «mühafizəkar» cəhətlərinə baxmayaraq qloballaşma insanların adi həyat səviyyəsindən tutmuş onların geniş fəaliyyət sahələrinəcən bütün «mərhələlər üzrə» öz təsirini göstərməkdədir.

Qloballaşma müasir insanın həyatına təkcə sevinc və yüngüllük yox, həm də ağrı və həyəcanlar gətirir. Əxlaqi-milli-regional olanlar bir yana, hətta fərdi olan xüsusiyyətlər də tədricən sıxışdırılıb aradan çıxarılır. İndi sanki, hamı eyni düşüncə və əxlaq prinsipləri ilə yaşamağa məhkum edilir

Kommunikativ rabitə vasitələri fərdləri bir-birindən asılı vəziyyətə salıb. Kompüterlərin manitorunda yeni bir «dünya» bərqərar olub – bu, «virtual kainatdır».

İnsan ilk baxışda, özü-öz yaratdığının əsirinə çevrilib. O, istər-istəmz yeni yarananlar qarşısında xofa düşür, hətta qorxu hissi keçirməli olur; onun adət etdiyi köhnə vərdişlərin yeni «redaktəyə» ehtiyacı duyulur.

Yeni köhnəni inkar edir

İnsan özünün inkarından qorxur.

Artıq «enerji mənbələrinin» təbiətdə, daha doğrusu, Yer planetində və ondan kənarda aparılan axtarışlarına «bir yenisi» də əlavə olunub. Əslində, bu «yeni» olan mahiyyətcə köhnədir, sadəcə olaraq bu «yeni köhnənin» bir daha tədqiqat obyektinə çevrilməsi XXI əsrdə aktual əhəmiyyət kəsb edir. Həmin tükənməz «enerji mənbəyi» - insanın beyni, daha doğrusu, o beynin «ifraz» etdiyi şüur, düşüncə, idrakdır.

İnsan orqanizmini öyrənən elmlər çoxdan sübut edib ki, irqı fərqlərindən asılı olmayaraq yer üzündəki insanların beyin quruluşu (habelə digər əzaları) biri-digərindən o qədər də fərqlənmir. Əsas fərq beyin qırışlarının kəmiyyətində, daha doğrusu, həmin qırışların informativ yüklənməsindədir. Beyin nə qədər «yüngüldürsə» bir o qədər böyük enerji mənbəyi hesab olunur.

Yeni elmin daha bir kəşfi də diqqəti çəkir: beynin imkanları çoxaldıqca, «yükgötürmə» qabiliyyəti artdıqca, insanın fiziki ömrünün çərçivəsi də genişlənir. Necə deyərlər, böyük infor-

masiya=uzun ömür. Başqa sözlə, böyük informasiyauzun ömür=böyük enerji mənbəyi. Miladdan əvvəlki tarixdə orta ömür 40-45 yaş civarında hesablanırdısa, bu gün ömrün vaxt hüdudu az qala iki dəfə yüksəlib. Deməli, adi riyazi dillə ifadə edilərsə, bizim informasiya almaq imkanlarımız iki dəfə artıb. Amma məsələ bununla bitmir. İş burasındadır ki, misal çəkdiyimiz dövrlə müqayisədə informasiyanın kəmiyyəti yüz (bəlkə də min) dəfələrlə çoxalıb.

Böyük informasiya, hər şeydən əvvəl, böyük mədəniyyət deməkdir. Həmin mədəniyyətin daşıyıcıları olan insanlar öz tarixi təcrübəsindən çıxış edərək «zaman evi»nin divarlarına öz «kərpiclərini» hörməkdədirlər. Axı mədəniyyət həm də nəsillərin varisliyi deməkdir; bu müstəvidə heç nə «özbaşına» və birdən-birə meydana gəlmir. Burada dünən - bu gün – sabah formulu var. Mədəniyyət – elə bir fenomenal hadisədir ki, burada insan əməli ilə insan əqli bir-biri ilə çulğalaşır, qırılmaz əlaqədə olur

Dünyanın müxtəlif qütblərinə səpələnmiş xalqlar və o xalqlara mənsub olan fərdlər bir çox hallarda özlərindən belə asılı olmayaraq yeni prosesin iştirakçılarına çevrilirlər. Hazırki durumda bu hadisənin məğzini dərk etmək elə də çətin məsələ deyildir: müasir texniki – kommunikasiya vasitələri adamların az qala hamısının «eyni cür» düşünməsinə obyektiv zəmin yaratmışdır. İndiki halda söhbət keçmiş dövrdən gedir: elə bir vaxtdan ki, müxtəlif qütblərdə yaşayan insanların bir-biri ilə mütəmadi, intensiv, birbaşa informativ əlaqəsi qeyri-mümkün idi. Və həmin dövrlərdə mədəniyyətlər arasında mövcud olan əlaqələr istər-istəməz bu günün özündə belə bizdə heyrət doğurur. Bu baxımdan görkəmli Norveç tədqiqatçısı T.Heyerdalın ortaya qoyduğu elmi nəticələr diqqəti çəkir: sən demə, qədim insanların yaratdığı mədəniyyət nümunələri, onların mənsub olduqları qəbilə və məkandan asılı olmayaraq yeni bir ideya və zəmin üzərində pərvəriş tapmışdır. Doğrudur, Heyerdal özü bir çox hallarda bu «eyniliyin» kökünü «böyük köçdə» axtarmalı olmuşdur. Amma bizcə, məsələnin maraq doğuran tərəfi alimin irəli sürdüyü ideyada yox, ortaya qoyduğu nəticədədir.

Qloballaşma təkcə iqtisadi-sosial-siyasi proseslərə yox, insanların bütün mənəvi-mədəni aləminə nüfuz etməkdədir. Yeni yaranan, formalaşmaqda olan fenomenal təpkilər köhnələrin üstündən xətt çəkir. Bu cəhətdən dillər də istisnalıq təşkil etmir.

Hal-hazırda dünyada iki min beş yüz (2500) dil mövcuddur. Lakin bu dillərin gələcək yaşarılığı elə bu gün təhlükə altındadır. Məlum olduğu kimi, artıq qədim yunan dili, aramey, latın. sanskrit, assuriya, qədim fars, ket və s. dillər «ölü» dillər «panteonuna» keçib. Xatırlatmaq lazımdır ki, həmin dillərin bir çoxu heç də uzaq keçmişdə «dəfn» olunmayıb. Məsələn, mayya dilinin sıradan çıdığı vaxtdan o qədər də çox müddət keçməyib, cəmi beş yüz il əvvəl bu canlı danışıq dili idi.

Dillərin get-gedə tarix və mədəniyyət səhnəsindən çıxması indi də müşahidə olunur. Rusiya və Ukrayna ərazisində yaşayan bir çox türkdilli xalqların nümayəndələri belə bir təhlükə ilə üzləşiblər. Məsələn, hazırda Krımda cəmi 600 adam karaim dilində danışır.

Məlum olduğu kimi, BMT-də əsas 6 işlək dil seçilib: ingilis, fransız, ərəb, rus, ispan, çin. Bəs digər dillərin taleyi necə olmalıdır? (Bu «seçilmiş» dillərin öz arasında da rəqabət gedir.) Qeyd etmək lazımdır ki, hazırda internetin həyatımıza tətbiqi dillərin inkişaf və tənəzzülünə də təsir göstərir. Əslində elə «internet dilləri» də «seçilmiş» dillərdən təşkil edilib.

Bu gün qloballaşmanın mədəniyyətə təsiri barədə danışarkən cəmiyyətin bətnində gedən müxtəlif disharmoniya və konsentrasiya proseslərindən yan keçmək mümkün deyildir. Artıq mövcud olan faktlar dünyadakı milli-mənəvi dəyərlərin «ortaq məxrəcə» gəldiyini təsdiq etməkdədir. İndi heç kəsin (fərdi və ictimai anlamda) yaratdığı təkcə onun özünə aid deyildir. İndi

«mən» və «biz» eyniləşib, biri digərinin ekvivalentinə çevrilib. İndi mən > biz (və yaxud mən < biz, habelə mən+ biz) formulu yeni düzəndə təqdim olunmaqdadır; bu formul indi mən= biz şəklində təqdim oluna bilər.

İnternetin həyatımıza nüfuzu bizə əvvəllər məlum olmayan yeni «gerçəklik» formaları gətirməkdədir. Bu gerçəkliyin adı «virtuallıqdır». Virtual gerçəklik, reallığı irreal fenomen kimi təqdim etməkdədir. Biz istəsək də, istəməsək də yeni «gerçəklik düsturunu» qəbul etməli, onun mövcudluğu ilə razılaşmalıyıq.

Yeni yaranan proseslər mədəniyyətin yeni qatlarının formalaşması, hətta, üzə çıxması prosesi ilə sonuclanır.

Bu, bir həqiqətdir ki, mədəniyyətdə qloballaşma mədəniyyətlərin inteqrasiyası prosesindən keçir. Bəs mövcud inteqrasiyada dominantlıq «tərəzisi» hansı tərəfə daha çox «əyilməlidir»? (Söhbət, indiki halda, məsələn: kiçik və böyük xalqların Mədəni-ədəbi sintezindən, qovuşmasından gedir.) Söhbət həm də kiçik xalqların mədəniyyətinin əriyib yox ola bilməsi təhlükəsindən gedir. Əsrlər boyu yaranıb inkişaf edən maddi və mənəvi mədəniyyət abidələrinin – lokal «kültür» adalarının nəhəng sivilizasiya «okeanında» itib batmaq qorxusundan gedir. Bu qorxunun özü də «qlobal» mahiyyət daşıyır və həmin qorxu hissi artıq «nəzəri» paralelləri addımlayaraq praktik sahələrə nüfuz etməkdədir. İndi həmin «qorxu» bədii yaradıcılığın bir çox sahələrində də özünü büruzə verməkdədir. Rəssamlıq, heykəltaraşlıq, musiqi, nəsr, poeziya, səhnə və ekran əsərləri nümunələrində bu cür «xof»un doğurduğu assosiativ duyuma aid çoxlu misallar gətirmək mümkündür.

Əslində yeni sivilizasiya «xof»unun kökü dərinliklərə – ən azı yarım əsr əvvələ gedib çıxır. İlk dəfə avropada çalınan «haray zənginin», «həyəcan təbilinin» səsi tezliklə bütün dünyada əks-səda vermişdir. Elə həmin vaxtdan bəri əks qütblər – qlobalistlər və antiqlobalistlər arasında kəskin fikir ayrılığı yaranmışdır. Amma hələ özü-özlüyündə mövcud olan ideya – «fikir» heç nəyi həll etmir. Fakt budur ki, «praktik» qloballaşma bəşər həyatının az qala bütün sahələrində öz hökmünü diktə etməkdədir.



**Adil Axundov,**
**Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, sosial-fəlsəfə şöbəsinin aparıcı elmi işçisi, fəlsəfə elmləri namizədi**

## Xalq yaradıcılığında sosiallıq və sosial ədalət axtarışları

Milli müstəqillik yollarında inamla irəliləyən xalqımız demokratik və hüquqi dövlət quruculuğu ilə yanaşı vətəndaş cəmiyyəti idealını reallaşdırmaq əzmindədir.

Vətəndaş cəmiyyəti dövlət tərəfindən əlaqələndirilməyən, fərdlərin öz aralarındakı yetkin iqtisadi, mədəni, hüquqi, siyasi münasibətləri olan bir cəmiyyətdir. Bu cəmiyyətdə assosasiyalı həyat, yaxud kütləvi sfera (kütləvi hərəkatlar, partiyalar, mənafe qrupları və s.) azad inkişaf edir. O elə bir cəmiyyətdir ki, onun fəaliyyətdə olan hər bir üzvü, subyekti özünün bütün tələbat və mənafeyi ilə birlikdə insandır. Burada əsas meyar şəxsiyyətin tələbatının ödənilməsi və mənafeyinin reallaşdırılmasıdır. (1)

Vətəndaş cəmiyyətinin mənəvi əsaslarından biri vətəndaşlıq şüurunun mövcudluğudur. Vətəndaşlıq şüuru vətənə, xalqa sədaqətli olub, onların qarşısında öz borcunu yerinə yetirmə ideyasını ehtiva edir. Vətəndaşlıq şüuru hər bir insanın fəaliyyətinin məqsəd göstəricisi olmalıdır. Vətəndaşlıq şüuru dairəsində şəxsiyyətin mənafeyi ictimai mənafe ilə ahəngdar su-

rətdə birləşir. Vətəndaşlıq şüuru fəaliyyətin istiqamətini və onun sosial müəyyənliyini şərtləndirir.

Fəal vətəndaş mövqeyinin formalaşdırılması üçün şəxsiyyətin sosiallaşmasının mühüm əhəmiyyəti vardır.

Sosiallaşma anlayışı sosiologiyada XX əsrin 40-50-ci illərindən etibarən işlədilməkdədir. Bu anlayışın məzmunu və mahiyyəti ətrafında sosiologiya məktəbləri, cərəyanları arasında diskussiya indi də davam edir. Neobiheviorizm onu «sosial öyrətim» kimi şərh edir. Simvolik interaksionizm (F.Şibutani) cərəyanı «onu sosial qarşılıqlı təsirin nəticəsi» hesab edir. Humanist psixologiya isə onu "Mən-konsepsiyası"nın özünü aktuallaşdırması kimi şərh edir. Ümumiyyətlə isə, sosiallaşma anlayışı artıq sosiologiyada öz yerini tutmuşdur.(2)

Sosioloq J.T.Toşşenkonun fikrincə, şəxsiyyətin sosiallaşması ictimai həyatın bütün sahələrində mövcud olan vətəndaşlıq münasibətlərinin mənimsənilməsi deməkdir.(3)

Şəxsiyyətin formalaşması prosesində onun sosiallaşması mühüm yer tutur. Sosiallaşma cəmiyyət həyatının bütün sahələri ilə tanış olmağı tələb edir.

Sosiallaşma öz mahiyyəti etibarilə ictimai həyatın təkrar istehsalı və onun ardıcıl inkişafı, eləcə də ictimai münasibətlərin iştirakçıları olan subyektlərin spesifik keyfiyyətlərinin reallaşması öz həyat fəaliyyətində həmin münasibətləri davam etdirən və yeniləşdirən şəxsiyyətlərin təkrar formalaşdırılmasıdır. Sosiallaşma fərdlərin yalnız hazır ənənəvi ictimai münasibətlər sisteminə mexaniki olaraq daxil edilməsi olmayıb fərdlərin ictimai fəallığını, yeni ictimai münasibətlər yarada bilmək qabiliyyətlərini təmin etməlidir. Beləliklə, cəmiyyət bir tərəfdən mövcud ictimai həyat üçün fərdlər hazırlayırsa, digər tərəfdən həmin fərdlər ictimai həyatı, cəmiyyəti, yeniləşdirən bir qüvvə kimi çıxış edirlər. Deməli, sosiallaşma iki tərəfli prosesdir: burada bir tərəfdən fərd, mövcud sosial dəyərlər haqqında məlumat və biliklər əldə etməli, mövcud sosial təcrübəni, norma



və rolları, vərdiş və bacarıqları mənimsəməli və bununla ictimai münasibətlər sisteminə daxil olmalı, digər tərəfdən isə passiv iştirakçı kimi deyil, öz fəal iştirakı ilə mövcud ictimai münasibətləri inkişaf etdirə bilməlidir.

Bu prosesi daha konkret şəkildə aşağıdakı maddələrlə təsbit etmək olar:

1.Öz ictimai vəzifələrini yerinə yetirmək üçün fərdin müəyyən qabiliyyət və xüsusiyyətlərinin formalaşdırılması.

2. Şəxsiyyətin ictimai özünü reallaşdırma sisteminə daxil edilməsi.

3. Mövcud ictimai münasibətlərin inkişaf etdirilməsi və zənginləşdirilməsi.

İnsan, onun həyatı və taleyi xalq yaradıcılığında aparıcı istiqamət olduğu üçün insanın cəmiyyət həyatına uyğun tərzdə formalaşması, onun zəruri sosial keyfiyyətlər kəsb etməsi də xalq bədii təfəkkürünün nəzərindən nəinki qaçmamış, əksinə, həmişə onun diqqət mərkəzində olmuşdur.

Zəhmətkeş kütlənin ictimai həyata aid fikir və görüşləri qüvvətli olub real həyatla bilavasitə bağlıdır. Görkəmli folklorçu alim V.Y.Proppun fikrincə "nağıl, əlbəttə, həyatdan doğur". (4) Məhz buna görə də xalq bədii yaradıcılığı dərin sosial məzmuna malikdir. Burada xalq sosial həyatın irəli sürdüyü mühüm sosial problemlərə öz münasibətini bildirmiş və həmin problemləri bu və ya digər tərzdə həll etməyə çalışmışdır. Həmin problemlər sırasında sosial ədalət, ictimai-siyasi azadlıq, xarici qəsbkarlara qarşı mübarizə, ailə-məişət, xeyir və şər, insan taleyi kimi məsələləri görmək olar. M.Qorkinin "xalqın...ictimai-siyasi təfəkkürü nağıllarda, əfsanələrdə, atalar sözü və məsəllərdə ifadə edilir" (5) deməsi təsadüfi deyildir. Xalqın ictimai-siyasi baxışları elmi-nəzəri təhlildən uzaq olsa da ictimai-siyasi praktikaya əsaslanırdı və onun gücü də məhz bunda idi.

Kütləvi məktəblərin olmadığı və ya çox az olduğu qədim və orta əsrlərdə xalq yaradıcılığı əsərləri xalq üçün bir "həyat məktəbi" (Çernişevski H.Q.) rolu oynamışdır. Xalq yaradıcılığı tarix boyu yeni nəsillərin sosiallaşması və təlim-tərbiyəsində mühüm rol oynamış və onun bu sahədəki çoxəsrlik təcrübəsi indi də öz əhəmiyyətini saxlamışdır. Müasir cəmiyyət tamamilə yeni sosial-iqtisadi əsaslarda inkişaf etsə də xalq yaradıcılığında öz əksini tapmış milli və ümumbəşəri dəyərlər, tarixi ənənələr bu gün də yetişməkdə olan nəsillərin sosiallaşmasında mühüm əhəmiyyətə malikdir.

Xalq yaradıcılığı şəxsiyyətin təşəkkülündə üç amilin – mühit, təlim-tərbiyə və irsiyyət rolunu göstərir. (6) Öz-özlüyündə bu sosiologiya, pedaqoqika və genetika elmlərinin əldə etdiyi nəticələrlə uyğun gəlir. Əsas fərq bundadır ki, xalq yaradıcılığı, həmin amillərin rolunu müşahidələr və intuisiya vasitəsilə müəyyən etmiş, elmi fəlsəfə isə həmin amillərin rolunu konkret elmi tədqiqatların nəticələrini ümumiləşdirib sistem halında olan elmi-nəzəri konsepsiya kimi irəli sürür.

Xalq yaradıcılığı sosial mühiti əks etdirməyi qarşısına xüsusi bir məqsəd kimi qoymasa da ictimai varlıq, sosial münasibətlər istər-istəməz xalq yaradıcılığı əsərlərinin məzmununa daxil olub bir sıra hallarda onun toxumasını təşkil edir. Ancaq sosial gerçəklik xalq yaradıcılığının müxtəlif növ və janrlarında özünəməxsus şəkildə əks olunur. Məsələn, məişət nağıllarında sehrli və bahadırlıq nağıllarına nisbətən sosial motivlər daha realist səpgidə əks olunmuşdur. Görkəmli alim-tədqiqatçı Cavad Heyət bu cəhətə diqqət yetirərək məişət nağılları barəsində yazır: "Bu nağıllar sehrli və heyvanlarla əlaqədar nağıllardan fərqli olaraq, daha realdır və ictimai həyatla, xalq məişəti və mübarizəsilə əlaqədardır. İctimai bərabərsizlik, varlıhq və yoxsulluq, zülm və ehtiyacın real təsviri bu nağıllarda aydın şəkildə göstərilmişdir"(7). "Yetim İbrahim və sövdəgər", "Hacının köməyi", "Yeddi qardaş bir bacı","Daşdəmirin nağılı", "Ustacan Əhməd", "Loğmanla şəyirdi", "Keçəlin fəndi" kimi nağıllar o cümlədəndir.

Nağıllarda sosial ədalət uğrunda xalq kütlələrinin mübarizəsi və bununla əlaqədar olaraq xalq kütlələrinin ictimai-siyasi baxışları da öz əksini tapmışdır. Bu sosial problem "Reyhanın nağılı", "Əzazil padşah" kimi nağıllarda daha açıq və kəskin şəkildə irəli sürülür. "Reyhanın nağılı"nda zülmkar şahla mübarizə həm də əyanlara qarşı çevrilmişdir. Hətta naxırçı-padşahı, əyanları "zalıqırıq" adlandırır. Qanlı mübarizə nəhayət şaha və əyanlara qarşı çıxış edənlərin qələbəsi ilə qurtarır. Hərəkata başçılıq edən naxırçı qızı Reyhanın göstərişi ilə əyanların boynu vurulur, şahın başını isə özü kəsir. Lakin Reyhan əvvəlki vəziri padşah, keçmiş cəllad Əhmədi isə vəzir təyin edir. Göründüyü kimi belə bir qanlı mübarizə bir padşahın yenisi ilə əvəz olunması ilə bitir. Bu isə əsasən kəndlilərin və sənətkarların iştirak etdiyi kütlələrin ictimai siyasi baxışlarında olan məhdudluğu, ardıcılsızlığı göstərir ki, bunlar da həmin dövrün xüsusiyyətləri ilə izah edilir.

Əgər "Reyhan xanımın nağılı"nda zülmkar şah öldürülüb taxta vəzir çıxarılırsa, "Babayi Əmir" (8) nağılında zülmkar şah tərbiyə edilib yenidən taxta əyləşdirilir. "Əzazil padşah" (9) nağılında isə zülmkar şah aradan götürülür, şahlıq taxtına sadə bir qoca əyləşdirilir.Görünür nağıllarda xalq kütlələrinin müxtəlif təbəqələri öz ictimai-siyasi baxışlarını əks etdirməyə çalışmışdır. Diqqəti cəlb edən odur ki, bu baxışlarda ədalətli şah axtarışı əsas yer tutur ki, bu cəhət qədim və orta əsrlərin xalq ictimai-siyasi baxışları üçün səciyyəvi bir hal idi.

Qeyd etmək lazımdır ki, xalq yaradıcılığında öz ifadəsini tapan sosial ədalət axtarışları qədim və orta əsrlərdə baş vermiş xalq üsyanları, məzdəkilik, xürrəmilik kimi ictimai-siyasi hərəkatların, Nizaminin ədalətli şah axtarışları və s. ilə səsləşir.

Nağıllardakı ictimai-siyasi baxışların müxtəlif çalarlı olmasını yalnız xalqın müxtəlif təbəqələrinin ideya təsiri ilə izah

etmək məsələni birtərəfli izah etməyə bərabər olardı. Burada tarixi dövr amilinin də rolunu nəzərə almaq lazımdır. Belə ki, tarix boyu xalqın ictimai-siyasi baxışlarında da dəyişiklik, inkişaf və təkamül baş vermişdir. Məsələn, ilkin orta əsrlərin nağıllarında ədalətli şah arzu edilirdisə və yaxud şahı ədalət ruhunda tərbiyə etmək, maarifləndirmək ideyası ("Babayi Əmir" nağılında olduğu kimi) irəli sürülürdüsə, son orta əsrlər dövründə zülmkar şahı inqilabi yol ilə hakimiyyətdən uzaqlaşdırmaq ideyasına ("Reyhan xanımın nağılı", "Əzazil padşah" nağıllarında olduğu kimi) üstünlük verilmişdir. Bir sıra digər nağıllarda ("Əhməd", "Daş üzük", "Keçəl Məmməd") yoxsullar arasından çıxmış qəhrəmanlar şaha qarşı mübarizə aparırlar. Nağıllardakı bir sıra surətlər usta şəyirdi, nökər, hambal oğlu, keçəl və s. əzilən təbəqələrin nümayəndələri olub ədalətsizliyə qarşı mübarizə edən fəal qüvvələrin təmsilçiləridirlər.

Bəzi nağıllarda demokratiya axtarışlarına rast gəlinir. Məsələn "Beçə dərviş", "Əzizin nağılı" kimi nağıllarda şahı öz aralarından seçmək ideyası, yaxud da padşahın şah qızlarından olan oğlanlarının taxtdan məhrum edilib, kəndli qızlarından olan oğlanlarının taxta çıxarılması motivləri ("Ağ atlı oğlan" nağılı) əks olunmuşdur. Qədim dövrlərin nağıllarında sehr və çevrilmələr,qəhrəmanın fiziki gücü mühüm rol oynayırsa sonrakı dövrlərin nağıllarında qəhrəmanın zəkası, biliyi və bacarığı mühüm əhəmiyyət kəsb edir.

Bəzi nağıllarda hətta ədalətli cəmiyyət haqqında utopik baxışlara rast gəlinir. "Küp qarısı" (10) nağılında belə bir xoşbəxt cəmiyyətin təsviri verilir. Nağılın qəhrəmanı Əhməd qəribə bir şəhərə gəlib çıxır. Burada bağlara çəpər çəkməzdilər. Qapıları bağlamazdılar. Heç kəs başqasının malına əl vurmazdı. Burda xəstəlik-zad yox idi. Heç kəs xainlik eləməzdi. Hamı da varlı idi. Yoxsul sözü yox idi, dilənçi olmazdı. Bir adam birisinnən dava eləməzdi. Oğurluq sözü yox idi. Hamı səhərdən axşama qədər işləyirdi. Axşam da çalıb oynayırdılar. Qızı ərə



vermək, oğlan evləndirmək sözü yox idi. Qız-oğlan bir-birini sevib bir yerdə yaşayardılar. Burda pul da yox idi, şeyi birbirinə dəyişirdilər. Heyvanlar özləri gedib otlardı, axşamlar evə qayıdardı. Varlı, yoxsul, bəy, gədə yox idi. Hamı insan idi.

Nağıl aləmində ədalətli cəmiyyət axtarışının mövcudluğu xalq içərisində bu istiqamətdə olan istək və arzuların ifadəsi idi.

Azərbaycan dastanlarında ictimai həyat və səadət axtarışları geniş miqyasda və daha real cizgilərlə əks olunmuşdur. Görkəmli folklorşünas alim M.H.Təhmasibin sözləri ilə desək, hər bir dastanın, eposun əsas xüsusiyyəti onun məzmununun müəyyən mübarizəyə həsr olunmasında özünü göstərir.Bu mübarizə müxtəlif dövrlərdə müxtəlif məna və məzmuna malik olub, müxtəlif məqsəd daşıdığı üçün hər bir dövrün əsas xarakteri ilə səsləşən əsərlərdə də müxtəlif şəkillərdə olur".(11) "Kitabi – Dədə Qorqud", "Koroğlu" kimi qəhrəmanlıq, "Əsli və Kərəm", "Qurbani", "Aşıq Qərib" kimi məhəbbət dastanlarımız məhz bu mənada şəxsiyyətin sosiallaşmasında mühüm əhəmiyyətə malikdirlər.

Xalq poeziyasının gözəl inciləri olan bayatılarda sosial motivlər daha konkret və real bədii cizgilərlə əks olunur. Dərin ictimai məzmuna malik yüksək fikirlər epos və dramatik əsərlərimizdən əvvəl ilk dəfə bayatılarımızda öz bədii inikasını tapmışdır. Bunlardan, məsələn, Azərbaycan torpağının həsrət və intizar motivləri, Təbrizlə bağlı, Araz çayı ilə əlaqədar yaranan bayatılarımız xalq poeziyasında xüsusi mərhələ təşkil edir. Bu bayatılarla kədər ümumiləşərək böyük bir diyarın, öz varlığını bütün məsuliyyəti ilə dərk edən bir millətin dərdinə çevrilmişdir".(12)

Arazam Kürə bəndəm,
Bülbüləm gülə bəndəm

Dindirməyin qəmliyəm
Bir şirin dilə bəndəm.

Xalqın yaratdığı saysız-hesabsız nağıl, dastan və bayatılarda bir tərəfdən xalqın ictimai həyat tərzi, qəsbkarlara, zalım şahlara və feodal-mülkədar hökmranlığına qarşı mübarizə motivləri ifadə edilmişsə, digər tərəfdən də iş və əməyə olan dərin məhəbbəti, vətənə və elmə olan tükənməz sevgisi, ən nəcib arzu və istəkləri tərənnüm edilmişdir".(13) Əlbəttə, bütün bunlar şəxsiyyətin sosiallaşması üçün mühüm əhəmiyyətə malikdir.

Şəxsiyyətin sosiallaşması öz məzmununa görə fərdin mövcud ictimai mühitə özünəməxsus şəkildə daxil edilməsi, onun mövcud sosial qayda və ənənələr sistemini öyrənmək vasitəsilə, onda zəruri sosial keyfiyyətlər və xüsusiyyətlər formalaşdırmaqdır. Lakin fərd mövcud sosial münasibətlərin yalnız seyrçisi və yaxud da passiv iştirakçısı kimi deyil, həmin ictimai münasibətləri inkişaf etdirmək, yeniləşdirmək bacarığı və qabiliyyətlərinə də malik olmalıdır ki, o, fəal sosial bir şəxsiyyət kimi cəmiyyət həyatında iştirak edə bilsin. Yalnız belə hazırlıq və fəaliyyət prosesində şəxsiyyətin sosial yetginliyi formalaşa bilər. Bu proses ictimai həyatın passiv iştirakçısı deyil, əksinə, ictimai həyatda fəal iştirak edən, ona mütərəqqi təsir edə bilən fərdlərin hazırlanması ilə nəticələnməlidir. Qeyd etmək lazımdır ki, ənənəvi xalq yaradıcılığı yetişməkdə olan gənc nəsilləri məhz bu ruhda, bu istiqamətdə, yəni onları fəal, yaradıcı, qurucu, mübariz bir qüvvə kimi tərbiyə etməyə çalışmışdır. Nağıl və dastanlarımızda, atalar məsələləri və bayatılarımızda fəal sosiallıq müxtəlif şəkillərdə əks olunmuşdur. Məsələn, maşınlı sənayenin mövcud olmadığı keçmiş zamanlarda sənət və sənətkarlıq, onların inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb etdiyi üçün xalq yaradıcılığı əmək fəaliyyətinin bu sahəsinə xüsusi diqqət yetirmiş, bu sahəni işıqlandırmış və təbliğ etmişdir. Bu cəhətdən "Zərgar ilə Dülgər", "Usta Abdulla" kimi nağıllar diqqəti cəlb edir. "Usta Abdulla" nağılında memarları öldürən padşahla Usta Abdullanın mübarizəsindən bəhs olunur. Usta Abdulla lazım olduqda hərəkət etdirilə bilən, yəni öz yerini dəyişdirə bilən gözəl bina tikməklə həmin padşahı razı salıb ondan iki qat zəhmət haqqı almağa nail olur. "Keçəllə Qazının nağılı"nda isə nökərləri işlədib müxtəlif bəhanələrlə haqq verməyən qazı ilə nökərlik edən bir keçəlin mübarizəsindən bəhs edilir. Keçəl öz ağlının gücü ilə qazını ifşa edib cəzalandırır.

Bir sıra nağıllarda sosial həyatda görünən nöqsanlar (xəyanətkarlıq, namərdlik, ədalətsizlik, zülmkarlıq və s.) pislənir, əksinə, yaxşı əməllər (xeyirxahlıq, dostluqda etibarlı olmaq, düzlük və s.) isə bəyənilir və təriflənir. Məsələn, "Məlikməmməd", "Hazarandastan bülbülü" kimi nağıllarda xəyanətkarlıq, "Loğman", "Barxudarın nağılı" kimi nağıllarda ədalətsizlik, zülmkarlıq, "Ağquş" nağılında nankorluq, namərdlik pislənirsə, "Taxta qılınc", "Balıqlar padşahı ilə Yaqub" nağıllarında xeyirxahlığın üstünlüyü, "Çanta" nağılında isə yoldaşlıqda etibarlı olmaq, əzmkarlıq tərifl ənir.

Beləliklə fəal həyat konsepsiyası nağıl dünyasının əsasını təşkil edir. Bu cəhət qəhrəmanlıq nağıllarında və dastanlarında daha qabarıq tərzdə nəzərə çarpır. "Siman" nağılında padşahın oğulluğa götürdüyü Siman pəhlivan isə öz oğlunu irəli çəkmək istəyən vəzir arasındakı mübarizədədən bəhs edilir. Vəzir padşahı da öz tərəfinə çəkib Simanı aradan götürmək istədilər. Lakin uzun mübarizədən sonra Siman işi bilib nəhayət padşahı öldürüb mal-mülkünü kasıblara paylayır. "İlyasın nağılı"nda İlyas, "Üç şahzadə də" qardaşlar, "Keçəl" nağılında yoxsul kəndli oğlu ədalətsizliklə aparılan mübarizədə qalib gəlirlər.

Həyatda fəal olmaq, haqq-ədalət uğrunda mübarizədə oğul qəhrəmanlarla bərabər qız qəhrəmanlar da müəyyən yer tutur. "Nardan qız", "Pişik və padşah", "Üç bacı" kimi nağılların qəhrəmanları el qızları və qadınlarıdır.

Fəal sosiallıq dastanlarımız üçün də son dərəcə səciyyəvi olub daha geniş lövhələrdə əks etdirilmişdir. Məşhur rus folklorçu alimi V.Proppun fikrincə hər bir dastan mübarizədən ibarət-

dir.(14) Həqiqətən də, hər bir dastanın məzmunu müəyyən bir amal uğrunda mübarizəyə həsr olunmuşdur. Əlbəttə, bu mübarizə hər bir tarixi dövrdə konkret tarixi səciyyəyə malik olmuşdur. Məsələn, "Dədə-Qorqud" dastanında xalq həyatının (oğuz tayfalarının) geniş gövhələrini görürük. Burada igidlər sadə, passiv həyat yaşamır, onlar həyat meydanında fəaldılar, mübarizə aparır, qəhrəmanlıq göstərirlər. İgidlik, mərdlik, qəhrəmanlıq onların idealıdır. Ümumilikdə bu, - oğuz tayfalarının həyatında mərkəzləşmiş hakimiyyətin yaranması prosesidir, bu, - xalqın özünü müdafiəsini təşkil olunması prosesidir, torpağın, ərazinin, mülkün qorunması prosesidir. Həyata belə fəal münasibət ənənəsinin "Qara Məlik", "Şah İsmayıl-Taclı", "Şah İsmayıl – Gülzar xanım", nəhayət "Koroğlu" kimi dastanlarımızda gücləndiyini görürük.

Sosioloqlar sosial fəallığın motivlərini iki qrupa bölürlər:

1. Maddi nemətlər (qida, geyim və mənzil şərait) tələbatı ilə olan sosial fəallıq.

2. Mənəvi tələbatlar motivləri əsasında meydana çıxan sosial fəallıq.

Ənənəvi xalq yaradıcılığında ikinci qrup tələbatlar (azadlıq, həqiqət, ədalət, humanizm, əxlaqi sərvətlər) əsasında meydana çıxan sosial fəallıq üstünlük təşkil edir.

Nağıl-dastan qəhrəmanları fəaliyyətli insanlardır. Onların fəaliyyəti məqsədyönlü olub öz dinamikliyi ilə seçilir, sosial davranışları yetginlik keyfiyyətinə malikdir. Onların fəaliyyət və davranışlarını şərtləndirən motivlər sosial yönümlüdür. Həmin motivlər sırasında sosial ədalət, azadlıq, bərabərlik kimi ideallar mühüm yer tutur. Həqiqət axtarışları, sədaqət, ləyaqət kimi sosial-etik yönümlü motivlər də o cümlədəndi.

Sosial sistemlər müxtəlif olsa da onları bir xətt - ümumbəşəri və yaxud da milli ənənəvi dəyərlər xətti birləşdirir. Ümumbəşəri planda həqiqət axtarışları müxtəlif sosial-iqtisadi sistemlərdə insan fəaliyyətlərinin spesifik formalarının öyrənilməsini nəinki rədd etmir, əksinə, onu zəruri edir. Tarixdə məhz ümumbəşəri, humanist məqsədlərin axtarışları sosial tərəqqinin göstəriciləri ola bilər.

Real tarixi şüurun əsasını təşkil edən insan fəaliyyətlərinin nəticələri həmişə sosial həyata və onun inkişafına təsir etmişdir. Buna görə də insanların fəaliyyəti və davranışları, eyni zamanda onların biliklərinin, məqsədlərinin, dəyər oriyentasiyalarının, tələbat və maraqlarının canlı təcəssümləridir.

E.Fromm göstərir ki, cəmiyyət o zaman təsirli fəaliyyət göstərir ki, onun üzvləri müəyyən davranış tipinə yiyələnmək, mövcud cəmiyyətin üzvləri kimi fəaliyyət göstərmək istəyirlər (15). Yuxarıda aparılan araşdırmalar xalq yaradıcılığında məhz bu istiqamətdə zəngin sosial fikir dünyası olduğunu göstərir.

## ƏDƏBİYYAT


1. Şirəliyev H.Y., Abbasov F.F. Politologiya. Bakı, "Bilik", 1993, s.193-194.

2. Бах: Шибутани Т. Социальная психология. М.,Прогресс, 1969; Краткий словарь по социологии М., Политиздат, 1988; Ж.Т.Тощенко. Социологоия, М.,Промитей, 1994.

3. Тощенко Ж.Т. Социология. М.,Прометей, 1994, с.229.

4. Пропп В.Я.Фольклор и действительность. М., 1976, с.156

5. Qorki M. Ədəbiyyat haqqında. Bakı, 1950, s.109

6. Bax: «Azərbaycan xalq pedoqogikasının bəzi məsələləri» Bakı, 1970, s.78-88

7. Cavad Heyət. Azərbaycan şifahi xalq ədəbiyyatı. Azərnəşr,1990, s.145

8. Azərbaycan nağılları. Bakı,Azərnəşr, 2-ci cild. 1970

9. Azərbaycan nağılları. Bakı, AzSSR EA, 4-cü cild

10. Azərbaycan nağılları. Bakı,Azərnəşr, 2-ci cild. 1970

11. Təhmasib M.H. "Bir neçə söz". Azərbaycan dastanları, 1-ci cild, Bakı, 1965, s.IX.
12. Vəliyev V. Ön söz "Bayatılar", Bakı, 1965,, s.4
13. Qasımov N. Azərbaycan xalq bayatıları. "Bayatılar" kitabı, Bakı, Azərnəşr, 1960, s.3
14. Бах: Пропп. Фольклор и действительность. М., 1976, с.102
15. Фромм Е. Душа человека. М., "Республика" 1992, с.20,323.
16. Бах: Ралугина А.А. Культурология. М., Центр, 1997, с. 214-222.



**Afaq Baloğlan qızı Rüstəmova, AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, sosial fəlsəfə şöbəsinin aparıcı elmi işçisi, filologiya elmləri namizədi.**

## Erməni terrorizmi

Erməni terrorizminin mənbəyi XIX əsrin sonlarında axtarılmalıdır. Tədqiqatlar indiki erməni terror dəstələrinin məqsədlərində, hücum obyektlərinin seçilməsində, istifadə etdikləri taktika və üsullarda XIX əsrin sonu, XX əsrin əvvəllərində mövcud olmuş sələfləri arasında çox böyük oxşarlıqların olmasını müəyyən etmişlər.

Türkiyə və onun sələfi Osmanlı imperiyası coğrafi mövqeyinə görə Qara və Aralıq dənizləri ərazilərini nəzarətdə saxlamaq imkanına malik idi. Bu strateji yollara nəzarəti əldə etmək arzusunda olanlar üçün Türkiyə Yaxın Şərqə sipər olmuşdur. Hər zaman bu istiqamətdə niyyətlərini həyata keçirmək istəyən ölkələr üçün ermənilər hərbi və siyasi müttəfiq hesab edilmişlər. Erməni terrorçu təşkilatları könüllü şəkildə öz xidmətlərini mütəmadi olaraq müttəfiqlərinə təqdim etmiş. Zərbələri üçün isə ilk növbədə Türkiyəni hədəf götürmüşlər.

Erməni terrorçuları sələfləri kimi bu gün də siyasi qətllər, partlayışlar, soyğunçuluqlar törədirlər. Bu gün erməni terrorçuları hər cür zorakılığa əl ataraq əcdadlarının Böyük Ermənistan xülyasını həyata keçirmək üçün ardıcıl işlər aparırlar.

Erməni tarixçisi N.Adontsun dediyinə görə: «Ermənistan kiçik Asiya ilə Xəzər dənizi arasındakı ərazidə yerləşən bir ölkədir». (Брокгауз-Ефрон. «Новый энциклопедический словарь». N.Adontsun verdiyi məqalədən). Göründüyü kimi, ermənilər çoxdan Azərbaycanın Xəzərə qədər ərazisini mənimsəyirdilər, lakin bunu izah etmirdilər ki, görəsən bəs azər-

baycanlılar əsrlər boyu harada yaşamışlar?! Bu yalnış tezis müasir dövrdə də ermənilər tərəfindən davam etdirilir və xəstə təxəyyülün nəticələrini həyata keçirmək üçün hər növ terror əməliyyatları törədirlər.

Həqiqət isə başqa cürdür. Elə həmin N.Adonts yuxarıda adı çəkilən məqalədə yazır ki, e.ə. VIII əsrdə Frakiyaya (Balkanlar) kimmerlər gəlmiş, özləri ilə burada yaşayan erməniləri götürmüşlər və Şərqə doğru Kiçik Asiyaya yönəlmişlər. Herodot (e.ə. V əsr) erməniləri Frakiyadan gəlmə hesab edir. Evdoks (e.ə. III əsr) güman edir ki, ermənilər Friqiyadan çıxmışlar, dil cəhətdən də friqiyalılara daha yaxındırlar.

M.Abeqyan əsərində deyir: «Erməni xalqının mənşəyi, Ermənistanda nə zamandan məskun olmaları, haradan və nə yollarla buraya gəlmələri, buraya gəldikdən və bundan əvvəl hansı tayfalarla əlaqədə olduqları, indiki Ermənistan ərazisinə kimin və nə cür ermənilərin dilinə, etnik tərkibinə təsir göstərmələri barədə bizdə dəqiq və müfəssəl məlumat yoxdur». «История древнеармянской литературы». Ереван, 1975, с. 11)

Həmin əsərdə M.Abeqyan fikrini belə davam etdirir: «Bir çox söz və hissəciklər, eləcə də qrammatik formalar hələ izah olunmayıb. Görünür bunlar erməni tayfalarının qərbdə Hind-Avropa dillərində danışmayan tayfalarla ermənilərin ünsiyyəti zamanı mövcud olan dil formalarıdır». (M.Abeqyan. Göstərilən əsəri, səh. 13).

Elə yenə də həmin əsərdə M.Abeqyan yazır: «Güman edilir ki, eramızdan əvvəl ermənilər Avropada məskun olmuşlar. Oradan onlar Kiçik Asiyaya köç etmişlər. Hələ məlum deyil ki, Kiçik Asiyada və Kiçik Ermənistanda çoxəsirlik yaşayışları dövründə ermənilər hansı qəbilələrin təsirlərinə məruz qalmışlar. (Yəni Zaqafqaziyanın hüdudlarından kənarda).

Erməni tədqiqatçıları bir sıra əsərlərində Ermənistanın indiki ərazisinin əmələ gəlməsinin konkret yollarını və mexanizmini göstərmişlər. Zaqafqaziyada necə, nəyin hesabına erməni



əhalisinin artmasının səbəblərini aydınlaşdırmağa çalışan Ermənistan EA akademiki S.Q.Ağayan «Народы Закавказья в борьбе за присоединение Восточной Армении к России» (История СССР, 1979, №3, с. 47-48) məqaləsində qeyd edir ki, «Şərqi Ermənistanın 1832-ci ildə əhalisinin sayı 164. 450 nəfər olmuşdur. Bunlardan ermənilərin sayı 82. 317 nəfər olmuşdur (qalanları azərbaycanlılar, kürdlər, aysorlar). Yerli erməni əhalisinin ümumi sayı 25. 151 nəfər, İrandan köçürülənlər- 35. 560 nəfər, Türkiyədən köçürülənlər- 21. 600 nəfər (И.Шопен «Исторический памятник состояния Армянской области в эпоху ее пирсоединения к Российской империи. СПБ., 1852, с. 639-642).

Ermənilərin gələcək Ermənistan SSR-in sərhədlərinə köçürülməsi prosesi Şərqi Ermənistanın Rusiyaya birləşməsindən sonra baş vermişdir. (А.Ерицян. Католикосат всех армян и армяне Кавказа за XIX век. Часть А. (1800-1832), с. 338).

Digər bir fikir isə Ermənistan SSR EA müxbir üzvü Q.A.Qaloyana məxsusdur. («Исторические корни русской ориентации армянского народа и прогрессивное значение приеоединения Восточной Армении к России». «Вопросы истории», 1972, №9, с. 12). Məqalədə deyilir: «Şərqi Ermənistan İrandan azad edildikdən sonra Rusiyaya 40 min erməni, 1828-1829-cu illər rus-türk müharibəsi qurtardıqdan sonra isə Qərbi Ermənistandan (Türkiyənin ərazisini nəzərdə tuturlar) Şərqi Ermənistana 90 mindən çox erməninin köçdüyü bildirilir.

Beləliklə, XIX-XX əsrlərin tarixi ilə məşğul olan erməni tədqiqatçıları Şərqi Ermənistanın Rusiyaya birləşməsi ərəfəsində burada erməni əhalisinin sayının çox cüzi miqdarda olduğunu etiraf edirlər. Başqa sözlə, erməni alimləri özləri etiraf edirlər ki, ermənilər Zaqafqaziyaya əsasən XIX əsrdə köçüb gəlmişlər, yəni, bu region Rusiya tərkibinə daxil olduqdan sonra. Köçüb gələnlərin sayı əhəmiyyətli dərəcədə çox olmuşdur. Əgər XIX əsrin sonunda ermənilər bir neçə on min nəfər idi-

lərsə, 100 ildən sonra, XX əsrin əvvəlində onların sayı artıq 1. 530. 547 nəfər idı. (Bax: Новый Энциклопедический словарь Брокгауза- Ефрона).

Erməni xislətinin xüsusiyyəti belədir ki, hansı torpağa ayaq basdılar, o torpağı özününkü hesab edirlər. Əbəs deyil ki, A.S.Qriboyedovun «Ermənilərin İrandan bizim torpaqlara (Zaqafqaziya nəzərdə tutulur) köçürülməsi məndə qorxu hissi yaradır, çünki erməniləri birinci dəfə hansı torpağa buraxdınsa, ömürlük onu mənimsəyirlər» məzmunlu məktubunu yada salan hər bir kəsi qisasçı daşnak ideoloqları cəzalandırırlar.

Beynəlxalq terrorizm üzrə ekspertlər deyirlər ki, bu günkü erməni terrorçu təşkilatları XIX əsrdə yaşamış sələflərinə sadiq qalaraq müasir tarixlərinin böyük bir hissəsini saxtalaşdırmış, keçmişə proyeksiya etmiş və onu əfsanəyə çevirmişlər.

«Soyqırım» mövzusu bu əfsanənin əsas istiqaməti kimi seçilmişdir və bunun köməkliyi ilə onlar öz zorakılıqlarına bəraət qazandırmağa çalışırlar. Bu «tarixi qisas» mövzusu ilə erməni ekstremistləri həm ictimaiyyətdə ümumi rəhm hissi yaratmaq, ən qorxulusu isə ermənilərdə qisas hissini alovlandırmaq, onları terrorçuların cərgələrinə cəlb etmək üçün istifadə edirlər.

Birinci dünya müharibəsindən sonra erməni İnqilabi Federasiyası (daşnaklar) terrorçu sistem yaratdı. Daşnak terrorçu sistemi qarşısında məqsəd qoydu- əcdadlarına törədilmiş «soyqırıma» qarşı qisas almaq. 1921-1922-ci illərdə bu terrorçu təşkilatın üzvləri tərəfindən Osmanlı imperiyasının 5 vəzifəli şəxsi qətlə yetirilmişdir. Bu gün Erməni İnqilabi Federasiyası tərəfindən yaradılmış Erməni İnqilabi Ordusu ABŞ-da, Kanadada, Avropada zaman-zaman qətllər törətməkdə davam edirlər.

Daşnakların müasir mərhələdə əsas məqsədləri proqram şəklində belə əks edilir: «Biz, Sevr müqaviləsinin əsasnaməsini mübarizəmizin əsas istiqaməti kimi təkidlə həyata keçirməliyik».



1920-ci ilin avqustunda bağlanmış Sevr müqaviləsinin məğzi Osmanlı İmperiyasının təslim olmasını, Türkiyənin böyük bir hissəsinin zorla alınmasını nəzərdə tutur. Bu sənədlə ermənilər irəli sürdükləri ərazi iddialarına qanuni don geyindirməyə çalışırlar, lakin bu materiallar bu gün yalnız tarixi baxımdan müəyyən əhəmiyyət kəsb edə bilər. Atatürkün başçılığı ilə Türkiyə xalqı azadlıq uğrunda mübarizəyə başlamış və nəticədə Anadolu tezliklə xarici müdaxiləçilərdən təmizlənmişdir. 1923-cü ildə Sevr müqaviləsini ləğv edən Lozanna müqaviləsi bağlanmışdır. Bu müqaviləyə görə Türkiyənin yeni sərhədləri müəyyən olunmuşdur.

Yanlış tarixə sitayiş erməni millətçiliyinin xarakterik xüsusiyyətidir, bu da zaman-zaman erməni terrorizminə qida verən mühit olmuşdur. Daşnakların məqsədi budur: «... ermənilərin qədim, milli torpaqlarında yaşamaq və onu idarə etmək hüquqları tanınsın». Ümumilikdə, bu təşkilatın məqsədi əsas üç istiqamətdə ifadə tapır:

a) tarixdə erməni soyqırımı faktı tanınsın;

b) Türkiyə tərəfindən ermənilərə vurulan zərər kompensasiya edilsin;

v) ermənilər qədim torpaqlarına qaytarılsın.

Daşnakların rəhbərlik etdikləri müxtəlif terrorçu təşkilatların bir fəaliyyət «strategiyası» var- hər cür üsullarla türkləri məhv etmək.

100 illik fəaliyyətləri müddətində erməni terrorçu qrupları öz qurbanlarının seçilməsində ağına-bozuna baxmamışlar. Onlar öz zorakılıqlarında tək türklərlə kifayətlənmirlər, çağırışlarına iltifatla yanaşmayan hər kəs qəzəbə düçar olur. Amerikalılar, portuqalıyalılar, fransızlar, kanadalılar, isveçrəlilər və yüzlərlə müxtəlif millətlərin nümayəndələri bu zorakılıqların haqsız qurbanı olmuşlar. Məqsədlərinə çatmaqda əgər ermənilər manеə olursa, onları da öldürməkdən çəkinmirlər. Bü cür

terror kampaniyası erməni ictimaiyyətini qorxutmaq və onları susmağa məcbur etmək üçün şüurlu fəaliyyətdir.

Ermənilərin terror əməllərinə Qərb mətbuatında müxtəlif adlar verib və buna müəyyən mənada bəraət qazandırmağa çalışanlar var, lakin terrorizm- terrorizmdir və beynəlxalq terrorizmin bir hissəsi kimi qəbul edilməlidir.

Erməni terrorçuları, demək olar ki, bütün ölkələrdə fəaliyyət göstərirlər, lakin əsas bazaları Livandadır, xüsusilə Beyrutda. Burada erməni icması narkotiklərin daşınmasında müstəsna yerlərdən birini tutur.

Dünya terrorizm üzrə ekspertləri təsdiq etdilər ki, erməni terrorçuları öz ölüm təşkilatlarını pulla təmin etmək üçün narkotiklərdən əldə edilən gəlirlərdən istifadə edirlər. 1981-ci ildə İsveç polisi bir qrup erməni narkotik qaçaqmalçılarını yoxlayan zaman məlum olmuşdur ki, onların ASALA terrorçu qrupu ilə əlaqələri var.

Bu gün işğal olunmuş torpaqlar, nəzarətsiz zonalar narkobiznesin inkişafında və artmasında misilsiz rol oynayır. Azərbaycanın ermənilər tərəfindən işğal olunmuş ərazilərində narkotik maddələr yetişdirilir. Nəzarətsiz qalmış torpaqlarımızda ermənilər bildiklərini edirlər. «... Qubadlı və Zəngilan ərazilərindən İranın içərilərinə nüfuz edən narkotik maddələrin aylıq həcmi 20,5 kiloqramdır...» (Bax, Tehran «Serah-e-Pastaran» bülleteni, 2001, nömrə 4, səh. 12). İşğal olunmuş ərazilərimizdə sərhəd zolaqları boyunca narkotik maddələrin daşınması məsələsi də planlı şəkildə qurulub.

Hamıya məlumdur ki, 1975-ci ildə yaradılmış ASALA terrorçu təşkilatlarının strukturu erməni terrorçu təşkilatlarının ümumi təcrübəsinə müvafiq tərtib edilmişdir. ASALA hesab edir ki, «erməni torpaqlarının azad edilməsinin bir yolu varzorakılıq». Bu təşkilatın aktivlərini onların terrorçularının qurbanlarının kim oması maraqlandırmır. Bunlar kişi də ola



bilər, qadın da, uşaq da, qoca da. Türk də, qeyri türk də. Düşmən onların əsas nişangahıdır və o məhv olmalıdır.

ASALA-nın təşkilatçısı və rəhbəri Akop Akopyan öz karyerasını 1972-ci ildə Münhendə Olimpiya oyunları zamanı İsrail idmançılarına qarşı törətdiyi vəhşi qırğınla başlayıb. ASALA-nın dünyada fəaliyyət göstərən müxtəlif terrorçu təşkilatları ilə əlbir törətdiyi terror aktlarının sayı-hesabı yoxdur. Bu sırada türk vətəndaşlarına qarşı törədilən vəhşiliklərin xüsusi çəkisi olduqca böyükdür.

Erməni terrorçularının vəhşilikləri Birləşmiş Ştatların güclü reaksiyasına səbəb oldu. Orlidə (Fransa) türk təyyarəsinə basqından sonra 8 nəfər (1nəfər Amerika vətəndaşı) öldürülmüş, 60 nəfər yaralanmışdır. Amerikanın o zamankı prezidenti Reyqan demişdir: «Heç bir real və ya uydurulmuş inciklik bu gün baş verən dəhşətə bəraət qazandıra bilməz. Yaxınlarda mən digər ölkə başçıları ilə də belə qeyri-insani vəhşiliklərin sivil cəmiyyətdən kənarlaşdırılması üçün tədbirlərin görülməsi haqqında danışıqlar aparacağam». (Армянский геноцид. Миф и реальность. Б., Азернешр, 1992).

Təəssüflər olsun ki, Amerika- erməni və Avropa- erməni təşkilatları ya bu terror aktlarını açıq şəkildə müdafiə edirlər, ya da bu vəhşiliklərə bu və ya digər şəkildə bəraət qazandırmağa çalışırlar.

Los-Ancelesdə dərc olunan həftəlik «Asbares» qəzeti türk diplomatlarının vəhşiliklə qətlə yetirilməsini təqdir edir və hesab edir ki, onlar erməni soyqırımı faktını inkar etdikləri üçün haqlı olaraq terroristlərin hücumlarına məruz qalırlar.

ASALA Qərbi Avropada Yaxın Şərq terrorçu təşkilatları ilə birgə bir sıra terror əməliyyatları həyata keçirmiş, 1986-cı ildə Fransanın paytaxtı Parisi lərzəyə gətirmiş bir sıra partlayışlar törətmişlər. Nəticədə 10 nəfər ölmüş və 150 nəfər yaralanmışdır. Məqsəd isə Fransa hökumət orqanlarını terrorçu Varoyan Qarabedyanı azad etməyə məcbur etmək olmuşdur.

Amerika mətbuatının məlumatlarına əsasən ASALA-nın «Hezbollah» terrorçu təşkilatı ilə sıx əlaqədə olması aşkar edilmişdir.

Bir sözlə, Qərb ölkələrinin beynəlxalq terrorizmə qarşı mübarizəsi müəyyən nəticələr verməyə başlayanda terrorçu təşkilatlar öz qüvvələrini koordinasiya etmək zərurətinin yarandığını hiss edirlər.

Məlumdur ki, livanda hərbi əməliyyatlar başlayandan sonra ASALA-nın mənzil qərargahı Afinaya köçürülmüşdür. Mənzil-gərargah bu gün də orada yerləşir və bu ən qəddar erməni terrorçu təşkilatı yunan hökumətinin əhəmiyyətli dəstəyinə malikdir. ASALA-nın keçirdiyi konfranslarda Yunanıstanın bir neçə görkəmli siyasətçisi, eləcə də kabinetin üzvü olan Papandreonun oğlu iştirak etmişlər.

1987-ci ilin iyulunda Türkiyə Yunanıstana qarşı erməni terrorizminə tərəfdar olduqları haqda ittiham irəli sürdü. Səbəb isə, erməni terrorçusu Krikor Levonyana müalicə üçün sığınacaq verilməsi olmuşdur.

Yunanıstan hökumətinin erməni və digər beynəlxalq terrorçu təşkilatları ilə bu şəkildə birləşməsini və belə siyasətin törədəcəyi təhlükəni nəzərə alaraq ABŞ dövlət departamenti Yunanıstana ciddi xəbərdarlıq göndərməyə məcbur olmuşdur. Eyni zamanda ASALA-nın Kiprdə də import-eksport kompaniyası, dini təhsil verən institutlar adı altında fəaliyyət göstərdiyi məlumdur.

Bu gün Azərbaycan da ermənilərin terrorçu və təcavüzkar siyasətinə məruz qalmışdır.

Qarabağda və Ermənistan ərazisində fəaliyyət göstərən «Çeqakron», «Yevkrapa», «Tiqranqilap» («Astvaçaqinilər»). «Erməni Azadlığı uğrunda hərəkat», «Artsax uğrunda mübarizə ittifaqı» və s. kimi terrorçu təşkilatlar Yerevanda və Xankəndində mərkəzləşmiş Koordinasiya Şurası yaradıblar. Bu Şura ASALA beynəlxalq erməni terrorçu təşkilatının Fransa



bürosuna bağlı bir orqan kimi fəaliyyət dairəsini genişləndirməklə məşğul olur. («Respublika» qəzeti, 2002-ci il, № 226, 562).

11sentyabrda Amerikadabaş verən terror aktlarından sonra dünya ictimaiyyətinin terrorizmə qarşı münasibəti dəyişib. Bəşəriyyət başa düşüb ki, terrorçunun nə vətəni var, nə milləti.

Danılmaz fakt isə birdir: bu günkü terrorçu təşkilatlar o zamana qədər müvəffəqiyyətlə fəaliyyət göstərəcəklər ki, onların bəhanələri bəzi ölkələr tərəfindən təqdir və təsdiq edilməyəcək. Yalnız bütün sivil millətlərin birgə əməkdaşlığı sayəsində beynəlxalq terrorizmin kökü kəsilə bilər. Bunun üçünsə terrorçuların hər cür bəhanələri və qəddarlıqları ittiham və rədd edilməlidir.

**Dilqəm Yunis oğlu İsmayılov,**
**Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, sosial-fəlsəfə şöbəsinin böyük elmi işçisi, fəlsəfə elmləri namizədi**

## Demokratikləşmə cəmiyyətin təkmilləşdirilməsinin mühüm amili kimi

Müxtəlif ölkələrdə avtoritar diktatura formasından demokratiyaya keçid prosesləri spesifik xüsusiyyət daşıyır. Bu keçidin bir sıra ümumi əlamətlərini yalnız müqayisəli təhlil metodu ilə üzə çıxarmaq mümkündür. İspaniyada demokratikləşmə proseslərinin nəzəriyyəçilərindən və siyasi rəhbərlərindən biri F.Qonsales yazırdı: «...düşünmürəm ki, avtoritar diktatura formasından demokratiyaya keçidin dünya miqyasında qəbul edilmiş hansısa universal modeli olsun. Siyasi keçid zamanı siyasi dəyişikliklərin ümumi demokratiya elementlərindən bəhs

etmək daha düzgün olardı». Qonsales avtoritarizmdən demokratiyaya keçidin aşağıdakı elementlərini qeyd edir: a) cəmiyyətdə dəyişikliklər etmək arzusunun və bu dəyişikliklər üçün cəmiyyətin əksər üzvlərinin iradəsinin olması; v) cəmiyyət üzvlərinin danışıqlara, qarşılıqlı razılığa gəlməyə hazır olması.

Bu elementlərin hansı şəraitdə formalaşa biləcəyini izah etmək üçün XX əsrin 70-ci illərində İspaniyada frankoçu rejimin iflası ərəfəsində ölkədə yaranmış dərin böhranın əlamətlərini təhlil etmək lazımdır. O zaman İspaniyada yaranmış böhran dövlət institutlarının və legitimliyin böhranı idi. Ölkədə mövcud rejimdən kütləvi narazılıq yaranmışdı və bu zaman Avropadakı tətil hərəkatının ən yüksək səviyyəsi də məhz İspaniyada olmuşdur. Milli hərəkat güclənmiş (basklar ölkəsində, Kataloniyada, Qalisiyada), rejimə müxalif olan siyasi bloklar və partiyalar yaranmışdı. Eyni zamanda iqtisadi konfliktlər də siyasi xarakter daşıyırdı. İspaniyada siyasi qüvvələrin qarşılıqlı münasibətində böhran şəraiti üçün xarakterik olan özünəməxsusluq - sağ və sol qüvvələrin tarazlığı meydana gəlmişdi . Belə bir şərait isə bu və ya digər qüvvənin güc tətbiq etməsini istisna edirdi. Böhran şəraitində əksəriyyətin siyasi dəyişikliklər üçün arzusu formalaşmış və demokratik dəyişikliklər üçün iradəsi kristallaşmışdı. Eyni zamanda cəmiyyətin əksəriyyəti tərəfindən müdafiə olunan yeni siyasi elita formalaşmışdı. Bütün bunlarla yanaşı, köhnə siyasi və ideoloji dəyərlər öz əhəmiyyətini və rolunu itirmiş, yeni dəyərlər meydana çıxmışdı. Beləliklə, cəmiyyətdə avtoritarizmdən demokratiyaya keçid prosesinin mühüm əlamətlərindən biri olan siyasi böhran başlanmışdı.

İspan təcrübəsi göstərdi ki, böhran şəraiti demokratiyaya keçid üçün o zaman başlanğıc olur ki, həmin ölkənin əhalisinin müəyyən siyasi mədəniyyəti və uyğun dəyişikliklərə qabiliyyəti olsun. Xüsusilə də əgər söhbət təkamül keçidindən gedirsə. Mədəniyyət elementləri dedikdə, hər şeydən əvvəl, əksəriyyətin



iradəsinə, cəmiyyətin hər bir üzünün öz maraqlarını qorumasına və öz iradəsini ifadə etməsinə hörmətlə yanaşmaq nəzərdə tutulur. Qarşılıqlı münasibətlərdə dözümsüzlük, düşmənçilik, barışmaz antaqonizm cəmiyyəti ayrı-ayrı sosial-siyasi qütblərə bölür, bu da demokratik dəyişikliklər naminə siyasi qüvvələr arasında danışıqların və kompromislərin əldə edilməsi imkanlarının üzərindən xətt çəkir.

Əgər kütlələrin ictimai şüuru «ağılla yox, üzbə-üz mühakimə etmək», yəni zorakı vasitələrə üstünlük verilməsi səviyyəsindədirsə onda məqsədyönlü siyasi dəyişiklikləri həyata keçirmək mümkün olmur.

Cəmiyyətin siyasi böhranına ayrı-ayrı dəyişikliklər etməklə və köhnəlmiş rejimin güzəştləri ilə yox, sistemdə keyfiyyət dəyişikliklərini həyata keçirməklə son qoymaq olar. Avtoritarizmdən demokratiyaya siyasi keçidin əsas məzmunu aşağıdakılardır: - demokratik institutlar və normalar yaratmaq, vətəndaşların hüquq və azadlıqlarını genişləndirmək yolu ilə siyasi sistemi islah etmək; məhdud miqyasda keçirilmiş islahatları daha da dərinləşdirmək, cəmiyyət həyatının bütün sahələrini əhatə edən islahatlar keçirmək və nəticədə həqiqi islahatçı qüvvələrin hakimiyyətə gəlməsi və möhkəmlənməsinə nail olmaq.

Avtoritarizmdən demokratiyaya keçid prosesinin öz mərhələləri vardır: islahatların keçirilməsinə mane olmaq iqtidarında olmayan mövcud rejim çərçivəsində islahatların aparılması: bilavasitə avtoritar rejimin dağılmasına gətirib çıxaran islahatların keçirilməsi. Bu mərhələlər arasındakı dövrdə siyasi institutlar əleyhinə xalqın açıq kütləvi çıxışları kimi siyasi böhranın da baş verməsi mümkündür . Sovet blokuna aid olan Şərqi Avropa ölkələrində məhz bu cür olmuş və indi də həmin proses davam etməkdədir. Məlumdur ki, 2004-cü ilin dekabr ayında Ukraynada demokratik qüvvələrin seçkilərdə qələbə çalması və hakimiyyətə gəlməsi bu prosesin tərkib hissəsidir.

«Narıncı inqilab» kimi tarixə düşmüş Ukrayna hadisələrini Avropada «üçüncü dalğa» kimi də qələmə verirlər. İkinci dünya müharibəsi nəticəsində faşizmin məhv edilməsi ilə Avropada başlamış birinci azadlıq dalğasını keçən əsrin 80-ci illərində Polşada «Solidarnost»un qələbəsi, Çexoslovakiyada «məxməri inqilab», sonra isə Berlin divarlarının yıxılması ilə ikinci azadlıq dalğası əvəz etdi. Bu ikinci dalğa sovet rejiminin dağılması ilə nəticələnsə də, heç də keçmiş imperiyanın yerində meydana gəlmiş müstəqil dövlətlərin hamısında demokratik rejimlərin yaranması ilə nəticələnmədi. Daha doğrusu, 90-cı illərin əvvəllərində başlayan demokratiya dalğası Şərqi Avropadan və Baltik ölkələrindən bu yana keçmədi. Azərbaycanlılar, gürcülər, ukraynalılar, beloruslar, özbəklər, qazaxlar və türkmənlər.Baltik ölkələrinin xalqları kimi müstəqill və ik uğrunda mübarizə aparsalar da, bu ölkələrin xalqların nail olduğu əsl azadlığa qovuşa bilmədilər. Belə ki, formal müstəqillik əldə etmiş respublikaların əksəriyyətində seçkilər keçirilsə də avtoritar rejimlər və ona başçılıq edən hökmdarlar, diktatorlar dəyişmədi, bütün səviyyələrdəki seçkilərdə xalqın səsi saxtalaşdırıldı və oğurlandı, maraqları isə ayaqlar altında tapdalandı. Lakin xalqın səsini oğurlamaq ənənəsi 2003-cü ildə Gürcüstanda, 2004-cü ildə isə Ukraynada baş tutmadı. Həm Gürcüstan, həm də Ukrayna xalqı demokratiyanı müdafiə etmək üçün dinc şəkildə küçələrə çıxdı və qalib gəldi. Heç şübhəsiz, Gürcüstandakı «qızılgül inqilabının» («məxməri inqilabın») , həm də Ukraynadakı «narıncı inqilabın» əks-sədasının digər avtortar rejimlərdə eşidiləcəyi şübhəsizdir. Çünki digər postsosialist respublikalar da demokratiyanı başa çatdırmağa məhkumdurlar.

Həm siyasi milli böhranın, həm də islahatçı prosesin konkret xüsusiyyətləri bu və ya digər ölkə üçün xarakterik olan ictimai-siyasi şəraitin spesifikliyi ilə müəyyən olunur. Keçid prosesinin ümumi əlamətləri həm avtoritar və həm də totalitar



rejimlər şəraitində müxtəlif cür olur. Bu da təbiidir. Totalitar rejim mahiyyətcə avtoritar rejimdən fərqlidir. Totalitar rejim şəraitində vətəndaş cəmiyyətini dövlət ört-basdır edir. Dövlət insanların bütün həyat sahələrinə nəzarət etməyə çalışır, vətəndaşları eyni cür sosial münasibətlərə girməyə məcbur edir və həmin münasibətlərə dövlət ideologiyası formasını verir. Avtoritar rejimdə isə dövlətin cəmiyyət üzərindəki nəzarəti bir az yumşaqdır. Avtoritar rejimlərdə hakim elita eynicinsli deyil, həm bu elita içərisində, həm də cəmiyyətdə məhdud plüralizm mümkündür. Sosial-iqtisadi sistemlərin dəyişilməsi ilə yaranmış demokratik rejimlərdə (Şərqi Avropa ölkələrində, keçmiş SSRİ respublikalarında) siyasi proseslərin fərqli cəhətləri daha çox olmuşdur. Beləliklə, avtoritarizm və totalitarizmi əvəz etmiş demokratik rejimlərin mümkün müxtəlifliyi siyasi keçid parosesləriniin ümumi əlamətlərindən biridir.

Konkret tarixi şəraitdən, cəmiyyətin başlanğıc siyasi vəziyyətinin xarakterindən, vətəndaşların siyasi mədəniyyətinin xüsusiyyətlərindən asılı olaraq plüralist, elitar, korporativ və ya başqa oxşar demokratiyalar yarana bilər. Məsələn, elitar demokratiya əhalinin geniş kütlələrinin dövlət həyatının idarə olunmasında aktiv iştirak etmək üçün hazırlığının olmadığı şəraitdə yaranır. Nəticədə elitar qruplar, intellektual elita, bürokratiyanın islahatçı əhval-ruhiyyədə olan hissəsi və iqtisadiyyat xadimləri siyasi amil kimi çıxış edir. Demokratiyanın plüralist forması sosial strukturu bu və ya digər dərəcədə təbəqələşmiş, çoxpartiyalılıq elementlərinə malik cəmiyyətdə bərqərar olur . Bu cür əlamətlərə Şərqi Avropanın keçmiş sosialist ölkələri məxsus idi. Əgər siyasi böhran inqilabla nəticələnirsə, güc yolu ilə çevriliş baş verirsə totalitar rejim demokratiya elementlərinə (konstitusiya, parlament seçkiləri və s.) malik və monarxiya formasında olan avtoritar sistemlə əvəz olunur .

Cəmiyyətin demokratiyaya keçidi yeni dövlət hakimiyyətinin mexanizmlərinin institusionallaşması ilə möhkəmlənir (bu da siyasi keçid prosesinin mühüm əlamətlərindən biridir). İnstitusionallaşmaya parlamentarizm və ya prezident demokratiyası institutlarının bərqərar olması, hakimiyyət bölgüsünün qanunvericiliyinin hazırlanması, hakimiyyətin hər üç qolunun müxtəlif səviyyələrdə uyğun strukturlarının yaradılması və s. aiddir. Yeni hakimiyyət sisteminin institusionallaşması legitimliyi təmin edən konstitusiya ilə möhkəmləndirilməlidir. Demokratik rejimin institusional və konstitusion bərqərar olması dövlət aparatının islah olunmasından ayrılmazdır, çünki bu zaman hakim elitanın dəyişilməsi baş verir.

Demokratiyaya keçid vətəndaş cəmiyyətinin uyğun institutlarının formalaşmasını, əhalinin müxtəlif təbəqələrinin siyasi proseslərdə iştirakını təmin edə bilən ictimai-siyasi təşkilatların yaradılmasını tələb edir. Vətəndaş cəmiyyətinin möhkəmlənməsi prosesində onun müstəqilliyi artdıqca ölkə yeni rejimə uyğunlaşır və «keçid dövrünün qanunauyğunluğu» problemi həll olunur. Eyni zamanda əvvəlki elitanın - bürokratiyanın müxtəlif təbəqələrinin əksəriyyətinin, hərbi dairələrin, siyasi müxalifətin yeni rejimə loyallığı əldə olunur. Siyasi və ictimai qüvvələrin möhkəmlənməsi yeni dəyərlər, yeni ideologiya əsasında baş verir. Həm də vətəndaş cəmiyyətinin inkişafı ilə ideyaların, baxışların, mövqelərin müqayisəsi üçün şərait yaranır. Təbiidir ki, yeni rejim yalnız siyasi hüquq və azadlıqları deyil, həm də çoxluğun maraqlarına cavab verən siyasi kursu həyata keçirirsə, həyat şəraitinin bütün kompleksinin nəzərəçarpacaq dərəcədə yaxşılaşdırılmasına nail olursa, onda xalqın əksəriyyətinin dəstəyini əldə edir. Daim bu cür dəstəyə nail olmaq isə demokratik quruluşun çox mühüm əsasıdır.

Demokratiyaya keçid birdəfəlik akt deyil, əksinə, kifayət qədər uzunmüddətli prosesdir. Müxtəlif ölkələrdə bu keçid davamlılığına görə eyni müddətli olmur. Şərqi Avropa, keçmiş sovet respublikaları, o cümlədən Azərbaycanın demokratiyaya keçid dövrü praktikasının analizi onun xüsusiyyətlərini aşkar etməyə imkan verir.



Bəzi Rusiya müəllifləri göstərir ki, Rusiyada demokratiyanın bərqərar olması 1991-ci ildən deyil, hələ 1917-ci il oktyabr inqilabından başlamışdır. Onlar oktyabr inqilabını bir qrup sui-qəsdçilərin «bolşevik çevrilişi» kimi qələmə verənlərlə razılaşmır və göstərir ki, oktyabr inqilabı Böyük xalq inqilabı olmuşdur. Lakin əslində oktyabr çevrilişi 1917-ci il fevral burjua-demokratik inqilabının nailiyyətləri üzərindən xətt çəkmişdir. Məsələn, Zinovyev qeyd edir ki, oktyabr inqilabı ziddiyyətli siyasi sistem yaratmışdı və bu sistemdə bütün ölkəni əhatə edən antidemokratik hakimiyyət mövcud idi. SSRİ-nin inkişafının müxtəlif dramatik mərhələlərində gah demokratik meyllər canlanmış, gah da məhdudlaşmışdı. Sovetləri öz təbiətinə görə demokratik hakimiyyət orqanı kimi qələmə verən A.Zinovyev qed edir ki, kommunist cəmiyyətindəki ilk yığıncaqlar sosial iyerarxiyanın aşağı pilləsində duran fərdlər üçün demokratiyanın ən ali formasının mahiyyəti idi. Guya ölkə əhalisi ilk yığıncaqlar vasitəsilə fəallıq nümayiş etdirmiş, öz partiya nümayəndələri vasitəsilə dövlət orqanları üzərində nəzarətini həyata keçirmişdir. Siyasi sistemin yuxarı səviyyələrinə keçiddə isə ilk kollektivlərin ictimai-siyasi xarakteri yox olmuşdur. Getdikcə partiya-dövlət hakimiyyətinin rolu mütləqləşdirilmiş və zaman keçdikcə sistemin islahatına zərurət meydana çıxmışdır.

Ümumiyyətlə, keçmiş sovet imperiyasında inkişafın yeni yollarının axtarılmasına Sov.İKP XX qurultayından sonra, 50-ci illərin ikinci yarısında başlanılmışdır. XX əsrin 50-60-cı illərinin qovuşuğunda dəyişikliklərin iki alternativi üzə çıxmışdı. Birinci variant -sosializm çərçivəsində sovet sistemini liberallaşdırmaq, zamanın tələbinə uyğun olaraq onu dəyişdirmək idi. İkinci variant isə dövlət sosializminin sovet siste-

mini sındırmaqdan, Qərbin liberal-demokratik modelinə uyğun yeni sistem yaratmaqdan ibarət idi. Alternativ ikinci variantın mümkünlüyünün öz subyektiv mənbələri və səbəbləri var idi. Bu, ölkənin öz iqtisadi, texniki və siyasi inkişafına görə Qərb ölkələrindən və ABŞ-dan geri qalması ilə bağlı idi. İqtisadiyyatın idarəetmə sistemi elmi-texniki inqilabın tələbatlarına uyğun gəlmirdi. Ölkə daxilində avtoritar partiya-dövlət rejiminə müxalifət yaranmışdı, Stalin cinayətlərinin üstü açılmışdı. Qərbin SSRİ-yə qarşı apardığı soyuq müharibənin neqativ rolu və hakim dairənin sovet sisteminin dünya birliyindən təcrid etmək siyasəti getdikcə güclənirdi.

Hakim qüvvələrin liberallaşdırma imkanlarını və sovet sisteminin islah olunmasını reallaşdırmaq cəhdi kommunist partiyasının XX qurultayından sonra nəzərdən keçirildi. Məlumdur ki, həmin vaxt stalinizmin ictimai tənqidi başlamış, kütləvi siyasi repressiyalara son qoyulmuş və əvvəllər qeyri-qanuni repressiyaya düçar olmuş vətəndaşlara bəraət verilmişdi. O vaxtki partiya rəhbərliyinin çox mühüm siyasi addımı proletariat diktaturası doktrinasından imtina edilməsi və sovet dövlətinin ümumxalq xarakteri haqqında tezisin qəbul edilməsi oldu.

«Yumşaq demokratiya» dövründə cəmiyyətdə yaranmış «altmışlar» adlanan ideya cərəyanında sovet cəmiyyətində dəyişikliklərə tələbatın yetişdiyini hiss edən və bu cəmiyyətdə demokratik dəyişikliklərin zəruriliyini hamıdan əvvəl dərk edən şairlər, rəssamlar, yazıçılar, filosoflar, tarixçilər, partiya fəalları təmsil olunmuşdu. Gələcək yenidənqurma təşəbbüslərini özündə əks etdirən çoxlu ideyalar yaranmışdı. XX əsrin 50-ci illərinin sonu-60-cı illərinin əvvəllərini əhatə edən dövr heç şübhəsiz ki, ictimai-siyasi fəallığın artması dövrü idi.

Lakin bu deyilənlər heç də hakim dairələrin siyasi sistemdə dərin dəyişikliklərin həyata keçirilməsi zərurətini dərk etməsindən xəbər vermirdi. Konservativ meyl bu zaman hələ güclü idi. Siyasi konservatizm avtoritar rejimin dayağı idi.



İctimai şüur hələ dövlətdə, partiyada və bütün ölkədə keyfiyyət dəyişikliklərini anlamaq üçün yetişməmişdi. Buna görə də böhran hallarının spontan artımı davam edirdi.

1991-ci il avqust hadisələrindən sonra baş vermiş dəyişikliklər demokratiya və avtoritarizmin müxtəlif alternativlərini üzə çıxardı. Keçmiş sovet imperiyasının siyasi varisi olan Rusiyada qəbul edilmiş yeni konstitusiyada insanlara geniş demokratik hüquqlar verildi. Eyni zamanda nümayəndəli orqanlara məhdud hakimiyyət funksiyaları verilməklə yanaşı, Rusiya prezidentinin mahiyyətcə təkhakimiyyətliliyi möhkəmləndirildi. Rusiyadakı bir çox partiyalar və hərəkatlar prezident hakimiyyətinin avtoritar xarakterinin keçid dövrü üçün xas olmasına bəraət qazandırırlar. Onların fikrincə, Rusiya üçün bu dövrdə prezident rejimi zəruridir, çünki ölkə böyük əraziyə malik olduğundan və orada çoxlu sayda milli birliklər mövcud olduğundan başqa üsul-idarə ilə Rusiyanı idarə etmək mümkün olmaz.

Avtoritarizmdən demokratiyaya keçid dövrünü yaşamış və hazırda da yaşayan İspaniyadan və bir çox digər ölkələrdən fərqli olaraq postsovet ölkələrində mövcud siyasi sistemin sındırılması sosial, iqtisadi və ideoloji çevrilişlərin yalnız tərkib hissəsidir. Belə bir sual meydana çıxır, qarşıya qoyulmuş vəzifələrin prinsip etibarilə demokratik təkamül yolu ilə həlli mümkündürmü? Bir çox ölkələrin tarixi təcrübəsi göstərir ki, mümkündür. Lakin bu şərtlə ki, hakimiyyətdə olan qüvvələrin siyasəti ilə xalqın çoxluğu arasında razılıq olsun. Demokratik dövlətin ən mühüm ölçüsü hakim qüvvələrin, seçkilər nəticəsində yaranmış demokratik institutların siyasətinin xalq tərəfindən dəstəklənməsidir.

Demokratiyanın bərqərar olması yolundakı maneələr ilk növbədə mövcud rejimin konstitusion azadlıqları məhdudlaşdırması, antidemokratik seçki vərdişindən əl çəkməməsi, zorakı üsullarla idarəetməyə üstünlük verməsi ilə bağlıdır. Eyni

zamanda, geniş kütlələrin siyasi mədəniyyətinin aşağı səviyyəsi, xüsusilə, əhalinin əksəriyyətində avtorpitarizmi dəf etmək reaksiyasının zəifliyi, öz hüquq və azadlıqlarını daim müdafiə etmək zərurəti və tələbatını anlamaması, dövlətin konstitusion əsaslarının pozulmasına yol verməmək üçün daim mübarizə aparmağı tam dərk etməməsi və s. amillər demokratik cəmiyyət quruculuğunda öz mənfi rolunu oynayır.

Postsovet rejimlərin ideoloqları demokratiyanın boğulmasına öz cəfəng düşüncələri ilə bəraət qazandırır, demokratiyanın qətrə-qətrə dadızdırılmasını xalqın bu fenomeni birdən-birə dərk etməməsi və hələ buna hazır olmaması ilə bağlayırlar. Demokratiyanın qələbəsi üçün, əlbəttə, demokratik ənənələr, dialoq, kompromis, tərəfdaşlıq mədəniyyəti, hakimiyyətin cəmiyyətdə azlıqların hüquq və maraqlarına hörmət atmosferi yaratmaq qabiliyyəti və cəhdi lazımdır. Bir sözlə, demokratik şüurun tərbiyəsi lazımdır ki, bu da nə qısa müddət ərzində, nə də avtoritar metodlarla yaranmır. Rusiyadakı hakim dairələrin ölkəni Qərbi Avropa liberal-konservativ demokratiyasının modelinə çevirməsi cəhdi ilə əlaqədar həmin ölkədə demokratiyanın taleyinin təhlükədə olması təlqin edilir. Hətta bəzi rus müəllifləri belə hesab edir ki, Rusiyadakı demokratiya nə amerikan, nə fransız demokratiyası deyil , yalnız rus demokratiyası ola bilər. Bununla bağlı olaraq məşhur akademik, özünün dediyinə görə demokrat olan, Moiseyevin dediklərini misal gətirmək yerinə düşərdi: «Əlbəttə ki, Qərb ölkələri ilə yaxınlaşmaq, ticarəti inkişaf etdirmək, Qərb təcrübəsini öyrənmək, onun mədəniyyətinin qiymətləndirmək imkanlarını axtarmaq lazımdır. Lakin Qərb ənənələrini korkoranə əxz etməkdən çəkinmək; bütün Qərb təcrübəsini mütləq tənqidin süzgəcindən keçirmək, öz mədəniyyətimiz haqqında düşünmək, daxili bazarı inkişaf etdirmək və Rusiya maraqları ilə yaşamaq lazımdır.» .Rusiya demokratiyasının spesifikliyindən bəhs edən müəlliflərin fikrincə, «Rusiya həmişə Şərqlə Qərb arasında olmuş və duruş gətirmişdir: indi də biz heç kimdən asılı olmadan, heç kimi təqlid etmədən öz orijinal yolumuzla getməliyik». Hətta onlar öz fikirlərini belə əsaslandırırlar ki, əgər bu cür özünüqiymətləndirmə ilə 1989-cu ildə əhalinin dörddə biri razı idisə, indi vətəndaşların üçdə ikisi bu fikirlə bölüşür . Göründüyü kimi, Rusiyada imperiyapərəst qüvvələr rus demokratiyası adı altında əslində keçmiş sovet imperiyasının bərpa olmasına bəraət qazandırmaq məqsədi güdürlər.



Demokratiya real olmalıdır. Konstitusiyada nə əksini tapmışdırsa, siyasi praktikada onu da həyata keçirmək lazımdır. Hüquqi dövlətin prinsiplərini, onun demokratik əsaslarını həyata keçirmək, insan hüquqları və azadlıqlarını ali dəyərlər kimi qorumaq və ona əməl etmək sözdə deyil, işdə sübuta yetirmək lazımdır. Həqiqətən, qanunverici, icraedici və məhkəmə hakimiyyətini, habelə digər konstitusion hüquqları həyata keçirmək birinci dərəcəli vəzifə olmalıdır. Çünki onlarsız cəmiyyət azad ola bilməz və demokratiyanın üstünlüklərini hiss edə bilməz.

Demokratiyaya keçid məqsəd deyil, sivilizasiyalı müasir sistemin - insanın normal həyatı üçün bütün zəruri şəraiti yaradan və özüinkişaf edən sabit sistemin yaradılması üçün yoldur. Ölkə üçün demokratiya problemi elə siyasi sistemin formalaşmasıdır ki, o xalqın iştirakı ilə cəmiyyətin idarə edilməsini təmin etmiş olsun, insanların hüquq və azadlıqlarına riayət edilməsinə və qorunmasına təminat versin, hakimiyyətdə olan qüvvəni güc tətbiq etmədən dəyişdirmək mümkün olsun.

**Azər Kərim oğlu Allahverənov,**
**AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu sosial fəlsəfə şöbəsinin doktorantı, fəlsəfə elmləri namizədi**

## «Marginal insan» anlayışının təkamül dinamikasına qısa nəzər

Müstəqillik əldə etdikdən sonra transformasiya dövrünə daxil olan Azərbaycanın ictimai həyatında latent şəkildə mövcüd olan və ya ümumiyyətlə mövcud olmayan bir sıra sosial hadisələr üzə çıxmış və qabarıq şəkildə özünü büruzə verməyə başlamışdır. Belə hadisələrdən biri günbəgün güclənməkdə olan, sosiohumanitar elmlərdə az tədqiq olunan marginallıq fenomenidir. Onun az və ya heç tədqiq olunmaması, özünü cəmiyyətdə qabarıq şəkildə büruzə verməsi, get-gedə əhalinin daha geniş təbəqələrini öz aguşuna alması problemin aktuallığını və tədqiqata ehtiyaclılıgını şərtləndirən amillərdəndir. Bu istiqamətdə baş verəcək hadisələrin sonrakı inkişaf aspektlərini və bütövlükdə dinamikasını proqnozlaşdırmaq, ictimai yeniləşmə dövrünü yaşayan cəmiyyətimizi gələcəkdə baş verə biləcək təlatümlərdən sığortalamaq üçün problemi bü gün tədqiq etmək və hadisələrin insanlara bəhrə verə biləcək kontekstdə yönəldilməsinə xidmət edən əsaslı təklif və tövsiyələri vermək gərəkdir. Təqdim olunmuş məqalədə biz marginallıq fenomeninin təkamül dinamikasına, xüsusilə şərti adlandırdığımız və XIX əsrin axırlarından XX əsrin 30-cü illərinə qədər olan zamanı əhatə edən ***qərarlaşma dövrünə*** nəzər yetirəcəyik və «marginal insan» anlayışının tam şəkildə formalaşmasında xidmətləri olan bir sıra mütəfəkkir-filosofların fikirlərinə müraciət edəcəyik.



Azərbaycanda geniş vüsət alan ictimai yeniləşmədə hadisələrin sürətli dəyişməsi və proqnozlaşdırılmayan ssenari əsasında büruzə verməsi sociyyəvidir. İnsanların, insan toplumlarının bir neçə seçim qarşısında qalması, cəmiyyətin polubifurkasiyon vəziyyətə düşməsi, insanların «monstr-mədəniyyətsizlik»dən, «tamamilə asosial, antiinsani mahiyyət daşıyan, məqsədyönlü surətdə günbəgün ictimai və fərdi şüurda vüsət alan entropiyadan (nizamsızlıqdan, destruksiyadan, çürümədən və s.)» [2, səh.7] əziyyət çəkməsi digər fenomenlərlə yanaşı marginal insanların, marginallıq fenomeninin və cəmiyyətin daxili quruluşu üçün xarakterik olmayan yeni stratların, laylarin meydana çıxması ilə nəticələndi. Müəyyən nəzəri-metodoloji alətlərdən istifadə edərək tam əsasla deyə bilərik ki, bu gün əksər postsovet ölkələrində, keçmiş sosialist və halhazırda keçid dövrünü yaşayan cəmiyyətlərdə sosial stratların inkişaf prosesi, yeni layların yaranması əsasən üç istiqamətdə baş verir.

Birinci istiqamətdə formalaşan qrupa sürətlə zənginləşən, kapital toplayan, əhalinin varlı zümrəsinə aid edilə bilən oliqarxları və oliqarx qurumların rəhdərliyində təmsil olunan adamları daxil etmək olar. Praktiki həyatda iqtisadi hökmranlığa malik olan həmin təbəqə həm iqtisadi, həm də siyasi linglərdən istifadə edərək özünün maraq və mənafelərinin təmin olunmasına, qorunmasına malikdirlər. Bu zümrənin nümayəndələri hətta onlara lazım olan normativ aktların qəbul edilməsinə belə təsir etmək iqtidarındadırlar. Birinci qrupun nümayəndələrinin imkanları o dərəcədədir ki, hətta zaman ötdükcə siyasi eşalonda təmsil olunmaq, dövlətin idarə olunmasında iştirak etmək arzusu və iddiasının yüksək səviyyədə qərarlaşmasına birbaşa təsir göstərir. Eyni zamanda birinci qrupa «iqtisadi özbaşınalıqdan və hakimiyyətin ayrı-seçkilik siyasətindən faydalananlar» [1, səh.59] da daxildir. Bu o deməkdir ki, postsovet cəmiyyətlərində təşəkkül tapan həmin

zümrənin nümayəndələri kapitallarını getdikcə artıracaq, siyasi elitada təmsil olunmağa can atacaq və, çox guman ki, buna nail olacaq, əhali arasında isə vüsət alan təbəqələşmə bir qədər də dərinləşəcəkdir.

İkinci istiqamətdə formalaşan qrupa bazar iqtisadiyyatı şəraitində təşəkkül tapan istehsalat münasibətlərinə müəyyən dərəcədə uyğunlaşan kiçik və orta biznes qurumlarının əməkdaşlarını, menecerləri, fermer təsərrüfatlarının üzvlərini, xidmət sahələrinin nümayəndələrini aid etmək olar. Mahiyyət etibarilə icraçılar adlandıracağımız bu qrupun nümayəndələri proseslərə təsir etmək, sosial, iqtisadi, siyasi hadisələri öz xeyrinə və əhalinin əksər hissəsini təşkil edən yoxsul təbəqələrin mənafelərinin təmin olunmasına uyğun dəyişdirmək iqtidarında deyillər.

Üçüncü istiqamətdə formalaşan qrupa isə digər iki qrupa daxil ola bilməyən çoxsaylı yoxsul əhali kütləsini aid etmək olar ki, onun da günbəgün artdığı və ekstremal vəziyyətlərdə olduğu heç kəsə sirr deyil. Yüz minlərlə insanın işsiz qalması, iqtisadi, hərbi münaqişələr, ictimai-siyasi proseslər ucbatından daimi yaşadıqları yerlərdən köçməsi həmin ekstremal vəziyyətləri yaradan və kəskinləşdirən amillərdəndir. Belə ki, vaxtilə iqtisadiyyatın mühüm əhəmiyyət kəsb edən istehsalat sahələrində, xüsusilə kimya və hərbi müəssisələrdə, dağ-mədən sənayesində çalışan yüksək səviyyəli mütəxəssislər, kənd təsərrüfatının strateji sahələrində işləyən insanlar, elm, incəsənt, təhsil və səhiyyə mənsubları qısa müddət ərzində iş yerlərini itirmiş, bir çox güzəştlərdən məhrum olmuş, cəmiyyətin aztəminatlı, yoxsul təbəqələrinə çevrilmişlər. Əksəriyyəti ehtiyac içində yaşayan həmin insanlar bu gün də cəmiyyətdə özlərini təsdiq edə bilmir və bu səbəbdən də çox zaman özlərinin dövlət üçün gərəksiz olduqlarını zənn edirlər. Məhz bu kateqoriyaya aid edilən insanlar sosiohumanitar elmlərdə adlandırılan marginal qrupa daxil oluna bilən potensial namizədlərdir.



Stratların təkamülünün bu kontekstdə inkişaf etməsi bir qədər təhlükəlidir və bunun səbəbi ilk növbədə üçüncü qrupun sürətlə artması ilə əlaqədardır. Çünki ictimai yeniləşmə zəminində istənilən cəmiyyətdə baş verən perturbasiyalar zamanı ortaya çıxan sosial narazılıqların daşıyıcıları məhz həmin marginal insanlar olur və politoloqların proqnozlaşdırdıqları sosial partlayışlar bu insanların fəal iştirakı ilə baş verir. Hətta bəzi fikirlərə görə marginal insanlar cəmiyyətdə bərqərar olan böhran vəziyyətində detonator rolunu oynaya bilər [5, səh.43].

«Marginallıq» anlayışının (latın dilində «margo» kənar, sərhəd, hədd deməkdir) tam şəkildə dərk olunması üçün onun yaranma tarixinə və hansı kontekstlərdə işlədilməsinə nəzər yetirmək lazımdır. Qısa müddət ərzində elmi leksikona daxil olan marginallıq müxtəlif vaxtlarda fərqli kontekstlərdə işlədilirdi və bu müxtəliflik anlayışın malik olduğu funksional mənasından asılı idi. Marginallığın metodoloji universallığı, müxtəlif proseslərin öyrənilməsi zamanı istifadə olunma qadirliyi, heterogen kontekstdə işlədilməsinə və tətbiqinə yararlığı ona gətirib çıxartmışdır ki, fərqli vəziyyətlərdə istifadə olunan bu termin müxtəlif məna daşımış və bununla da özünün evristik məhsuldarlığını nümayiş etdirmişdir. Məsələn, yazı incəsənətində səhifənin qırağında əks olunan qeydlərə, yazılara «marginal yazılar» deyirlər. İqtisadiyyatda isə «marginal» «iqtisadi cəhətdən son hədd, zərərə yaxın vəziyyət» [5, səh.294] mənasında istifadə olunur.

Qısa mənada marginallıq bir qrup insanın (fərdlərin və qrupların) digər sosial qrupa nisbətən kənar və sərhəd vəziyyətində, ya da iki mədəniyyətlərarası mövcud olması deməkdir. Müxtəlif səbəblər ucbatından malik olduqları dəyərləri, təsəvvürləri itirmiş, çoxluğun mənsub olduğu sosial-mədəni varlıqlara yiyələnə bilməmiş və ya yiyələnmək istəməyən marginal insanlar öz aləmini, qayda-qanunlarını, davranış tərzlərini və nəhayət sosial-mədəni varlıqlarını formalaşdırmağa qadir olan

sosial qrupdur. Mədəni heterogenlik mənzərəsinə öz çalarlarını daxil edən həmin sosial qrup hətta cəmiyyətin bir çox sahələrində pozitiv və neqativ kontekstdə dəyişikliklər və yeniliklər etmək iqtidarındadır. Əksər hallarda cəmiyyət tərəfindən təcrid olunan həmin insanlar öz aləmlərini yaratmaq, mövcud reallığa uyğunlaşmaq bacarığına qadirdirlər və bu da insanın yaradıcılıq, quruculuq təbiətindən qaynaqlanan qabiliyyətidir.

«Marginal insan» anlayışını ilk dəfə öz əsərində istifadə edən amerikalı alim-filosof, Çikaqo məktəbinin banisi Robert Ezra Park (1864-1944) olmuşdur [3, səh.257-257]. Onun 1928-cü ildə işıq üzü görən «İnsan mühacirəti və marginal insan» [9, səh.881-893] adlı əsərində geniş şəkildə təhlil olunan «marginal insan» anlayışına nəzər yetirilmiş və anlayışın müasir təsnifatı verilmişdir. R.E.Parka görə «marginal insan» iki fərqli və çox zaman bir-biri ilə münaqişə edən mədəniyyətlər arasında olan individdir. Bu individ təbii mədəni prosesin, o cümlədən mədəniyyətlərin genişlənməkdə olan qarşılıqlı əlaqəsinin məhsuludur. Bu tip şəxsiyyətin formalaşması irqlərin və mədəniyyətlərin qarşıdurması, münaqişəsi nəticəsində yaranan yeni cəmiyyətlərin təşəkkül tapdığı dövrdə və yerdə baş verir. Tale bu insanları eyni vaxtda iki dünyada yaşamağa və mövcud olmağa məhkum edir, iki dünyaya münasibətdə özgə şəxs, kənar insan rolunu oynamağa məcbur edir. Belə insan mütləq qaydada dəyişməz qalan ətraf mühitə nisbətən daha geniş üfüqə, daha müstəqil və rasional baxışlara malik olan individə çevrilir [7, səh.296]. Marginal insanın təbiətini determinasiya edən başlıca amil böhranla eyni tutulan bir vəziyyətdən digər vəziyyətə keçid, transformasiya ilə əlaqədar olan sosial dixotomiya, bifurkasiya və münaqişə hissidir; bu hissi gücləndirən səbəb isə odur ki, bir mədəniyyətdən digər mədəniyyətə transfer zamanı insan köhnə vərdişlərdən imtina edir, yenilərini isə formalaşdırmır və ya formalaşdıra bilmir. Bunu qeyd edən R.E.Park bildirir ki, «keçid və böhran dövrü bir çoxlarımız üçün başqa ölkədə xoşbəxtlik axtaran immiqrantın adaptasiya dövrünə bərabərdir. Lakin marginal insan məsələsində böhran davamlıdır, qırılmazdır. Nəticədə böhran dövrü yeni şəxsiyyət tipinin formalaşdırmaq iqtidarındadır» [10, səh.355-356] və böhran dövrü uzandıqca və yeni keyfiyyətlərlə zənginləşdikcə çevrilmə prosesi sürətlənir, həm də imperativləşir.

R.Parka məxsus marginal insan ideyası amerikalı alim-filosof Everet Stounkvist tərəfindən bir qədər inkişaf etdirilmişdir. Bir çoxlarının qənaətinə görə [8, səh.79] marginallıq konsepsiyası məhz E.Stonkvistin 1937-ci ildə çap olunmuş «Marginal insan» [11, səh.218] adlı monoqrafiyasında tamamlanmış və son olaraq leqallaşdırılmışdır. E.Stounkvistə görə marginal insan mədəni münaqişələrdə iştirak edən sosial subyekt kimi xarakterizə edilir. Marginal insana çevrilən qonşuluqda mövcud olan iki mədəniyyətin kənarında məskünlaşan, lakin heç bir mədəniyyətə aid edilməyən individ olur. Stounkvist marginal insana xüsusi əhəmiyyət verir və onun mədəniyyətlərarası əlaqələrin inkişaf etdirilməsində mühüm rola malik olduğunu qeyd edir. Bu məqamı nəzərdən keçirən filosof vurğulayır ki, «cəmiyyətin çoxluq təşkil etdiyi dominant qrupuna inteqrasiya olunmaq istəyən azlıq (məsələn, etnik icmaların nümayəndələri) çoxluğun mədəni standartlarına uyğunlaşır, yeni mədəniyyətə qovuşur; bu qaydada formalaşan «mədəni hibridlər» mütləq marginal vəziyyətə düşürlər. Çünki bu zaman «mədəni hibridləri» nə can atdıqları çoxluq (dominant mədəniyyət), nə də ki, tərk etdikləri azlıq, marginal insanı apostat gözündə görən mənşə qrupu qəbul etmək istəyir və nəticədə onlar iki mədəniyyətin arasında məskünlaşırlar» [11, səh.218]. Marginal insanının məskünlaşdığı marginal mühit iki mədəniyyətin qovuşduğu və kombinasiya olunaraq, hər ikisinin xüsusiyyətlərini birləşdirərək mənimsəyən yeni mədəniyyətin qərarlaşdığı sahədir. Bu qovuşmanın və qərarlaşmanın mərkəzində duran, iki müxtəliflik arasında lider şəxsiyyət ol-

maq uğrunda mübarizə aparan marginal insandır. O, bir-biri ilə münasibətdə fərqli səviyyələrdə təmsil olunan və biri digərinə nisbətdə dominant mövqedə duran mədəniyyətlər arasında nizamlayıcı, tarazlaşdırıcı funksiyasını yerinə yetirir və sintez nəticəsində formalaşmış yeni mədəniyyətin daşıyıcısıdır.

Öz əsərlərində marginal insanın daxili aləminə və xarakterik psixoloji cəhətlərinə xüsusi diqqət yetirən R.Park və E.Stounkvist qeyri-mütəşəkkillik, qərarsızlıq, inamsızlıq, münaqişənin mənbəyini müəyyən etməkdə qabiliyyətsizlik, narahatlıq, daxili gərginlik, uğursuzluq, aqressivlik, eqosentriklik, təcrid olunma və s. kimi hisslərin bu tip insanlara xas olduğunu vurğulayırdılar. Filosofların qənaətinə görə, məhz bu hisslərin meydana çıxması bir tərəfdən marginal insanın mövcud olmasını mənasızlaşdıran ümidsizliyin, əlacsızlığın qərarlaşmasına səbəb olur [8, səh.78], digər tərəfdən həyat tərzini və şəraitini nizamsızlaşdıran, qeyri-sabit edən, xaosa doğru aparan amilə çevrilir. Marginal insanın daxili potensialının səfərbər olunması və özünütəşkiletmə bacarığı digər mədəniyyətlərə aid edilməyən, lakin hər birinin müəyyən xassələrini özündə birləşdirən elementlərdən ibarət öz aləmini yaratmaq imkanı verir.

Lakin R.Parkın və E.Stounkvistin baxışlarında müəyyən fərqlər də mövcud idi. Belə ki, R.Parka görə marginal insan iki mədəniyyət arasında məskünlaşan, bütövlükdə heç birinə daxil ola bilməyən və bu səbəbdən parçalanmış, deformasiya olunmuş şüura malik şəxsiyyətdir. E.Stounkvist isə düşünürdü ki, marginal insanın yeni mədəniyyətə uyğunlaşması yeni xüsusiyyətlərə malik olan şəxsiyyətin formalaşmasına səbəb ola bilər. Bu məqam marginallıq probleminin pozitiv rakursda öyrənilməsi üçün çox vacibdir.

İstər R.Parkın, istərsə də E.Stounkvistin əksər əsərlərində marginal insan ideyası daha çox mədəniyyətlərarası mövcud olan şəxsiyyət ideyası üzərində köklənib. Lakin, xüsusilə vurğulanmalıdır ki, marginal insan bir şəxs olmaqla yanaşı həm sosial varlıq, bir mədəniyyət daxilində baş verən sosial proseslərin iştirakçısıdır. Marginal insana xas xüsusiyyətlərin daşıyıcısı olan həmin sosial varlıq hələ R.Parka və E.Stounkvistə qədər K.Marks və F.Engels tərəfindən öyrənilmişdir. Belə ki, onların əsərlərində kapitalizmin, yeni istehsal münasibətlərinin formalaşması geniş şəkildə təhlil olunur. Məhz həmin münasibətlərin formalaşması zamanı cəmiyyətdə gedən proseslərdən kənarda qalan, heç bir ictimai funksiyanı yerinə yetirməyən və sosial statusa malik olmayan yeni əhali təbəqəsi [4, səh.354-355] qərarlaşır ki, onun da atributiv xüsusiyyətləri marginal insan qrupuna bənzərdir. Lakin burada bir haşiyə çıxmaq lazımdır ki, körkəmli mütəfəkkirlər cəmiyyət tərəfindən təcrid olunan qrupları və fərdləri marginal insan adlandırmamışlar, o səbəbdən ki, «marginallıq», «marginal insan» anlayışları, qeyd etdiyimiz kimi, bir qədər sonra meydana gəlmişdir.

R.Parkın və E.Stounkvistin səyi nəticəsində sosiohumanitar elmlərə gətirilən «marginal insan» və marginallıq konsepsiyası sonrakı dövrlərdə bir çox alim-filosofların, sosioloqların, psixoloqların fikirləri ilə zənginləşdi, tamhüquqlu şəkildə qərarlaşdı. Belə ki, marginallıq konsepsiyanın işlənilməsində, yeni yanaşmalarla dolğunlaşdırılmasında amerikalı T.Şibutani, A.Qrin, E.Xyuz, ingilis R.Merton və K.Raban, italyan C.Mançini, fransuz A.Farj, rus alimləri E.Starikov, N.Frolov və s. alimlərin əvəzedilməz xidmətləri olmuşdur. Buna baxmayaraq zaman etibarilə cavan sayılan marginallıq konsepsiyası dünyada baş verən qloballaşma və inteqrasiya proseslərindən irəli gələn tələblərə uyğun şəkildə inkişaf etdirilməli, empirik-nəzəri səviyyələrdə təsdiqini tapmalıdır. Çünki dünyada, ictimai və siyasi sahələrdə baş verən hadisələr o dərəcədə mürəkkəbdir ki, insan və cəmiyyət haqqında elmi yanaşmaların, konsepsiyaların, xüsusilə həyat elmi olan fəlsəfənin müdaxiləsi olmadan tərəqqiyə, pozitiv nəticələrə nail olmaq qeyri-

mümkündür. Marginallıq da həmin həyat təyinatı olan fəlsəfi konsepsiyalardandır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:


1. Abbasov Ə.F., Əsgərov İ.S. Keçid dövrü və yeni iqtisadi təfəkkür (sosial-fəlsəfi təhlil), B., Nafta-Press, 2001
2. Abbasov Ə.F. Dünya problemləri, fəlsəfə və beynəlxalq hüquq. Dünya. Cəmiyyət. Fəlsəfə, B., Nafta-Press, 2004
3. Баньковская С.П. Парк Роберт Эзра. Современная западная социология. Словарь, М., 1990
4. Маркс К., Энгельс Ф. Сочинения, Т.7
5. Словарь иностранных слов. М., Наука, 1988, стр.294
6. Смирнов С. Маргинализация населения как фактор социально-политической нестабильности в Казахстане. Центральная Азия и Кавказ, Швеция, 2000, №4
7. Современная американская социология. М., Издательство МГУ, 1994
8. Феофанов К.А. Социальная маргинальность: характеристика основных концепций и подходов в современной социологии. Общественные науки за рубежом, РЖ, Серия 11, Социология, М., 1992, №2
9. Park R.E. Human migration & the marginal man. American Journal of Sociology, Chicago, 1928, Vol.33, №6
10. Park R.E. Race and culture. Glencoe, Free press, 1950
11. Stonequist E.V. The Marginal Man. A Study in personality and culture conflict. New York, Russell & Russell 1961




**İ.S.Əsgərov, sosioloq**

## Sahibkarlıq fəaliyyəti və iqtisadi təfəkkür

Sahibkarlıq fəaliyyətindən danışmazdan əvvəl bu fəaliyyəti həyata keçirən əsas amil-«sahibkar» anlayışı ilə yaxından tanışlıq vacibdir. «Sahibkar» dedikdə iqtisadi, nəzəri-yaradıcı, təşkilati-idarəetmə səriştəsinə, mürəkkəb bazar münasibətləri şəraitində düzgün və davamlı qərar qəbul etmək, düşünülmüş və ağıllı riskə üstünlük vermək, nizamlı iqtisadi fəaliyyəti həyata keçirmək qabiliyyətinə qadir təşəbbüskar insanlar başa düşülür.

XVIII əsrdə yazıb-yaratmış fransız iqtisadçısı R.Kantilyona görə sahibkar («sahibkar» anlayışının məzmununu əks etdirən ifadə ilk dəfə məhz R.Kantilyon tərəfindən işlədilmişdir) feodalizm cəmiyyətindəki torpaq mülkiyyətçilərinə və müxtəlif könüllü muzdlulara yeni iqtisadi sistemdə mənfəət götürmək məqsədilə, digərlərindən məhsulu müəyyən qiymətə alaraq, burada özünə hələ də məlum olmayan qiymətə satmağa çalışan insanlardır. Kantilyona görə sahibkarlıq mülkiyyətçiliklə eyni tutulurdu.

İngilis iqtisadçı-filosofu A.Smitə görə sahibkar öz istehsalını planlaşdıran və təşkil edən, onun nəticələri üzərində müstəqil sərəncam verən, mənfəət götürmək məqsədilə kommersiya ilə bağlı hər hansı bir ideyanı reallaşdırmaq üçün risk edən mülkiyyətçidir.

Sahibkar və sahibkarlıq fəaliyyətinin daha geniş təhlili fransız iqtisadçısı C.B.Sey tərəfindən verilmişdir. O, sahibkarı, mənfəət götürmək məqsədilə hər hansı bir məhsul istehsal edən şəxs kimi qələmə verir. C.B.Sey sahibkarlıq fəaliyyətini istehsal amillərindən səmərəli istifadə forması kimi xarakterizə edərək, sahibkarlıq fəaliyyətinin təmin edilməsi üçün istehsal amillərinin az gəlirli sahələrdən yüksək gəlirli sahələrə azad surətdə

axa bilməsinə xidmət edən iqtisadi mühiti – bazar mühitini təhlil etmiş; sahibkarların bütövlükdə əldə etdikləri gəlirləri və bu gəlirlərin sahibkarın bilikləri və təcrübəsilə bağlı əldə edilən hissəsini açıb göstərmişdir. Eyni zamanda C.B.Sey sahibkarın yerinə yetirdiyi funksiyaları istehsalın idarə edilməsi ilə bağlı olan digər funksiyalardan fərqləndiyini bildirir.

Alman iqtisadçısı V.Zombart göstərirdi ki, sahibkarlıq fəaliyyətinin əsas məqsədi daim inkişaf etmək, çiçəklənmək, genişləndirməkdir. Və bu məqsədlərə çatmaq üçün sahibkarlar risk etməyə hazır olmalı, inadkarlıq və inam göstərməli, insanları işə cəlb etməyi bacarmalı, yəni təşkilatçı olmalıdır.

Sahibkarlıq fəaliyyəti haqqında müasir iqtisadi təlim Avstriya iqtisadçısı Y.Şumpeterin adı ilə bağlıdır. O, hər şeydən əvvəl sahibkarı yenilikçi adlandırmışdır. Sahibkarın başlıca vəzifəsi kimi istehsal amillərinin yeni kombinasiyasına və beləliklə də iqtisadi tərəqqiyə nail olmağı irəli sürür. O, yazırdı ki, sahibkar olmaq digərlərinin edə bilmədiyini etmək, əvvəldən görə bilmək, köhnəliyə zidd çıxmaq, yenilik tapmaq və onu tətbiq etmək, qorxmadan və ağıllı risk etmək, qabaqcadan, verilmiş proseslər əsasında deyil, həmin proseslərin özünü müəyyən edərək fəaliyyət göstərmək qabiliyyətidir (1, səh. 273-274).

Bu gün sahibkarlıq fəaliyyəti dedikdə, təsərrüfat subyektlərinin mənfəət və ya şəxsi gəlir əldə etmək məqsədi ilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti əsasında qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri üzrə həyata keçirdikləri təşəbbüskarlıq fəaliyyəti başa düşülür (1, səh. 275).

Qeyd etməliyik ki, sahibkarlıq fəaliyyəti mürəkkəb iqtisadi məzmuna malikdir. Sahibkarlıq hər şeydən əvvəl iqtisadi kateqoriyadır. Eyni zamanda sahibkarlıq səmrəli təsərrüfatçılıq tipidir. Üçüncüsü, sahibkarlıq **mütərəqqi iqtisadi təfəkkürün** olması deməkdir.



Müasir və mütərəqqi iqtisadi təfəkkür – elmin ən yeni nailiyyətlərini və ictimai istehsalın indiki inkişaf mərhələsinin keyfiyyət xüsusiyyətlərini əks etdirən iqtisadi baxışlar, prinsip və təsəvvürlər məcmusudur (2, səh.87).

Tələbata uyğun məhsullar istehsal etmək, satmaq və istehlakçılara yüksək keyfiyyətli xidmət göstərmək kimi hisslər sahibkarlarda və bu istiqamətdə fəaliyyət göstərən insanlarda elmi-yaradıcı-idrakı fəaliyyətin olmasını tələb edir ki, bu da iqtisadi təfəkkürü yüksək olmayan insanlarda mümkün deyil.

İqtisadi təfəkkür nə dərəcədə elmi əsaslara söykənirsə, bir o qədər zəngin və məntiqli olur, cəmiyyətin maddi həyatına, iqtisadi proseslərə öz təsir gücünü artırır. Bunu cəmiyyətin tarixi, insanların istehsal fəaliyyəti, istehsalın texniki təminatının gücləndirilməsi, elmi-texniki nailiyyətlərin, yeni texnoloji proseslərin, informasiya təminatının istehsala, iqtisadi münasibətlərə tətbiqi təsdiq və tələb edir. «İntellektual səviyyəsi, iqtisadi şüuru yüksək olmayan heç bir kəs sözün həqiqi mənasında müasir istehsalçı kimi fəaliyyət göstərə bilməz» (3, s.63).

Sahibkarlıq fəaliyyəti istehsal vasitəsi üzərində mülkiyyətlə sıx əlaqəli formada baş verir. Xüsusi mülkiyyət azad sahibkarlıq fəaliyyətinin iqtisadi əsasıdır.

Mülkiyyət hər hansı obyektin subeyktə məxsusluğudur. Sahibkarlığın obyekti kimi əmtəələr istehsalı, onların satışı və müxtəlif növ xidmətlər göstərilməsi, subyekti kimi isə bazar iqtisadiyyatı şəraitində hər kəsin özünə peşə seçməkdə tam iqtisadi azadlığa malik olduğu üçün sahibkarlıq fəaliyyəti ilə məşğul olan insanlar başa düşülür. Ayrı-ayrı adamlar, qruplar, cəmiyyət və dövlət subyekt kimi çıxış edə bilər. Subyektdən asılı olaraq xüsusi, şəxsi, kooperativ və dövlət mülkiyyəti ola bilər. Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinə görə 3 mülkiyyət forması qəbul edilir: dövlət, xüsusi və bələdiyyə mülkiyyətləri.

Sahibkarlıq fəaliyyəti bazarla əlaqəli halda, hər şeydən əvvəl mənfəət naminə və əsasən iqtisadi cəhətdən azad olan insanların əməyinə əsaslanır. Odur ki, xüsusi mülkiyyətin bütün hallarında labüd olaraq sahibkarlıq fəaliyyətinə səbəb olduğunu düşünmək səhv olardı. Məsələn istehsal vasitələri üzərində xüsusi mülkiyyətə əsaslanan quldar və feodal təsərrüfatlar (kapitalist təsərrüfatından fərqli olaraq) üçün sahibkarhq fəaliyyəti iqtisadi fəaliyyətin başlıca istiqamətini təşkil etməmişdir.

Respublikamızda həyata keçirilən iqtisadi islahatların əsas istiqamətlərindən biri də sahibkarlıq fəaliyyətinin yüksək səviyyədə formalaşması və inkişafı ilə bağlıdır. Bu istiqamətdə həyata keçirilən hüquqi, təşkilati və iqtisadi tədbirlər nəticəsində 2004-cü ildə əldə edilmiş ÜDM-in 74%-i (2003-cü ildə bu rəqəm 73,5 faiz təşkil etmişdir) özəl bölmənin payına düşmüşdür. Lakin bu gün respublikamızda sahibkarlıq fəaliyyəti istiqamətində hər şeyin qənaətbəxş olduğunu iddia etmək olmaz. «... Respublikamızda sahibkarlıq mühiti vergi, gömrük, bank-kredit və digər iqtisadi sahələrdə çatışmamazlıqlar, dövlət məmurlarının özbaşnalığı və s. ilə xarakterizə olunur» (1, səh. 284).

Araşdırmalar göstərir ki, respublikamızda korrupsiya və rüşvətxorluq iqtisadiyyatımızın bütün sahələrini bürümüşdür. Gömrük sistemində olan özbaşınalıq və məmurlarımızın öz vəzifə səlahiyyətlərini aşmaları ona gətirib çıxarmışdır ki, hər hansı biznes və sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlarımız ölkəmizə gətirilən və çıxarılan məhsullar üçün gömrük sistemi ilə heç bir əlaqəsi olmayan «kimlərdənsə» razılıq almalıdırlar. Gömrük Komitəsi rəhbərliyinin «xeyir duası» ona gətirib çıxarmışdır ki, ayrı-ayrı məhsul və mal-materialın gömrük rəsmiləşdirilməsi gömrük idarələrində deyil, ayrı-ayrı «ofislərdə» aparılır. Daha doğrusu, apardılır. Bəzən də heç aparılmır. Polşa respublikasının ölkəmizdəki səfirliyinin iki ölkə arasındakı ticarət dövriyyəsi barədə söylədiyi fikirlər (bizim statistik



göstəricilərlə Polşa respublikasının statistik göstəriciləri arasında 5 dəfə fərqin olması) bunu bir daha sübut edir.

Vergi sistemində də vəziyyət eynidir. Burada nəinki 3 aylıq (kvartal), hətta gündəlik dövriyyəsi 125 milyon manatdan artıq olan ticarət obyektlərindən mal-material alınan zaman qaimə və vergi hesab-fakturalarının verilməsindən imtina olunması və ya imtina edilmədikdə qiymətlərin aşağı göstərilməsi onu sübut edir ki, vergi orqanlarında da vəziyyət gömrük sistemindəki kimidir. Belə ticarət obyektlərinin «sadələşmiş vergi ödəyicisi» kimi iddia etmələrinə tez-tez rast gəlmək olur. Elə ticarət obyektləri vardır ki, bu obyektlər iri istehsalçılarla «müştərək iş birliyinə» və «sövdələşmələrə» girərək heç bir alqı-satqı müqavilələri bağlamadan və sənədləşmə aparılmadan mal-materialların alqı-satqısını aparırlar ki, bu da külli miqdarda verginin büdcəyə cəlb edilməsi işini əngəlləyir. Vergi orqanları belə müəssisələrdə təftiş apardıqları zaman yuxarıların «xeyir-duası» ilə gözlərini yumaraq güya hər şeyin «əla» vəziyyətdə olduğunu göstərən akta qol çəkirlər.

Dövlət müəssisələrinin təchizat bazalarında mal-material alqısı zamanı qiymətlərin 5-6 dəfə «şişirdilməsi» adi hal almışdır. «Şişmənin» artıq hissəsi sonradan alıcıya nəqd şəkildə qaytarılır ki, bu da büdcə vasaitlərinin mənimsənilməsindən, korrupsiyadan başqa bir şey deyildir.

Bəzi mətbu orqanlarında bu yeyintilər və inhisarçılıq barədə geniş yazılar dərc edilməkdədir. Lakin təəssüfedici haldır ki, hüquq-mühafizə orqanları və əlaqədar təşkilatlar belə hallara göz yumaraq tədbirlər görmürlər. Belə vəziyyət onu deməyə əsas verir ki, bütün proseslər hansısa mərkəzdən idarə olunur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 aprel 1998-ci il tarixli 80 saylı qərarı ticarətin, məişət və digər xidmət sahələrinin tənzimlənməsini həyata keçirməli idi. Lakin bu gün bu qanun ticarət münasibətlərini tənzimləmir. Belə ki, dövriyyədə olan malların əksər hissəsinin qiymətləndirmə və qaimə sənədləri

olmadığı halda ticarət obyektlərində satılması faktlarına çox tez-tez rast gəlinir. Bu isə ticarət dövriyyəsinin gizlədilməsi, eyni zamanda vergidən yayınma, qaçaqmalçılıq, qeyri-qanuni fəaliyyətdir. Daha doğrusu, vergidən yayınan, monopolistlərin fəaliyyətidir. Həmçinin, qanuni işləyən, vergisini vaxtlı-vaxtında ödəyən sahibkarların işlərinə əngəldir, onların çətinliklə ütləşməsidir və son anda onların müflisləşməsidir. Çünki qanuni istehsalı, qeyri-qanuni istehal arasında bu gün 20%-ə qədər qiymət fərqi ola bilir ki, bu da qeyri-qanuni istehsalla məşğul olan «sahibkarlara» bazarda hökmranlıq etməyə imkan yaradır. Çox təəssüfedici haldır ki, bütün bu qanunsuzluqlar hüquq-mühafizə orqanlarınm gözü qarşısmda baş verir. Və belə hallara müdaxilə etməli olduqları təqdirdə bu orqanlar susurlar və ya «susdurulurlar».

Sözsüz ki, belə vəziyyət respublikamızda sahibkarlığın və bununla yanaşı yeni iqtisadi təfəkkürün inkişafına öz mənfi təsirini göstərməyə bilməz.

Respublika Prezidenti İ.Əliyev cənablarının Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) haqqında 11 fevral 2004-cü ildə imzaladığı fərmanın ayrı-ayrı bəndlərinin yerinə yetirilməsi üçün yuxarıda qeyd etdiyimiz məsələlər sözsüz ki, bir maneədir. Vaxtında imzalanmış bu fərmamn həyata keçirilməsi üçün, birinci növbədə, sahibkarlığın inkişafında yaradılmış süni maneələr və inhisarçılıq aradan qaldırılmalıdır. Qeyd etmək yerinə düşərdi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının imzalanmasının ildönümü ilə əlaqədar təşkil olunmuş toplantıda (11 fevral 2005-ci il) Respublika Prezidenti İ.Əliyev cənabları öz çıxışında sahibkarlığın inkişafındakı maneələrdən və inhisarçılıqdan danışmış, bu maneələrin aradan qaldırılması üçün əlaqədar təşkilatlar və nazirliklərə tapşırıqlarını vermişdir, Bu da şübhəsiz ki, sahibkarlıq mühitinin yaxşılaşmasına və mütərəqqi iqtisadi təfəkkürün inkişafına öz töhvəsini verəcəkdir. İnhisarçılığa, korrupsiyaya qarşı sistemli və qətiyyətli



mübarizə aparmadan əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq və inkişaf etdirmək mümkün deyildir.

**İstifadə olunmuş ədəbiyyat**

1. İqtisadi nəzəriyyə. T.S.Vəliyevin, Ə.P.Babayevin, M.X.Meybullayevin ümumi elmi redaktəsi ilə. Bakı, «Çaşıoğlu», 2001.

2. Ə.F.Abbasov, İ.S.Əsgərov. Keçid dövrü və yeni iqtisadi təfəkkür. *Bakı,* Nafta-Press, *2001.*

3. Səttarov M.M. İqtisadi şüur: mahiyyəti, strukturu və cəmiyyətdə rolu // Səttarov M.M. İnsan və cəmiyyət haqqında düşüncələr. Bakı, 2000.

4. «Azərbaycan» qəzeti, xüsusi buraxılış, 13 fevral 2004-cü il.

**Füzuli Məhəmməd oğlu Qurbanov,**
**fəlsəfə elmləri namizədi**

## Elmin sinergetik obrazı və insan fəaliyyəti

Çağdaş elmin obrazı haqqında ziddiyyətli fikirlər var. İndi dünya fəlsəfəsində elmi qeyri-elmlə müqayisə etmək cəhdlərinə tez-tez rast gəlinir[10]. Filosoflar və elmin metodologiyası ilə peşəkar səviyyədə məşğul olanlar «antielm» kimi anlayışlarla da işləyirlər. Elmin elm olmayan idrak növləri ilə sərhədləri barədə çox fərqli mövqelər ortaya çıxır. Bir tərəfdə sientist ifratçılıq, o biri tərəfdə isə elmi qeyri-elmi idrakla eynişədirməkdən qaynaqlanan ifratçılıq var. Keçən əsrin son on illiyində ABŞ alimlərinin təşəbbüsü ilə «antielm» tendensiyasını təhlil edən beynəlxalq elmi konfrans keçirilib. Tədqiqatçılar elmə

qarşı hərəkatın genişlənməsindən narahatlıqlarını açıq bildiriblər. Eyni zamanda, elmi mütləqiləşdirməyin zərərini də vurğulayıblar[11]. Bu kimi ehtiyatlılıq və ifartçılıqların meydana gəlməsi təsadüfi deyil. Burada hər şeyi sosial-mədəni sahədəki böhranla bağlamaq da birtərəfli yanaşma olardı. Məsələ burasındadır ki, bütövlükdə elmilik meyarlarının dəyişməsiylə elmin obrazında yeni çalarların formalaşması prosesi gedir. Bu obrazın mövcud həyat dinamikasıyla bəzi hallarda ziddiyyətləri meydana çıxır. Ümumiyyətlə, hər zaman elmin kökündən dəyişdiyi dövrlərdə alimlərin dünyagörüşündə və təfəkküründə yeniləşmə ağrılı baş verir. Elmin mahiyyəti haqqında müzakirələr bu mərhələdə intensivləşir və müxtəlif mövqelərin meydana çıxması təbii olaraq baş verir. Ona görə də çağdaş dövrümüzdə elmlə qeyri-elmiliyin sərhədləri haqqında çox müxtəlif fikirlərin səslənməsi gözlənilən haldır. Sinergetik idrak situasiyası baxımından da çağdaş elmin obrazı haqqında fikir söyləmək olar.

Çağdaş elmin obrazının formalaşması prosesi başa çatmayıb. İndi intensiv yeni istiqamətlərin yaranması mərhələsidir. Çox qısa müddətdə yeni elmi istiqamətlər meydana gəlir və ya mövcud olanların sintezi baş verir. Bu proses yeni elmi kəşflərin edilməsi fonunda baş verir. Həmin kəşflər yaradıcılıq tezliyi adlandırdığımız parametrin sürətlənməsi əlamətidir. Yaradıcılıq teziliyi isə yaradıcılıq vüsətinin amplitudasının mövcud potensial qnoseoloji sahədə normal sayılan həddi aşması halında yeni səviyyədə özünü göstərir. Deməli, sinergetik yanaşma çərçivəsində çağdaş elmin əsas xüsusiyyəti yaradıcılıq vüsətinin böhran nöqtəsi ətrafına çatmasından ibarətdir. Böhran nöqtəsi ətrafında elmi proseslər çox sürətlənir. Bütün elmi sistem bir növ kəskinləşmiş dinamik rejimə keçir. Onun təzahürləri kimi elmi nəzəriyyələr arasında əlaqələrin intensivləşməsini, yeni elmi istiqamətlərin formalaşmasını və bütövlükdə elmi yeniliklərin sayının artmasını göstərmək olar. Eyni zamanda, insan idarkının nüfuzetmə dərinliyi artır ki, bu da Kainatın daha geniş məkanları haqqında hipotetik və ya eksperimantal fikir söyləməkdə ifadə olunur. Bu proseslərin aparıcı hissəsi isə elmi istiqamətlərin sintezidir. Elmlərin inteqrasiyası çağdaş elmin obrazının əsas əlamətidir. Özü də ənənəvi olaraq bir-birindən çox uzaq olan elm sahələrinin ortaq problemlərinin yaranması bu prosesdə öncül mövqeyə çıxmaqdadır. Sinergetikanın banisi Herman Hakenin özü etiraf edir ki, o, bu elmi istiqaməti yaradanda elmlərin bir-birinə bu qədər bağlı olduğunu təsəvvür etmirdi [bax:12, səh. 53]. Elmi sistemdə gedən bu inteqrasiya paradoksal şəkildə differensiasiya ilə müşaiyət olunur. Belə ki, konkret istiqamətlər üzrə elə araşdırmalar aparılır ki, daha dar elmi çərçivədə fəaliyyət göstərmək lazım gəlir. Elmi tədqiqatların bu cür «xırdalaşması» elmi idrakın daha dərinlərə baş vurması formasında baş verir. Yəni inteqrasiya üçün bu cür differensiasiya növbəti mərhələdə birləşmək rolunu oynayır. Bu fenomenin meydana gəlməsi hazırkı mərhələdə differensiasiyanın inteqrativ elm sahələrinin potensial qnoseoloji sahələri üzərində formalaşmasıyla bağlıdır. Həm mikroobyektlərin öyrənilməsi, həm də kosmik hədəflərin miqyasının genişlənməsi bu dinamika formasında həyata keçirilir. Hazırda mikrobioloqlar genlərin öyrənilməsində görünməmiş sərhədləri «fəth edirlər». Klonlaşma getdikcə dönməz elmi axtarışlar hədəfinə çevrilir. Böyük Britaniya hökuməti bu istiqamətdə elmi tədqiqatların aparılmasına yaşıl işıq yandırıb. İnsan geninin daha dərindən öyrənilməsi onda ruhi qatın olduğunu artıq təsdiq edib. Aparılan eksperiment zamanı maddi olaraq ölmüş hüceyrə 40 gün "qışqırıb". Alimlər həmin səslərin hüceyrə daxilində olan boşluqdan (fiziki terminologia ilə vakuumdan) gəldiyini müəyyənləşdiriblər. Bununla elmi idrak dünyanın fundamental quruluşunu öyrənməyə doğru bir addım da atmış olur. Eyni mənzərə Kosmosun öyrənilməsində müşahidə olunur. İndi Amerika kosmik aparatları Marsdan və digər uzaq

göy cisimlərindən informasiyalar ötürə bilirlər. Oradan alınan informasiyaların təhlili göstərir ki, Kainat bizim indiyə qədər onun haqqında olan təsəvvürlərdən fərqli mahiyyətə malikdir. Elmin həm mikro, həm də makro miqyasda yeni məsafələr qət etməsi bütövlükdə elmi idrak sistemində baş verən köklü dəyişiklər nəticəsində mümkün olur. O baxımdan elmin obrazı haqqında qeyri-klassik meyarlar çərçivəsində belə danışmaq doğru olmazdı.

Elmin əvvəlki sərhədləri dağılıb. Sosiologiya ilə fizika arasında məsafə o qədər qısalıb ki, onların ortaq problemlərinin daha çox olduğu önə çıxıb. Fiziki olanla sosial amilin əvvəllər təsəvvür edilən fərqlikləri əhəmiyyətini itirmiş olur. Məsələn, insanın hər hansı xəstəliyini indi daha çox psixo-fizioloji və sosial amillərlə bağlayırlar. Hələ orta əsr müsəlman alimləri epidemiyaların yayılmasını viruslardan çox, sosial amillərlə əlaqələndirirdilər. İndi isə elmi səviyyədə bunu təsdiq edən faktlar tapılır. İnsanın bioloji quruluşunun sosial, ruhi, psixoloji və digər sahələrlə sıx bağlı olduğu məlum olur. Hər bir xəstəliyin də kökü psixoloji amildə olduğu barədə getdikcə daha çox fikir səslənir. Sinergetika da bununla bağlı eyni mövqeni nümayiş etdirir. Tibbi və siyasi diaqnozlarda birtərəfli düşünmənin çox pis nəticələr verə biləcəyi haqqında özünütəşkil prosesini öyrənənlər xəbərdarlıq edirlər. İnsanın sağlamlığı onun ruhi qatına və psixologiyasına dayanır. Bütün bunlar çağdaş elmin potensial qnoseoloji sahəsinin inteqrativ xarakter daşıdığını təsdiq elir. Yəni elmi idrak abstrakt səviyyədən potensial qnoseoloji sahəyə etdiyi təsirlərlə bu sahənin inteqrativliyə doğru dəyişməsini təmin edir. Sinergetikada buna dairəvi səbəbiyyət deyilir. Başqa sözlə, çağdaş elm potensial qnoseoloji sahə timsalında fundamentin dəyişməsi mərhələsini yaşayır. Ona görə də onun obrazının tam formalaşması elmin fundamental qatda dəyişmə prosesini başa çatdırandan sonra baş



verə bilər. Buradan yeni elmi istiqamətlərin elmdə oynadığı rollar haqqında bir sıra nəticələr çıxara bilərik.

Yeni elmi istiqamətlər çağdaş elmin predmetə görə yox, problemlər üzrə formalaşmaqda olduğunu göstərir. Elm sahələrinin problem kəsimi üzrə inteqrasiya olunmaları təbii ki, tamam fərqli struktur formalaşdıracaq. Ənənəvi elmilik meyarları baxımından bu strukturlar elmi olmaya bilərlər. Elmi istiqamətlərin problemlər üzrə formalaşması prinsipcə yeni dinamika və obraz icydana çıxarır. Burada dayanıqlı və dayanıqsız nəzəriyyə anlayışı dəyişir, elmi strukturun bütövlüyü forması yeniləşir. Bütövlük icrarxik quruluşların dinamik sintezi xarakteri alır. Bu sintezin mahiyyətində isə həm konfiqurativ, həm zaman, həm də məzmun müxtəlifliyinin birliyi əks olunub. Konfiqurativ tərəf aparıcı rol oynayır. Yəni müxtəlif elmi istiqamətlərin makrosəviyyədə hansı konfiqurasiya yaratmaları elmin məzmunu baxımından prinsipial əhəmiyyət daşıyır. Klassik yanaşma üçün paradoksaldır ki, elmin məzmunu qeyri-elmi təbiətli ideal strukturdan-konfiqurasiyadan asılı olsun. Ancaq sinergetik yanaşmanın üzə çıxardığı özəlliklər göstərir ki, aparıcı parametr rolunu məhz birbaşa elmi məzmuna aidiyyatı olmayan amillər oynayır. Fiziki və kimyəvi sistemlərdə amplituda funksiyasını yerinə yetirən kəmiyyətin elmdə analoqu yaradıcılıq vüsətidir. Yaradıcılıq vüsəti özözlüyündə elmi məfhum deyil, ancaq elmi məfhumun formalaşmasında aparıcı rol oynayan parametrdir. Ona görə də konfiqurasiyanın aparıcı parametr kimi nəzəriyyələrin sintezində rol oynaması sinergetik təsəvvürlər çərçivəsində tamamilə aydındır. Ancaq elmi istiqamətlərin sinergetik sintezi qaydası təkcə konfiqurasiyalarla məhdudlaşmır. Burada zaman anlayışı fundamental rol oynayır. Yəni müxtəlif dinamika ritmlərinə malik olan ideal strukturların necə ortaq ritmə gələ bilmələri məsələsi çox aktualdır. Çağdaş elmin obrazının formalaşmasının əsas cəhətlərindən biri bundan ibarətdir. Sinergetik an-

lamda ritmlərin uyğunlaşması biliyin məzmun baxımdan eyni müstəviyə gələ bilməsi deməkdir. Ritmin qabardılması isə biliyin özündə yox, onun yaranması prosesində dərində yerləşən amillərin bir-birinə çulğalaşması prosesini önə çəkmək deməkdir. Bu da mikrosəviyyədə gedən yaradıcılıq prosesləri zamanı yaradıcılıq elementlərinin qarşılıqlı təsirlərinin harmoniya yarada bilməsi qabiliyyəti məsələsinə gəlib çıxmaqdır. Müxtəlif nəzəriyyələrin dinamik ritminin uyğunlaşmasının kökü yaradıcılıq sahəsində qarşılıqlı təsirlərin növünə dayanır. Əgər yaradıcılıq gərginliyi sahəsində harmoniya formalaşa bilirsə, nəzəriyyələrin ritmləri rasional təfəkkürdən kənarda uyğunlaşır. Bu halda elmin ayrı-ayrı sahələri arasında məntiqi və intuitiv bağlılıq yaranır. Bu yolla müxtəlif dəyişmə ritminə malik elmi sahələr ortaq dinamikaya gətirilir. Çağdaş elmin obrazının bütövləşməsi bu aspektdən çox asılıdır. İndi müşahidə olunan dəyişikliklər göstərir ki, elmin strukturunun və mahiyyətinin pozulduğu haqqında tendensiyalar yer alır. Lakin bu sapmaların təsirli olmadığı qənaətindəyik, çünki onlar elmdə gedən fərqli dinamik dəyişikliyi dərk etməməklə bağlıdır. Elm müxtəlif ritmləri sinergetik uyğunlaşdıqmaqla yeni səviyyəyə qalxma prosesini tamamlamaqdadır. Bununla yanaşı, yuxarıda vurğuladığımız yaradıcılıq vüsətinin böhran nöqtəsi ətrafında olması situasiyası müəyyən təhlükələr yaradır. Elə hal ola bilir ki, belə kəskinləşmiş rejimdə yaradıcılığın özü elmi strukturun dağılmasına səbəb olur. Bunun üçün yaradıcılıq vüsətlərinin kollektivləşmə sürəti elmi əlaqələrin ortaq məxrəcə gətirilməsi prosesini ifrat qabaqlamalıdır. Elmi əlaqələrin ortaq məxrəcə gətirilməsi elmi informasiyaların yayılması sürətindən asılıdır. Yəni elmi informasiyaların yayılması sürəti yaradıcılıq vüsətlərindən çox zəif olsa, elmi struktur dağıla bilər. Xoşbəxtlikdən çağdaş elmi sistemdə elə sürətli informasiya əlaqələri formaları var ki, bədbinliyə əsas vermir. Elmi forumlar, konfranslar, seminarlar, ortaq elmi layihələr və nəhayət, İNTERNET bu



funksiyanı yerinə yetirir. İNTERNET-in çağdaş elmin obrazının formalaşmasında rolu ölçüyəgəlməz dərəcədə böyükdür. İNTERNET-siz elmi yaradıcılıq vüsətləri və onların elmi ifadəsi olan kəşflər dünyanı fəlakətə apara bilər. Nəzərə almaq lazımdır ki, İNTERNET və digər mübadilə formaları elmi natarazlıqları tarazlaşdırır, müxtəlif xarakterli insan fəaliyyətlərini bir-birinə uyğunlaşdırmağa yardım edir. Bunların kökündə isə həmişə qeyri-rasional dərk edilən elmi yaradıcılıq vüsətlərinin kollektivləşmə ritmlərinin sinxronlaşdırılmasıyla informasiyaların dissipasiyası mexanizmini uyğunlaşdırmaq durur. Bu uyğunlaşmanı yalnız spontan elmi yeniliklər poza bilir. Ancaq həmişə müəyyən zaman kəsimi olur ki, o uyğunluq özünü göstərir. Bu aspektdə hazırkı elmi sistem köhnəliklə yeniliyin çulğalaşması formasına malikdir. Bu mərhələ sinergetik sistemin bütövlüyünün formalaşmasında ciddi rol oynayır. Riyazi olaraq həmin mərhələnin özəlliyi araşdırılıb [bax: 13]. Elmdə də mikrosəviyyədə köhnə təsəvvürlərlə yenilərinin yanaşı mövcudluğu baş verir və bu prosesin hansı tərəfin xeyrinə dəyişməsi informasiyaların yayılma qeyri-xəttiliyndən asılıdır. Elm bütöv sistem olaraq sosial-mədəni mühitdən aldığı informasiyaları daxili təbiətinə uyğun «emal» etməklə köhnə ilə yeniliyin nisbətini dəyişir. Elmdaxili mühitdə isə bu proses analoji qaydada müxtəlif lokal elmi strukturlar, kollektivlər və nəhayət, fərdlərarası əlaqələr sahələrində özünü göstərir. Məhz elmdaxili mikrosəviyyələrdə yarışın getməsi çağdaş elmin ziddiyyətli obrazının məzmununa xüsusi ton verməkdədir. Lakin bu proses uzun müddət davam etmir və yaxın perspektivdə elmi sistemin kökündən yeniləşməsi prosesi sona çatmalıdır. Onda həmin elmin obrazı haqqında konkret və əksəriyyətin razılaşdığı təsəvvür meydana gələcək. Bir daha vurğulayaq ki, bu dinamikada hansı tərəfin - elmi kəşflərin tezliyinin yoxsa elmi informasiyaların sistem boyu yayılma sürətinin əsas rol oynayacağını demək olmaz. Əsas rolu bu tərəflərin hansı nis-

bətdə olması oynayacaq. Sinergetik yanaşmanın ruhuna uyğun deyə bilərik ki, bu gündən sabahın elmi nikbin obraza malik olan kimi görünür.

Yeni elmi istiqamətlərin sintezinin bu cür qaydada getməsi elmi idrakın qloballaşması adlanan bir fenomenin sürətlə gündəmə gəlməsini təmin edir. Elmi idrakın qloballaşması da elmin obrazının aparıcı amillərindən birinə çevrilir. Elmin obrazının bütövlüyü idrakın qloballaşması fonunda konkret cizgilər kəsb edir. İndi qloballaşma insan fəaliyyətinin demək olar ki, bütün sahələrini əhatə edib. Qloballaşma sözün həqiqi mənasında dəbə çevrilir. O baxımdan elmi idrakın qloballaşması konkret mahiyyətə malikdir. Elmi idrak o mənada qloballaşır ki, potensial qnoseoloji sahəsi dünyanı bütöv öyrənməyə uyğunlaşır. Elmi idrak hissədən tama yox, tamın bütövlüyünün saxlanması fonunda hissələrarası əlaqələrin inteqrasiyası prosesinə diqqəti daha çox yetirir. Hissələr bütövün təkamülü məqsədinə çatmaq aspektində qarşılıqlı təsirlərin sistemliliyi bağlılığında öyrənilir. Əvvəlcədən son məqsəd idrakın özündə orqanik olaraq iştirak edir, ona məzmun, mahiyyət və yön verir. Bu səbəbdəndir ki, elmin bütövlükdə məzmununda sistemlilik sürəkli olaraq üstünlük təşkil etməyə başlayıb. Elmi yanaşmada sistemliyin əsas təşkil etməsi potensial qnoseoloji sahə səviyyəsində elmi idrakın mahiyyətcə qlobal keyfiyyətə malik olmasından qaynaqlanır. Sistem anlayışı elmi idrak üçün dərketməni qlobal müstəvidə həyata keçirməkdə rahatlıq yaradır. Bu anlayış vasitəsiylə ümumiyyətlə bütövlüyü elmi idrak hədəfində saxlamaq mümkün olur. Bütövlüyə o halda son məqsəd kimi yanaşmaq olur. Bunun reallaşması yolları isə artıq konkret elmi yanaşmaların mahiyyətindən asılıdır. Məsələn, sinergetika bütövlüyə idrakın hər mərhələsində dinamiklik, dəyişkənlik, harmoniya, dünyanın vahidliyi, özünütəşkil, dönməzlik və təkamülə aparan yolların müxtəlifliyinin sintezi əsasında yanaşır. Çağdaş elmdə bu yanaşma ən mütərəqqi sayılır və o mənada sinergetik yanaşmanı gələcək elmin obrazının formalaşmasının



əsas təşkiledicisi adlandırırlar. Bu mülahizələrdən görünür ki, elmi idrakın qloballaşması mahiyyətdə dünyanı bütöv dərketmə müstəvisində elmi fəaliyyət göstərmək deməkdir. Qloballaşmanın digər mənaları buradan qaynaqlanır. Yəni elmi idrakın qloballaşması nəzəri olmaqla yanaşı praktiki mahiyyət daşıyır və bu tərəflər bir-birindən ayrılmazdır. İdrakın qloballaşmasının praktiki əhəmiyyət daşıması çağdaş elmi rasionlalhğın ümumi mahiyyəti prizmasından da izah oluna bilər. Çağdaş elmi rasionallıq təkcə proseslərin yox, həm də onların baş verdiyi mühitin dinamikasının dəyişdiyini qəbul edir. Bu da elmi rasionallıqda akseoloji aspektləri nəzərə almağın zəruriliyini qəbul etmək deməkdir. Həm elm, həm də onun formalaşdığı mühit dəyişirsə, onda praktiki tərəf nəzəridən ayrı təsəvvür edilə bilməz. Burada yenə də dairəvi səbəbiyyət prinsipinə gəlirik. Deməli, elmi idrakın qloballaşmasının metodoloji əsasında dairəvi səbəbiyyət prinsipini qəbul etmək durur. Qloballaşma sadəcə bütövlüyü və onu sistem olaraq ümumən dərketməni önə çəkmək demək deyil, həm də bütövün daxili dinamikasının vahidliyini anlamaq, onun spontan təkamülünü qəbul etməkdir. Bu mənada elmi idrakın qloballaşması prosesin sonuna yönəlik deyil, dinamikanın sistemliliyini hədəf seçmək anlamına gəlir.

Elmi idrakın daxili dinamika baxımından qloballaşmasının bu özəllikləri bu anlayışın daha populyar olan məna yüklərinin əsasında durur. Hesab edirik ki, siyasi, ekoloji, iqtisadi, geosiyasi və sair aspektlərdə işlənən qloballaşma anlayışlarını tam mahiyyəti ilə dərk etmək üçün elmi idrakın qloballaşmasının nə olduğunu anlamaq gərəkdir. Elmin obrazının dolğun aydınlaşdırılmasının praktiki tərəflərindən biri bu bağlılıqda daha yaxşı aydın olur. Odur ki,siyasi, ekoloji, iqtisadi, demoqrafik və ya hər hansı qloballaşmaya elmsiz nail olmaq mümkün deyil. Çağdaş sosial-mədəni dünyamızın mahiyyəti belədir ki, elm bütün insan fəaliyyətinin əsasında durur. Sırf elmi aspektdə isə potensial qnoseoloji sahənin bütövlüyün dərk

edilməsi məqsədi əsasında formalaşması makrosəviyyədə ayrı-ayrı elmi istiqamətlərin inteqrativ təsəvvürlər formalaşdırmasını şərtləndirir. Bu da elmin obrazının inteqrativ mahiyyətli olmasını təmin edir.

## ƏDƏBİYYAT


1. Zimmerli W. Die Grenzen der Rationalitat als Problem der europaischen Geqenw artsphilosophie // Zur Kritik der wissenschaftlichen Rationalitat, Freiburq – München, 1986.
2. Степин В.С. Научное познание и ценности техногенной цивилизации // «Вопросы философии», 1989, № 10, с. 3-19.
3. Гайденко П.П. Проблема рациональности на исходе XX века // «Вопросы философии», 1991, №6, с. 3-15.
4. Кант И. Сочинения в шести томах.М., 1964, Т. 3.
5. Николис Дж. Хаотическая динамика лингвистических процессов и образование паттернов в поведении человека // «Вопросы философии», 1997, №3, с. 85-89.
6. Симонов П.В. Мозг и творчество // «Вопросы философии», 1992, №11, с.3-25.
7. Философский словарь.М., 1991.
8. Кюнг Г. Когнитивные науки на историческом фоне. Заметки философа // «Вопросы философии», с. 41-52.
9. Haefliger G., Künq G. Substanzen, Zustande, Prozesse, Ereignisse: İnqarden und die analutische Genenstandstheorie. München, 1992.
10. Холтон Дж. Что такое «антинаука»? // «Вопросы философии», 1992, №2, с.26-59.
11. Разум и экзистенция. Анализ научных и вненаучных форм мышления // Под редакцией И.Т.Касавина и В.Н.Поруса.Санкт-Петербург, 1999.





12. Князева Е.Н. Синергетике – 30 лет. Интевью с проф. Г.Хакеном // «Вопросы философии», 2000, №4, с. 53-61.
13. Князева Е.Н., Курдюмов С.П. Осонования синергетики. Санкт-Петербург, 2002.



**Azər Kərim oğlu Allahverənov,**
**AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu sosial fəlsəfə şöbəsinin doktorantı, fəlsəfə elmləri namizədi**


## İdarəetmə və sinergizm: ontoloji-qnoseoloji aspektləri

XXI əsrə daxil olan bəşəriyyət öz inkişafında elə bir səviyyəyə çatmışdır ki, artıq mühüm yer optimal ictimai quruluş ideyasına və onun tələblərini ödəyə biləcək yeni idarəetmə paradiqmasının praktiki təcəssümünə veriləcəkdir. Tarixən bəşəriyyətin körkəmli mütəfəkkirləri öz əsərlərində ideal cəmiyyət və ona aparan yolları axtarmış, həmin cəmiyyətin modelini yaratmağa çalışmışlar. Ötən əsrin ikinci yarısı isə onunla əlamətdar olmuşdur ki, daha yaxşı ictimai quruluş axtarışının pozitiv istiqaməti [3, s.161] kimi çıxış etmək iqtidarına malik ola biləcək vətəndaş cəmiyyəti ideyalarının praktiki cəhətdən həyata keçirilməsinə başlandı. Ədalət naminə qeyd etmək lazımdır ki, vətəndaş cəmiyyətinin bir sıra ideoloji aspektləri həmin dövrə qədər Amerika və Qərb demokratiya nəzəriyyələrində bərqərar olmuş və onun praktiki realizəsində öz əksini tapmışdır. Müasir dövrdə dünyada bu istiqamətdə baş verən hadisələri başa düşmək və yüksək dərəcədə inkişaf etmiş vətəndaş cəmiyyətinin, hüquqi dövlətin qurulmasının daha məqbul yollarını tapmaq üçün, zənnimizcə, zamanın tələblərinə adekvat cavab verən yeni tip təfəkkürlə silahlanmaq gərəkdir.

Zamanın tələbinə uyğun və nəzəri-metodoloji əsasını mürəkkəb sistemlər nəzəriyyəsi təşkil edən həmin təfəkkür tipini Ə.F.Abbasov şərti olaraq tənqidi-sinergetik təfəkkür adlandırmışdır. Yalnız bundan sonra əsaslı surətdə şərti olaraq adlandırmaq istədiyimiz **ümumplanetar mütərəqqi cəmiyyət** modelinin yaradılmasına imkan verən vacib amilləri aşkar etmək olar. **Ümumplanetar mütərəqqi cəmiyyət** deyəndə biz vətəndaş cəmiyyəti (o cümlədən qlobal vətəndaş cəmiyyəti) və hüquqi dövlət konsepsiyalarının, mürəkkəb sistemlər nəzəriyyəsinin və sosial idarətmə paradiqmasının daha qabaqcıl və həyat əhəmiyyətli, yaşamağa qadir prinsip və ənənələrini özündə ehtiva edən yeni cəmiyyət modelini nəzərdə tuturuq.

Təqdim olunan məqalədə mürəkkəb sistemlər dialektikası və onunla bağlı və eyni zamanda faktiki olaraq aparıcı paradiqma qismində çıxış edən sinergetik ideologiya barəsində zəruri təsəvvürləri verməyə çalışacağıq. Məhz həmin paradiqmanın hüdudları daxilində «özünütəşkil», «özünüidarəetmə», «kooperativlik», «kogerent fəaliyyət» kimi anlayış-fenomenləri əsaslı surətdə anlamaq mümkündür. Yuxarıda sadalanan kateqoriyalar optimal cəmiyyət quruluşları kontekstində çıxış edən vətəndaş cəmiyyəti, hüquqi dövlət və ümumilikdə demokratik cəmiyyətlərin formalaşdırılması, inkişaf etdirilməsi strategiyasının işlənib hazırlanmasında mühüm, başlıca əhəmiyyətə malikdirlər. Bu yanaşma baş verən hadisələri həm elmi-nəzəri və məntiqi-metodoloji, həm də daha konkret şəkildə – praktiki anlamda [1, s.34] dərk etmək imkanı verəcəkdir.

Minilliklərin kəsişməsində müasir elm ənənəvi metodologiyalara əsaslanan eksperimental və nəzəri imkanların hüdudlarına yaxınlaşmış və həmin hüdudlardan kənara çıxmaq imkanı əldə etmişdir. Bu kimi hal özünü klassik biliklərin vahidlik və ümumqüdrətlilik xəyallarının kollapsında, **Təbiətlə İnsan** arasında bərqərar olmuş dialoqun kəsilməsində göstərmiş, hələ də göstərməkdədir. İnformasion-texnoloji cəmiyyətin industrial-energetik dövrünün imperativləri mürəkkəbliyin, dünyanın bütövlüyünün və onun prinsiplərinin universallığının dərk olunması imperativləri ilə əvəz olunmaqdadır. Yeni təfəkkürə, qeyri-ənənəvi metodologiyalara, yeni adekvat üsullara və idrak formalarına zərurət daha qabarıq şəkildə büruzə verməkdədir.

Bü gün göz önündə təbiətşünaslığın və sosiohumanitar biliklərin birlikdə təmsil olunduqları postqeyri-klassik fənlərarası elmi paradiqma yaranmaqdadır. Müasir həyatımızda hakim mövqelər **Sintez** dövrünün ixtiyarına verilir. Bu **Sintezin** əsasını yeni elmi istiqamət hesab olunan və insan fəaliyyətinin bütün sahələrində mühüm rol oynayan təkamül nəzəriyyələrinin, sistemli analizin, kibernetikanın, fəlakətlər nəzəriyyələrinin, fraktal həndəsənin və dinamik xaosun nailiyyətlərini yaradıcı surətdə özündə birləşdirən Sinergetika təşkil edir [4, s.74].

Fərqli kontekstlərdə müxtəlif cür başa düşülən sinergetikanın elementlərini insan həyatının istənilən sahəsində aşkar etmək mümkündür. Bu gün Sinengetikanın hamı tərəfindən qəbul olunan izahı yoxdur və bunun səbəbi ilk növbədə onun mürəkkəbliyində və çoxtrəfli olmasındadır. Bundan başqa dünyada və cəmiyyətdə mövcud predmetlərin, hadisələrin, proseslərin həcmi, məzmunu sürətlə inkişaf edir, daim genişlənir, yeni determinantlarla zənginləşir və bununla həmin mürəkkəblik bir qədər də dərinləşir. Sinergetika fizika-riyaziyyat mövzularına aid misallarda yaranan kooperativ hadisələr nəzəriyyəsi kimi meydana gəlməsinə baxmayaraq tədricən açıq, qeyri-xətti, qeyri-tarazlı, iyerarxik sistemləri təsvir edən nəzəriyyənin ümumi statusunu əldə etməyə başlamışdır. Artıq təbiətşünaslıqda qeyri-xətti dinamika, dissipativ sistemlər, açıq sistemlər və ya dinamik xaos nəzəriyyələri barəsində mülahizələr irəli sürülməkdədir. Zənnimizcə, sinergetikanın apologeyası özünü o vaxt doğruldar ki, onun kor-korana tərifindən əl çəkilsin, əvəzində isə nəzəriyyə insani ölçülər və özünü xarakterizə edən, determinasiya olunan sistemlərlə zənginləşdirilsin. Bununla da

sinergetik metodologiya bütöv mədəniyyət təfəkkür, fəaliyyət, qarşılıqlı münasibət və birgəyaşam mədəniyyəti statusunu əldə etmiş olar. Fəlsəfi kontekstdə izah etsək, sinergetika qərarlaşan varlıq, onun təşəkkültapma və təqdimolunma mexanizmləri barəsində, H.Hagenin təbirincə desək, «qarşılıqlı təsirlər haqqında təlim» və ya daha geniş mənada postqeyri-klassik elmi paradiqmadır. Özünütəşkil nəzəriyyəsinin strukturu, onun əsas anlayışları və təqdim olunması elə işlənib hazırlanmalıdır ki, o, özünün spesifikliyi ilə yanaşı dar ixtisaslı fənlər sırasında seçilə bilsin. Sonunculardan fərqli olaraq sinergetika mürəkkəblik və özünütəşkilin ümumi atributlarını refleksiya edir.

Özünütəşkil nəzəriyyəsinin mürəkkəblik və sadəlik, determinizm və stoxastiklik, dayanıqlıq və qeyri-müntəzəmlilik, xaos və nizamlılıq və s. idrak obyektləri Tamın dialektik məqamı qismində ziddiyyətlərin vəhdəti kimi çıxış edir. Hazırki konsepsiyanın dialektik sırası ona görə son dərəcə mürəkkəbdir ki, mürəkkəb sistemlərin vəziyyəti digər təsvirlər üçün yer qoymur. Ziddiyyətliliklərin daha zərif sərhədlərdə üz-üzə gəlməsi [6, s.104], müxtəliflik elementlərinin bir-birini tamamlaması, onların alternativ qaydada bir-birinə yardım göstərməsi həmin təsvirin geniş şəkildə təqdim olunması üçün istifadə edilə biləcək palitra komponentləridir.

Sinergetikada başlıca anlayış, sözsüz ki, mürəkkəblikdir. Mürəkkəbliyin tərifi hərəkətin müəyyən nizamsızlığı, uzlaşmazlığı, sistem elementlərinin qarşılıqlı əlaqəsinin qısa zaman ərzində bir-birinə təsir etmək səciyyəsini nəzərdə tutan xaos anlayışı vasitəsilə verilir [8, s.11]. Xaos stoxastik kateqoriyadır. Adi anlam tərzinə görə mürəkkəblik sadəliyə əks olmalıdır. Lakin fəlsəfi kontekstdə bu belə deyil. Mürəkkəblik xaosa əks mövqedə durandır. Q.Nikolis və İ.Priqojinə görə xaosdan fərqli olaraq mürəkkəblik «fəallığın, formanın və ya dinamikanın koordinasiyası» [8, s.11] və uyğunlaşdırılmasıdır. Mürəkkəblik dinamik kateqoriyadır. Həm xaos, həm də mürəkkəblik özünütəşkilatlandıran sistemlərin davranış xüsusiyyətləridir. Bu fikrə əsaslanaraq sinergetikada hərdən mürəkkəblikla mürəkkəb davranışı eyniləşdirmək, bərabər tutmaq cəhdləri olur. Bu kimi cəhdlər bəri başdan uğursuzluğa düçar olunandırlar, o səbəbdən ki, bu iki anlayış fərqli müstəvidə, səviyyələrdə mövcuddurlar. Hətta bu iki anlayışa yeni keyfiyyət parametrlərini əlavə etsək deyilənlərdən bir qədər fərqli mənzərə alına bilər. Məsələn, mürəkkəbliyin sadə xaosla əkslik təşkil etməsinə baxmayaraq determinasiya olunmuş xaosa zidd deyildir. Çünki determinasya olunmuş xaosun özündə bir mürəkkəblik və bundan irəli gələn sistemlik var. Deyilənləri ümumiləşdirərək vurğulamaq olar ki, sinergetika mürəkkəbliyin, onun təbiəti, təşkilatlanması və təkamülü prinsiplərinin dərk olunması və izah edilməsidir.

Mürəkkəblik hansısa təbiətə mənsub olmasından asılı olmayaraq tükənməz hadisədir [5, s.94]. Mürəkkəb davranış misalları və onların təhlili sinergetikanın nəzəri məzmununun əsas hissəsini təşkil edir. Sinergetika qeyri-taraz, qeyri-xətti vəziyyətlərin öyrənilməsi üçün istifadə olunan metodoloji aparatı genişləndirməklə yanaşı, biliyin tədqiq edilmiş və işlənib-hazırlanmış sahələrini vahid, mükəmməl nəzəriyyə səviyyəsinə qədər inkişaf etdirmişdir. Bu, sinergetikaya mürəkkəbliyin yeni aspektlərini kəşf etməyə, ona hər şeyi əhatə edən və qavrayan fenomen statusunu əldə etməyə imkan verdi.

Bütün rejimlərdə sistemin vəziyyəti idarə olunan parametrlərin dəyişdirilməsi vasitəsilə tənzimlənə bilər. Bu, sistemi ümumilikdə səciyyələndirən kollektiv dəyişənlərin fövqəladə dərəcədə əhəmiyyətli sinfidir. Onların dəyişməsi sistemin davranış mənzərəsinin dəyişməsinə səbəb olur. Məsələn, kimyəvi və bioloji sistemlərdə temperaturun azalması və artması, fiziki sistemlərdə istilik kəmiyyətinin azalması və çoxalması, ekoloji və iqtisadi sistemlərdə əhali sayının artması və azalması və s. sistemin bütün vəziyyətinin dəyişməsinə səbəb olur. İdarə olu-

nan parametrlər və onların dəyişkənlik dinamikası keçid vəziyyətlərini, bifurkasiya nəzəriyyəsini və dayanıqlıq nəzəriyyələrini əlaqələndirən sahəni təşkil edirlər [6, s.96].

Təşəkkül tapma mərhələsi bir səviyyədə olan bifurkasiya və ya fəlakətlər anlayışı ilə bağlıdır. Kəmiyyətin sıçrayışlı şəkildə dəyişməsi, alternativləri seçmək yolu ilə bir səviyyədən digər səviyyəyə keçmək sayıla biləcək bifurkasiya istənilən sistem üçün xarakterik cəhətdir. Sonuncu cəhətə daxildən diqqət yetirərkən proseslərin hansısa xüsusi nöqtədə, başqa cür desək, böhran nöqtəsində birləşməsi və müəyyən amillərdən asılı olaraq sonradan inkişaf etməsi qənaətinə gəlmək mümkündür. Bu nöqtəyə sinergetikada bifurkasiya nöqtəsi deyilir. Bifurkasiya nöqtəsi sistemin keçmişini, indisini, gələcəyini əlaqələndirən, kəmiyyət-keyfiyyət dəyişmələrinin kulminasiya anlarını xarakterizə edən varlıqdır [2, s.114]. Beləliklə, əvvəlcədən yalnız bir struktur səviyəsində olan dəyişənlərin ontologiyası verilmişdir. Sistemin nizam parametrləri üçün nəzərdə tutulan bifurkasion düstur məhz həmin dəyişənlər terminlərində verilәndir. Bifurkasion düsturun həlli birmənalıdır. İstisna olunan məqam sistemin dayanıqsız olmasını və sıçrayışla digər alternativ səviyyəyə keçməsini, ontologiyanın üfüqi qaydada dəyişməsini xarakterizə edə biləcək bifurkasiya nöqtəsi ilə əlaqədardır. Bu kənardan diqqəti cəlb edən mənzərədir və onun çatışmayan cəhəti qapalı olmasıdır. Yəni burada sabitsizlik, dəyişkənlik və təşəkkül tapma nöqtəsi çılpaqlığı ilə göz önünə gəlmir. Xaosun bütün mexanizmləri kadr arxasında qalır və biz bir növ homeostazın bir vəziyyətindən digər bir vəziyyətinə düşürük. Sistem, demək olar ki, həmişə dayanaqlıdır və müşahidəçi, daha dəqiq metamüşahidəçi, tam klassikdir. Bu yanaşmada da böhranəvvəli hadisələri tapmaq olar. Məsələn, sistemin xarakterik ritmlərinin kritik zəifləməsi, fəlakətlər nöqtəsi ətrafında «ölən» nizam parametrləri yaxınlığında mümkün fluktuasiyaların amplitudlarının çoxalması həmin böhranəvvəli hadisələrdəndir. Fəlakətlər nəzəriyyəsinin ümumilik səviyyəsi o dərəcədədir ki, fizikada faza keçidlərində yaxşı tanınan həmin hadisələr indi sosiologiyada, iqtisadiyyatda, psixologiyada, incəsənətdə geniş tətbiqini tapmaqdadır. Fəlakətlər nəzəriyyəsi modelin tərtib edilməsinə, sistemlərin tarixi hadisələri və ya sosial proseslərin kəsişməsində fəaliyyət göstərən daxili mexanizmlərdən təcrid olunaraq alternativ variantların təkamül yollarının tapılmasına köməklik edir [7, s.98].



Bifurkasiya ağacının inkişafının müəyyən mərhələsində və ya qəribə attraktorun meydana gəlməsi zamanı özündə mümkün strukturların zənginliyinin, onların axıradək başa düşülməsinin və həyata keçirilməsinin mümkünsüzlüyünü ehtiva edən xaos dövrü başlayır. Belə şəraitdə təşəkkül tapma traektoriyasını izləmək çox çətindir və bir sıra ölçüləri (qabaqcadan xəbər vermək imkanlarını) aşıb keçən zaman intervalları önündə biz statistik mexanika dilinə mənsub terminlərdən istifadə etmək məcburiyyətindəyik: entropiya, ehtimal bölüşdürülmə, korrelyasion funksiyalar və s. Buna baxmayaraq hər zaman seçim qarşısında duran sistem müxtəlifliklərdən birini seçmək iqtidarındadır, bu da onun xaos zamanı müəyyən oluna biləcək çox sayda fərqli strukturlara malik olması ilə bağlıdır. Beləliklə, «varlığın təşəkkül tapması» prinsipini formalaşdırmaq olar. Çox sayda hadisələrin qarışıq şəkildə olması adama elə gəlir ki, struktur bir miqyasda, xaos isə digərində mövcuddur. Belə təsəvvürlər ümumi mənzərəyə kənardan baxmaqla formalaşa bilər. Daxildən baxdığımız və dərindən dərk etdiyimiz zaman isə tam qətiyyətlə bəyan edə bilərik ki, həm xaos, həm də struktur eyni vaxtda, bir reallıqda mövcuddurlar.

Xaosdan nizama keçid və ya nizam parametrlərinin doğulması, alternativlər və mümkün imkanlar arasında seçim prosesi strukturun doğulmasının mistik məqamıdır. Çox zaman özünütəşkiletmə adlandırılan həmin proses baş vermiş

hadisədir və onun əsas xarici görkəm atributları ondan ibarətdir ki, burada attraktor onu cəzb edən sahənin hüdudlarından kənara çıxır. Lakin onu da vurğulamaq lazımdır ki, xaos mərhələsində inkişaf etmiş attraktor yoxdur və onun doğulması üçün zaman tələb olunur. Bunu nəzərə alan filosof Ə.F.Abbasov hələ 1991-ci ildə elmi dövriyyəyə **sistemin özünütəşkiletmə tarixi** anlayışını daxil edir. Ə.F.Abbasova görə, sistemin özünütəşkiletmə tarixinin xronoloji çərçivəsi fluktuasiyalardan başlayır və sistemin fəaliyyətsizliyindən (ətalətliyindən) bifurkasiya dövrünə qədər olan məsafəni əhatə edir [3, s.120].

Bifurkasiya hadisəsi zamanda baş verən əksər proseslər üçün tipikdir. Əlbəttə, burada bifurkasiya klassik mexanikada olduğu kimi zərif qaydada baş vermir. Bifurkasiya məqamı bir növ abstraksiyadır. Bifurkasiya öz-özlüyündə zamanda baş verən prosesdir. Bu proses zamanı sistem xüsusiyyətlərinin keyfiyyət dəyişməsi, yenidən qurulması, mürəkkəbliyin yeni strukturlarına və səviyyələrinə transformasiya baş verir. Qeyd etmək lazımdır ki, sistemin qeyri-taraz vəziyyət vasitəsilə yeni dayanıqlıq formaların təkamülündə təsadüfi və mümkün amillər mühüm rola malikdirlər.

Klassik şərhə görə, təsadüfilik zərurətin həm ifadə forması, həm də onun əlavəsi kimi çıxış edir. Sinergetika aləmində həmin kateqoriyaların qarşılıqlı əlaqəsinin yeni aspektləri üzə çıxmaqdadır. Klassik anlama görə təsadüf zərurətin əlavəsi kimi çıxış etmir. Sinergetikaya görə, zərurətin özü də təsadüfin əlavəsi kimi nəzərdən keçirilə bilər. Hətta təsadüfün özü ictimai həyatın müstəqil və xarakterik cəhətidir. Dayanıqsız sistemlərdə özünütəşkiletmə proseslərinin tədqiqi isə o qənaətə gətirib çıxarır ki, zərurət və təsadüf qarşılıqlı sürətdə bir-birini tamamlayır.

Şübhəsiz, fəlsəfi-metodoloji nöqteyi-nəzərindən vacibdir ki, sinergetika sistemlərin fəaliyyət göstərməsində və inkişaf



etməsində, emercent vəziyyətlərin meydana gəlməsində təsadüfün əhəmiyyətli və konstruktiv rolunu üzə çıxartsın. Əgər əvvəl klassik anlamda təsadüf nə isə kənar, ikinci dərəcəli hadisə kimi şərh edilirdisə və gerçəkliyin təhlilində ondan fikrən təcrid olunmaq olardırsa, indi təsadüf fenomeninə başqa cür yanaşılır. Bu yanaşmaya görə təsadüf, zərurət kimi, həm də hadisələrin daxili strukturu, mahiyyəti ilə əlaqəlidir [9, s.108]. Sinergetikanın üstün cəhəti elə bundadır ki, o, subyektiv və təsadüfi prosesləri ikinci dərəcəli və əhəmiyyətsiz yox, məhz cəmiyyətin hərəkətdə olan siyasi, ictimai, sosial sahələrinin dayanıqlı və mahiyyətli hadisələri kimi nəzərdən keçirir. Bu qənaət praktiki həyatda da öz təsdiqini tapmaqdadır. Məsələn, bir neçə ay bundan qabaq Rusiya Federasiyasına gedən yüklərin hansısa subyektiv səbəblərə görə sərhəddə saxlanılması ölkə ərazisində meyvə-tərəvəz məhsullarının qiymətlərinin düşməsi, bundan ehtiyatlanan əks tərəfin adekvat addımları (pasport rejiminin tətbiqi, kömrük rüsumlarının qaldırılması və s.) və şimaldan gələn bütün ərzaq, sənaye məhsullarının qiymətlərinin artması, aztəminatlı ailələrin, iqtisadi cəhətdən əziyyət çəkən insanların güzaranlarının daha da ağırlaşması ilə nəticələndi. Burada təsadüf (hansısa kömrükçünün qeyri-peşəkarlığı) cəmiyyət üçün ağır fəsadlara, xoşagəlməz hadisələrə gətirib çıxaran, şərti olaraq adlandırmaq istədiyimiz, **neqativ təsadüf** qismində çıxış etdi.

Buna dair İ.Priqojin və İ.Stengers öz əsərlərində çox maraqlı bir halı qeyd edir: «Güclü qeyri-tarazlıq şəraitində özünütəşkilatlanma prosesləri təsadüf və zərurət, fluktuasiya və determinist qanunlar arasında həssas qarşılıqlı əlaqəyə uyğungur. Bifurkasiya anında əsas polu fluktuasiyalar və təsadüfi elementlər oynayır. Bifurkasiyarası intervallarda isə dominant rol determinist aspektlərə məxsusdur» [10, s.112].

Bifurkasiya hadisələri müxtəlif təbiətli evolyusion sistemlər üçün çox sayda və vacib nəticələrə malikdir. Bifurkasion yeni-

dənqurma zamanı təsadüfi faktorların rolunu qabaqcadan görmək mümkün deyil. Bu isə o deməkdir ki, belə şəraitdə qeyri-müəyyənlik dərəcəsi bir neçə dəfə artıqdır. Bu hal tək fiziki sistemlərə xas deyil. Cəmiyyətin istənilən inqilabi yeniləşməsi də bir növ bifurkasiyadır. Bəşər tarixinə qısa ekskurs göstərir ki, inqilabların böyük əksəriyyəti son nəticədə və qlobal mənada öz məqsədlərinə çatmamışdır. Təntənəli şəkildə bəyan edilmiş şüuarlar və irləi sürülmüş ideallar, bir qayda olaraq, özlərini doğrultmamışdır. Sinergetik nöqteyi-nəzərdən inqilablar həm elmi, həm də insani kontekstdə fəlakətdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:


1.Abbasov Ə.F. Yeniləşən cəmiyyət: müasir elmi paradiqma və idarəetmə (ümumnəzəri sinergetik təhlil). Bakı, Elm, 1998.

2.Abbasov A.F., Əsgərov İ.S. Keçid dövrü və yeni iqtisadi təfəkkür (sosial-fəlsəfi təhlil). Bakı, Nafta-Press, 2001

3.Аббасов А. Ф. Философия социально-политического оптимума. Б., Элм, 2000

4.Буданов В.Г. Междисциплинарные технологии и принципы синергетики: проблемы и перспективы, Синергетика. Труды семинара. В.1. М., Научная литература, 1998

5.Грачев М.Н. Кибернетика и синергетика. Самоорганизация, организация, управление. М., Научная литература, 1995

6.Курдюмов С.П., Малинецкий Г.Г., Потапов А.Б. Синергетика – теория самоорганизации. М., Знание, 1989

7.Николис Г., Пригожин И. Самоорганизация в неравновесных системах. От диссипативных структур к упорядоченности через флуктуации. Пер. с англ., М., Мир, 1979





8.Николис Г., Пригожин И. Познание сложного. Пер. с англ., Введение. М., Мир, 1990

9.Щуков В.А., Хоп Г.Н. Оправдание случайности. М., Научная литература, 1990

10.Пригожин И., Стенгерс И. Порядок из хаоса. М., Научная литература, 1986



**Rəhimov Mütəllim,**
**AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu sosial fəlsəfə şöbəsinin dissertantı**


## Şəxsiyyət azadlığı və KİV

Bütün insanlar anadan olduqda bərabər hüquqla doğulurlar. Ola bilsin nə vaxtsa onlar anadan olduğu zaman qazandıqları bu təbii hüquqlarla yaşayıb, öz ömürlərini başa vurublar. T.Hobbsa (1) görə də, insan anadan «təbii hüquqlar»ı – tələbatlarının ödənilməsi haqları ilə doğulur. Onlara yaşamaq, başlıca həyat tələbatları, düşmən təcavüzündən qorunmaq haqları daxildir. Təbii haqlar vəhşi, cəmiyyətəqədərki tarixi dövr insanlarını səciyyələndirir, burada hələ nə qanun, nə də mülkiyyət mövcuddur, yalnız hər kəsin özünə lazım olan şeyləri qoparıb almaq haqqı var». İndi isə bu barədə danışmaq qeyri-mümkündür. Hər bir şəxs öz təbii hüquqlarının bir hissəsindən tamamilə imtina etməli, başqa bir hissəsini ümumi rifah naminə başqalarına həvalə etməlidir. Bu cür birgə yaşayış forması dövlətin meydana gəlməsini şərtləndirir. con Lokk (2) qeyd edir ki, «Hər hansı saydakı insan cəmiyyət halında birləşəndə onlardan hər biri ona təbii qanunla verilmiş icraedici hakimiyyətdən imtina edir, onu cəmiyyətə verir və bu halda, yalnız siyasi, yaxud mülki cəmiyyət mövcud olur». cəmiyyət isə

artıq insanlara daha fərqli davranış normaları, birgə yaşayış üçün lazım olan yeni münasibətlər məcmusunun zəruriliyini diqtə edir. T.Hobbsun (3) fikrincə, «cəmiyyət içərisində yaşayan hər bir insan «təbii qanun»a - etik davranış normalarına tabe olmalıdır: insan mümkün olan qədər sülhə can atmalıdır; hər kəs başqalarını özünə bərabər hesab etməlidir; özünün şəxsi işində hakimlik etməməli, suverenin hakimliyini qəbul etməlidir; əsas qayda isə bizə yaxşı məlumdur: özünə rəva görmədiyini başqasına da görmə».

Aristotel (4) «Politika» əsərində qeyd edir ki, «Dövlət, ümumiyyətlə, yaşamaq üçün deyil, xoşbəxt yaşamaq üçün qurulur; əks halda, kölələrdən və heyvanlardan təşkil olunan birliyi də dövlət saymaq lazım gələrdi, bu isə gerçək olmazdı, çünki onlar hamının rifahına can atan və öz iradələri ilə birlik qurmurlar». Sözsüz ki, Aristotelin fikirləri ali məqsəd hesab edilməlidir. Lakin indi dövlətləşmə elə mərhələsinə çatıb ki, insanlar istəsələr də bundan imtina edə bilməzlər. Yer kürəsində hansısa qrup, hətta bir nəfər də olsun dövlət nəzarətindən kənarda deyil. Dövlətləşmə inkişaf prosesində zərurətə çevrilib. Belə bir qənaətə gəlmək də mümkündür ki, insanların könüllü istəklərindən başqa dövlət həm də ona görə formalaşıb ki, insanlar üzərində hökmranlıq etmək istəyənlər olub. Hökmranlıq istəyənlər və yaxud idarə etmək üçün doğulanlar insanları müəyyən sayda qruplarla birləşdirib ona rəhbərlik ediblər. Bununla da şəxsin özünü dövlətin bürokratik idarəetmə sistemindən qorumasına, hər bir tərəfin – vəzifəli məmurların və sıravi vətəndaşların hüquqlarının müəyyən edilməsinə ehtiyac yaranır. Aristotelin (5) fikrincə də, «...Dövlət hər hansı bir tam kimi çoxlu hissələrdən ibarət olduğu üçün ilk öncə vətəndaşın nə olduğu aydınlaşdırılmalıdır: dövlət vətəndaşların toplusudur...» Buna görə də, indiki dövrdə qəbul edilən qanunlara elə prizmadan yanaşmaq lazım gəlir ki, o həm də vəzifəli şəxslərin səlahiyyət dairəsini müəyyən etsin, onların özbaşınalığının qarşısını alsın, onlar qarşılıqlı olaraq bir-birinə nəzarəti həyata keçirə bilsinlər. Əks halda geniş kütlənin hakimiyyətə nəzarəti həyata keçirməsi praktik olaraq mümkün deyil və ya effektsizdir. Hakimiyyət bölgüsünün müasir forması bu baxımdan uğurlu sayıla bilər.



Qəbul olunmuş mövcud qanunlara görə, cəmiyyətdə insanların iradəsi ümumi razılıqla qəbul olunmuş qanunlardan başqa heç nə ilə əngəllənmir. Fikrimizcə, eyni zamanda, insan azadlıqlarına o zaman riayət edilə bilər ki, ümumi qəbul olunmuş qanunları kimsə pozarsa ona güzəşt edilməsin. Tutduğu vəzifə, cəmiyyətdəki statusu və s. heç bir şəxsə əlavə üstünlük verməməlidir. Deyildiyi kimi, hamının qanun qarşısında bərabərliyi prinsipinə riayət olunmalıdır.

İnsanlara təbii hüquqlarına yaxın hüquqların verilməsi haqqında daimi olaraq fikir və təkliflər səslənmişdir. Bütün bunlarda əsas məqsəd ən optimal cəmiyyət qurmaq, daha sərbəst, azad və yaradıcı şəxsiyyət yetişdirməkdən ibarətdir. Ən mühümü isə insanların özlərini xoşbəxt hesab etmələrinə yönəlmiş xidmətdir.

İnsan özünü xoşbəxt hesab etməsi sualı ətrafında həmişə mübahisələr olmuşdur. Cəmiyyətdə özünün bütün maddi tələbatlarını, yoxsa maddi baxımdan əzab çəkərək, mənəvi ehtiyaclarını ödəyənlər özünü xoşbəxt şəxs kimi hiss edirlər? Hər şeydən əvvəl qəbul olunmalıdır ki, insanlar bir-birindən fərqli düşüncəyə, istəklərə, ən mühüm fərdi mahiyyətə malikdir. Bir mahiyyətin aparıcılığı onda bu və ya digər istəyin əsas olduğunu deməyə əsas verir. Amma bununla belə qeyd etmək olar ki, maddi tələbatları tamamilə təmin olunmuş insan toplumları arasında sonda şəxsi ləyaqətin müdafiəsi, özünü ifadə etmək məqsədli çaxnaşmalar baş vermişdir. Sonda belə cəmiyyətlər daxildən qaynaqlanan mənəvi azadlıq istəkləri müqabilində dağılmağa məhkum olmuşlar. Heç bir qayğı, heç bir sosial təminat insanın özünü təsdiq etmək, öz fikir və mülahizəsini bildirmək, şəxsi ləyaqətini qorumaq kimi istəklərini əvəz edə bil-

mir. Belə ki, insanın sosial mahiyyəti və ondan irəli gələn xarakterlər sonda özünü göstərir və elə məqamlar olur ki, mütləq şəkildə digər mahiyyətləri üstələyir. Bu halda şəxs fiziki və bioloji mahiyyətinin üstünlüyü sayəsində əldə etdiyi maddi nemətləri mənəvi təminatına qurban verməyə hazır olur. Yaxud belə də ifadə etmək mümkündür: maddi baxımdan təmin olunmuş şəxs ictimai proseslərdə nə qədər passiv olsa da, sonda onda elə istəklər yaranır ki, o, özünün mənəvi ehtiyacları uğrunda mübarizəyə qoşulur. Yəni sosiallaşma baş verir. Deməli, belə bir qənaətə gəlmək ümükündür ki, insanlar üçün ilk növbədə mənəvi azadlıqlar təmin edilməlidir. Ona özünütəsdiq, özünüifadə azadlıqları verilməli, öz potensialını reallaşdırmaq üçün şərait yaradılmalıdır.

Afinalı Perikl Afina şəhid oğullarının dəfnində qəbirüstü nitqində (təxminən e.ə. 430-cu il) demişdir: «... Xoşbəxtliyi azadlıq, azadlığı isə igidlik doğurur və hərbi təhlükələrin gözünə dik baxın...» (6)

Doğurdan da, birmənalı olaraq demək olmaz ki, baş verən üsyanların əsl səbəbi insanların aclıq çəkmələri olub. Əgər belə olardısa, hər gün acından yüzlərlə insanın öldüyü Afrika ölkələrində üsyan və qiyamların ardı-arası kəsilməzdi. Bizcə, insanlar ona görə inqilabi proseslərə və ya iğtişaşlara başlayırlar ki, artıq onlar açıq-aşkar hiss edirlər ki, hansısa imtiyazlı qrup onlarla hesablaşmır, onun iradəsini nəzərə almır. cəmiyyət şüuraltı olaraq bunu özünə qarşı təhqir hesab etdiyindən, ayağa qalxır və labüd dəyişikliklər yaranır.

Con Milton İngiltərədə parlament qarşısındakı nitqində qeyd edir ki, insanlara «...Hər cür azadlıqlardan əvvəl bilmək, danışmaq və öz məsləkinə uyğun olaraq sərbəst fikir yürütmək azadlığı verin... » 7)

ABŞ prezidentlərindən biri F.D.Ruzvelt (8) isə öz çıxışında bildirir ki, «təhlükəsiz etmək istədiyimiz gələcəkdə biz dörd



mühüm insan azadlığına əsaslanan bir dünya yaratmağa çalışacağıq.

Birinci azadlıq – dünyanın istənilən hissəsində söz azadlığı və öz fikrini ifadə etmək azadlığı.

İkinci azadlıq – dünyanın istənilən hissəsində hər bir adamın istəyincə ibadət etmək azadlığı.

Üçüncü azadlıq – dünyanın istənilən yerində ehtiyacdan doğan azadlıq; daha sadə dildə bu, hər bir ölkə üçün onun xalqının sağlam, dinc həyatını təmin edən iqtisadi razılaşmaları bildirir.

Dördüncü azadlıq – dünyanın istənilən yerində qorxu hissindən azadlıq; daha sadə dildə bu, silahlar elə tərzdə və elə səviyyədə ixtisar edilməlidir ki, heç bir ölkənin öz qonşusuna fiziki təcavüz etmək imkanı olmasın.

İngilis filosofu C.Milton və ABŞ-ın eks-prezidenti F.Ruzvelt də insanların mənəvi təminatını, ilk növbədə öz fikrini müstəqil ifadə etmək, informasiya mübadiləsi azadlığını önə çəkir.

Sözsüz, kütləvi informasiya vasitələri şəxslərin öz fikrini ifadə etmək, onu cəmiyyətdə çoxluq arasında yaymaq, lazım gəldikdə hökumətin fəaliyyətini tənqid etmək, öz fikir və mülahizələrini, təkliflərini bildirmək ehtiyaclarım ödəyir. Bu insanların mənəvi tələbatlarının hamısını olmasa da, böyük bir hissəsini ödəyən bir sahədir. Haşiyə çıxaraq qeyd etmək lazımdır ki, mənəvi tələbatların digər hissəsinə təhqir edilməmək, haqsız yerə təqib, seçilmək, seçmək və s. hüquqlarının qorunması daxildir. Lakin insanların informasiya tələbatları bütün bunların üzərində dayanır və birinci sırada yer alır. Bununla belə, hökumətlər cəmiyyət üçün əhəmiyyətli olan bu sahəni KİV-i tamamilə sərbəst buraxmaq istəmir. KİV şəxsin mənəvi ehtiyaclarını ödəməklə yanaşı, cəmiyyətin informasiya almaq hüququnu təmin edərək, cəmiyyətdə bir mənəvi ehtiyacı ödəyir ki, ölkəyə rəhbərlik edənlər bütün ciddi addımlarını onlarla məsləhətləşir, onların fikirlərini öyrənir, yalnız bundan sonra

real addımlar atırlar. Bununla yanaşı, KİV informasiya yayımı ilə o ictimai rəyi dəyişdirmək, yönəltmək iqtidarındadır. KİV-in malik olduğu imkanlar daimi olaraq onun təqib olunması ilə müşayiət olunur. Müəyyən məsələlərdə informasiya azadlığını məhdudlaşdırmaq məqsədilə KİV-ə, hətta bütün çap məhsullarına senzor tətbiq edilməsi faktına hər bir ölkədə rast gəlinmişdir.

ABŞ prezidentlərindən biri cimmi Karter (9) 1977-ci ilin iyununda Notrdam Universiteti məzunları qarşısındakı çıxışında demişdir ki, «...İnsanın ruhu üçün söz əməl deməkdir və öz fikrini ifadə etmək azadlığının adi bir şey kimi mövcud olduğu ölkələrdə yaşayan bizim kimi adamlara, bunun nə qədər düzgün olduğunu təsəvvür etmək çətindir. Lakin totalitar ölkələrin liderləri bunu yaxşı başa düşürlər. Sözün əməl demək olduğunu o da sübut edir ki, bu cür ölkələrdə dissidentləri təqib edirlər...».

C.Milton (10) qeyd edir ki, «...Bilin və agah olun ki, qəyyumsuz və nəzarətçisiz öz fikrini mətbuata tapşırmağa qabil olmadığını və bu zaman guya nəzarətsizlik səbəbindən küfr və əxlaqsızlığı yaya biləcəyini heç nəylə göstərməyən, elm sahəsində ad-san qazanmış şəxsin ağlına və namusuna bu qədər inamsızlıqla yanaşmaq azad və ziyalı şəxsin uğraya biləcəyi ən dəhşətli təhqir və ən dəhşətli ədalətsizlikdir...

Bir halda ki, hamı eyni cür düşünə bilmir, onda bu qopmuş hissələri zorakı şəkildə birləşdirməyə səy göstərməkdənsə, bunlara səbr və dözümlə yanaşmaq, heç şübhəsiz ki, daha faydalı, daha ağıllı və xristian ruhuna daha çox yaraşan hərəkətdir...»

Vikont Sent-Alban deyir: «...Zəkanın və istedadın təqib edilməsi onun əhəmiyyətini qaldırır və qadağan edilmiş hər cür kitab həqiqət qığılcımıdır və bu qığılcım onu tapdamaq istəyənlərin gözünə tez girir...»

Azərbaycanda da XIX əsrdən başlayaraq fikir plüralizminin müdafiəsinə yönələn cəhdəlr olmuşdur. M.F.Axundov (11) «İstibdada və mövhumata qarşı» əsərində yazır ki, «...Əgər cəmiyyət öz fərdlərinə fikir azadlığı verməzsə və onları ata-babasının və övliyanın qərar verdikləri şeylərlə kifayətlənməyə və bunlardan kənara çıxmamağa və ağıllarını mədəniyyət işlərində işlətməməyə məcbur edərsə, bu halda fərdlər yer əkən, məhsul toplayan hər bir işi düşünmədən və fikir etmədən görən avtomatlar olarlar və ya onlar dəyirman atlarına bənzərlər ki, hər gün müəyyən dairədə dolanarlar və öz vaxtında da arpa-saman yeyib su içər və yatarlar, sonra yenə oyanıb həmən dünənki dolanışığı dünyanın axırına qədər təkrar edərlər...»

Bəşəriyyətin inkişafının elə bir səviyyəsi çatmışdır ki, müasir dövrdə psixoloji gərginliklərdən ölənlərin sayının aclıq çəkərək ölənlərin sayından çox olduğunu demək mümkündür. Elm sübut edib ki, insan yemək vaxtı doymadan əlini süfrədən çəkdikdə bu onun ömrünün qısalmasına səbəb olmur. Əksinə, belə bir fikir irəli sürülüb ki, az yemək insan ömrünü uzadır. Artıq yemək insan orqanlarını gücə salır, yorur və onun tez qocalmasına gətirib çıxarır. Halbuki kiçik psixoloji sarsıntılar insanlara daha çox əzab verməklə məhv edir. Psixoloji gərginliklər nəticəsində ölənlər cəmiyyətə səfalət, yoxsulluq içərisində məhv olanlardan daha çox ziyan vurur. Belə ki, psixoloji baxımdan «məhv olanlar»ı saxlamaq üçün xüsusi yerlərin və vəsaitin ayırılması tələb olunduğu halda, ikinci halda buna ehtiyac yaranmır. Deməli, psixoloji olaraq özünü təmin etmək azadlığı cəmiyyətə daha çox rahatlıq gətirir, nəinki problemlərsiz yemək ehtiyaclarının ödənilməsi.

Aleksis de Tokvil (12) «Amerikada demokratiya» əsərində azad insan haqqında yazır ki, « ...İnsan ağlının yaratdığı ən cəsarətli nəzəriyyələr ilk baxışdan sadə görünən bu cəmiyyətdə özünün əməli tətbiqini tapmışdır. Heç bir dövlət xadimi bu cəmiyyətə, şübhəsiz, fikir də verməzdi. Özünün bənzərsizliyinə inanmış insan yalnız təxəyyülündən istifadə edərək görünməməmiş qanunlar yaratmışdır. Hələ dünyaya bircə general, bir filosof, yaxud dahi yazıçı verməmiş bu naməlum demokratiya şəraitində insan azad vətəndaşların qarşısında ayağa qalxıb

ümumi razılıq mühitində azadlığın aşağıdakı gözəl tərifini verə bilərdi: « Əslində həm heyvanların, həm insanların istifadə etdikləri, bir növ, yanlış azadlıq da mövcuddur. Bu azadlıq şəxsi istəklərə uyğun hərəkət etməkdən ibarətdir. Belə azadlıq istənilən hakimiyyətə düşməndir; onu hər hansı qayda-qanuna tabe etdirmək çətindir; belə azadlıq şəraitində biz günbəgün aşağı enirik; o həqiqətin və sülhün düşmənidir; hətta Allah da ona qarşı çıxmağı lazım bildi. Eyni zamanda, vətəndaş azadlığı və mənəvi azadlıq mövcuddur; birliyimizdə əks olunan qüvvə; hakimiyyətin özünün qorumalı olduğu qüvvə – bu azadlıq çəkinmədən xeyirxah və ədalətli işlər görməkdən ibarətdir. Bu müqəddəs azadlığı biz hər hansı təsadüflərdən qorumalı və lazım gələrsə, həyatımızı onun yolunda qurban verməliyik.»

Müasir anlamda azadlıq sahmana salınmış davranışlar məcmusunu özündə ehtiva edir. Əks halda bu özbaşınalıqlar olardı, yaxud azadlığın «tərkibi»nin müəyyənləşdirilməsinə həmişə ehtiyac yaranır. Ümumi inkişaf dünən qadağan edilənlərin sabah insanlar üçün açıq olmasını tələb edə bilər ki, bu da təbiidir. Şüurlarda gedən dəyişmələr fərdləri bu zaman yazılmamış qanunların tələb etdiyi sərhədləri aşmasına yol vermir. Bu gün isə qarşıda belə bir məsələ dayanır ki, əgər insanlar öz fikirlərini digərləri ilə açıq-aşkar bölüşdürə bilmirsə, onda hər hansı şəkildə təmin olunmuş insan hüquqlarından və deməli, insanların azadlığından danışmaq qeyri-mümkündür. KİV insanları sərbəstliyə öyrədir, onları ümumi olan qayda-qanunlarla tanış edir, ən mühümü isə, ictimai həyatda fəal iştiraka təhrik edir. İctimai işlərlə məşğul olmayanlar müasir dövrdə başqalarının işinə qarışmayan qeyrətli vətəndaş hesab olunmur, gərəksiz adam sayılır.

İnsanları toplum halında yaşadıqda – cəmiyyətdə, dövlətdə birləşdikdə maksimum olaraq təbii hüquqlarına yaxın hüquqlarla təmin etmək, onun azadlığı və bu azadlığın doğurduğu xoşbəxtiyi təmin etmək üçün bütün ehtiyaclarının ödənməsi



lazımdır. Bu zaman KİV-in əhəmiyyəti ona görə artır ki, o cəmiyyətin bütün sosial təbəqələri, hətta ayrı-ayrı fərdlər üzərinə hökumətin və ictimaiyyətin fikrini cəlb etməyə qadirdir. Bununla da xoşbəxtliyə gedən yolda geridə qalanların problemlərini hamılıqla həll etməklə daha mükəmməl – azad və xoşbəxt insanlardan ibarət cəmiyyət yaratmaq olar.

### Ədəbiyyat


1. Tomas Hobbs «Leviafan» // Demokratiya: gediləsi uzun bir yol. Antologiya. Bakı: Əbilov, Zeynalov və oğulları, 2001. s.45-49
2. Con Lokk «İdarəçilik haqqında ikinci traktat» // Demokratiya: gediləsi uzun bir yol. Antologiya. Bakı: Əbilov, Zeynalov və oğulları, 2001. s.52-56
3. Tomas Hobss «Leviafan» // Demokratiya: gediləsi uzun bir yol. Antologiya. Bakı: Əbilov, Zeynalov və oğulları, 2001. s.45-49
4. Aristotel «Politika» (təx. e.ə. 330) // «525-ci qəzet» Bakı, 1999, 18 iyun.
5. Aristotel «Politika» (təx. e.ə. 330) // «525-ci qəzet» Bakı, 1999, 18 iyun.
6. Afinalı Perikl «Demokratiyanın müdafiəsinə dair» Afina şəhid oğullarının dəfnində qəbirüstü nitq (təx. e.ə. 430-cu il) // Demokratiya: gediləsi uzun bir yol. Antologiya. Bakı: Əbilov, Zeynalov və oğulları, 2001. s.3-5
7. Con Milton «Areopagitica» // Demokratiya: gediləsi uzun bir yol. Antologiya. Bakı: Əbilov, Zeynalov və oğulları, 2001. s.27-33
8. Ruzvelt F. «Dörd azadlıq» (1941) // Demokratiya: gediləsi uzun bir yol. Antologiya. Bakı: Əbilov, Zeynalov və oğulları, 2001. s.265-266

9. Cimmi Karter «İnsan haqları və ABŞ-ın xarici siyasəti» (1977) // Demokratiya: gediləsi uzun bir yol. Antologiya. Bakı: Əbilov, Zeynalov və oğulları, 2001. s.274-277
10. Con Milton «Areopagitica» // Demokratiya: gediləsi uzun bir yol. Antologiya. Bakı: Əbilov, Zeynalov və oğulları, 2001. s.27-33
11.Axundov M.F. «İstibdada və mövhumata qarşı» // Demokratiya: gediləsi uzun bir yol. Antologiya. Bakı: Əbilov, Zeynalov və oğulları, 2001. s.114-122
12. Aleksis de Tokvil «Amerikada demokratiya» // Demokratiya: gediləsi uzun bir yol. Antologiya. Bakı: Əbilov, Zeynalov və oğulları, 2001. s.216

**Rövşən Sabir oğlu Hacıyev,**
**AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu sosial fəlsəfə şöbəsinin kiçik elmi işçisi**

## Cəmiyyətimizin müasir sosial-mənəvi durumuna fəlsəfi baxış

Müstəqilliyimizin əldə edilməsindən keçən müddət ərzində qazandığımız nailiyyətlərə və ya uğursuzluqlara nəzər yetirdikdə müəyyən qanunauyğunluqların mövcudluğunu duymaq mümkün olur. Əgər iqtisadi sahədə, xüsusən neft sektorunda əldə edilən nailiyyətlərin əsasında dayanan qanunauyğunluqlar aşkar şəkildə görsənirsə, zənnimizcə, mənəvi baxımdan yaranmış neqativ məqamların kökündə duran səbəblərin təzahüründəki qanunauyğunluqlar latent xüsusiyyəti ilə seçilir. İlk olaraq qeyd edək ki, yaxın 15 il ərzində adət-ənənələrimizdə və mənəvi dəyərlərimizdə baş verən radikal dəyişikliklər məsələnin ciddi şəkil almasını göstərir. Belə ki, insanların əxlaqi keyfiyyətlərində üzə çıxan neqativ məqamlar millətinin gələcəyinə biganə olmayan insanları narahat etməyə bilməz. Bu qüsurlar cəmiyyətin sosial-mənəvi dayaqlarını zəifədir, sosial təbəqələr və qruplar arasındakı münasibətləri daim gərgin vəziyyətdə saxlayır. Təsadüfi deyil ki, ölkədən çıxıb gedənlərin və bu istəkdə olanların sayı kifayət qədər çoxdur. Təəssüf ki, gedənlərin bir qismini ziyalı təbəqəsinin ən perspektivli nümayəndələri və ya, dolanışığı yaxşı olsa belə, mövcud sosial şəraitdə özünü sıxıntı içərisində hiss edən işgüzar vətəndaşlar təşkil edir. Bütün bu neqativ məqamları sadalamaqda məqsəd baş verən hadisələrin kökündə duran amilləri, gizli səbəbləri aşkar etmək, üzə çıxarmaq niyyətidir.

Məlumdur ki, cəmiyyətimizdə ortaya çıxan problemlərin, çətinliklərin mövcudluğu müxtəlif səbəblərlə izah edilir. Bəziləri hesab edirlər ki, (xüsusən müxalifət nümayəndələri), baş verən neqativ halların kökündə inzibati-amiranəlik prinsipindən çıxış edən iqtidar nümayəndələri dayanır və onların da birləşdirici əsası kimi tayfa qohumbazlıq əlaqələri çıxış edir. Bəziləri hesab edirlər ki, hakimiyyət orqanlarında çalışan bir sıra yüksək vəzifəli şəxslərin korrupsiyaya qurşanması səbəbindən ölkədə müxtəlif istiqamətlərdə sosial-mənəvi problemlər baş qaldırır. Bəziləri isə belə düşünür ki, müxalifətindən və ya iqtidarından asılı olmayaraq, bütövlükdə millətin özü avropalılara və ya dünyanın inkişaf etmiş ölkələrinin xalqlarına xas olan ictimai-siyasi keyfiyyətlərə malik olmadığı üçün yaxşı yaşamaq xoşbəxtliyindən məhrumdur.

Yəqin ki, sadalanan bu iradların az və ya çox dərəcədə reallığa uyğunluğu vardır. Lakin ədalət naminə qeyd olunmalıdır ki, bu səbəblərin özü əslində nəticələrdir, və ya gizli qalan, açılmasına ehtiyac olan, eyni zamanda əsas səbəb kimi çıxış edən və qanunauyğun şəkildə təzahür edən daha böyük səbəbin nəticələridir.

Bir qədər yaxın keçmişimizə nəzər salaq və Rusiyadakı sosialist inqlabının Azərbaycandakı təzahürlərinə diqqət yetirək. Əgər Çar Rusiyası dövründə xalqın «böyüyü» və «kiçiyi», yəni hər təbəqənin, nəslin yeri bilinirdisə, artıq inqlabdan sonrakı dövrdə əsrlər boyu millətin əldə etdiyi mənəvi-əxlaqi dəyərlər məhv olur və əvəzində cəmiyyətdə forması və məzmunu, eləcə də mahiyyəti insanlara bəlli olmayan «hamı eyni cür düşünməli və yaşamalıdır» prinsipi bərqərar olur. Bu prinsip daxilində söhbət həm də insanların bərabərliyindən gedirdi. Əgər bərabərlik prinsipi Fransa burjua inqlabi dövründən başlayaraq cəmiyyət həyatında yeni sosial paradiqmanın bərqərar olması deməkdirsə, onun hansı formalarda təzahür etməsi məsələnin digər və olduqca mühüm tərəfindən xəbər verir. Belə ki, sosializm həyat tərzinin meydana gəlməsi eyni zamanda müvafiq ictimai-siyasi dünyagörüşünün də mövcud olması zərurətini ortaya qoyurdu. Bu baxımdan tarixi gediş göstərdi ki, Çar Rusiyasının özü və bütün metropoliyaları (xalqların ictimai təfəkürünün inkişaf səviyyəsi baxımından) yeni həyat tərzinin bərqərar olmasına hazır deyildilər.

Beləliklə, inqilabdan sonrakı hadisələrin təzahürü konkret olaraq Azərbaycanda öz neqativ nəticələrini ən iyrənc formada üzə çıxardı. Nəticədə, cəmiyyətdə satqınçılıq, ikiüzlülük, məddahlıq, «ev yıxmaq» kimi naqis xüsusiyyətlər ardıcıllıqla formalaşmağa başladı. Bu isə on minlərlə dəyərli ziyalılarımızın, yüz minlərlə qeyrətli kişilərimizin həyatı bahasına başa gəldi. Bu ürəkağrıdan məsələlər mətbuatımızda və ədəbiyyatımızda geniş şəkildə işıqlandırıldığı üçün hadisələrin təfərrüatına varmağı lazım bilmədik, çünki məqaləmizin məqsədi başqadır. Yalnız onu etiraf etməliyik ki, belə bir dözülməz sosial-mənəvi irsə sahib olmağımız, sözsüz ki, istənilən tezliklə cəmiyyətin düşdüyü mənəvi sarsıntıdan yaxa qurtarmasına imkan vermir.

Zənnimizcə, cəmiyyətdə təzahür edən bir çox neqativ halların kökündə məhz haqqında danışdığımız və inqilabi xarakterə malik tarixi inkişaf qanunauyğunluğu dayanır. Deməli, bəzən millətimiz haqqında formalaşan «bacarıqsız» epiteti əslində tarixi baxımdan həqiqətə uyğun deyildir, əksinə, baş verən ağır itkilərin (həm insani, həm mənəvi) fonunda bizim xalqımız həqiqətən dözümlü və iradəlidir ki, öz milli mənsubiyyətini və mədəniyyətini müəyyən mənada qoruyub saxlaya bilib.

Deyilənlərdən daha bir mühüm amilin üzə çıxarılması mümkün olur. Bizim ictimai təfəkkürümüz tarixilik baxımından qərbin sosial-siyasi dünyagörüşünün inkişafından geri qalır. Başqa sözlə, demokratik dəyərlərə yiyələnmək baxımından xalqımız və ümumən müsəlman bölgəsi hələ ki, feodal təfəkkür tərzindən azad ola bilməyib. Təsadüfi deyil ki, indinin özündə də cəmiyyətimizin həm sosial, həm də siyasi həyatında regionçuluq meylləri kifayət qədər güclüdür. Deməli, proses kiminsə və ya hansısa şəxsin istəyi ilə müəyyənləşmir və əslində təkamüldən irəli gələn tarixi inkişaf qanunauyğunluğunun təzahürü baxımından təbii görünür. Bir şey şübhə doğurmur ki, vəziyyətin aradan qalxması xeyli vaxt tələb edir. Mərhum prezidentimiz demişkən: demokratiya alma deyil ki, onu bazardan alasan. Son olaraq demək olar ki, həyatın inkişafı onun bütün təzahür formalarında daha çox təkamül əsasında istiqamətlənir, halbuki, bəzi hallarda dialektik sıçrayışlar da mümkün olur.

**Tamilla Hüseyn qızı Ağayeva,**
**ADPU-nun «Ümumi psixologiya» kafedrasının dosenti**

## Nitqin formalaşdırılması sosial adaptasiyanın istiqaməti kimi

Məlumdur ki, nitq canlıları, xüsusi ilə heyvanları insanlardan fərqləndirən psixi funksiyalardan biridir. Nitq kommunikasiya məqsədi daşıyan verbal işarələr sistemi, insanların davranışını tənzimləyən, özünün tələb və məhdudiyyətləri olan bir mürəkkəb prosesdir.

Nitq və təfəkkür bir-biri ilə sıx bağlıdır. Məhz sözlər vasitəsi ilə əşya və hadisələr təhlil edilir, onların əsas və ya ikincili əlamət və keyfiyyətləri fərqləndirilir, psixi-iradi fəaliyyətə nəzarət edilir.

İnsanda düzgün nitq inkişafı üçün normal nitq mühitinin olması ilə yanaşı, uşaqda nitqin sensor tərəfinin, yəni : nitqin başa düşülməsi, danışıq bacarığının olması və inkişaf etməsi çox vacibdir. Adətən uşaqlarda nitqin başa düşülməsi onun həyatının ikinci yarımilindən başlanır. İlkin olaraq sözlər kompleks qıcıqlar (jest, intonasiya, mimika və s.) kimi qavranılır. Bu, uşaq üçün fəaliyyət reaksiyası xarakteri daşıyır. Sonralar isə nitq siqnal mahiyyəti qazanır, yəni inteqrasiya baş verir. Sözün inteqrasiya mərhələləri aşağıdakı kimi fərqləndirilir:

1. Söz əşyanın hissi surətini əvəz edir. Bu 2 yaşa qədərki dövrü əhatə edir və sözlər konkret əşya ilə əlaqələnir.
2. Söz bir neçə konkret əşyalaya aid olur (3 yaş).
3. Söz müxtəlif əşyaları əvəz edir (3 yaşdan 5 yaşa qədər).
4. Söz ümumiləşdirici xarakter daşıyır (5 yaşdan yuxarı)

Qeyd etmək lazımdır ki, bu mərhələlərin bitməsi uşaqlarda eşitmə-nitq inkişafını ləngidir. Uşaqlarda eşitmə-nitq inkişafı



üçün 3 mərhələ müəyyənləşdirilmişdir:

1. Hazırlıq mərhələsi. Bu, uşaq anadan olduqdan sonra 1.5 yaşa qədərki dövrü əhatə edir. Uşaqlarda qığıldama, hecalarla danışma və nitqə qədər səslənmə onların bütün fəaliyyətində müşahidə olunur.
2. Müstəqil nitq inkişafı mərhələsi. Bu, 1,5 yaşdan 5 yaşa qədər (2 yaşdan 5 yaşa qədər) olan dövrü əhatə edərək, yaşlıların nitqindən fonetik xarakter və ritminə görə fərqli, öz şəxsi nitq modelinin yaradılması mərhələsidir.
3. Məktəbli yaşı mərhələsi. Bu mərhələ 7 yaşdan 17 yaşa qədərki dövrü əhatə edir. Bu zaman uşaq nitqi sistemli şəkildə öyrənir və inkişaf etdirir.

Qeyd etmək lazımdır ki, ikinci mərhələnin gedişi zamanı nitqin bütün komponentləri (leksika, fonetika və qrammatika) formalaşır. Bu prosesin ümumi qanunauyğunluğu ondadır ki, uşaqların dərk etməsi üçün mümkün olan nitq materialı danışıq prosesində istifadə etdikləri nitq materialından həcmcə daha böyükdür. Başqa sözlə demiş olsaq, nitqin impressiv forması ekspressiv formanı qabaqlayır. Bu zaman uşaqlar tələffüzdə müəyyən çətinlik çəksələr də nitqin ayrı-ayrı fonetik elementlərini fərqləndirməyi daha tez öyrənirlər. Böyüklərin nitqinin akustik surətləri uşaqların eşitmə yaddaşında nəqş olunur və sonralar həmin surətlərin yenidən canlandırılması üçün baza təşkil edir. Uşaqlarda fonetik nitqin formalaşması 4 (5) yaşlarında sona çatır və böyüklərin təsiri ilə uşaq nitqinin mütəmadi korreksiyası həyata keçirilir. Söz tədricən ümumiləşdiricilik xarakteri qazanır. 6 yaşda uşağın lüğət ehtiyatı 2-3 min sözdən artıq olur. Bu mərhələdə uşaqlarda daxili nitq fəallaşır və qrammatik formalardan istifadə daha davamlı və differensial olur. Şifahi nitq təfəkkürün, ümumiləşdirmənin universal vasitəsinə çevrilir.

Nitq eşitmə sistemi əsasında yaranır və formalaşır. Hətta eşitmənin 15-20 db-lə qədər azalması, qısa müddətli zədələnməsi zamanı belə nitqin formalaşmasına əhəmiyyətli dərəcədə

təsir göstərir. Burun-udlaq yolunun xroniki iltihabı, adenoidlər nitqin prosodik, tələffüz tərəfinin inkişafdan qalmasına, eşitmə sinirinin, eşitmə mərkəzinin zədələnmələri isə nitqin tam inkişafdan qalmasına gətirib çıxarır. Belə uşaqlar səslərin tələffüzündə, söz tərkibinin təhlil və tərkibində, sözlə əşya arasında əlaqənin qurulmasmda, vurğu, intonasiya və digər sahələrdə böyük çətinliklərlə üzləşirlər. Kar və ya zəif eşidən uşağın doğulması ailədə bir çaşqınlıq yaradır. Valideyn və yaxın qohumlar (nənə-baba) bu çatışmazlığı aradan qaldırmaq üçün həkim axtarışına çıxır, uzun müddət müalicə aparır, lakin bütün bu tədbirlərin bir nəticə verməməsindən məyus olub, bunu cəmiyyətdən gizlətməyə, bu haldan utanıb-çəkinməyə başlayırlar. Uşağın nitq çatışmazlığı onun intellektinin aşağı düşməsinə, əqli fəaliyyətinin ləngiməsinə də şərait yaradır. Nəticədə, uşaqda verbal ünsiyyət əvəzinə mimiki-jest nitq forması inkişaf etməyə başlayır. Mimiki-jest nitqi sözlü nitqi əvəz etməklə yalnız kiçik insan qrupları arasında əlaqənin yaradılmasına xidmət edir və mücərrəd anlayışların ifadəsini qeyri-mümkün edir. Beləliklə də, eşitmə qüsurlu uşaq, cəmiyyətə tam hüquqlu vətəndaş kimi inteqrasiya oluna bilmir, ətrafdakılarla ünsiyyət qurmaqda çətinlik çəkir. Eşitmə qüsurlu uşağın ictimai mühitdə sosiallaşması üçün birinci növbədə onun nitqinin inkişaf etdirilməsi əsas şərtlərdən biridir. Təcrübə göstərir ki, erkən yaş dövründə həm eşitmə, həm də nitq reabilitasiya və korreksiyası keçmiş uşaqların idrak fəaliyyəti normal uşaqlarda olduğu kimi, yüksək, şəxsiyyət keyfiyyətləri formalaşdığından, ünsiyyət vərdişləri yaxşı inkişaf etdiyindən eşidən insanlar arasında daha tez adaptasiya olunurlar. Vaxtında aparılan tibbi-pedaqoji-psixoloji reabilitasiya tədbirləri nəticəsində eşitmə qüsurlu uşaqların nitq çatışmazlıqları aradan qalxır və onlar sözlü ünsiyyətə girməklə informasiya alıb-vermək bacarığını daha da təkmilləşdirir, cəmiyyətin xeyirli, bərabərhüquqlu vətəndaşına çevrilirlər.



Deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, kar (həmçinin zəif eşidən) uşaqların sosial ünsiyyət səviyyəsini aşağıdakı kimi formalaşdırmaq olar:

1. Aşağı səviyyə. Bu səviyyədə olan uşaqlar yalnız öz yaxınları (sinif yoldaşları) ilə ünsiyyətə girə bilirlər.
2. Orta səviyyə. Belə səviyyəli uşaqlar məktəbdən kənarda, yaşlılarla və ayrı-ayrı şəxslərlə sözlü ünsiyyətə girə bilirlər.
3. Yüksək səviyyə. Bu səviyyədə olan uşaqlar məktəbdən kənarda özləri müstəqil olaraq çox geniş dairədə ünsiyyət yarada bilirlər.

Eşitmə qüsurlu uşaqlarda üçüncü səviyyə nitqin inkişafı üçün xüsusi məktəb və ya valideynlər qarşısında mühüm vəzifələr durur. Məhz bu vəzifələr yerinə yetirildikdən sonra belə uşaqların cəmiyyətə tam inteqrasiyası mümkündür.

**Аслан Исмайлов,**
**правовед, диссертант Института Философии и Политико-правовых Исследований НАН Азербайджанской Республики**

## О социально-юридическом механизме обеспечения прав человека

Понятие «права человека» недостаточно разработано в философской и юридической литературе. Об этом свидетельствуют оживленные дискуссии ученых по данному вопросу, разброс мнений, подчас диаметрально противоположных, на определение прав человека, их соотношение с правами гражданина, правами народов и т.д. Анализируя мнение ученых, важно отметить следующую дефиницию: права человека – это гарантированные демократическим обществом возмож-

ности для каждого индивида, его сообщностей на достойный уровень жизни, эффективную социальную систему охраны и защиты от произвола государства в соответствии с установленными международными и национальными стандартами и процедурами.

Осмысливая перспективы развития принципов прав человека, следует рассматривать вопрос об азербайджанской модели гражданского общества. Наблюдается существенное различие между провозглашенными целями преобразования общества на идеях господства права и фактической правотворческой и правоприменительной практикой. Не Конституция служит юридической гарантией охраны и защиты прав и свобод личности от произвола чиновников, а исполнительная власть в лице института президентства. Не всегда авторитет права способствует укреплению механизма властвования, в силу чего бюрократический аппарат пытается подчинить своим корыстным интересам государственные интересы.

Идея государственности и развития принципов прав человека находятся в одном правовом пространстве. Вопросы сегодняшнего дня: идеи и цели какой государственности приемлемы для Азербайджана, в каком объеме будет наполнено их содержание. Представляется, что отстаивание идеи гражданского общества, правового государства с позиций «чистых» идей либеральной демократии и неоконсерватизма небезопасно для Азербайджана. В сегодняшнем противоречии азербайджанского быта таится опасность для демократии: здесь мирно уживаются и демократия, и «право силы», недостаточно эффективны существующие государственные институты, тяготеющие к обюрокрачиванию, сомнительна роль рынка в гражданском обществе. Названные отрицательные тенденции могут усугубляться, если не учитывать внутреннюю противоречивость содержания самой демократии. С одной стороны, она несет в себе идеи свободы, равенства, справедливости, гуманизма, провозглашает человека высшей ценностью, с другой стороны, может быть враждебна им: во-первых, демократия в ее социал-демократической упаковке понимается как механизм для формулирования и удовлетворения интересов различных групп и движений под крылом государственной власти, а не в качестве цивилизованного разрешения конфликтов посредством консенсуса и компромисса; во-вторых, когда провозглашаемые от имени народа идеи гражданского общества, правового государства не учитывают духовный уровень и культуру людей. Представляется, что ни идеи либеральной демократии, ни идеи неоконсерватизма, ни идеи социал-демократии не могут быть в чистом виде положены в модель строительства гражданского общества в Азербайджане, а следовательно, определять содержание принципов прав человека. Необходимо известное равновесие между двумя социальными началами: всеобъемлющими интересами человека и гражданина и материально-нравственными интересами общего блага; между стремлением народа к духовному развитию, свободе, равенству, справедливости, уважению и неприкосновенности прав личности и интересами разных общественных групп и движений в борьбе за власть, за управление государственным строительством. Думается, только центристская модель гражданского общества, соединяющая в себе позитивные стороны либеральной демократии и социал-демократии, не допустит господства государства в какой бы то ни было сфере за исключением социальной и создаст все условия для самоуправления и защиты демократии. На ее основе возможна разработка принципов прав человека.

На основе сознательного исполнения принципов равенства, свободы, личной неприкосновенности, уважения прав ин-

дивидов было бы разумно моделировать социально-юридический механизм обеспечения прав человека. Формирование социально-юридического механизма обеспечения прав человека следовало бы сопровождать изучением и учетом его нормативных и поведенческих аспектов, роли общественного мнения, гласности и гарантий прав личности. Гласность и общественное мнение в социально-юридическом механизме обеспечения прав человека и гражданина - центральные звенья. Они способствуют обоснованному принятию решений, выполнению государством и должностными лицами обязательств в сфере прав человека, поддерживанию необходимого представления граждан о правах и свободах, формированию личности, ориентированной на общепланетарные ценности, выявлению нарушений прав и свобод индивидов, а также пробелов в законодательстве.

Гарантии – это социально-юридический механизм обеспечения прав человека и гражданина в узком смысле слова. Гарантии классифицируются: по сфере действия на внутригосударственные и международные; по способу изложения в нормативно-правовых актах на простые, сложные и смешанные институционные гарантии; по основанию правового положения личности – общие, специальные и индивидуальные гарантии. Общие и специальные (юридические) гарантии прав граждан существует в неразрывной связи с организационными гарантиями, которые делятся на контрольные, процедурные, организационно-технические гарантии прав человека и гражданина. Система общих гарантий состоит из трех блоков: осуществления прав и свобод индивидов; профилактики нарушений прав и свобод личности; разработки мер, способствующих дальнейшему развитию прав человека. Основные требования, которыми каждое государство должно руководствоваться в современных условиях при определении



содержания и форм гарантий, на наш взгляд, следующее: принятие в пределах имеющихся материальных и иных ресурсов мер, способствующих наиболее полному осуществлению всех прав и свобод человека; обеспечение прав и свобод личности без какой бы то ни было дискриминации; установление минимума ограничений и только на основе закона, и только с целью способствовать общему благосостоянию и порядку в демократическом обществе; руководство основными принципами и минимальными стандартами в области охраны и защиты прав человека; использование процедур, наиболее эффективно «работающих» на реализацию прав и свобод личности; создание контрольных механизмов за соблюдением прав и свобод индивидов; определение ответственности правительств за осуществление согласованных и подписанных международных обязательств в области прав и свобод человека.

В структуру социально-юридического механизма обеспечения прав в качестве меры, средства и гарантий правомерного поведения индивидов и свобод человека и гражданина входит юридическая ответственность. С одной стороны, юридическая ответственность отводит лицу известную сферу свободы, с другой стороны, она ограничивает эту сферу государственно-властным принуждением, наказанием, неблагоприятными последствиями для нарушителя. Соответственно, определение юридической ответственности формулируется следующим образом: это выраженная в законе внешняя мера и гарантия свободы, которая способствует охране и защите интересов личности, конституционного строя, правомерному поведению субъектов и их воспитанию путем правовых стимулов и ограничений. Факторы, способствующие становлению конституционной ответственности, следующие:

1. последовательное осуществление принципа разделения властей на законодательную, исполнительную и судебную, четкое установление их компетенций, функций, пределов деятельности форм их ответственности;

2. эффективный правовой инструментарий, наделяющий каждую ветвь государственной власти всех уровней терминологией, обеспечивающей принятие ею законных решений и надлежащих мер ответственности: отмена, приостановление, отречение от должности, отставка, не имеет юридического значеиия, не соответствует общим принципам права и т.д.;

3. установление конституционных стимулов и ограничений;

4. обеспечение принципа неотвратимости и индивидуализации ответственности;

Эффективность социально-юридического механизма обеспечения прав человека зависит от меры и качества учета факторов целесообразности социального регулирования общественных отношений и общественного сознания, правовой культуры граждан и должностных лиц, правотворчества и правоприменения. Формула эффективности, особенно в сфере прав человека, думается, должна использоваться в «союзе» с терминами «разумность», «законность», «оптимальность» и выглядеть так: разумная цель – законные средства – оптимальные результаты.



**Faiq Sarı oğlu Qarayev,**
**AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun dissertantı, polis polkovnik-leytenantı**

## Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə törədilən cinayətlərin təşkilində və reallaşmasında kompüter-informasiya texnologiyalarının rolu

Müasir cəmiyyətdə şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə yönəlmiş əməllərin qarşısının alınması, həmin əməlləri törədən cinayətkarların və onların mütəşəkkil formalarının zərərsizləşdirilməsində informasiya texnologiyalarının mənfi təsirinə tez-tez rast gəlinir. Əvvəla qeyd edək ki, bu növ cinayətlərə qarşı mübarizə işinin təşkili Azərbaycan Respublikasının qanunlarında, hüquqi aktlarda və normativ sənədlərdə müəyyən mənada öz əksini tapmışdır.

Mütəşəkkil cinayətkar dəstə və təşkilat üzvləri cinayət hərəkətlərində informasiya texnologiyası növlərindən bu və ya digər parollar və yaxud konspirasiya formasında istifadə edirlər. Bu cür istifadə qaydaları cinayətkarların işini yüngülləşdirir və törədilmiş əməllərin özlərinə sərfəli istiqamətdə başa çatmasını tezləşdirir. Yeni informasiya texnologiyalarının inkişafı təkcə cəmiyyətin siyasi, iqtisadi, sosial, mənəvi və s. sahələrinin formalaşmasına, müasirləşməsinə deyil, həm də mütəşəkkil cinayətkar dəstənin, təşkilatın formalaşmasına, qloballaşmasına və cinayətkarlığın təzahür forması olan terrorizmin inkişafına ciddi təsir göstərir.

Elmi-texniki və texnoloji tərəqqinin ən mühüm təzahürlərindən biri olan kompüterləşmə cinayətkarlığın strukturuna, yayılma və inkişaf dinamikasına da bilavasitə təsir göstərmişdir. Kompüter informasiyası sahəsində baş verən cinayətlər

əsasən maliyyə-bank sistemində, iqtisadiyyatda və digər sahələrdə kriminallaşmaqdadır. Qeyri-ənənəvi cinayətlərlə yanaşı, ənənəvi cinayətlərin törədilməsinin də texniki və taktiki hazırlıq səviyyəsinin yüksəlməsi müşahidə olunur. Kompüter cinayətlərinin törədilmə motivləri müxtəlifdir. Bu cinayətlərlə mübarizə istiqamətləri və nəticələri, məhkəmə və istintaq təcrübəsi onların əsasən tamah, siyasi (terrorizm, şpionaj və s.), sırf tədqiqat maraqları (tələbələr, peşəkar proqramçılar və s.), qisas, intiqam və digər motivlərilə törədildiyini göstərir.

Açıq etiraf olunmalıdır ki, şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə yönəlmiş adam oğurluğu əməlinin törədilməsində, mütəşəkkil cinayətkar təşkilat üzvləri çox hallarda "qurban" barəsində məlumatları kompüter sistemi vasitəsilə əldə edirlər. Kompüterlərdə saxlanılan informasiya belə məqsədlər üçün çox əlverişlidir. Kompüter və digər informasiya kanalları vasitəsilə məlumat əldə edən mütəşəkkil təşkilat üzvləri, "işlədikləri məlumatı" ələ keçirmək üçün öz fəaliyyətlərini məkan və zamanca genişləndirməyə çalışır. Birinci halda onlar kompüter və informasiya texnologiyalarının metod, üsul və vasitələrindən istifadə etməklə maliyyə-bank sferasında dövlətə, vətəndaşlara, mülkiyyət formasından asılı olmayaraq, kommersiya strukturlarına məxsus olan pulları ələ keçirməyə çalışırlar. Bu metodun tətbiqi hər hansı səbəbdən baş tutmadıqda, mütəşəkkil cinayətkar təşkilatın planında dəyişiklik edilir və böyük məbləğdə pula sahib olan mülkiyyətçinin özü və yaxud övladlarından biri oğurlanmaq üçün hədəfə çevrilir. Mütəşəkkil cinayətkar təşkilat kompüter vasitəsilə əldə etdiyi informasiya əsasında, planlı surətdə "hesablanmış hədəfi" oğurlayaraq ələ keçirir və onun yaxın ətrafından konspirativ formada pul tələb edir. Əksər hallarda istədikləri məbləği inzibati orqandan gizli formada ələ keçirdikdən sonra qurbanları buraxırlar. Bununla da şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə yönəlmiş «adam



oğurluğu» cinayəti başa çatır, yəni mütəşəkkil cinayətkar təşkilat tamah motivli əməlini informasiya kanalları vasitəsilə əldə etdikləri məlumat əsasında şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə yönəlmiş təkrar əmələ yol verməklə həyata keçirirlər.

Bu cür və yaxud buna oxşar faktların cəmiyyətdə sosial problemlər yaratması amilini nəzərə alaraq, 1 sentyabr 2000-ci ildə qüvvəyə minmiş yeni Cinayət Məcəlləsinin XX fəslində şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan əməllərin, XXX fəslində isə kompüter informasiya sahəsində olan əməllərin dairəsi, növləri göstərilmiş və onlara görə cinayət məsuliyyəti müəyyən edilmişdir (1, 105; 177-223).

Cinayət Məcəlləsində qeyd olunan əməllər barəsində cəza tədbirlərinin nəzərdə tutulması, bu növ əməllərin qarşısının alınması, ifşa olunması heç də problemin tam həlli demək deyil. Cəmiyyətdə sosial fəsadlar yaradan bu cür əməlin qarşısının sistemli surətdə və səmərəli alınması bir sıra təşkilati-texniki tədbirlərin həyata keçirilməsi və dövlət səviyyəli proqramın hazırlanıb qanunamüvafiq tətbiqi nəticəsində mümkündür. Məhz buna görə də 29 iyun 2004-cü il tarixdə «Milli təhlükəsizlik haqqında» qəbul olunmuş Azərbaycan Respublikasının Qanununda İnformasiya sahəsində milli təhlükəsizliyin təmin olunması barədə ayrıca maddə (maddə 20) nəzərdə tutulmuşdur (səh. 15-20). Həmin maddədə qeyd olunur ki, Azərbaycan Respublikasının İnformasiya sahəsində milli təhlükəsizliyin təmin olunması üçün görülən əsas tədbirlər aşağıdakılardır:

- Azərbaycan Respublikasında informasiyanın, həmçinin, dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistemin yaradılması və möhkəmləndirilməsi;
- dövlət orqanları və vəzifəli şəxslər tərəfindən həyata keçirilməsi məqsədilə obyektiv və qabaqlayıcı məlumatların toplanılması;

- informasiya infrastrukturunun inkişaf etdirilməsi;

- dövlət sirlərinin qorunmasının hüquqi mexanizmilərinin təkmilləşdirilməsi;

- kompüter informasiyası sahəsində cinayətkarlığa qarşı mübarizə;

- informasiya təhlükəsizliyinin və azadlığının təmin olunması.

Qeyd etmək lazımdır ki, müasir informasiya texnologiyalarının inkişafı mütəşəkkil cinayətkar təşkilatın və onun təzahür forması olan terrorizmin qlobal miqyasda formalaşmasına kömək edir və adekvat olaraq mübarizə üsullarını mürəkkəbləşdirir.

Bəşəriyyət qarşısında cəmiyyətin sosial-iqtisadi həyatının kompüterləşməsindən irəli gələn və öz təxirəsalınmaz həllini gözləyən bir sıra mürəkkəb problemlər durur. Bunlardan biri də kompüter şəbəkələrinin, avtomatlaşdırılmış informasiya sistemlərinin təhlükəsizliyinin təmini sahəsində hüquqi bazanın yaradılmasıdır (2, səh. 116-120).

Kompüter texnikasının sürətlə inkişafı, müsbət tərəfləri ilə yanaşı, öz mənfi təsirini də artırmaqdadır. İnkişafın doğurduğu mənfi cəhətlər isə cəmiyyətdə yeni problemlərin yaranmasına səbəb olur. F.Y.Səməndərov qeyd etmişdir ki, ölkənin iqtisadi və siyasi həyatının yenidən qurulması, hüquqi islahatların həyata keçirilməsi yaranmış ənənəvi hüquqi təfəkkürdən və praktikadan imtina edilməsindən, yeni vəzifələrin aydın dərk edilməsindən başlayır. Lakin yeni hüquqi şüurun, hüquqi təfəkkürün formalaşması xeyli mürəkkəb və uzunmüddətli proses olub, dərin nəzəri təhlilə ehtiyacı olan problemlərdəndir» (Səməndərov F.Y. Hüquqi şüur və cinayət hüquq yaradıcılığı. Bakı- 1998, səh. 5).



Şəxsiyyətin azadlığı əleyhinə yönəlmiş əməllərdən araşdırılması ən aktual olanı adam oğurluğudur. Adam oğurluğunun obyektiv cəhəti zərərçəkmiş şəxsi onun daimi və ya müvəqqəti olduğu yerdən, iradəsi əleyhinə və qanunsuz olaraq başqa yerə yerləşdirmədə ifadə olunur. Burada motiv və məqsədlər müxtəlifdir. Bu, daha çox tamahdır: zərərçəkmişin yaxınlarından və qohumlarından tələb olunan pul, «köləliyə» satılmasından gələn gəlir; orqan və toxumaların transplantasiyası üçün donor qismində istifadə edilmək üçün satma; uşaqları övladlığa götürmək adı ilə xaricə satma, yaxud onlardan qanuna zidd məqsədlərlə, məsələn, fahişəxanalarda, hərəmxanalarda, əxlaqsızlıq yuvalarında seksual istismar məqsədlərlə isttifadə etmə (4, səh. 154-157).

Açıq etiraf olunmalıdır ki, oğurlanaraq köləliyə, fahişəxanalara, hərəmxanalara və başqa əxlaqsızlıq yuvalarına seksual istismar məqsədlərlə cəlb olunanların əksəriyyəti kompüter informasiyası sahəsi vasitəsilə həyata keçirilir. Əlbəttə, bu növ kompüter cinayətlərinin yaranması cəmiyyət həyatının kütləvi kompüterləşməsi ilə bağlıdır və burada Qərb, sözsüz ki, liderlik edir.

Xaricdə kompüter cinayətkarlığı geniş yayılmışdır. Hazırda ekspertlər kompüter cinayətlərinin təhlükəliliyinin çox yüksək olduğunu bildirirlər. Qərb ölkələrində kompüter cinayətkarlığı ilə mübarizə sahəsində böyük təcrübə toplanmışdır. Bu ölkələrdə kompüterdən istifadə ilə həyata keçirilən kriminal fəaliyyət sahələrinin təsnifatı və onları törədən şəxslərin tipologiyasının yaradılması üzrə də tədqiqatlar aparılır, belə cinayətlərdən qorunmaq metodları işlənib hazırlanır (5, səh. 345).

Cinayətlərin törədilməsində, xüsusən şəxsiyyətin azadlığı əleyhinə olan cinayətlərdə, kompüter informasiya vasitələri

artıq geniş tətbiq olunmaqdadır. Seksual məqsədlərlə «İnternet» səhifələrinə çıxan insanlar düşünməlidirlər ki, onlar aldadılaraq mütəşəkkil cinayətkar təşkilatların marağına çevrilməklə, orqan və toxumaların qanunsuz transplantasiya əməliyyatının qurbanı ola bilərlər. Qərbdə bu növ «qurbanlar» tez-tez qeydə alınır.

Son illər ərzində sürətlə genişlənməkdə olan insan oğurluğu gözlərdən və dəri hissələrindən tutmuş, ürək və qara ciyərə kimi mürəkkəb daxili orqanların əldə edilməsi məqsədilə minlərlə insanların ölümünə, yaxud şikəst olmasına səbəb olur. Dünya mətbuatında göstərilən rəqəmlərə görə, bədən üzvləri ticarətinin əsas mərkəzi Mərkəzi və Cənubi Amerikadır. Çünki qonşuluqda yerləşən ABŞ və Kanada kimi varlı ölkələrdə yüz minlərlə insan sağlam orqanlar əldə etmək üçün böyük məbləğlər ödəməyə hazırdırlar. Bu cür tələbat məhz kompüter-informasiya və yaxud digər kanallar vasitəsilə yayılır və tələbatı olan insanlar öz satıcılarını gözləyirlər. Satıcıların əksəriyyəti isə mütəşəkkil cinayətkar təşkilatın üzvləridir. Amerika Federal Təhqiqat Bürosunun yüksək vəzifəli əməkdaşı mətbuat müsahibəsində bildirmişdir ki, qara bazarda bir insan ürəyinin qiyməti 100 000, bir cüt böyrək 65 000, gözün buynuz qişası isə 2,5 min dollara satılır (6, səh. 66-80).

Tibb elminin insan orqanlarının köçürülməsi sahəsində əldə etdiyi yeni-yeni nailiyyətlərin informasiya texnologiysı vasitəsilə yayılması və hər il dünyada yüz minlərlə insanın bu imkanlar sayəsində yenidən həyat əldə etməsi barədə təbliğat cəmiyyətdə şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə yönələn əməllərin baş verməsini daha da sürətləndirir, bu sahədə mütəşəkkil cinayətkar təşkilatların formalaşmasına təhrik edir. Əlbəttə, tamah məqsədilə bu sahədə formalaşan cinayətkar təşkilat öz qurbanlarını əldə etmək üçün informasiya texnologiyasından və onun imkanlarından maksimum bəhrələnirlər.



Kompüterdən istifadə ilə böyük məbləğdə gəlirin əldə edilməsi cinayətkarları onların maraqlarını təmin etmək üçün təşkilata yeni-yeni peşəkar və təcrübəli insanların cəlb olunmasına sövq edir. ABŞ, Fransa, İngiltərə, Almaniya və s. ölkələrdə kompüter cinayətlərinin və onlardan alınan informasiya əsasında törədilən kriminal əməllər düz xətt üzrə yüksəlməkdədir. Bir çox tədqiqatçılar kompüter cinayətlərinə EHM-ə giriş imkanı olan və tamah məqsədilə qulluq mövqeyindən sui- istifadə ilə bağlı «imtiyazlı» şəxslərin – «ağyaxalıqlılar»ın ( 7, səh. 87-88) cinayətkarlığının bir növü kimi baxırlar.

Kompüter-informasiya sahəsində hazırlanan cinayətlərin vaxtında qarşısının alınması üçün təxirəsalınmaz tədbirlərin görülməsi, inzibati orqan əməkdaşları qarşısında bu gün bir problem kimi qalmaqdadır. Problemin mahiyyəti ondan ibarətdir ki, xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə görə ağır, qəsdən törədilən cinayətlər, əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən tam dərk olunmasına baxmayaraq, mürəkkəb, sistemli mübarizə metod və üsulları tələb edən əməllərdir. Hələ ki, təsirli mübarizə formasına görə bu sahədə konkret qanuniləşdirilmiş prosessual istiqamət yoxdur. Mübarizə üsulunun təyin edilərək əməlin qarşısının alınması və tədbir görülməsi işində təkrar problemlər yaranır. Ona görə də, kompüter informasiyası sahəsində baş verən cinayətlərin qarşısının alınması üçün yüksək peşəkar kadrların hazırlanması və inzibati orqanlarda yerləşdirilməsi işi təşkil edilməlidir. Bu iş kompüter informasiyası sahəsində qəsdən törədilən əməllərin cəmiyyətdə yaratdığı bir çox sosial-fəlsəfi problemləri əhatə edir.

Ümumiyyətlə, dünyada kompüter cinaytlərinin açılma faizi 1-3%-dir. Zərərçəkənlərin öz nüfuzlarının aşağı düşməsindən çəkinmələri, istintaq və ya məhkəmə prosesində maliyyə və digər sirlərin açılmasından ehtiyat etmələri, aşkar edilmiş

cinayət haqqında hüquq-mühafizə orqanlarına məlumat verməmələri cinayətlərin artmasına və müvafiq tədbirlərin görülməməsinə səbəb olmuşdur.

ABŞ-ın 47 ştatında kompüter qanunvericiliyi qəbul edilmiş və bununla da cinayətkar məqsədlərlə informasiya şəbəkələrinə qeyri-qanuni girişlərin qarşısının alınmasının hüquqi sisteminin yaradılmasına başlanmışdır. Ölkədə kompüter cinayətləri ilə mübarizə haqqında ilk qanunlar 1978-ci ildə Florida və Arizona ştatlarında qəbul edilmişdir. Belə ki, Florida ştatının kompüter cinayətkarlığı ilə mübarizə haqqında cinayət qanunvericiliyinə görə kompüterdə saxlanılan istənilən informasiya bazasına qeyri-qanuni müdaxilə etmiş şəxsin hərəkəti, onun bu zaman nə kimi məqsədlər güddüyündən asılı olmayaraq, cinayət əməli hesab edilir. ABŞ konqresi mövcud qanunvericilik normalarına əlavələr və dəyişikliklər etmiş, onları xeyli genişləndirmiş və tətbiq dairəsini artıraraq 1984 və 1986-cı illərdə «Kompüter hüququ» üzrə əlavə qanunlar qəbul etmişdir ( 8, səh. 36-37).

Professor Əbülhəsən Abbasov yazır: «Cəmiyyətimizin mövcudluğu onun yeniləşməsindən asılıdır. Yeniləşmə isə insanlardan zəruri tədbirlərin, praktiki fəaliyyətin həyata keçirilməsini tələb edir. Fəaliyyət isə əsassız olmur. Hər bir insanın ictimai fəaliyyətinin əsasında ideya, fikir, mülahizə, əqli nəticə, təfəkkür dayanır. Kortəbii davranış, ideya, nəzəri əsası olmayan fəaliyyət insana yox, heyvana xasdır. İnsan fəaliyyəti fikrin övladıdır. İndiki sosial-siyasi, iqtisadi, beynəlxalq vəziyyəti, ictimai proseslərin və dünyanın inkişaf dialektikasını təhlil edib anlamaq üçün, cəmiyyətə və dövlətə ziyan verə biləcək hadisələrin qarşısını almaq və işləri düzgün məcraya yönəltmək məqsədilə müasir sosial idraka və təfəkkür tərzinə yiyələnmək vacibdir. Bugünkü fizikanın problemlərinin klassik fizikanın riyazi aparatı, məntiqi və prinsipləri çərçivəsində həll etmək mümkün olmadığı kimi, müasir cəmiyyəti, sosial-siyasi həyatı yalnız köhnə idrak vasitələrinə, ənənəvi təfəkkürə, üsul və vərdişlərə arxalanmaqla təhlil edib mənimsəmək qeyri-mümkündür. Yeniləşmək zərurəti qarşısında qalan cəmiyyət yeni sosial idraka, fəlsəfi həzmetməyə və dünyagörüşünə ehtiyac içindədir. Bu ehtiyacı ödəmək bizim hər birimizin və bütövlükdə elmi ictimaiyyətitmizin müqəddəs və şərəfli borcudur» (9, səh. 17-54).



Mövcud şərait böyük imkanlara malik elektron-hesablama texnikasının ictimai həyatın müxtəlif sahələrində tətbiqinin genişlənməsi, onların istifadə və istismarı ilə bağlı daha geniş məsələlər kompleksinin dəqiq hüquqi tənzimlənməsini tələb edir ( 10, səh. 101-106). Müasir cəmiyyətdə elmi və texniki tərəqqi ilə yanaşı cinayətkar fəaliyyətin metod və üsulları da təkmilləşir. Açıq etiraf olunmalıdır ki, hüquq-mühafizə orqanlarında fəaliyyət göstərən əksər əməkdaşlar tərəfindən kompüter-informasiya sahəsində baş verən və cəmiyyətdə sosial problemlər törədən əməllər lazımi səviyyədə dərk olunmur.

Qarşısı alınmayan hər bir mütəşəkkil əməlin təzahür forması olduğu kimi, elm və texnikanın inkişafında da təzahür formaları mövcuddur. Müasir cəmiyyət üçün kompüter informasiya texnologiyası elmi-texniki inkişafın təzahür formasıdır və o, cəmiyyətə yeni mahiyyətlər gətirdiyi kimi, yeni-yeni problemlər də gətirir. Biz, elmi texniki tərəqqinin təzahür forması olan kompüter-informasiya resurslarının cəmiyyətin formalaşmasındakı müsbət rolunu alqışlamalı, lakin onların mənfi təsir dairəsinin bütün həyat sahələri üzrə törətdiyi əməllərin qarşısının alınması üçün qanunamüvafiq tədbirlər görməliyik.

Tərəqqi — bəşəriyyətin irəliyə doğru tarixi inkişafının zəruri istiqaməti, meylidir. İctimai inkişafda hər yeni mərhələ köhnəyə nisbətən mütərəqqidir, ictimai tərəqqinin daha yüksək

mərhələsidir. Bu mənada bəşəriyyətin keçdiyi ictimai-iqtisadi formasiyaları (ibtidai-icma, quldarlıq, feodalizm, kapitalizm, sosializm) ictimai tərəqqinin mərhələləri adlandırmaq olar. Hər bir formasiya əvvəlkinə nisbətən həm məhsuldar qüvvələrin yetkinliyi səviyyəsinə görə, həm də istehsal münasibətlərinin təkmilləşmə dərəcəsinə görə daha mütərəqqidir (11, səh. 316-392). Tərəqqi, texnikanın və texnologiyanın inkişafında daha aydın hiss olunur. Sosiumun inkişafı da ən aşağı - ibtidai qəbilə-tayfa münasibətlərindən hazırki sivilizasiyalı vəziyyətə, sosial tərəqqiyə doğru uzun bir yol keçmişdir.

Fəlsəfə tarixində filosofların tərəqqiyə müxtəlif baxışları olmuşdur. Məsələn, antik fəlsəfədə tərəqqi adı altında çox vaxt tarixi hadisələrin sadəcə ardıcıllığı, bir-birini izləməsi nəzərdə tutulmuşdur. Antik dövr mütəfəkkirləri Platon, Aristotel və başqaları bu fikirdə olmuşlar. Din fəlsəfəsində isə tarixi prosesə tərəqqi kimi deyil, əvvəlcədən müəyyənləşmiş məqsədlərə doğru hərəkət kimi baxmışlar. Bekon, Dekart isə tərəqqinin məğzini idrakın inkişafında görmüşlər. Bəziləri isə tərəqqini «qızıl əsr»ə qayıdış kimi başa düşmüşlər. Klassik alman filosofu Hegel isə insan azadlığını tarixi tərəqqinin əsas meyarı və göstəricisi hesab etmişdir. Tərəqqi çox vaxt özündə xeyirlə şəri, ədalətsizliklə ədaləti birlikdə əks etdirir. Özlüyündə mütərəqqi olan hadisə mürtəce, zərərli nəticələr də doğura bilir. Belə ki, kompüter-informasiya texnologiyalarının inkişafı ilə əlaqədar da mürtəce, zərərli nəticələrə səbəb olan cəhətlər yaranır.

Elm və texnikanın inkişafı nöqteyi-nəzərindən kompüter-informasiya resurslarının yaranması, şübhəsiz, tərəqqidir. Lakin bu, həm də, insanın görünməmiş dağıdıcı gücünü ifadə edir, özündə faydalı olanla, faydasızı birləşdirir, tərəqqi ilə yanaşı, mürtəce məqsədlərə də xidmət edir. Məhz bu ziddiyyətlilik tarixin dramatizmidir. Odur ki, hər cür tərəqqi bəşəriyyətin ağıllı, qanunauyğun, xeyirli məqsədlərinə tabe olmalı, beynəl-



xalq nəzarət və əməkdaşlıq şəraitində inkişaf etdirilməlidir. Tərəqqi humanizm prinsiplərinə xidmət etməli, ictimai-rasional səciyyə daşımalıdır. O, bəşəriyyətin məhv edilməsinə yox, onun kamilləşməsinə və optimallaşmasına xidmət etməlidir (11, səh. 320-392). Kompüter informasiyası sahəsinin inkişafı da, əsasən, cəmiyyətin ümumi mənafeyi və bəşəriyyətin mütərəqqi gələcəyi naminə istifadə olunmalıdır. Elm və texnikanın bu cür inkişafını sui məqsədlərə və cinayətkar aləmin formalaşmasına yönəltmək olmaz.

Bazar iqtisadiyyatı münasibətlərindən irəli gələn yeni növ cinayətlərin inkişaf dinamikasının yüksəldilməsində və maddi sübut bazalarının məhv edilməsində rabitə-informasiya texnologiyasının xüsusi rolu vardır. Təəssüflə qeyd etmək lazımdır ki, bu sahədə formalaşmış peşəkar mütəxəssislər əksər hallarda ya bilərəkdən və yaxud bilmədən mütəşəkkil cinayətkar təşkilat üzvlərinin təsir dairəsinə düşürlər. Təsir dairəsindən çıxmaq, adətən, mümkün olmur, belə ki, peşəkar bir mütəxəssisin itirilməsi mütəşəkkil cinayətkar təşkilata sərf etmir. Məhz buna görə də, qanunların möhkəmləndirilməsi, qanunçuluğun düzgün tətbiqi ilə yanaşı, informasiya texnologiyası sahəsində çalışan mütəxəssislərin işinə nəzarət artırılmalı və yeni idarəçilik metodorlgiyası tətbiq olunmaqla mütəxəssis təfəkkürü düzgün formalaşdırılmalı, əxlaqi-etik prinsiplər önə çəkilməlidir.

Müasir informasiya-texnoloqiyası sahəsində baş verən əməllər bu gün dünyada «qarşısıalınmaz bəla» kimi qəbul edilir. Çünki, elm və texnikanın inkişafı cəmiyyətə müsbət nailiyyətlərlə bərabər fəsadlarla dolu sosial problemlər də gətirir. İnformasiya texnoloqiyasının ədalətli, pozitiv sosial məqsəd kəsb etməsi üçün cəmiyyət ona nail olmalıdır ki, informasiya texnoloqiyasının nailiyyətləri ilə humanist məqsədlər üzvi surətdə birləşdirilmiş olsun. Lakin bu şəraitdə informasiya texnoloqiyasının insani-intellektual resurs kimi maddiləşməsinə,

geniş miqyaslı sosial proqramların reallaşmasına, həmçinin, insanın ahəngdar və hərtərəfli inkişafına imkan və şərait yaranar.

Əgər on il bundan əvvəl sadə lazer printerinin giyməti 4000 ABŞ dolları, rəngli skanerin qiyməti isə 10000 ABŞ dolları idisə, bu gün onların hər birini xeyli aşağı qiymətə almaq olar. Belə görünür ki, hər şey yaxşıdır. Lakin ziyanlı tərəflər heç də az deyil. Kompüterlərin istismarı və proqramlaşdırılması zamanı sui-istifadə halları. ilə bağlı cinayətlərin artmasını vurğulayan «Kriminologiya» (1988) dərsliyinin müəllifləri təkcə 1984-cü ildə kompüterlərin istismarı və texniki xidməti ilə məşğul olan şəxslər tərəfindən sui-istifadə nəticəsində ABŞ banklarına 1 milyard dollara, Fransa banklarına isə 9 milyard franka qədər ziyan vurulduğunu qeyd edirlər (12, səh. 84).

Londonun «Sandi-Tayms» qazetinin yazdığına görə, İngiltərədə 1985-ci ildə «Elektron dələduzluğu» nəticəsində dövlət idarə və müəssisələrinə, xüsusi firmalara dəyən ziyan 750000 funt-sterlinqə çatmışdır. Qəzet qeyd edir ki, cəmi 200 funt-sterlinq dəyərində xüsusi avadanlığa malik olan cinayətkar öz fəaliyyət miqyaslarını xeyli genişləndirə bilir (13, səh. 318).

Qeyd olunanları nəzərə alaraq, belə nəticəyə gəlmək olar ki, cəmiyyətimiz kompüter-informasiyası sahəsində törədilən əməllərin başlanğıc mərhələsindədir. Bu əməllər nəticəsində yaranan problemlərin həlli yollarının araşdırılması aktual mahiyyət kəsb edən məsələlərdəndir. Bu istiqamətdə statistik, faktoloji material təhlil olunmalı, hadisələrin törəmə və başvermə dinamikası öyrənilməli, hüquqi aktların unifikasiyası aparılmalı, sosial fəlsəfənin potensialından istifadə edilərək problematikanın sistemli tədqiqi həyata keçirilməlidir. Bunu bizdən dövlətimizin və xalqımızın tərəqqisi tələb edir.



## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı-2000

2. Черных А.В. «Обеспечение безопасности автоматизированных систем, уголовно-правовые аспекты», Советское государство и право. 1990

3. F.Y.Səməndərov. Hüquqi şüur və cinayət hüquq yaradıcılığı. Bakı, 1998

4. R.İ.Quliyev, M.N.İmanov. Cinayət Hüququ. Xüsusi hissə, Bakı-2001

5. В.Н.Кудрявцева, А.В.Наумова. «Российское уголовное право, особенная часть»

6. «Hüquqi dövlət və qanun» jurnalı №4, Bakı-2000

7. Səməndərov F.Y. «Sovet kriminologiyasının bəzi məsələri». Bakı-1987

8. «Проблемы преступности в капиталистических странах». , №10, 1988

9. Ə.Abbasov. «Yeniləşən Cəmiyyət. Müasir elmi paradiqma və idarəetmə». Bakı-1998

10. В.В.Толстошеев. «Компьютерная технология и право» Советское государство и право. №3, 1988

11. M.Fərhadoğlu. «Fəlsəfənin əsasları». Bakı-Nurlan-2002

12. «Криминология» /под редакцией. Б.В.Коробейникова, Н.Ф.Кузнецовой, Г.М.Минковского, Москва 1988

13. «Учебник для мощенников»// Новое время, № 17, 1985.

14.Полевой.Н.С. Криминалистическая кибернетика. Москва 1989

15. Milli Təhlükəsizlik haqqında Azərbaycan Respublikasının qanunu, Bakı 3 avqust 2004.

**Mehriban Zeynalova,
Azərbaycan MEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun sosial fəlsəfə şöbəsinin dissertantı**

## Azərbaycan qadınları ictimai-siyasi həyatda niyə fəal deyillər?

Müasir mərhələdə Azərbaycan qadınlarının 10-15 il əvvəlki dövrə nisbətən ictimai-siyasi həyatda aktivliyinin azaldığı və cəmiyyətdə gedən proseslərə passiv münasibəti açıq-aşkar müşahidə edilməkdədir. Cəmiyyətdə qadınların baş verən proseslərə qarşı laqeyd və passiv mövqeyini aydınlaşdırmaq məqsədilə «Təmiz Dünya» Vətəndaş Hüquqları Uğrunda ictimai birlik 2004-cü ilin oktyabr ayında 300 nəfər arasında sorğu keçirmişdir. Tədqiqatın əsas məqsədi «Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında» Konvensiyanın 7-ci və 8-ci maddələrinə uyğun olaraq qadınların ictimai-siyasi həyatda fəallığının vəziyyəti və buna mane olan səbəbləri araşdırmaqdan ibarət idi. Sorğu Bakı şəhər əhalisi arasında keçirilmişdir. Sorğuda iştirak edən qadınların fəaliyyət sahəsi (müəllim, həkim, jurnalist, evdar qadın), təhsil səviyyəsi və yaş həddi müxtəlifdir.

Belə ki, rəyi soruşulan respondentlərin 71,4 %-i ali,18,6%-i isə orta təhsilli olmuşdur. Ali təhsillilər arasında ailəli qadınlar (65%) subay qadınlara (34%) nisbətən çoxluq təşkil etsə də, orta təhsillilər arasında bu nisbət bərabərdir(49%; 49%).



Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında son on ildə (1994-cü ildən bəri) qadınların vəziyyəti ilə bağlı köklü dəyişikliklər baş vermişdir. Belə ki, bir çox ölkələrdə olduğu kimi, Azərbaycan cəmiyyətində də qadınlarla kişilərin konstitusion hüquq bərabərliyi ictimai həyatın bütün sahələrində heç də tam reallaşmamışdır.

Reallıq belədir ki, cəmiyyət lider siyasətçi qismində (prezident, baş nazir, nazirlər və s.) üstünlüyü hələ də kişilərə verir. Qadınlar isə daha çox məşvərətçi, ikinci növ siyasətçi kimi qəbul edilir. Belə nəticə çıxır ki, Azərbaycan cəmiyyəti qadınların ailə-məişət qayğıları ilə məşğul olmasını daha məqbul sayır. Azərbaycan cəmiyyətinin siyasi sistemində idarəetmə qərarlarının qəbul edilməsi sahəsində qadınların rolunun az olması real faktdır. Qadınların bu sahədə rolunun artırılması məqsədilə Azərbaycan Respublikası Prezidenti 2000-ci il mart ayının 6-da «Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında» fərman imzalamışdır. Lakin bu fərmanın həyata keçirilməsi sahəsində praktik addımlar atılmamışdır. Belə ki, Ümumdünya Qadınlar Konfransının (Pekin) Fəaliyyət Platforması konsepsiyası əsasında hazırlanmış, Nazirlər Kabinetinin 33 saylı qərarı (2000-ci il 6 mart tarixli) ilə təsdiqlənmiş «Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı» beynəlxalq hüquq normalarına uyğunlaşdırılsa da, deklarativ çərçivədə qalmışdır. Çünki prezidentin Fərmanından, Milli Fəaliyyət Planından irəli gələn tələb və prinsiplər həyatda reallaşmamışdır.

1990-cı illərdə Azərbaycanda müstəqillik uğrunda gərgin mübarizə getdiyi zaman ön cərgələrdə qadınlar da dayanırdı. Müstəqilliyin əldə edilməsində qadınların aktiv iştirakı danılmazdır. İllər uzunu həyatın müxtəlif sahələrində çalışan qadınlar öz iş yerlərini, evlərini tərk edərək meydanlara çıxdılar. O zaman onlara böyük ehtiyac var idi və müstəqillik uğrunda mübarizədə qadın, kişi faktoru, yəni cinsi mənsubiyyət heç

bir rol oynamırdı. Qadınlar, əksinə, aktiv surətdə siyasi həyata cəlb edilirdi. Üstündən 15 ilə yaxın bir müddət keçdikdən sonra ictmai–siyasi həyatda, qərarqəbuletmədə qadınlara olan böyük ehtiyac müşahidə edilmir. Belə ki, cəmiyyətdə qadınların «əkssiyasiləşməsi» prosessi gedir. Yəni, qadınların əsasən *müxtəlif sahələr üzrə* «ixtisaslaşma»sı siyasətinə daha çox üstünlük verilir, onların ictimai-siyasi fəaliyyətdən uzaq dayanması tendendiyası qabardılır. Yalnız siyasi deyil, həm də təhsil, sosial-məişət,və b. sahələr üzrə qadınların ixtisaslaşması günün prioritet məsələlərindəndir. Ortaya sual çıxır: bu proses qadmların həyati maraqlarının reallaşması üçün geniş imkanların əldə edilməsi ilə nəticələnə bilərmi, yoxsa belə bir proses, yəni ictimai-siyasi həyatdan qadınların sıxışdırılması onlara qarşı ayrı-seçkilik üçün yeni bir vasitədir?

Ailədə, bütövlüklə cəmiyyətdə ənənəvi patriarxal modelin hələ də qorunub saxlanılması qeyd edilənlərlə bağlı ehtiyatlanmağa zəmin yaradır.

Tədqiqat zamanı müəyyən bəndlərdə qadınların birmənalı cavabları problemin aydınlaşmasına birbaşa yardım edir.

Qadınların ictimai-siyasi həyatda fəallığını öyrənmək məqsədilə keçirdiyimiz sorğuda iştirak edən qadınların əksəriyyəti ölkədə qadınların ictimai-siyasi həyatda iştirakına maneə törədən formal əngəllərin olmadığını bildirib. Ümumiyyətlə, qadınların hüquqlarının əks cins tərəfindən pozulduğunu qeyd edənlər çox cüzi faiz təşkil etmişdir.

Maraqlıdır ki, verilən cavablardan belə qənaətə gəlmək olur ki, siyasətdə qadınlara qarşı hər hansı bir ayrı-seçkilik mövcud deyil. Lakin bununla yanaşı qadınlar ictimai-siyasi həyatda onların aktiv iştirakına mane olan çoxlu sayda problemlri də sadalayırlar. Məhz həmin problemlər qadınların ictimai-siyasi aktivliyinə birbaşa əngəl törədir, onların bu sahədə özlərini realizə imkanlarını arxa plana keçirir. Respondentlərin əksəriyyəti bu problemlər içərisində mövcud iqtisadi



durumun əsas ağırlığının qadınların üzərinə düşməsini (56,4%) və qadınların sağlamlığının yaxşılaşdırılmasına xidmət edən sahələrin inkişaf etdirilməməsini (48%) önə çəkiblər. Bununla yanaşı, respondentlərin 36,5%-i qeyd edib ki, ümumiyyətlə qadınlar işə düzəlməkdə çətinliklərlə üzləşirlər. Bilavasitə idarəçilik məsələlərində qadının rolunun arxa plana keçirilməsini qeyd edənlər 30,6% təşkil etmişdir. Rəqəmlərin təhlili göstərir ki, qadınların ictimai fəallığına mənfi təsir göstərən səbəblərdən biri siyasi həyatın təşkilində və fəaliyyətində qadın rolunun dəyərləndirilməməsi olsa da bu fikri söyləyənlər heç də respondentlərin əksəriyyətinin yox, 27,3%-ni təşkil etmişdir. Rəyi soruşulanların 26,5%-i isə buna uyğun olaraq qadınların siyasi qərarların qəbulunda zəif iştirakından gileylənmişlər. Respondentlərin rəylərinin ümumiləşdirilməsindən belə nəticəyə gəlmək olur ki, işləyən, ictimai-siyasi fəaliyyətlə məşğul olan qadınlar heç də sıxışdırılmır. Belə ki, iş prosesində qadın əməyinin istismara məruz qalmasını və qiymətləndirilməməsini qeyd edənlər çox cüzi faiz təşkil etmişdir (0,7%).

Təbii ki, iqtisadi durumun ağırlığını öz üzərində daşıyan *qadın üçün ailənin iqtisadi vəziyyətini* düşünmək başlıca məsələdir. Həm peşə, həm də intellektual baxımdan hərtərəfli inkişaf etmiş qadın ictimai-siyasi proseslərdən yaxşı baş çıxarmasına baxmayaraq, ailəsində maddi imkanları məhdud olarsa, o, ilk öncə öz qabilliyyət və bacarığı ilə ailənin maddi rifahının yüksəlməsinə daha çox diqqət artıracaq. Çünki bütöv bir ailə məhz onun ağlı hesabına dolanmalıdır. Bu halda o, aktiv ictimai-siyasi fəaliyyətə qoşulmayacaq. Çünki normal yaşayış üçün o, bir neçə yerdə işləməli olacaq. Yuxarıda qeyd etdiymiz kimi, qadının bu formada «ixtisaslaşma»sı onun intellektual maraqlarının realizəsi, özünütəsdiq üçün təminat verməsə də, o bununla razılaşmalı olur. Bu halda «o, ölkə üçün hansı sahədə daha çox xeyir gətirə bilərdi» faktorunu kölgədə qoyur. Çünki ictimai-siyasi həyatda tanınmaq imkanı

məhdudlaşdığından, onun varlığı barədə yalnız dar bir çərçivənin məlumatı olur.

Qadınların işə düzəlməsində çətinliklərlə üzləşməsi (36,5%) problemi onların professional inkişafına əngəl törədən amildir. Qadın daha çox peşəkarlıq nümayiş etdirmək və bu sahədə vəzifə pilləsində yuxarı qalxmaq imkanlarını itirir.

Sorğu iştirakçılarının ***«Siyasi qərarların qəbulunda qadınların zəif iştirakı»*** bəndinə yüksək səs verməməsi qeyd etdiymiz narahatçılığa əsas verir. Yəni, mövcud iqtisadi durumun əsas ağırlığının qadınların üzərinə düşməsi və qadınların işə düzəlməkdə çətinliklərlə üzləşməsi bəndləri üzrə mövcud olan problemlər qadınların həyati maraqlarının reallaşması üçün geniş imkanların əldə edilməsini məhdudlaşdırıb. Çünki qadınlar vəziyyətlərinin yaxşılaşdırılmasını qərarların qəbulunda iştirakıyla dəyişə bildyi halda, bu məsələni arxa plana çəkir. Və artıq burada «iqtisadi məngənə», cinsi ayrıseçkiliyin təsiri ilə yanaşı, həm də siyasi diskriminasiyanın konturları görünməkdədir.

Siyasi həyatın təşkilində və fəaliyyətində qadın rolunun dəyərləndirilməməsi(27,3%), idarəçilik məsələlərində qadının rolunun arxa plana keçirilməsi(30,6%), iş prosesində qadının əməyinin istismarı və lazımınca qiymətləndirilməməsi kimi problemlər də siyasi diskriminasiya olmaqla bərabər, qadınların özünürealizəsində və ya həyatın bütün sahələri üzrə maraqlarının təmin edilməsində əsas baryerdir. Bu onu göstərir ki, bu qadınların siyasi karyeraya bu gün yaxud, sabah maraq göstərəcəyi istisnadır.

Qadınların ictimai-siyasi fəallığına təsir edən amillərindən biri də təhsildir. Belə ki, təhsil əhəmiyyətli dərəcədə özünürealizəyə, təbii ki, eyni zamanda imkanların qiymətləndirilməsi differensiasiyasına öz təsirini göstərir. Təhsilin və zəruri dünyagörüşünün olması proseslərə qoşulmaqda əminlik yarada bilir. Bu baxımdan respondentlərin cavablandırdığı suallarda



bu fərqlər kəskin nəzərə çarpır. Məsələn: ***«Qadınların işə düzəlməsində çətinliklərlə üzləşməsi»*** bəndi orta təhsilli respondentlərin daha çox üstünlük verdiyi cavab olsa da, ***«Siyasi həyatın təşkilində və fəaliyyətində qadın rolunun dəyərləndirilməməsi»*** ən aşağı bal (3,3%) qazanmış bənd kimi qeydə alınmışdır. Çünki orta təhsilli respondentlərin siyasi özünüqiymətləndirmə qabiliyyəti aşağı səviyyədədir. Qeyd edilən problem onun intellektual çəkisinə uyğun deyil və öz imkanlarının təmin edilməsində bu təsirin dəyərini bilmir.

Ali təhsilli qadınların 46%-i keçirilən seçkilərdə qadınların fəal iştirakını qənaətbəxş hesab etmir, 19%-ə yaxın isə əksinə düşünür. Orta təhsillilərin 6%-i sualı müsbət cavablandırsa da, 2% fərqli fikirdədir. Seçkilərdə iştirak etməmələrinin səbəblərinə gəldikdə isə respondentlərin 28%-i inamsızlıq fikrini irəli sürmüşlər. İkinci cərgədə 12%-lə bu işi mənasız hesab edənlər, 10%-ə yaxın isə maraqlanmayanlar dayanırlar. Yalnız 2,6% maddi çətinlik üzündən seçkilərə qatılmadığını nəzərə çatdırır.

Lakin cavablarda müəyyən paradoksallıq da vardır. Belə ki, «hansı hüquqlarınızdan sərbəst və daha çox istifadə edirsiniz?» sualına cavab olaraq respondentlərin 64,7%-i təhsil hüququndan, 52%-i isə seçki hüququndan istifadə etdiyini qeyd etmişdir.

Statistika Komitəsinin hesabatlarında yalnız səhiyyə və təhsil sistemində çalışan qadınlar qeyd olunur. İctimai-siyasi sferada bu və ya digər səviyyələrdə qadınların təmsilçiliyinə sanki ehtiyac duyulmur. Nə ilk bələdiyyə seçkilərində (1999-cu il), nə də 2004-cü ilin bələdiyyə seçkiöncəsi statistikasında qadınların iştirakı barədə məlumat yoxdur. Burada bizi qadınların həm namizəd, həm də seçkilərdə potensial səs kimi fəallıqları maraqlandırır.

Keçirdiyimiz ictimai sorğunun nəticələrinə əsasən «Heç seçkilərdə iştirak etmisinizmi?» sualına ali təhsillilərin 53%-i, orta təhsillilərin isə 15%-i müsbət cavab vermişdir. Rəqəmlər-

dən göründüyü kimi ali təhsilli respondentlərin təqribən yarısı, orta təhsillilərin isə əksəriyyəti ümumiyyətlə seçkilərdə heç vaxt iştirk etməmişdir. Bu fakt onu göstərir ki, qadınların seçkilərdə aktiv iştirakına dair dövlət statistik məlumatları müəyyən şübhə doğurur.

Respondentlərin cavablarından məlum olur ki, keçirilən seçkilərin şəffaflığına inam yoxdur. Məhz bu səbəbdən də onlar seçkilərdə iştirak etmir, öz seçki hüquqlarından bəhrələnmirlər. Hətta, iştirakçılardan 1,3%-i sonuncu prezident seçkilərindən sonra seçkilərə qatılmaqdan ümumiyyətlə imtina etdiklərini və onların səslərinin heç bir əhəmiyyət kəsb etmədiyini bildirirlər.

Problemin həllinə müxtəlif aspektlərdən baxan qadınların 35,3%-i (orta təhsillilər iştirak etməyib) ölkənin ümumi iqtisadi vəziyyətinin dəyişilməsini təklif edir. 34,2% ölkədə qanunların aliliyi təmin olunmaqla, 30,5% isə qadın problemlərinin vəziyyətinin dəyişdirilməsi ilə məsələnin çözüləcəyinə əmindirlər. Çünki qadınların ictimai-siyasi həyatda fəal mövqe tutmasına mane olan səbəblər, özlərinin göstərdikləri kimi, birbaşa onlardan deyil, dövlət idarəçiliyindən asılıdır.

Azərbaycan qadınının ictimai-siyasi və sosial (sosial rolların ifadəsində qadınlar kişilərlə qismən bərabərhüquqlu olduqlarından gileylənmirlər) həyatda fəallığına mane olan amillər sırasında respondentlərin 43%-ə yaxını ***ailədaxili tərbiyəni*** vurğulayırlar. Maraqlıdır, bu istiqamətdə ***dövlət siyasətinin düzgün qurulmamasını*** çox azlıq, yalnız 23%-ə qədəri düşünür. İkinci çoxluq (34%) isə ***milli mentaliteti*** səbəb görür. Əgər ailədaxili tərbiyə milli mental dəyərlər əsasında formalaşırsa və bu dəyərlərə görə, keçmiş sovet dönəmində mövcud ənənəvi cəmiyyətdə olduğu kimi, qızlar yalnız evdar qadın, ana, kənd təsərrüfatı ilə məşğul olmaq üçün doğulub böyüdülürlərsə, onda milli adət-ənənələrin çağdaş demokratik



zamana, gender anlaşmasına uyğunlaşdırılması ehtiyacı yaranır.

Əksər dünya ölkələrində gender təhlili ilə bağlı problemlər artıq tarixə qovuşsa da, Azərbaycanda bu, aktuallığını hələ itirməyib. Bunun əsas səbəblərinə gəldikdə qeyd etmək vacibdir ki, ölkəmiz coğrafi yaxınlığı ucbatından uzun müddət əvvəlcə çar Rusiyasının, sonra da Sovet İmperiyasının müstəmləkəsi olmuş, ona görə də Rusiyada qadın-kişi bərabərliyinin, orta sinfin və burjuaziyanın formalaşması ləngidiyindən, bu təsirdən biz də azad ola bilməmişik. Lakin sovet dövründə sonralar qadının siyasətdə iştirakı qismən təmin olunsa da, ailə, analıq və uşaq məsələləri bu fəaliyyətin əsas predmetləri olaraq qalırdı və qadınlar siyasi karyera haqda istəsəydi də belə düşünə bilməzdi. Çünki o zaman daha çox təyinat və planlaşdırma hökm sürdüyünə görə qadınların siyasətə gətirilməsi və ictimaiyyətə təqdimatı «yuxarıların» iradəsindən asılı idi.

1960-cı ildə ilk dəfə Skandinaviya ölkələrində qadınların kütləvi şəkildə siyasətə axışdığı bir zamanda «sosial analıq» onların siyasi fəaliyyətinin tərkib hissəsi oldu və sovet məkanından yan keçməyən gender dalğası hökuməti problemə yenidən baxmağa məcbur etdi.

Qadınların ictiai-siyasi həyatda fəallığının artırılması, onların bu sahədə hüquqlarının nə dərəcədə qorunmasını öyrənmək məqsədilə respondentlərə uyğun sualla müraciət edilmişdir. Rəyi soruşulanların 52%-i hüquqlarının müdafiəsini təmin edəcək ən vacib vasitə kimi qanunvericiliyə əməl olunmasını göstərmişdir. Lakin respondentlərin 48%-i qeyd etmişdir ki, bu sahədə rüşvət mühüm rol oynayır.

Qəribədir ki, sosial-siyasi fəaliyyətinin məhdudlaşdırılmasından şikayət edən respondentləri özlərini ictimai həyatda realizə edə bilməmələri heç də narahat etmir. Belə ki, rəyi soruşulanların 67%-i bu mövqedən çıxış edirlər.

Rəyi soruşulan qadınların təzadlı fikirlərinə baxmayaraq, birmənalı qeyd etmək lazımdır ki, istər ictimai həyatda, istərsə də, dövlət strukturlarında Azərbaycan qadınları həqiqətən təzyiqlərlə üzləşir, onlara etibarsızlıq mövqeyindən yanaşılır. Buna misal olaraq həm icra strukturlarında, həm də qanunverici orqanda kişilərə nisbətən qadınların azlığını göstərə bilərik. Məsələn, Milli Məclisdə qadın deputatlarının azlığı buna bariz nümunədir.

Sorğu anketində qadınların hansı vəzifələrə daha çox meyl göstərməsini öyrənmək üçün uyğun sual qoyulmuşdur. Verilən cavabların ümumiləşdirilməsi nəticəsində belə nəticəyə gəlmək olur ki, yüksək vəzifələrə meyl (prezident, nazir postu və s.) qadınlar arasında azdır. Lakin rəyi soruşulanların 64%-i qeyd etmişdir ki, dövlət idarəçiliyinin orta və aşağı vəzifələrini tutmaq arzusundadırlar.

Eyni zamanda ictimai və siyasi fəaliyyət uğrunda həvəslə mübarizə aparan qadınların arasında, konstruktiv və professional işə hələ hazır olmayan çox qadın vardır. Lakin bu heç də o demək deyildir ki, biz təşəbbüskar və həvəskar qadınları kənarlaşdırmalıyıq. Bu gün düşünülmüş şəkildə konstruktiv fəaliyyət üçün onların bacarıqlarından istifadə etmək və onlara düzgün istiqamət göstərmək lazımdır. Sözsüz ki, bu qadınlara bir sıra məsələləri, o cümlədən, onlara mane olan səbəblərin aradan qaldırılmasında, bacarıqlarının inkişaf etdirilməsində, ən əsası isə, daxili komplekslərinə və hədəflərə qarşı mübarizə aparmaqda yardımlar etmək lazımdır. Yalnız bu zaman kişilərlə qadınların siyasətdə partnyorluqları reallaşa bilər. Belə partnyorluq bizim cəmiyyətimiz üçün çox vacibdir.

Yaşadığımız cəmiyyət müxtəlif məhdudiyyətlərlə doludur. Bu, məhdudiyyətlərin bir qismi də məhz qadınlara qarşı istifadə edilən süni - «mentalitet», «dini düşüncələr», «ictimai şüur», «adət-ənənə», «zəif cins» kimi variantlardır. Qadınların çox az qismi həmin sərhəddi aşa bilir, bu zaman onlar saysız-hesabsız



problemlərlə qarşılaşırlar. İllərlə formalaşmış patriarxal ənənələr qadınların hər şeydə kişilərə güzəştə getməsini tələb edir. Parlamentdə qadın siyasətçilərin az olmasının səbəbini, ümumiyyətlə, siyasətçi qadınların sayının az olmasında görmək olar. Seçkilər zamanı parlamentdə təmsil olunan qadınlar növbəti dəfə seçilmədiklərindən kənara çəkilirlər. Görünür, bizdə hələ mübariz, aktiv siyasətçi qadın obrazı formalaşmayıb. Qadınların ən zəif cəhəti onların bir-birinə dəstək olmamasıdır.

İctimai-siyasi fəaliyyət göstərmək üçün qadınlar özlərində bir çox keyfiyyətləri artırmaq istəyirlər. Məsələn, rəyi soruşulan qadınların bir qismi siyasi savadlanmaya (35,5%), hadisələrin təhliletmə bacarığının yüksəldilməsinə (27,8%) üstünlük verirsə, digər qismi danışıqlar aparıb əlaqələr qurulmasına (23%) önəm verirlər.

Bəs, cəmiyyətimizdə qadınlarla kişilər arasında tarazlığa nail olmaq üçün hansı mərhələni keçməliyik? Bəlkə, bunun üçün qadınlar xüsusi siyasi təhsil almalıdırlar? Fikirlər müxtəlifdir: respondentlərin 53%-i bu suala «hə», 17,7%-i «yox», 29,3%-i «bilmirəm» cavabını vermişlər. Elə isə «Belə təhsil mərkəzləri açılarsa, orada iştirak etmək arzunuz varmı?»—sualına onların 60%-i «hə», 40% -i «yox» cavabını vermişdir.

Maraqlı bəndlərdən biri də lider qadınların imicinin qiymətləndirilməsi barəsində idi. Respondentlərin çoxunun orta yaşlı olmasına baxmayaraq, onların keçmişin stereotiplərindən, konservativ düşüncə tərzindən qurtula bilməmələri çağdaş ictimai, siyasi qadın liderinin imic cizgilərini düzgün cızmaqda yanılmalarına səbəb olmuşdur. Qadınlar bu imici «domino stilində», yəni, ağ-qara çalarlarda, məhdud ikilikdə görürlər. Onlara görə müasir lider qadın sərt, hətta bəzi respondentlərin fikrincə, üzlü olmalı imiş. Nədən aktiv, işgüzar, gülərüz, xalqla tez təmasa girməyi bacaran yox, məhz sərt ? Bəli, lider qadın zərif cins haqqında daşlaşmış, «qocalıb əldən düşmüş» düşüncənin əbədiyyətə gömülməsi üçün , xarak-

tercə mübariz olmalı, əngəllərə sinə gərməli, onun ictimai, siyasi karyerasında yüksələn xətt üzrə uğurlarını şərtləndirəcək perspektivi dəqiqləşdirməlidir. Daha niyə sərt, quru, rəsmi sütunlara söykənməlidir ki?

Beləliklə, sorğunun nəticələri Azərbaycan qadının nə qədər təlatümlü həyat yaşadığını, gündəlik məişət qayğıları əhatəsində sarsıldığını sübut edir.

Müasir Azərbaycan qadınının vəziyyəti ilə bağlı yalnız tədqiqatlar aparmaq, bu barədə nəzəri danışmaq və ya hər hansı sənədlər qəbul etmək yox, köklü konseptual siyasi, ictimai dəyişikliklərin, islahatların həyata keçirilməsi tələb olunur. Bu yöndə təkcə qeyri- hökümət təşkilatlarının, ayrı-ayrı vətəndaş birliklərinin, beynəlxalq və regional qurumların təpkiləri duyulmamalıdır. Burada qadınların özlərinin istək və maraqları ön plana çıxmalı, eyni zamanda dövlət aparatı qadınların məqsədyönlü ictimai-siyasi fəaliyyətə cəlb edilməsi, fəaliyyətlərinin tənzimlənməsi istiqamətində ciddi, real, əsaslı addımlar atmalı, bürokratik əngəlləri aradan qaldırmalı və funksional bolgüdə qadağaları ləğv etməlidir. Haqqında danışdığımız problemlərlə bağlı sistemli mübarizənin təminatı üçün qadın hüquqlarının müdafiəsi istiqamətində çalışan vətəndaş birlikləri, QHT-lər daha effektli mübarizə naminə fəaliyyətlərini əlaqələndirməli və öz aralarında struktur halına gələrək mərkəzləşməlidirlər. Bu variantla dövləti də gərəkli addımlar 5atmağa vadar etmək asanlaşar. Əks təqdirdə sürətlə demokratikləşən dünyada gender problemini çoxdan arxivə atmış nüfuzlu ölkələrin «sizdə qadın hüquqları hələ də pozulur» qınağından yaxamızı qurturmaq iqtidarımız olmayacaq.



**Nəbiyev Fikrət,**
**Fəlsəfə və Siyasi-Hüquqi**
**Tədqiqatlar İnstitutunun əməkdaşı**

## Hüquqi təfəkkürün əxlaqi determinantları

Əxlaqi və hüquqi cəmiyyətin ictimai quruluşundan, ictimai-siyasi münasibətlərdən asılı olaraq qərarlaşır. Əxlaq latınca «moralis» sözündən yaranmış mənəvi adətlərə aid olmaq deməkdir. Əxlaq insanlar arasında münasibətləri və cəmiyyətdəki vəzifələri müəyyən edən, təşəkkül tapmış davranış normalarıdır. Məlum olduğu kimi, əxlaq normaları vətəndaşlar arasında, vətəndaşlarla cəmiyyət arasında münasibətləri tənzimləyir. Bəs, hüquqla əxlaqın fərqi nədir? Bilirik ki, qanunlar ictimai münasibətləri tənzimləyən normalardan ibarətdir. Ancaq, əvvələn, qanun dövlət orqanları tərəfindən verilir. Qanun dövlət orqanları ilə vətəndaşlar arasında, vətəndaşlarla cəmiyyət arasında, vətəndaşlarla ictimai təşkilatlar arasında və s. münasibətlərin yerinə yetirilməsi istiqamətində yaranan normalara məcburi-hüquqi qüvvə verir. Əxlaq normalarının keşiyində isə vətəndaşlar, cəmiyyət, kollektiv dayanır. Əxlaq normaları ictimai rəyin nəticəsinə görə yaranır, insanların daxili inamlarına və iradəsinə əsaslanır. Əxlaq normaları məcburi xarakterə malik deyil və bu akt könüllülük prinsipinə əsaslanır.

Qanunun eyni zamanda ictimai şəraitlə əlaqədar tez-tez dəyişməsi, ləğv edilməsi və yenisi ilə əvəz edilməsi faktı məlumdur. Əxlaq normaları isə tarixən tədricən yaranır və uzun ömrə malik olur.

Əxlaq daha geniş məsələləri həll edir. Məsələn, elə məsələlər vardır ki, qanunla qadağan olunmayıb. Ancaq elə əxlaq normaları vardır ki, cəmiyyət tərəfindən qəbul edilmir və ya pislənir. Məsələn, kişinin və qadının bir neçə dəfə boşanıb yeni ailə qurması qanunla qadağan edilmir. Ancaq cəmiyyət buna əxlaqi

prinsiplərin pozulması kimi baxır. Geyim haqqında xüsusi qanun yoxdur. Hər bir şəxs istədiyi kimi geyinə bilər. Ancaq geyim əxlaqi baxımdan düzgün seçilməyibsə, məzəmmətə səbəb olur. İnsanların bir-birinə qarşı nəzakət tonu haqqında da qanun yoxdur. Hüquqi baxımdan sırtıq, laqeyd, kobud adamlar cəzalandırılmır. Ancaq əxlaqi baxımdan bu sifətlər pislənir. Nəticədə, demək olar ki, insanların cəmiyyətdə davranışı əxlaqi münasibətlərin fonunda daha düzgün qiymətləndirilə bilər. Əxlaq, yoxsa qanun? Cəmiyyət üçün hansı daha çox lazımdır?

Qeyri-demokratik siyasi rejimə malik olan cəmiyyətlərdə azlıq çoxluq üzərində hökmranlıq edir. Belə bir şəraitdə hakim sinif gücə arxalanır. Cəmiyyətdə yaşayan insanlar qanunun gücü ilə idarə olunur. Cəmiyyətin əksəriyyəti tərəfindən könüllü qəbul edilən əxlaq normalarına isə hakim sinfin mənafeyinə uyğun olmadığı üçün əməl edilmir. Demokratik siyasi rejim şəraitində yaşayan cəmiyyətdə vətəndaşlar azaddırlar. Hakimiyyət xalqın rəyinə əsasən formalaşmışdır. Burada dövlətin və xalqın mənafeyi eynidir. Belə bir dövlətdə qanun və əxlaq normaları bir-birini tamamlayır. Cəmiyyət inkişaf etdikcə insanların təfəkkür tərzi, şüuru yüksəldikcə cəmiyyətin inkişafında əxlaq normalarının rolu artır.

Əxlaq normalarının adət-ənənə ilə əlaqədar olması faktı da bizə məlumdur. Bu o demək deyildir ki, əxlaqla adət və ənənələri eyniləşdirmək lazımdır. Adət və ənənələr milli ərazi məhdudluğu çərçivəsində əhəmiyyət daşıdığı halda, əxlaq normaları ümumbəşəri əhəmiyyət kəsb edir. Bəzən bir millət tərəfindən qəbul edilən adəti başqa millət qəbul etmir. Məsələn, toy və ya yas mərasimləri ilə bağlı islam və xristian adət və ənənələri uyğun gəlmir. Başqa bir misal, xarici dövlətlərdə qadın ərə getmək istədikdə öz münasib «parametrlərini», «xasiyyətini» və başqa göstəricilərini, əmlakının dəyərini göstərməklə elan verir. İslam qanunlarına əsasən isə belə bir hal qadağan olunur və ya həmin şəxs əxlaqi cəhətdən pozğun hesab edilir.



Bütün bunlar əxlaqla adət-ənənə arasındakı fərqlərdir və hər bir millətin öz adət-ənənəsinə müvafiq hərəkət edilməlidir. Əks halda, hər hansı şəxs öz düşüncəsi əsasında elə bir hərəkət həyata keçirə bilər ki, bu həmin xalqın əxlaq qaydalarına uyğun gəlmədiyi üçün pislənilə bilər.

Hər bir ictimai mühit müəyyən olunmuş əxlaq normaları ilə zəngindir. Hər bir şəxs kollektiv qarşısında məsuliyyətini başa düşməli, ədalətli olmalı, öz davranışını nizamlamalı, öz şərəf və ləyaqətini qorumalıdır.

Hələ insan cəmiyyəti yarandığı vaxtdan əxlaq normaları yaranmağa başladı. İlk ibtidai icma cəmiyyətində adamların qəbiləyə, icmaya və bir-birinə münasibətləri formalaşmağa başladı. Qadın-kişi, valideyn-uşaq münasibətləri yarandı. Getdikcə bu münasibətlər cəmiyyət tərəfindən qəbul edildi və ümumi davranış normaları kimi qərarlaşdı. Bu normalar əxlaq normaları adlandırılmağa başladı. Hələ o zaman yazı yox idi. Ancaq o zamankı insanlar üçün həmin bu davranış, əxlaq normaları məcburi hüquqi qüvvəyə malik idi. İnsanlar arasında olan münasibətlər psixoloji-əxlaqi keyfiyyət kəsb etməyə başladı. Cəmiyyətin yaranması və inkişafı prosesində ovçuluq dövründə qadınlara qarşı laqeyd münasibət yaranmışdı. Çünki qadın və qızlar ovçuluq işinə yaramırdı. Əkinçilik dövründə cəmiyyətə qadın əməyi lazım oldu və hətta həmin dövr matriarxat qəbilə icma dövrü kimi tarixdə qərarlandı. Sonradan maldarlığın inkişafı ilə yeni əmək vərdişləri və yeni əxlaqi münasibətlər formalaşdı.

İnsanlar müəyyən ərazilərdə məskunlaşmaqla öz vətənlərini yaratdılar. Vətəni sevmək, onun iqtisadi qüdrətini artırmaq, yadelli işğalçılara qarşı mübarizədə bir daha bu sevgini nümayiş etdirmək hər bir vətən övladı üçün müqəddəs borc hesab edildi. Vətənə xəyanət həm əxlaqi baxımdan və həm də hüquqi baxımdan cəmiyyət və dövlət tərəfindən pislənildi və cəzalandırıldı.

Cəmiyyətin inkişafının quldarlıq dövrünə nəzər salaq. Qul sahiblərinin qullarla olan münasibəti quldarın hər hansı əşyaya münasibətindən başqa bir şey deyildi. Ona görə bu dövrdə quldarlarla qullar arasında olan münasibətlərdə heç bir əxlaq normasından söhbət gedə bilməzdi.

Bazar münasibətlərinin formalaşdığı bir cəmiyyətdə də insanların təfəkküründə kollektivçilikdən, düzgünlükdən ibarət bir psixologiya formalaşır. Əksinə, xüsusi mülkiyyət insanlarda fərdiyyətçilik psixologiyası formalaşdırır və nəticədə həmin bu psixoloji durum əxlaqi və hüquqi prinsiplərə çevrilirdi. Bank vəsaitlərinin verilməsi və bu yolla sahibkarlığın inkişafı həyata keçirildi, onların mənafeyini müdafiə edən qanunlar verildi.

Əbədi əxlaq normaları yoxdur. Əxlaq normaları insanların yaşadığı dövrdə yaranır və şəraitdən asılı olaraq dəyişir. Məsələn, yaşlı insana olan münasibət həmişə eyni cürmü olmuşdur? Hələ insan cəmiyyəti yarandığı dövr-də yaşlı insanları öldürürdülər və bu əxlaqsız əməl hesab olunmurdu. Çünki onlar heç bir faydalı əməklə məşğul deyildilər. Cəmiyyətin sonrakı inkişafında qocaların təcrübəsindən, məsləhətlərindən istifadə olunmağa başladı. Bu qocalara münasibəti dəyişdi. Köhnə əxlaqi dəyərlər yenisi ilə əvəz olundu.

Yaxud, insanların birgəyaşayış münasibətlərinə baxaq. İbtidai cəmiyyətdə insanlar sürülər şəklində yaşayırdılar. Cinsi məsələlərlə bağlı münasibətlərdə qısqanclıq əlamətləri yox idi. Həmin bu hal əxlaqi nöqteyi-nəzərdən pislənmirdi. Cəmiyyətin inkişafı nəticəsində hətta qan qohumluğu ilə bağlı nigahlara da qadağalar qoyulurdu. Bunlar əxlaq və hüquq normalarının əbədi olmadığını, onun ilahi qüvvə deyil, insanlar tərəfindən yaradıldığını və tarixən dəyişdiyini sübut edən faktlardır.

Eyni zamanda əxlaq və hüquq tarixi-sinfi xarakter kəsb edir. Belə ki, hər bir sinfin əxlaq və hüquq normaları vardır. Hər bir əxlaq və hüquq norması siniflərin öz mənafeyi əsasında



qiymətləndirilir. Markisizmə görə kapitalist ölkələrində burjua və proletar əxlaq və hüququ hökm sürür. Bir-birinə düşmən olan siniflər öz ideologiyalarına, dünyagörüşünə və mənafelərinə uyğun fəaliyyət göstərir. Korrupsiya, inhisarçılıq kimi mənfi keyfiyyətlər formalaşan ölkələrdə, əlbəttə ki, cəmiyyətdə ilk növbədə proletariat, əhalinin istismar onun hissəsi əziyyət çəkir. Proletar əxlaqı ilə burjua əxlaqı arasındakı ziddiyyət burada öz işini görür.

Cəmiyyətdə insanların fəaliyyəti əxlaqi və hüquqi prinsiplər üzrə idarə olunur. Əxlaq normasını tələb olunan və qadağan olunan normalara bölmək olar. İnkişaf etmiş cəmiyyətlərdə qadağanedici normalar tələbedici normalara çevrilir və şəxsiyyətin inkişafı üçün şərait yaranır. Əxlaqi dəyərlərlə bağlı filosofların fikirləri xüsusi əhəmiyyət kəsb edir. Platon əxlaqın transendental ruhlar aləminə məxsus olduğunu söyləyirdi. Kanta görə əxlaq sırf insan düşüncəsinin məhsuludur. Q.Rikkert, B.Stern, M.Şiller kimi Qərb nəzəriyyəçilərinin fikrincə, insanlar həyatda mövcud olan əxlaqi keyfiyyətləri ancaq duya bilərlər. Onları yaratmaq olmaz, ancaq onların mövcudluğunu kəşf etmək olar. Möv-cudluq isə ilahi transendental aləmə bağlıdır. Neotomistlər əxlaqi normanı dəyişməz, əbədi bir ehkam hesab edirdilər. Onlar belə hesab edirdilər ki, insanın mahiyyəti dəyişmədiyi kimi onun əxlaqı da dəyişməzdir. Onların fikrincə, heç bir iqtisadi sistem dəyişikliyi insanı dəyişdirə bilməz. Ekzistensializmə görə müsbət əxlaqi keyfiyyətlər azad insanlar tərəfindən, onun özündən asılı olmaya-raq, müəyyən edilir. Hedonizm cərəyanının nümayəndəsi Şeldona görə, «insan kef, ləzzət çəkmək, həzz almaq üçün obyektləri, hərəkətləri özü seçir, ona görə də o, öz əxlaqının hakimi və sahibidir. Əxlaqi sərvətlərə özündən kənarda meyar axtarmaq mənasızlıqdır».[1]

[1] Z.Göyüşov. Əxlaqi sərvətlər. Azərnəşr. Bakı, 1966, səh.6.

**Həlimə Əhəd qızı Məmmədova,**
**Fəlsəfə və Siyasi-HüquqiTədqiqatlar**
**institutu, sosial fəlsəfə şöbəsinin**
**kiçik elmi işçisi**

## Sinergetikanın kateqoriyaları haqqında

Keçən əsrin 70-ci illərindən işlədilən «sinergetika» sözünü bu gün tez-tez eşidirik. «Sinergetika» termininin müəllifi hesab edilən Xaken onu elmi sistemə tədqiqatların fənlərarası xarakterini aşkar etməyə yönələn paradiqma kimi daxil etmişdir. Ontoloji və qnoseoloji istiqamətdə aparılan tədqiqatlar getdikcə xeyli dərinləşərək, sinergetikanı təbiətin və cəmiyyətin problemlərinin həllinə keyfiyyətcə yeni və daha real yanaşma üsulu təklif edən ciddi elm səviyyəsinədək yüksəldib.

Sinergetikanın müasir elmi biliklər sistemində yerini və sosial varlıqların təhlilində rolunu düzgün qiymətləndirmək lazımdır. Ə.F.Abbasovun fikrincə, qeyri-ənənəvi metodologiyaların yaranmasında tənqidi-sinergetik təfəkkür elementləri aparıcılıq təşkil edir (1). S.R.Kürdyumova görə sinergetikaya pozitiv evristika, reallıqla eksperiment metodu kimi baxmaq olar. Bu metod nəticələri əldə etmək üçün alət deyil, sanki bütün suallara cavabı özündə tapılan reallığa açılmış bir qapıdır. Tədqiqat predmeti olan təbiəti və ona uyğun elmi bilikləri insanölçülü sistemlərdə öyrənmək zəruridir. Sinergetikanın bir elm kimi təkamülü prosesində ilk nailiyyəti onun irəli sürdüyü ideya və prinsiplərin əhəmiyyətli olduğunu qabarda və əsaslandıra bilmək oldu.

Sinergetika sistemin bütövlüyünü yarada bilən kooperativ effektlər haqda təsəvvürləri və sistemin dayanıqsız halında təsadüfi fluktasiyaların yeni nizam parametrlərinin yaranmasına səbəb olan attraktorların formalaşdırılmasına gətirib çıxaran yeni səviyyəli təşkilatlanma mexanizmini açan dinamik xaos konsepsiyasını ortaya qoymuşdur. Sinergetikanın yeni kateqorial aparatı



məhz bu iki istiqamətlə çox işləyir (3). Sinergetikanın kateqorial aparatının tərkibində, təbii ki, əvvəlki anlayışlar və kateqoriyalar var. Sinergetikanın kateqorial aparatına artıq istifadə olunan bəzi anlayışlar, səbəbiyyət, zaman və məkan, tam və hissə, təsadüf və ehtimal, imkan və zərurət və s. kimi kateqoriyalar yeni məzmun, mahiyyət kəsb etməklə daxil olmuşdur.

Sinergetikanın ideyaları bu gün dünyanın ümumelmi mənzərəsinin fundamental surətdə təsəvvür edilməsinə kömək etməyə iddialıdır[2] . Onun əsas təsəvvürlərinə görə dünyanın real mənzərəsinin yaranması açıq sistemlərin özünüistehsal və inkişafını anlamaqla bağlıdır. Sinergetikada zamanın geridönməzliyi, sistemlərin mürəkkəb təkamüli xarakteri, mövcudolma əvəzinə yaranma, başlanğıc şərtlərdən güclü asılılıq, özünütəşkilatlandırma, fraktallar, bifurkasiya, entropiya və s. kimi anlayışlar var.

İlkin olaraq mürəkkəb sistemlərdən danışaq. Styopin mürəkkəb sistemlərdən danışarkən göstərir ki, sinergetika məhz mürəkkəb özünkişaf edən sistemləri öyrənir. Bu sistemləri nəinki sadə sistemlərdən, hətta mürəkkəb özünütənzimləyən sistemlərdən fərqləndirmək lazımdır. Keçən əsrin 70-ci illərində F.N.Povarov bu sistemləri quruluşundakı əlaqənin xarakterinə və elementlərinin sayına görə fərqləndirməyi təklif edir. Onun yanaşmasına görə sadə sistemlər 1000 sayda, özünütənzim edən sistemlər 1000000 sayda, özünütəşkil edən sistemlər isə 10000000000 sayda və artıq sayda elementlərin nizamından ibarətdir (4).

Mürəkkəb özünütənzimləyən sistemlərə daha mürəkkəb bütövün - özü inkişaf edən sistemin dayanıqlı halı kimi baxmaq olar (4). Özünkişaf edən sistemlərə elementlərin təşkilinin iyerarxiyası xasdır və inkişaf prosesində bir özünütənzim forması yenisi

[2] Б.С. Степин. Саморазвивающиеся системы постнеклассическая рациональность // Вопросы философии №6, 2003. С. 11.

ilə əvəz edilir. Hər bir belə yeni səviyyə əvvəlki səviyyəyə əks təsir göstərir. Bununla onu yenidən qurur və beləliklə də sistem yeni bütövlük əldə edir. Yeni səviyyədə təşkilatlanma ilə sistem differensiallanır, onda yeni nisbi müstəqil altsistemlər formalaşır. İdarəetmə bloku yeniləşir, nizamın yeni parametrləri yaranır. Yeni tip düzünə və əks əlaqələr baş verir. Mürəkkəb özüinkişafedən sistemlər açıqlıq şərtini ödəyən sistemlərdir. Özünütəşkilatlandırmanın əsas şərti odur ki, güclü qeyri-tarazlıq halı yaransın və bunun hesabına sistem başlanğıc şərtlərə həssaslığını artırsın. Xaken özünütəşkilatlandırmanın 3 tipini göstərir:

-idarəedici parametrlərin dəyişməsilə yaranan;

-komponentlərin sayının dəyişməsilə yaranan;

-keçidlərdə yaranan özünütəşkil.

Bu şərtlərdən hər hansı birinin ödənilməsilə sistem dayanıqlılığını itirir və yeni vəziyyətə keçir. Yeni strukturlar yaranır (6).

Bu məqalədə nəzər yetirmək istədiyimiz anlayışlardan biri də geridönməzlik anlayışıdır. Geridönməzlik prinsipi məlumdur ki, enerji dəyişməsi ilə baş verən hadisələri öyrənən termodinamikanın məhsuludur. Bu anlayış termodinamikanın ikinci qanunu ilə bağlıdır. İ, Piriqojin göstərirdi ki, geridönməzlik təsadüflə bağlıdır. Dünya dayanıqsız olan təsadüflər hesabına qorunur. A.B.Pankratov isə hesab edirdi ki, dünyanı mənə idarə edir, təsadüf yox.[3] Geridönməzliyin ontoloji mahiyyəti nədən ibarətdir? S.Karno hesablamışdır ki, istiliyin işə və əksinə çevrilməsi zamanı faydalı iş əmsalı müxtəlif olur. Əgər işi təmamilə istiliyə çevirmək mümkündürsə istiliyi işə təmamilə çevirmək mümkün olmur. Termodinamikanın ikinci qanunu göstərir ki, hadisə və proseslərə müəyyən bir istiqamətlilik xasdır. Bu isə o deməkdir ki, hər şey mütləq olaraq təsiredici qüvvənin hesabına təyin edilmir. Bolsman geridönməzliyin statistik dərk edilməsini təklif etdi. Onun fikirlərinə görə geridönməzlik ehtimali təbiətlidir.

[3] А.Б.Панкратов. Телеология и принцип необходимости // Вопросы философии №8, 2003. С.73.



Priqojinin mövqeyi və izahı üzərində bir az ətraflı dayanaq. Onun fikrinə görə dünyada nə baş verirsə hamısı materiyanıvn çevrilməsidir. Bu materiya aktiv materiyadır. Özünütəşkilatlandırma onun bətnindədir. Geridönməzlik materiyanın xassəsidir. O. materiyanın təyin olunmuş istiqamətdə «daxili təkamül qabiliyyətidir». Priqojin təkamülü təsadüflə bağlayır (2). B.Q.Kuzneçovun yanaşmasına görə geridönməzlik az ehtimallı vəziyyətlərin daha çox ehtimallı vəziyyətlərə keçidindən ibarətdir. Deməli, alim geridönməzliyi Bolsman kimi ehtimalla bağlayır. Pankratov isə hesab edir ki, geridönməzliyin təbiəti hələ də gizli qalmaqdadır. O təklif edir ki, termodinamikada istilik proseslərinin istiqamətliliyini ifadə edən geridönməz proseslər termininə «məqsədə doğru hərəkət» kimi baxmaq olar. Geridönməzlik məqsədyönlülüyün sinonimidir. Tədqiqatlarına əsasən, alim belə bir faktı sübuta yetirir ki, təbiətdə teleoloji əlaqə mövcuddur. Yəni, təbiətdə xassələr arasında yalnız maddənin strukturundan deyil, məqsəddən asılı olan əlaqələr vardır (5).Geridönməzlik hərəkətin ümumi xassəsidir. Priqojinə görə xaos sistemin qərarsızlığının artması nəticəsində dayanıqsızlığın son həddə çatdığı və güclü fluktuasiya əhatəsinə daxil olduğu anda yaranır. Qeyri-tarazlıq hallarında bifurkasiya «nöqtə»ləri yaranır və bu vaxt sistemin müxtəlif istiqamətlərdə hərəkət etmək imkanları ortaya çıxır, və hərəkət vektorunun seçilməsində təsadüf də iştirak edir. Təlatümlərin və bifurkasiyaların məcmusu sistemə müxtəlif iş rejim və ritmləri verir. Sanki sistem eyni zamanda bütün mühüm vəziyyətlərdə olur. Arasıkəsilmədən bifurkasiya hallarının yaranması sistemin geridönməz təkamülünün ardıcıllığını yaradır və beləliklə də, bu vəziyyət determinasiyalı fəaliyyətə keçidi məcburi edir ki, xaos öz yerini nizama verməli olur. Dayanıqlılığın növbəti mərhələsi başlayır.

Sinergetika xaos dünyasının mürəkkəbliyini aşkarlayır. Dünyanın dəqiq riyazi mənzərəsini xaos səciyyələndirir. Təbiət, elmin predmeti kimi «canlı»dır. Elə bir canlı ki, özünütəşkilatlandıra bilir. Xaosdan danışarkən, göstərmək lazımdır ki, xaos bəsit anlanan tərzdə qarışıqlıq demək deyildir. Vəziyyətləri «biz xaotik adlandırırıq hər şeydən əvvəl ona görə ki, onları klassik elmin məntiqi alətləri ilə izah edə bilmirik» (3).

Xaosun üç izah modelini qarşılaşdıraq. Birinə görə xaos turbulentlilik, burulğanlıq kimi, digərinə görə təkamülün destruktiv qolu kimi, üçüncü modelə görə isə ehtimalların məcmusu kimi dərk olunur (7). Birinci modelə görə xaos koqerentliyini saxlayan, lakin müxtəlif istiqamətli burulğanların məcmusudur, ikinci modelə görə xaos təkamülün alternativ (destruktiv) yolunu doğurur. Xaos özünəməxsus struktura malikdir və nizamın daha mürəkkəb və əvvəlcədən «hesablanmayan» formasıdır. Bununla da xaos anlayışının sinergetik anlamı onun, sadəcə olaraq, nizamın əksi olması fikrini kölgədə qoyur.

Fikrimizi yekunlaşdıraraq demək istərdik ki, qeyri-ənənəvi təsəvvürlər sistemi səviyyəsində yeni anlayış və kateqoriyaları dərk etmək, tədqiqatlar aparan zaman onların sinergetik mahiyyətindən çıxış edə bilmək olduqca zəruridir.

**Ədəbiyyat**


1. Ə.F.Abbasov. Yeni metodoloji paradiqma. İctimai inkişaf: qnoseologiya və metodologiya problemləri. Bakı 2004.
2. Пригожин И.,Стенгерс И. Порядок из хаоса. Новый диалог человека с природой М. 1986, с.46.
3. Л.А.Маркова. От математического естествознания к науке о хаосе // Вопросы философии №7 2003.





4. Б.С. Степин. Саморазвивающиеся системы постнеклассическая рациональность // Вопросы философии №6, 2003.
5. А.Б.Панкратов. Телеология и принцип необходимости // Вопросы философии №8, 2003.
6. Хакен Г. «Синергетика. Иерархии неустойчивостей в самоорганизиющихся системах и устройствах», «Мир», 1985, 423с. перевод с анг.
7. М.А. Чешков Синергетика: за и против хаоса // ОНС. 1999, №6.



**Nuri Zülalə,**
**Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, sosial fəlsəfə şöbəsinin dissertantı**


## Qlobal mədəniyyət və konformizm

XXI əsr bəşəriyyətin inkişafında «qlobal mədəniyyətə» doğru istiqaməti ilə səciyyələnir. Lakin bu prosesə münasibət birmənalı deyil. Belə ki, Qərb sivilizasiyasının bu prosesdən gözlədiyi Şərq sivilizasiyasının gözlədiklərindən köklü şəkildə fərqlənir. Bir şey də aydındır ki, qlobal mədəniyyət bizim istəyimizdən asılı olmadan formalaşmaqdadır və bu prosesin geri dönüşü görünmür.

Ümumbəşəri mədəniyyətin yaranmasına obyektiv əsaslarla yanaşmış olsaq hər iki sivilizasiyanın mütərəqqi tərəflərinin optimal birləşdirilməsi, başqa sözlə, müxtəlifliyin vəhdəti yolu daha perspektivli görünür. Tərəflərin subyektiv maraq və mənafeləri (xüsusən Qərbin) isə bu prosesi məcrasından çıxarmış, qloballaşma anlayışının təyinatını dəyişdirmişdir.

Qərb sivilizasiyası öz inkişafında elə bir mərhələyə çatıb ki, o artıq tarixlə ittifaqını itirmək təhlükəsi qarşısındadır. Əgər belə yanaşma qəti şəkildə Qərbi əhatə edərsə, onda həmin sivilizasiyanın böhranı qaçırılmazdır. Belə ki, tarixdən imtina etməklə Qərb varislik prinsipindən də imtina edir və bununla da mədəniyyətin asosiallaşmasına vəsilə olur.

Paradoksal haldır ki, demokratiyanın beşiyi statusu qazanmış Qərb Şərqlə münasibətdə avtoritar prinsipi daha üstün tutur.

Əgər baş verənlərə adekvat reaksiyadan söhbət gedirsə, onda dünyanın unifikasion modelləri sıradan çıxmalı, tarixi prosesin demokratikləşdirilməsi sivil-mədəni dəyişikliklərin aparıcı vektoruna çevrilməli etnosları bircinsli kütləvi cəmiyyət vəziyyətinə aparan meyllər aradan qaldırılmalı, mədəniyyətin homogenləşməsinə imkan verilməməlidir. Çünki insanın tarixi şəratin passiv məhsulu yox, fəal subyekti olması tarixi prosesi çoxvariantlı və qeyri-xətti edir. Tarixi prosesin çoxvariantlığı və alternativliyi yalnız risklə müşaiyət olunmur. Real inkişaf ssenarilərinə nüfuz etmək, insan ləyaqətinə və maraqlarına daha münasib olanına şans vermək kimi perspektiv də mövcuddur. Bu perspektivi dəyərləndirmək isə Şərq üçün hələ ki, çətindir. Belə ki, Qərb texniki və iqtisadi sahədəki prioritetindən istifadə edərək bu prosesi öz xeyrinə dəyişməyə çalışır.

Əlbəttə, baş verənlərə Şərq sivilizasiyasının hər yerində münasibət də birmənalı deyildir. Məsələn, Yaponiya bu prosesdə öz müəllimini geridə qoymuş şagirdə bənzəyir. Bu ölkə öz dəyərlərini qoruyub saxlamaqla yanaşı Qərbin dəyərlərinə də tolerant münasibətilə seçilir. Bu münasibət bəlkə də ona görə mümkün olmuşdur ki, Yaponiyanın, o cümlədən digər Uzaq Şərq ölkələrinin, vesternizasiyası zamanı mədəniyyətdə hələ texniki sivilizasiyanın təzyiqindən doğan yorğunluq və gərginlik o qədər kəskin hiss olunmurdu. Lakin islam Şərqindəki vəziyyət isə qloballaşmaya belə tolerant münasibəti istisna edir. Eyni zamanda da bu prosesə qarşı çıxmaqda acizdir.



Əgər söhbət bütövlükdə Şərqdən yox, onun mikrohissəsi olan Azərbaycandan gedirsə vəziyyətin ikiqat mürəkkəbliyi şübhəyə yer qoymur. Xüsusən də bu dövlət Şərq və Qərbin qovuşuğunda yerləşirsə, mövqe müəyyənliyinə asanlıqla nail olmaq mümkün deyil.

O da faktdır ki, Azərbaycan artıq öz qərarını vermiş, Qərbə inteqrasiya olunmaq, qloballaşma proseslərinə qoşulmaq, demokratik cəmiyyət və hüquqi dövlət qurmaq kimi bir yol seçmişdir. Lakin düzgün adaptasiya mexanizminin axtarışları hələ ki, gözlənilən nəticələri vermir.

Dünyada gedən mədəni inteqrasiya proseslərinə qoşulmaq üçün informasiya imkanları hədsiz olsa da, bu sürətli axından nəyi götürüb, nəyi ötürmək barədə düşünmək üçünsə vaxtımız çox azdır. Nəzərə alsaq ki, uzun bir zaman kəsiyində beyinlərimizdə yuva salmış ətalətdən yaxamızı tamamilə qurtarmamışıq, onda adaptasiya mexanizminin axtarışında meydana çıxan neqativ meyllərin göydən düşmədiyi aydın olar.

Uzun illər ərzində Sovet ideologiyasının verdiyi hazır nəticələrlə paslanmış intellektimiz inteqrasiyanın inkişaf dinamikasına qoşulmağımızda qarşımıza çoxlu manеələr çıxarır. Mövcud manеələri asanlıqla «adlamaq» üçün ən «optimal» meyl isə konformizimdir.

Real hadisələrə adekvat qiymət verməyi bacaran azlığı istisna etsək, əksəriyyət Qərb ilə bağlı olan hər şeyi mədəniyyət hesab edir, müasirliyi onunla hesablaşmaqda görürlər. «Hər şeyin» mənə yükünə münasibətdə isə nədənsə Qərbin mədəni dəyərləri yaddan çıxır, onun mütərəqqi mədəniyyət nümunələrinin üstündən sükutla keçilir, onu tənəzzülə sürükləyən, ilkin tərəqqi dövrünün ənənələrinə əsaslanmayan «mədəniyyət nümunələri» (məsələn, bayağı musiqilər və kliplər, filmlər, barlar, kazinolar və s.) isə konformist əsaslarla mənimsənilir. Ha-

zırda müasir gəncliyimizi, bir jurnalistin ifadəsilə desək, «şou-biznes gəncliyi» adlandırmaq olar. Ən sevimli məşğuliyyətsə Qərb şou-biznesini yaxından izləmək, ulduzların zəngin həyatına qibtə hissilə yanaşmaqdan ibarətdir. Belə nümunələrin təsirilə də təmiz məhəbbətə münasibət dəyişir, merkantil əsaslarla qurulan ailələrin sayı çoxalır, belə ailələrdə tərbiyə alan gənclərimizin heç ağlına da gəlmir ki, kitab oxumaq, muzeylərə, rəsm sərgilərinə getmək, teatr tamaşalarını izləmək, bir sözlə, milli mədəniyyətimizlə yaxından tanış olmaq kimi məşğuliyyətlər də mövcuddur. Hələ muğamımızı, aşıq musiqimizi dinləməyi demirəm. Halbuki mədəni inteqrasiyada əsas məqsəd öz mənəvi sərvətlərimizdən, dəyərlərimizdən imtina edərək başqa mədəniyyətdə itib-batmaq deyil, mədəni inkişafın birtərəfliyindən qurtulmaqdır.

Bizsə özümüzü Qərb daxilində əritdiyimizin fərqinə varmadan qədim xalq, ulu dövlət, qəhrəman millət kimi gəlişi gözəl ideyalardan yola çıxaraq ifrata varır, öz böyüklüyümüzdən öz gözlərimiz qamaşır. Nəticədə, fəaliyyətimiz, dahi Üzeyir bəyin dediyi kimi, siçan düzəltməklə yekunlaşır.

Sokratsayağı «Özünü dərk etsən dünyanı dərk edərsən» ifadəsindən yola çıxaraq ilk növbədə özümüzdə olanları saf-çürük etmək hansı mədəni dəyərlərin identikliyimizi nümayiş etdirmək üçün qorunmalı olduğunu, hansı mədəniyyətdən nəyi əxz etməklə mədəniyyətimizi zənginləşdirmək, hansı dəyərlərimizi ötürməklə qlobal miqyasda tanınmağa nail olmaq, hansı ümumbəşəri dəyərləri qəbul etməklə dünya mədəniyyəti sistemində layiqli yer tutmaq barədə düşünməyin vaxtıdır. Bu yolla mədəniyyətimizdə olan boşluqları doldurmaq imkanı qazanmış olar, milli ideologiyamızı konkret ictimai gerçəkliyin öz inkişaf xüsusiyyətlərinə adekvat bir ideologiya kimi formalaşdıra bilərik. Biz özümüzü öz mədəniyyətimiz əsasında başqalarından fərqləndirə bilməsək bu, mədəni varlığımızın sonu demək olar.



Milli ideologiyanın yaradılmasında ümumbəşəri dəyərlər də öz layiqli yerini tutmalıdır. Bunun üçün də sosial-fəlsəfi fikrin müdaxiləsi zərurəti ortaya çıxır.

İlk növbədə təhsilimizə, tərbiyəmizə loyal yanaşmadan xilas olmalı, gənclərimizin ictimai fəallığının artırılması, baş verənlərə aktiv şəkildə qoşulmalarına nail olunması yolunda tədbirlər planı hazırlanmalıdır.

Belə tədbirlərdə istər hökümət, istərsə də qeyri-hökümət təşkilatları fəal iştirak, lazım gəldikdə sıx əməkdaşlıq etməlidirlər. Belə nümunələrə çox az rast gəlinsə də, məntiqi nəticəsi ondan ibarət olar ki, biz ətrafımızda baş verən dəyişikliklərə süst, seyrçi nəzərlərlə baxmaqdan əl çəkərik. «Supermədəni» sivilizasiyanın təqdim etdiyi nümunələri konformistcəsinə mənimsəyib öz mədəni həyatımıza tətbiq etməzdən əvvəl düşünməyə məcbur olar, hadisələrə yaradıcı yanaşmaq vərdişi qazanmış olarıq. Çünki mədəniyyətin ayrılmaz atributu yaradıcı təfəkkürdür.

Əlbəttə, bu nəticələrin əldə edilməsi dövlətin sosial-mədəni siyasətini necə qurmasından çox asılıdır. Mədəniyyətin inkişafına lazımi miqdarda maddi vəsaitin qoyulması, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, təhsildə demokratik islahatların aparılması, bu sahədə dövlətin ata biləcəyi ən mühüm addımlar sırasındadır ki, bunun sayəsində həm əhalinin mədəni səviyyəsi yaxşılaşar, həm də azad təfəkkürə meydan açılar. Əgər təfəkkürümüz mədəni inkişafımıza mane olan buxovlardan azad ola bilsə, kənar təsirlərin qəbulunda – Qərbin ekspansiyası zamanı yaranan cavab reaksiyasında konformizm meyllərinə son qoyular. Düşünsək ki, keçmiş həmişə gələcəyin əlində vasitə olur, onda özümüzlə yanaşı gələcək nəsilləri də düşünmək məcburiyyətindəyik. Onları elə bir gələcəklə təmin etməliyik ki, inkişafın marginalına çevrilməsinlər, «rasist nifrətli», yerli mədəniyyəti, tarixi və mənəviyyatı diqqətə almayan «qərbçi»yə çevrilməsinlər. Həm geosiyasi mövqeyimiz, həm

zəngin mədəni irsimiz bizə gələcəyə optimist nəzərlərlə baxmağa imkan verir. Yetər ki, bu imkandan vaxtında, çevik və düzgün istifadə edə bilək.

**Камиль Керим оглы Аллахверанов,
диссертант Института Философии
и Политико-Правовых Исследований НАН Азербайджана**

## Рационализация потребностей как важный фактор в обеспечении интересов общества.

Проблема национальных интересов настолько многогранна и многоаспектна, что сходу правильно и всеобъемлюще ответить на вопрос, «что есть национальные интересы в целом для всей страны?», сложно, а где-то и невозможно. Для того, чтобы ответить на этот вопрос мы попытаемся в рамках данной статьи рассмотреть такие, на первый взгляд, простые понятия, как «интерес», «нужда», «рациональная потребность» и другие.

В общепринятом смысле интересы выражают истоки деятельности, определяемой объективными закономерностями, которые, в свою очередь, детерминируются особенностями развития личности и общества в целом. Интересы не равнозначны нуждам и потребностям. Потому что нужды и потребности характерны природе человека, а интересы, скорее всего, характерны социальным сторонам его бытия, хотя иногда они ставятся в один гносеологический ряд. К примеру, великий мыслитель Г.Ф.Гегель (1770-1831) отмечал: «Ближайшее рассмотрение истории убеждает нас в том, что действия людей вытекают из их потребностей, их страстей, их интересов… и лишь они играют главную роль» [1, Т.8, стр.20]. На первый взгляд складывается впечатление, что в трактовке великого мыслителя и потребности, и страсти, и интересы рассматриваются в одной плоскости, а, следовательно, обладают одинаковым по значимости функциональными особенностями. Но более основательное знакомство с трудами философа убеждает нас в том, что он придает «интересам» более широкую значимость, а где-то даже и таинственность, которую связывает с Абсолютной Идеей. По мнению мыслителя, «люди добиваются удовлетворения своих интересов, но благодаря этому осуществляется еще нечто дальнейшее, нечто такое, что скрыто содержится в них, но не осознавалось ими и не входило в их намерения, связанное, в свою очередь, с хитростью мирового разума, с абсолютной идеей, осуществляющей себя в истории через бесконечное многообразие потребностей» [1, Т.8, стр.27]. Мы полностью разделяем точку зрения великого философа о том, что в иерархическом плане потребности и нужды стоят ниже, чем интересы. В методологическом плане для подробного изучения феномена интересов, а тем более феномена национальных интересов, представленного на высших ступенях понятийной пирамиды, необходимо сначала раскрыть во всей полноте определения, представленные на низших ступенях, каковыми являются потребности и нужды. Рассмотрим более подробно дефиницию «потребности» в социально-философском контексте.

Современная интерпретация понятия «потребности» в социальном плане тесно связана с философией, так как в центре определения стоит живой организм и его отношение к окружающей среде. Потребности понимаются современной наукой как зависимость организма, человеческой личности, социальной группы, всего общества от условий их существования и развития, то есть от внешнего

мира (окружающей среды), и одновременно, от собственной активности. Зависимость в данном контексте означает то, что и каждый человек в отдельности, и общество в целом являются составными частями единого мира, законы которого одинаково распространяются на всех и вся. Получается, что потребность есть зависимость человека, как деятельного преобразователя мира, от условий его существования и развития в конкретной среде. Необходимое и дозволенное для человека выражаются в едином слове «потребность».

В классической интерпретации, в более широком смысле, потребность есть нужда или недостаток в чем-либо, необходимом для поддержания жизнедеятельности организма, человеческой личности, социальной группы, общества в целом [5, стр.518]. В узко-конкретном смысле же потребность есть внутренний побудитель активности всей системы, нуждающейся в существовании и развитии. Исходя из данных определений, можно предположить, что потребности по своей природе и предназначению многообразны (например, биологические, социальные, и тесно связанные с ними экономические и политические потребности), многосторонни и разнородны. Они легко поддаются функциональному рассмотрению и потому без проблем дифференцируются в различные классы и группы. К примеру, потребность одного организма в отдельно взятом контексте по сравнению с потребностью целого общества в том же плане зачастую различается по своим корням происхождения и потому имеет отличительные этапы эволюционного роста. С другой стороны, феномен потребностей имеет свой категориальный аппарат и блок оценочных критериев. Так, принцип зависимости от системы отношений позволяют дифференцировать человеческие потребности по следующим детерминантам: по сферам деятельности; по объектам потребностей; по субъектам потребностей; по функциональным ролям потребностей. По сферам деятельности потребности представлены в потребностях на интеллектуальный и физический труд, научное и обыденное познание, межличностное и межгрупповое общение на различных уровнях, рекреации или же оздоровительно-восстановительный процесс. По объектно-качественным показателям потребности дифференцируются на материальные и духовные, этические и эстетические. По субъективным параметрам потребности бывают индивидуальные, групповые, коллективные и общественные. По своим функциональным ролям потребности выражены в таких характерных свойствах, как приоритетные и неприоритетные, доминирующие и второстепенные, центральные и периферийные, устойчивые и ситуативные.

Потребности общества, и прежде всего экономические потребности как основа всего общественного производства, объективны. Осознанные обществом, социальными группами и слоями общества, индивидами потребности выступают в качестве их интересов. В странах с переходной экономикой, в обществах, переживающих трансформационный процесс, в силу объективных причин экономические, социальные, политические и культурные потребности социальных групп и слоев имеют свою специфику. Разрешение социальных противоречий в таких трансформационных обществах есть, по сути, попытка создания условий для справедливого удовлетворения потребностей всех групп, слоев и прослоек, для гармоничного сочетания общественных и индивидуальных интересов.

Биологические потребности для всего живого организма обусловлены обменом веществ, который является жизненно-необходимой предпосылкой существования

любого организма. А потребности социального характера являют собой нужду конкретных социальных субъектов, таких как личность, отдельно взятая социальная группа. В данном случае мы преднамеренно не ставим в один ряд с социальными потребностями общественные. Так как, если перевести их на стратификационную плоскость, можно обнаружить, что общественные потребности обусловлены нуждами субъектов макроуровня. А социальные потребности детерминированы нуждами субъектов микроуровня. Уникальность этих двух типов групп потребностей в том, что они функционально когерентны и порой дублируют свои функции. И социальные, и общественные потребности в целом зависят от уровня развития данного общества и специфичных социальных условий деятельности самих субъектов. Взаимосвязь между производством и потреблением материальных и духовных благ, удовлетворение относительно элементарных, но в то же время витальных потребностей, будучи основным источником развития, содействует зарождению новых потребностей экстенсивного или интенсивного характера. Подчеркивая эту черту потребностей, марксисты, на наш взгляд, правильно замечали, что «порождение новых потребностей является историческим актом» [3, Т.3, стр.27] и «размеры так называемых необходимых потребностей, равно как и способы их удовлетворения, сами представляют собой продукт истории и зависят в большой мере от культурного уровня страны» [3, Т.23, стр.182].

В психологии потребности рассматриваются как особое психическое состояние индивида, ощущаемое или осознаваемое им напряжение, неудовлетворенность, дискомфорт, т.е. отражение в психике человека несоответствия между внутренними и внешними условиями существования. Поэтому потребности и являются побудителями



активности, цель которой заключается в устранение такого несоответствия. Это возможно путем реального насыщения потребностей, а при отсутствии таких возможностей – путем подавления или замещения данной потребности другой, наиболее схожей с ней. Этот механизм не относится, однако, к реализации витальных потребностей, невозможность удовлетворения которых ведет к физической смерти организма.

Будучи выражением взаимосвязи субъекта и условий его деятельности, потребности обнаруживают себя в неосознанных влечениях и осознанных мотивах поведения. Человеческие потребности, как правило, имеют предметную направленность, которой предшествует так называемое поисковое поведение: общая, неконкретизированная потребность стимулирует поиск определенных способов и предметов ее удовлетворения. Важнейшая особенность потребностей заключается в том, что, как было подчеркнуто выше, они обладают динамичным характером, изменчивостью, способностью на базе удовлетворенных одних потребностей развиваться в контексте новых, более высоких потребностей, что связано с включением личности в различные формы и сферы деятельности. Потребности личности образуют как бы иерархию, в основании которой лежат витальные потребности, а последующие ее уровни – социальные потребности, высшее проявление которых связано с потребностями в самореализации, самоутверждении, в творческой деятельности.

На более сложном эмпирическом уровне слово «потребность» трансформируется в более сложную разумную конструкцию, приобретая тем самым качественно новое измерение в понятии «рациональная потребность». Рациональные потребности адекватны реальным возможностям, то есть тем возможностям, которые становятся дос-

тупными в процессе взаимодействия человека и общества с окружающей средой. В данном контексте дается более обобщенная дефиниция категории рациональной потребности. Позитивным является то, что данная обобщенная дефиниция позволяет и помогает формировать правильные решения. К примеру, оказывается нерациональным увеличивать производство благ. если при этом складывается ситуация экологического бедствия. Принцип рациональности потребностей и потребления предполагает систему ценностей, ориентирующих человека и общество в целом на здоровый образ жизни. Сегодня, в условиях пересмотра традиционно сложившихся подходов и принципов, стереотипов и ценностей, необходимо разработать концепцию по комплексному обеспечению интересов общества в различных ее сферах на основе принципа рационализации потребностей, а также их равноправного удовлетворения. Эта задача является определяющей для этапа демократической консолидации трансформирующегося азербайджанского общества.

**Использованная литература:**


1. Гегель Г.Ф. Сочинений, М., 1935
2. Мангейм К. Диагноз нашего времени. М., 1994
3. Маркс К., Энгельс Ф. Сочинения, М., Политиздат, 1984
4. Розанваллон П. Новый социальный вопрос. Переосмысливая государство всеобщего благосостояния, М., 1997
5. Философский энциклопедический словарь, М., Советская Энциклопедия , 1983





**Əhməd Şirinov,**
**Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, sosial-fəlsəfə şöbəsinin dissertantı**


## Miqrasiya proseslərində iştirakçı ölkələrə bəzi institusional təsirlər

### Miqrantlar qəbul edən ölkə ictimai aktyor rolunda.

Miqrasiya prosesinin təsirini formalaşdıran amillərdən biri miqrantların məskunlaşmış cəmiyyətdə özləri üçün müvafiq yer almalarından ibarətdir. Onların qarşılıqlı əlaqələr tərzi təkcə miqrasiyanın səbələrinin parametrləri və cəmiyətin əksəriyyətinin münasibətilə şərtləndirilmir. Bu həmçinin onların qəbul edən cəmiyyətdə apardıqları mədəni, dini, ictimai və digər xüsusiyyətlərdən asılıdır. Onlar qəbul edən cəmiyyətin mövcud qurumları və təşkilatları çərçivəsində öz icmalarını, dini təşkilatlarını, təzyiq qruplarını, siyasi orqanlarını yenidən yaradırlar və qohumluq (yaxüd həmvətənlər ilə) əlaqələrini bərpa edirlər. Buraya həmçinin etnik mətbuatın, bankların və biznes fəaliyyətinin təşkili də aid edilə bilər. Müəyyən qruplar biznesdə, təhsildə və digər peşələrdə uğur qazanır; digərləri ictimai həyatın bir sahəsi olan mədəniyyətdə - musiqi və rəssamlığ kimi peşələri mənimsəyir[2]. Qəbul edən cəmiyyətin fəaliyyətində tam şəkildə iştirak etməyə can atan etnik azlıqların gənc nümayəndələri öz tələblərini hətta şəhər iğtişaşları formasında irəli sürürlər. Eyni zamanda onlar bərabərlik əsasında özlərinə məxsus adət-ənənələrinin tədbiq olunmasını tələb edirlər. Müəyyən qruplar arasında bəziləri yüksək səviyyəli nailiyyətlər, digərləri yüksək gəlir əldə

edirlər, onların arasında həmçinin müvəffəqiyyətsizliyə düçar olanlar da var.

Nailiyyətlər haqda misallar tam şəkildə ictimai kapital nəzəriyyələrinin vasitəsiylə aydınlaşdırıla bilər. Etnik azlıq qrupları icma ehtiyatlarını və özünəməxsus xüsusiyyətlərini səfərbər edərək transmilli icmalar yaradırlar. Bu isə öz növbəsində yaradılmış şəbəkələr vasitəsiylə onların iqtisadi və ictimai gəlirlərini artırmaq üçün imkanlar yaradır. Onların doğulduqları öləkədəki və ilk dəfə məskunlaşdıqları ölkədəki icmalarla, həmçinin son olaraq hər məskunlaşdıqları ölkələrdəki bölmələr arasında sıx qarşılıqlı əlaqələr qurulur. Bu kontekstdə üç mərhələ mövcuddur: 1) əməkçi miqrantlar tərəfindən pulun göndərilməsi; 2) qəbul edən ölkələrdə etnik biznesin yaranması və inkişafı; 3) transmilli istehsal, yayım və satışın təşkili. Yuxarıdakı prosessdər bir sıra səciyyəvi xüsusiyyətlərlə müşayyət olunur: mədəni assimilyasiyanın səviyyəsi ilə yanaşı mənşə ölkəsindən iqtisadi və yaxud siyasi kənarlaşdırılma, qəbul etdiyi ölkədə irqi (dini, milli və sair.) kənarlaşdırılma və miqrantların ictimai kapital əsasında mənimsənmiş «çoxşaxəli» mədəni hüquqlarının artması. Bu praktika neo-liberal modelin qlobal tətbiqi əsasında işlənilmişdir və miqrantlara eyni ictimai-iqtisadi səviyyədən olan yerli əhali ilə uzlaşmaqa yardımçı olur. Digər tərəfdən miqrantların cəmiyyətdə əcnəbi, kənar və yaxud qeyri-kənar şəklində çıxış etmələri, onlara cəmiyyətin problemlərinə yanaşma və ilkin fərdi və qrup strategiyalarının tədbiqində hərtərəfli tənqidi və analitik mövqedən çıxış etməyə imkanlar yaradır.

Qaçqınlar transmilli şəbəkələrin fəaliyyətində əməkçi miqrantlarla müqayisədə daha kəskin formada iştirak etdiklərindən, onlar əməkçi miqrantlardan fərqli olaraq özlərini başqa çür aparır və hansı sosial qrupa aid olmalarından asılı olmayaraq bir-birindən də fərqlənir.



Qaçqınların qruplar üzrə bölünməsinə əsasən öz ölkələriylə böyük kollektiv planlar bağlayan onları qaçmağa məcbur edən münaqişənin aradan qaldırılması məqsədiylə öz transmilli şəbəkələrini və ehtiyatlarını səfərbər etmələri səbəb olur. Bu yolla onlar həmçinin qəbul edən ölkədə qeyd olunan istiqamətdə fəaliyyətin əsasını qoyur, birliklər yaradır və mənşə ölkənin hökumətinə müxtəlif vasitələrlə təzyiq göstərməyə çalışırlar. Beynəlxalq potensialların səfərbərliyi Çilinin və Türkiyənin misallarında tam şəkildə özünü göstərir (General Pinoçetin Birləşmiş Krallıqdan ekstradisiyasına aid ispanların tələbi və Ocalanın Türkiyəyə qaytarılması). Belə bir fəalyyətlə yanaşı digərləri qəbul edən ölkədə nailiyyət əldə etmək üçün öz ehtiyatlarını və transmilli şəbəkələrini səfərbər edirlər; bu fəaliyyət nəticəsində əldə olunmuş müvəffəqiyyətlər hörmət hissi doğurur (məsələn, vyetnamlıların Fransa və ABŞ-daki nailiyyətləri). Vətənə qayıtmaq haqda vəsaitin olmadığı halda qaçqınların motivasiyası daha yüksək olur, lakin öz məqsədlərinə nail olmadıqda onlar böyük rüh düşkünlüyü ilə üzləşirlər. Əməkçi miqrantlarla müqayisədə qaçqınlar arasında mükəmməl təhsilli, birgə fəaliyyət və təşkilatçılıq təcrübəsinə malik olan daha çox insan ehtiyatı cəmləşir. Buna bir nümunə kimi ilk birliklər yaradan və digər yaxın icmaları bir yerə toplayan Almaniyada məskunlaşmış Kürd qaçqınlarını göstərmək olar. Qəbul edən ölkələr üçün müsbət nəticələrdən biri onların dünyada insan haqları müdafiəsinin vəziyyəti barədə hərtərəfli məlumata malik olamalarıdır. Ən böyük təhlükə isə göndərən cəmiyyətə xas olan münaqişənin qəbul edən cəmiyyətdə yayılma imkanıdır.

**Milli dövlət modeli və mövcud siyasət.**

Digər tarixi hadisələrlə yanaşı Avropanın simasını dəyişən amillərdən biri məhz müharibədən sonra Qərbi Avropada başlayan miqrasiya prosesidir. Avropa ölkələrinin milli dövlət modellərinin həssaslığı immiqrant qruplarına öz xüsusiyyətlərini saxlamaqla yerli əhaliyə mənsub huquların onlara da şamil olunması iddiası ilə çıxış etməyə imkan verir. Belə bir vəziyyətdə Avropa olkələrinin dövlət modellərinin təkmilləşdirmək zəruriyyəti yaranmışdır. Lakin siyasətçilər bu məsələyə müxtəlif mövqelərdən yanaşırlar. Bu məsələnin həllinin əsas yolu tənzimlənməyən əmək miqrasiyasının dayandırılması və növbəti mərhələdə qaçqınların miqrasiyasını kəskin formada azaldılmasından ibarətdir (Avropa ölkələrinin qoşulduğu Konvensiyalar qaçqın miqrasiyasının tam şəkildə dayandırılmasına imkan yaradır). 90-cı illərdən başlayaraq müvəqqəti miqrasiyaya və miqrantların axınına aid yeni siyasət formlaşmağa başlamışdır. Bu siyasətin tətbiqi gözlənilmədən ikili nəticələr verdi: miqrasiyanı dayandırmağın mümkünsüzlüyü ucbatından yarı-gizli şəraitdə miqrantların aramsız və nəzarətsiz axını (müvəqqəti dayanacaq onlar üçün xəyali xarakter daşıyır, çünki miqrantların əksəriyyəti müvəqqəti dayanacaq yerlərində məskunlaşmır); və bu qrupların şəffaf qəbulu ilə bağlı cəmiyyətdə baş verə bilən parçalanma.

Dövlət və içtimai qurumlar immiqrant mənşəli əhalinin mövcudluğu ilə əlaqədar baş verən dəyişikliklərin öhdəsindən gəlmə zərurətiylə qarşılaşmışdır. Hər ölkənin milli dövlət modelinə xas olan parametrləri miqrantların və övladlarının hərəkətlərinə, onların qəbul edən cəmiyyətə qovuşmaq tərzinə təsir edir. Etnik azlıqlara təsir edən diskriminasiyanın və onlara qarşı qərəzli mövqeyin aradan qaldırılması istiqamətində tətbiq edilən siyasət növləri (metodları) müxtəlifdir, lakin onlar milli dövlətçilik sistemi çərçivəsində həyata keçirilir. Siyasi



mədəniyyət baxımından bəzi hallarda miqrant mənşəli qruplara nisbi fəaliyyət azadlığı verilə bilər. Məsələn, Niderlanda məxsus sütun dövlət quruluşu mövcud immiqrant qruplarına bu quruluş çərçivəsində özünə yer tapmağa imkan yaradır; Birləşmiş Krallıqda isə baş verən eyni proses yerli qurumlara daha çox səlahiyyətlər verilməsi nəticəsində baş tutdu. Lakin bununla yanaşı bəzi mütəxəssislər yeni dövlət quruluşu modelində immiqrant mənşəli insanların qəbul edən cəmiyyətə qovuşmasını həddindən artıq problematik hesab edirlər. İmmiqrant azlıqların öz fikirlərini bildirməkdən və qəbul edilən siyasi qərarlara təsiri imkanlarından məhrum edilməsi siyasi hüquqlara aid olan vacib məsələlərdən biridir. Onların təşkilatlanma və səfərbərlik səviyyəsi də həlledici faktorlardan biridir. Azlıqların tanınmasına yönəldilmiş milli qanunlar onların ehtiyac və tələblərinə müsbət mövqedən yanaşmaq imkanını yaradır. Təhlilin sonunda maddi ehtiyaca diqqət yetirilməlidir (mənzil və iş təchizatı, səhiyyə məsələləri), lakin eyni zamanda hüqüq bərabərliyi, mədəniyyət, din, dil və şərəf/ləyaqət məsələləri də diqqətdən yayınmamalıdır. Qəbul edilmiş siyasət icazə verdikdə, cəmiyyətin hər bir üzvü etnik azlıqların təzminatından faydalanmalıdır. Bu isə siyasi iradə, həssas siyasət və yerli əhalinin tərbiyəsinə aid razılaşdırılmış səylər tələb edir. Bu işdə siyasətçilər mühüm rol oynayır; qanunlar və qərarlar elə bir tərzdə izah edilməlidir ki, cəmiyyətin gəlmə üzvləri sıxılmış vəziyyətə salınmasın; siyasətçilərin bu sahəyə aid olan danışıqları və KİVdəki məqalələr yoxlanılmalıdır. Mənfi və yaxud yalnış siyasət bütövlükdə cəmiyyətdə ciddi problemlərə gətirən münaqişələrin yaranması və kəskinləşməsiylə nəticələnə bilər.

**Miqrantları göndərən ölkələr.**

Miqrasiya prosesinin göndərən ölkəyə təsiri onun səbəbləri və daimiləşdirilməsi ilə əlaqəlidir. ËBeyin axınıË daxil olmaqla göndərən ölkəyə zərər vuran asimmetrik modelin mövcudluğu güman edilir. Miqrantların öz vətənləriylə mövcud mütamadi əlaqələrinin sonunculara təsiri mübahisəli və mürəkkəb bir prosesdir. Bir iqtisadçılar məktəbi belə fikir irəli sürür ki, miqrasiya fenomeni göndərən ölkədə dərin içtimai parçalanmaya səbəb olur. Xüsusilə, miqrantlar tərəfindən öz vətənlərinə göndərilən pul vəsaitləri burada asılılıq sindromunun yaranmasına, torpaq becərilməsinin dayanmasına gətirib çıxara bilər (torpaq sahəsi alınıb, lakin yerli cəmiyyətdə əmək qüvvəsinin olmadığı bir halda o, şumlanmamış bir vəziyyətdə qalır). Bu, öz növbəsində peşə və xidmət tələbatına zərbə endirə bilər, və yerli cəmiyyət bunun acı nəticələri ilə üzləşməli olacaq. Bu model inkişaf üçün az ehtiyatlara malik olan ölkələrə xasdır. Bununla belə göndərən kasıb və qəbul edən varlı ölkələr arasındakı ixtilaf tənzimlənməyən miqrasiya nəticəsində böyüyə bilər.

Son zamanlar bu məsələ ilə əlaqədar müxtəlif fərziyələr irəli sürülür. Bəzi şərhlərə əsasən miqrantların transmilli şəbəkələri vətənə göndərdiyi pul vəsaiti formasında çıxış edən sərmayə vasitəsiylə yerli iqtisadiyyata stimullaşdırıcı təsir edə bilərlər. Burada yerli iqtisadiyyat dedikdə sənaye istehsalı, məktəblərin və infrastrukturun inkişafı nəzərdə tutulur. Əslində tarix sübut edib ki, miqrasiyanın nəticələri müxtəlifdir, və onların müsbət təsiri də labüddür. Lakin müsbət təsir tələblərə cavab verən inkişaf yönümlü siyasət də daxil olmaqla bir neçə amilldən asılıdır. Transmilli miqrantlar doğma ölkələrində yerli səviyyədə həmçinin siyasi oyunçular kimi çıxış edirlər, və qəbul edən ölkənin onların vətəninə aid siyasətin lazımi istiqamətə yönəldilməsi üçün siyasi partiyalar tərəfindən təzyiq qrupu kimi istifadə etməyə çalışırlar.

Qaçqınlara gəldikdə, onlar insan hüquqları məsələlərinə müdaxilə və mövcud recimə təsir vasitəsi kimi qəbul edən ölkənin öz vətənlərinə dair siyasətin formalaşmasında mühüm rol oynaya bilərlər. Bu məhsulların boykotu, beynəlxalq məhkəmələrə müraciət və birbaşa müdaxilə formasında həyata keçirilə bilər (məsələn -Çili, Cənubi Afrika, Haiti). Bəzən ölkəsini tərk edən və qərb ölkələrində sığınacaq axtaran bir qrup qaçqının fəaliyyəti mövcud tarazlığı pozub, və bu ölkənin öz ölkəsinə dair siyasətinin dəyişilməsinə və müdaxiləyə gətirib çıxarır.

Miqrantların qayıtması fenomeni də, kimlərin qayıtmasından asılı olaraq, müxtəlif nəticələr verir. Qaçqınların müharibə nəticəsində dağıdılmış və yoxsullaşmış cəmiyyətə qayıtması halında, onların bu cəmiyyətə qovuşması problemi yarana bilər. Onlar özləri ilə sığınacaq tapdığı ölkələrdən əldə etdikləri istehsalat yeniliklərini və siyasi dəstək gətirə bilərlər. Bu məsələ artıq tədqiq olunub. Çox zamanlar doğma cəmiyyətə iqtisadi baxımdan qovuşma problemli xarakter daşıyır. Lakin qəbul edən ölkələrin onların qayıtmağını asanlaşdırmaq cəhdləri, bu ölkələrin köməyi ilə nəticələnə bilər.

**Sahib Qurban oğlu Sadıxlı,**
**Nəqliyyatda Baş Polis İdarəsi, Sabunçu xətt-polis şöbəsi, Cinayət Axtarışı Bölməsinin rəisi, polis mayoru**

## Şərəf və ləyaqətin müdafiəsi hüququ və Azərbaycan qanunlarında onun yeri

Azərbaycan tarixini nəzərdən keçirdikdə görünür ki, tarixin bütün dövrlərində Azərbaycanın ərazisində yaranmış dövlətlərin qanunlarında insan hüquqları əsas faktlardan biri olmuş, insanların cəmiyyətdəki mövqeyindən asılı olmayaraq onların şərəf və ləyaqətləri qorunmuş və bu sahəni tənzimləyən müvafiq hüquqi aktlar olmuşdur.

Hələ III əsrin sonu, IV əsrin əvvəllərində indiki Azərbaycan ərazisində yaranan Qafqaz Albaniyası dövründə də bu məsələ önəmli olub. Qədim Albaniyada feodallar kəndliləri istismar etsələr də, onları tam hüquqsuz bir qul kimi alıb-sata və Avropada olduğu kimi kəndlinin ailə üzvləri ilə istədikləri rəftarı edə bilməyiblər. Həmin dövrdə, yəni 498-ci il may ayının 13-də o vaxtkı Albaniya dövlətinin car III Vacaqanın əmri ilə qəbul edilmiş 21 bənddən ibarət Aquen məcəlləsi bütün təbəqələrin hüquqlarını nizamlayan hüquqi sənəd olmuşdur.

İnsan hüquqlarının qanunlarla qorunması amili Azərbaycan tarixinin sonrakı dövrlərində də öz aktuallığını itirməmiş, qoruyub saxlamış və ictimai-iqtisadi formasiyaların dəyişməsi bu sahəyə olduqca az təsir göstərmişdir.

Azərbaycan öz müstəqilliyini itirərək Rusiyanın tərkibinə birləşdirildikdən sonra öz qanunlarını sivil dünyanın yox, Rusiya imperiyasının qanunları ilə uzlaşdırmağa məcbur olmuşdur. Qeyd edək ki, imperiya qanunları çərçivəsində də insanların



hüquqlarının, şərəf və ləyaqətinin qorunması, toxunulmazlıqlarının təmin edilməsi ən mühüm amillərdən biri olmuşdur.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920) millətindən, dinindən və dilindən asılı olmayaraq hər bir vətəndaşa söz, yığıncaq, mətbuat azadlığı, habelə ən ali insan hüquqları verilmişdir. Təqdiredici haldır ki, Azərbaycan Şərqdə qadın və kişilərə bərabər hüquq verən ilk demokratik dövlətdir. Bu proses sovet rejimi şəraitində də sonralar formal da olsa davam etmişdir.

SSRİ-nin süqutundan sonra Azərbaycan respublikası öz müstəqilliyini elan etmiş, müstəqillik yolunu və istiqamətini müəyyənləşdirmiş, bu istiqamətdə qəbul etdiyi qanunları sivil dünyanın qanunları ilə uzlaşdırmağa çalışdırmışdır. İnsan hüquqlarının qorunması ilə əlaqədar müstəqil Azərbaycan Respublikası hazırda bir çox beynəlxalq qurumların üzvüdür, dünya tərəfindən qəbul olunan Bəyannamələri, Konvensiyaları, Paktları qəbul etmiş, öz qanunlarını bu sənədlərlə uzlaşdırmaqda və davamlı qanunlar qəbul etməkdədir.

Müstəqil Azərbaycan Respublikasının qəbul etdiyi beynəlxalq sənədlərdən biri 10 dekabr 1948-ci il tarixli «İnsan hüquqları haqda Ümumi Bəyannamə»dir. Bu bəyannamədə göstərilir ki, heç kim işgəncəyə, qəddar, qeyri-insani və ya onun ləyaqətini alçaldan rəftara və cəzaya məruz qalmamalıdır.

Bəyannamədən görünür ki, burada şərəf, layaqət, ləyaqəti alçaldan rəftar kimi hüquq elementlərindən istifadə olunmuşdur. **Şərəf-** insanın özünün özünə verdiyi qiymətdir. **Ləyaqət-** ətrafdakıların insana verdiyi qiymətdir. **Ləyaqəti alçaldan rəftar-** insanı başqalarının qarşısında alçaldan və onu öz iradəsi və vicdanı əleyhinə hərəkət etməyə məcbur edən rəftardır.

Beynəlxalq hüquqda qəbul olunan sənədlər üzv dövlətlər üçün əsas öhdəlik yaradan və öhdəlik yaratmayan sənədlər olur. Şərəf və ləyaqətin müdafiəsi ilə əlaqədar qəbul olunan beynəlxalq hüquqi aktlar içərisində aşağıdakıları araşdırmağa çalışaq:

**Öhdəlik yaradan aktlar:**

- 16 dekabr 1966-cı il tarixli «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt»ın 7-ci maddəsinə görə heç kəs qəddar insanlıqdan kənar işgəncələrə, yaxud ləyaqətini alçaldan davranışa, cəzaya məruz qalmamalıdır. O cümlədən heç bir şəxs üzərində onun razılığı olmayan tibbi, yaxud elmi təcrübə aparıla bilməz.

10 dekabr 1984-cü il tarixli «İşgəncələr və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzalara qarşı Konvensiya»da deyilir ki, «işgəncə» termini altında hər hansı bir şəxsə ondan və ya başqa şəxsdən məlumat almaq, yaxud onun etirafına nail olmaq üçün törətdiyi, yaxud törədilməsində şübhəli bilinən hərəkətə görə cəzalandırmaq başa düşülür. Cəzalandırmaq anlayışı istənilən səbəbə görə qəsdən güclü, fiziki, yaxud mənəvi ağrı və ya əzab yetirən hərəkətləri əks etdirir. Bu anlayışa qanuni sanksiyalar nəticəsində törəyən, yaxud onların təsadüfən doğurduğu ağrı və əzablar daxil edilmir. Konvensiyanın 13-cü maddəsində deyilir ki, hər bir iştirakçı dövlət onun yurisdiksiyasında olan istənilən ərazidə işgəncəyə məruz qaldığını iddia edən istənilən şəxsin həmin dövlətin səlahiyyətli orqanlarına maneəsiz müraciət etməsini və həmin şikayətlərə tez bir zamanda və qərəzsiz baxılmasını təmin edir. İddiaçının və şahidin şikayətlə və ya istənilən şahid ifadəsi ilə əlaqədar pis münasibətdən, yaxud da hədə-qorxudan müdafiə edilməsi üçün tədbirlər görülür.

**Öhdəlik yaratmayan aktlar:**

«Bütün şəxslərin işgəncədən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzalardan müdafiəsi haqqında Bəyannamə»nin (9 dekabr 1975-ci il tarixli) 2-ci maddəsinə görə işgəncə və ya digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzalar qismində törədilən hər hansı hərəkət insan ləyaqətini alçaldan rəftar hesab edilir. İnsan hüquqları haqqında Ümumi Bəyannamədə göstərildiyi kimi, bu cür rəftar insan hüquq və azadlıqlarının pozulmasına görə məsuliyyətə səbəb olmalıdır.



Birləşmiş Millətlər Təşkilatının 17 dekabr 1979-cu il tarixli Hüquq-mühafizə orqanları əməkdaşlarının davranış Məcəlləsi»nin 5-ci maddəsində isə göstərilir ki, heç bir hüquq-mühafizə orqanlarının əməkdaşı işgəncə və ya amansız qeyri-insani alçaldıcı rəftar və ya cəzanı tətbiq edə, onları təhrik edə və ya ona laqeyd qala bilməz. Heç bir hüquq-mühafizə orqanının əməkdaşı yuxarıdan verilən əmri, müharibə təhlükəsini və ya müharibə vəziyyətini, milli əmin-amanlığa təhlükəni, daxili siyasi qeyri-sabitliyi və ya digər fövqəladə vəziyyəti işgəncənin törədilməsi üçün əsas saya bilməz.

«Beynəlxalq amnistiya»nın hüquq-mühafizə orqanları əməkdaşlarının səmərəli davranışı üçün «On əsas insan hüquqları normaları»nın 1998-ci il 14 dekabr tarixli 8-ci maddəsində göstərilir ki, bütün tutulanlarla insani rəftar olunmalı heç bir halda onlara qarşı işgəncəyə və qeyri-insani hərəkətə yol verilməməli, belə rəftara təhrik edən əmrlərin icrasından imtina edilməlidir.

Şərəf və ləyaqətin müdafiəsi ilə əlaqədar qəbul olunan beynəlxalq hüquqi aktlar Avropa Şurasının üzvü olan dövlətlər tərəfindən ratifikasiya olunur, müvafiq aktlar qəbul olunur. İndi də şərəf və ləyaqətin müdafiəsi ilə əlaqədar Avropa Şurasının qəbul etdiyi hüquqi aktları, ilk növbədə öhdəlik yaradan aktlar nəzərdən keçirək:

1950-ci ildə qəbul edilmiş «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası»nın 3-cü maddəsində deyilir ki, heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır.

«İşgəncələr və qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzalara qarşı Avropa Konvensiyası»nda 1987-ci il 18 noyabr tarixli isə göstərilir ki, işgəncələr və qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzaların qarşısının alınması üzrə yaradılmış Avropa Komitəsi azadlıqdan məhkum edilmiş şəxslərlə rəftarı öyrənir, əgər lazım gələrsə onları işgəncədən və qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftardan və ya cəzadan müdafiə edir. Hə-

min konvensiyanın 2-ci maddəsində isə göstərilir ki, hər bir tərəf bu komitəyə azadlıqdan məhrum edilmiş şəxslər saxlanıldığı istənilən yerə baş çəkməyə icazə verir.

Öhdəlik yaratmayan aktlar isə aşağıdakılardır:

Avropa Şurasının Parlament Assambleyasının» polis haqqında «Bəyannaməsi»nin (1979) «Etika» adlı 3-cü maddəsinə görə edam, işgəncə, qeyri-insani və alçaldıcı rəftarın və cəzanın digər formaları qadağandır. Belə rəftarın tətbiq edilməsi barədə əmr və göstərişlərin yerinə yetirilməsindən polis əməkdaşı boyun qaçırmalı və ya imtina etməlidir. «Hər hansı formada həbs və ya azadlıqdan məhrum edilmiş bütün şəxslərin başlıca prinsipləri»nin (1988) 6-cı maddəsində isə deyilir ki, hər hansı bir formada həbs və ya azadlıqdan məhrum edilmiş şəxs işgəncələrə, yaxud qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzalara məruz qala bilməz. İşgəncələrə, qəddar, qeyri-insani, ləyaqəti alçaldan rəftar və ya cəzalara heç bir hal bəraət qazandıra bilməz.

Müstəqil Azərbaycan Respublikası da bir çox beynəlxalq qurumların, Avropa Şurasının üzvü olduğundan öz milli qanunvericiliyini həmin təşkilatların qanunları ilə uzlaşdırmış, yeni qəbul olunan qərarlarda həmin sənədləri ilkin, baza sənəd kimi götürmüş və milli mentalitetimizə uyğun qanunlar qəbul etmişdir. İnsanların hüquq və əsas azadlıqları, şərəf və ləyaqətinin qorunması vacib amil kimi qiymətləndirilmiş, milli qanunvericilikdə əsas yerlərdən birini tutmuşdur.

İnsan hüquqları, şərəf və ləyaqətin qorunması məsələsi Milli qanunvericilikdə də öz əksini tapmışdır. Azərbaycan Respublikasının Konstitusiyasının 46-cı maddəsində deyilir ki, hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır. Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz. Heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və ya başqa təcrübələr aparıla bilməz. «Polis



haqqında» qanunun (1999) 5-ci maddəsində oxuyuruq: «Polisin hər hansı şəxslə insan ləyaqətini alçaldan şəkildə rəftar etməsi yolverilməzdir. Cinayət törədən və ya törətməkdə şübhəli bilinən şəxsləri məlumat verməyə və ya cinayət əməlini törətməkdə təqsirini etiraf etməyə məcbur etmək, bu məqsədlə onları və digər şəxsləri hədələmək, işgəncəyə məruz qoymaq, onlara hər hansı fiziki və ya mənəvi təsir göstərmək qadağandır». Cinayət Məcəlləsinin (1999) 113-cü maddəsində isə göstərilir ki, tutulmuş və ya azadlığı başqa cür məhdudlaşdırılmış şəxslərə fiziki ağrılar və ya psixi iztirablar vermə - yeddi ildən on ilədək müddətə azadlıqdan məhkum etmə ilə cəzalandırılır. Döymə və ya sair zorakı hərəkətlərlə fiziki ağrı yetirmə- şərti maliyyə vahidinin iki yüz mislinədək miqdarda cərimə və ya iki yüz qırx saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhkumetmə ilə cəzalandırılır (maddə 132). Həmin məcəllənin 133-cü maddəsində isə göstərilir ki, mütəmadi olaraq döyməklə və ya sair zorakı hərəkətlərlə güclü fiziki ağrı və ya psixi iztirablar vermə üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Eyni əməllər iki və ya daha çox şəxsə qarşı və ya girov götürülən, yaxud oğurlanmış şəxsə qarşı və ya sifarişlə törədildikdə; aşkar surətdə hamilə vəziyyətdə olan qadın barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan, habelə köməksiz vəziyyətdə olan şəxsə qarşı törədildikdə; zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özü və ya yaxın qohumlarına qarşı törədildikdə- üç ildən yeddi ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Şəxsdən məlumat almaq, onu etirafa məcbur etmək, yaxud törətdiyi və ya törədilməsində şübhə doğurduğu əmələ görə həmin şəxsi cəzalandırmaq məqsədilə vəzifəli şəxs tərəfindən və ya onun təhriki ilə törədildikdə- beş ildən on ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Cinayət Məcəlləsinin 147-ci maddəsi böhtan haqqındadır. Orada göstərilir ki, böhtan, yəni yalan olduğunu bilə-bilə, hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitələrində yaymaq - şərti maliyyə vahidinin yüz mislindən beş yüz mislinədək miqdarda cərimə ilə və ya iki yüz qırx saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə və ya altı ayadək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Məcəllənin 148-ci maddəsi təhqir haqqındadır. Həmin maddədə deyilir: «Təhqir, yəni kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitələrində şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltma- şərti maliyyə vahidinin üç yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki yüz qırx saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır».

Cinayət Prosessual Məcəlləsinin (2000-ci il) 13-cü maddəsində isə oxuyuruq: «Cinayət təqibi gedişində insanın şərəf və ləyaqətini alçaldan, təhqir edən, habelə cinayət prosesində iştirak edən şəxslərin həyatı və səhhəti üçün təhlükə törədə biləcək qərarların qəbul edilməsi və ya hərəkətlərə yol verilməsi qadağandır; Cinayət tətbiqi gedişində heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz; İnsan ləyaqətini alçaldan şəraitdə saxlanıla bilməz; Ləyaqəti alçaldan prosessual hərəkətlərin keçirilməsində iştiraka məcbur edilə bilməz».

Bu göstərilənlərdən aydın olur ki, insan hüquq və azadlıqlarının bir hissəsi olan şərəf və ləyaqətin qorunması Beynəlxalq hüquq qanunları Avropa Şurasının qanunları ilə qorunduğu kimi müstəqil Azərbaycan Respublikasının qanunları ilə də qorunur. Bu qanunları icra edən, qoruyan hüquq-mühafizə orqanlarının əməkdaşları, səlahiyyətli təşkilatların nümayəndələri aşağıda göstərilənləri bilmələri və riayət etmələri vacibdir:



- İşgəncələrə və qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftara, yaxud cəzalara qarşı Avropa Konvensiyasını imzalamış ölkələr, o cümlədən AR hüquq mühafizə orqanlarının əməkdaşları İşgəncələrə qarşı Avropa Komitəsinin (İQAK) üzvlərini həbsxanalara, o cümlədən polis sahələrinə buraxmağa borcludurlar;
- İQAK üzvlərinin azadlıqdan məhrum edilmiş istənilən şəxslə təklikdə söhbət aparmağa, faydalı məlumat verə biləcək hər bir kəsə müraciət etməyə ixtiyarı vardır;
- İşgəncə- ifadə alma, cəzalandırına məqsədilə həyata kçirilən qeyri-insani rəftarın ən ağır növüdür;
- Bütün işgəncələr qeyri-insani və ləyaqəti alçaldan rəftar növüdür, qeyri-insani münasibət alçaldıcıdır;
- Qeyri-insani rəftar elə münasibət növüdür ki, şiddətli mənəvi və fiziki əzab-əziyyətlərə, iztirablara səbəb olur;
- insanla rəftar, yaxud cəza o zaman alçaldıcı sayılır ki, o başqalarının qarşısında hörmətdən salınır, öz ifadəsinə, yaxud vicdanı əleyhinə hərəkət etməyə vadar edilir;
- İnsanlara işgəncələr verilməsi və qəddarcasına rəftar bütünlüklə və tam qadağandır;
- hər hansı bir tutulan, həbsə alınan şəxsə qarşı zor göstərmək, onu güc tətbiq etməklə hədələmək qadağandır;
- Heç bir şərait, o cümlədən rəhbərliyin əmrləri işgəncələrə və qeyri-insani rəftara haqq qazandırmır;
- İnsanın fiziki toxunulmazlığının təminatından imtinaya heç bir əsas, hətta çətinliklə açılan, xüsusən də terrorçuluqla bağlı cinayətlərin araşdırılması da haqq qazandırmır.

Vətəndaşların hüquqlarının, şərəf və ləyaqətlərinin qorunması hüquq-mühafizə orqanları, onun tərkib hissəsi olan polisin ümdə vəzifələrindəndir. Bəzən elə hallar olur ki, polislər özləri vətəndaşların hüquq və azadlıqlarını pozurlar. Araşdırmalar göstərir ki, bunların əsas səbəblərindən biri bu sahədə lazımi hüquqi biliklərin olmamasıdır.

İnsan hüqüqları beynəlxalq və milli standartlar, qanunlar barədə kifayət qədər biliklərin əldə edilməsi, hüquqların pozulması hallarının azalmasına kömək edər, belə halların cəmiyyətdə mövcudluğunu zəiflədər.

Əminik ki, insan hüquqları, şərəf və ləyaqətin qorunması sahəsindəki bu araşdırma həm vətəndaşlarımıza, həm də polis əməkdaşlarına müəyyən dərəcədə gərəkli olacaq, müvafiq biliklərin artması üçün az da olsa rol oynayacaqdır.

**Фикрет Джаигир оглыИсмайлов, м.н.с. Института Философии и Политико-Правовых Исследований НАН Азербайджана.**

## Проблема обновления общества и вопросы воспитания личности.

Данная статья - это один из многих взглядов на проблему бытия, познания и на проблему воспитания. Личность человека периода обновления общества это личность, которая будет жить, учиться, работать в XXI веке. Какой будет личность человека XXI столетия? Это в основном будет зависеть от его мировоззрения, степени воспитанности и постоянного совершенствования его как личности. Поскольку вопрос воспитания личности является общечеловеческой проблемой и вызывает к себе большой интерес, то он требует ещё более всестороннего рассмотрения и обсуждения. Быть справедливой личностью-значит быть всесторонне образованным, патриотом своей страны, общественно-активным, демократичным, добропорядочным, гуманным, законоуважающим, трудолюбивым, способным справляться с трудностями в жизни, любящим свою национальную культуру и уважающим культуру народов мира, обладающим высокой культурой поведения, свободой мышления, самостоятельностью в принятии решений, чувством собственного достоинства и ответственности за выполняемую работу, другими нравственно- возвышенными личностными качествами. Именно такими представлялись всегда человечеству требования к воспитанию справедливой личности и сама справедливая личность. Само слово справедливость, имеет значение «прекрасная идея». Философская категория, формирующая политику укрепления мира и развития сотрудничества, которая невозможное может сделать возможным. Интересное мнение о возможностях политики, имеется у экс-президента Чешской республики Вацлава Гавела: "Политика не есть искусство возможного, - политика - искусство невозможного". (Эльмира Ахундова. Мгновения истины. Баку. 2003 г. с.1.). Проблема дальнейшего совершенствования воспитания справедливой личности это один из многих прагматических подходов, методов к проблеме воспитания. Осуществить эту мысль и сделать возможным на практике, можно методом частого обращения внимания и использования в повседневной жизни общества, таких передовых идей, как справедливость, сознание, самосознание, совесть, ответственность, критика и самокритика, личная инициатива. То есть этот метод будет всегда призывать к справедливому решению любого вопроса с позиций ответственности. Развитие ответственного отношения к делу, во всех сферах нашей жизни, это значит обеспечить стабильность, безопасность общества и стать экономически сильным государством.

Президентом России Владимиром Путиным на II съезде Всероссийского Азербайджанского конгресса было сказано: «Только экономически самостоятельные страны мо-

гут формировать и проводить влиятельную, и что для России важно, независимую политику, а значит политику добрососедства, взаимного уважения и дружбы между народами. И Россия заинтересована именно в таких соседях, Россия заинтересована именно в таком Азербайджане». (Бакинский рабочий. 20 октября 2004 г. с.5. ).

Данный в статье прагматический метод соответствует основному прагматическому правилу. Известные американские прагматисты Уильям Джемс и Чарлз Пирс, объясняют это правило следующим образом: «Всякий, кто отдает себе в этом ясный отчет при пользовании понятием, таким образом действенно осознаёт его практическое значение»[1]. (Уильям Джемс. Введение в философию. Москва. 2000 г. с.42.). Прагматизм это философское течение, считающее практическую полезность знания источником и главным критерием его истинности. Прагматизм допускает плюрализм, множество истин. Известный американский философ-психолог Уильям Джемс, в отношении степени полезности любого научного метода имел следующее мнение: "Всякий приемлемый метод, проясняющий смысл понятий, должен быть признан весьма полезным". (Уильям Джемс. Введение в философию. Москва. 2000 г. с.43.). Прагматический метод может вызвать большой интерес и стремление к себе со стороны всех народов мира. Стать для человечества реальной выгодой, а для самой проблемы воспитания практическим результатом. Реальную выгоду человечество увидит в том, что с совершенствием процесса воспитания, будет совершенствоваться и сама личность, которая в результате будет с позиций ответственности справедливо решать все вопросы и проблемы. Такая воспитанная личность будет непримирима к негативным явлениям жизни и сыграет большую роль в деле укрепления мира и сотрудничества народов. Эта точка



зрения совпадает с мнением и основным положением прагматического правила, объясняемое американским философом-психологом Уильямом Джемсом: "Если вы выступаете сторонником истинности известной идеи, покажите, какую перемену она вызовет в жизненном пути данного лица, и нам сейчас же станет ясным не только ваше убеждение, но также все значение вопроса и способ проверки данного убеждения». (Уильям Джемс. Введение в философию. Москва. 2000 г. с.43.). Тема прагматизма актуальна и в наше время. Об этом свидетельствует статья ученого, - философа Р.Дж. Бернстайна «Возрождение прагматизма», опубликованная в журнале Вопросы философии Российской АН, где он объясняет: ... "прагматизм жив и никогда не умирал". (Российская АН Вопросы философии № 5. Москва. 2000 г. с.114.).

Исходя из вышесказанных фактов метод дальнейшего совершенствования воспитания справедливой личности, исследован с позиций прагматизма. Важным прагматическим примером для всех народов мира, могут быть слова Президента России Владимира Путина, сказанные в отношении добрососедства и сотрудничества, между русским и азербайджанским народами на II съезде Всероссийского Азербайджанского конгресса: « Убежден, что сегодня мы обязаны сберечь и приумножить наше бесценное, трудом и кровью заработанное достояние добрососедства и сотрудничества, должны создать все условия для представителей наших народов, сделать все, чтобы русские люди, проживающие в Азербайджане, и азербайджанцы, проживающие в России, чувствовали себя комфортно. Это важнейшие слагаемые благополучия двух народов и в наши дни, и их процветающего развития в будущем». (Бакинский рабочий. 20 октября 2004 г. с.5.).

"Можно быть справедливым только будучи человеко-

любивым" - такой представлял себе,справедливую личность французский писатель - моралист Л.Вовенарг. (П.Ландесман, Ю.Согомонов. Мысли и афоризмы. Баку. 1962 г. с.147.).

Справедливость объясняется как понятие о должном, соответствующее определенным представлениям о сущности человека и его неотъемлемых правах. Справедливость подразумевает требование соответствия между практической ролью человека или социальной группы в жизни общества и их социальным положением, между их правами и обязанностями, деянием и воздеянием, трудом и вознаграждением, преступлением и наказанием, заслугами людей и их общественным признанием. Несоответствие в этих соотношениях оценивается как несправедливость. Воспитание чувства ответственности это начало успеха, начало всему положительному и для человека и для общества в целом. Ответственность - как категория этики и права, отражающая особое социальное и морально-правовое отношение личности к обществу, человечеству в целом, характеризуется выполнением своего нравственного долга и правовых норм. На протяжении всей истории человечества, люди считали и рассматривали проблему воспитания, очень важной и необходимой. Главной задачей которой всегда считалось, научить человека чему-то положительному, доброму в жизни. Сегодня, когда человечество перешагнуло в XXI век, она нуждается в воспитании личности, обладающей высокой степенью человечности и взаимопонимания. Основным содержанием мыслей которого, должно быть не разрушение и война, а мирное сотрудничество, уважение достоинства каждого народа, улучшение жизни и установление вечного мира на нашей общей с вами земле, название которой человеческая цивилизация. Процесс дальнейшего совершенствования



воспитания справедливой, миролюбивой личности необходим для того, чтобы еще раз сказать нет Гитлеровскому фашизму, необходим для предотвращения агрессивного национализма, сепаратизма, расизма, незаконного оборота наркотиков и терроризма. В материалах политических итогов Лиссабонского саммита ОБСЕ 1996 года, которые нашли свое отражение в книге Эльмиры Ахундовой "Мгновения истины", говорится о необходимости борьбы, с этими опасными негативными явлениями: "Сегодня в модель безопасности входит и борьба с агрессивным национализмом, сепаратизмом, расизмом, с незаконным оборотом наркотиков и терроризмом". (Эльмира Ахундова. Мгновения истины. Баку. 2003 г. с.137.).

Следовательно совершенствовать процесс дальнейшего воспитания личности, постоянно учить будущее поколение справедливому мышлению, совершению поступков с позиций миролюбия, сознания, самосознания, совести, ответственности и развития сотрудничества. Учить совершать поступки, задавая себе вопросы. Этот поступок можно совершать, или его нельзя совершать? Совершаемый поступок будет справедливым или будет несправедливым? Каковы будут последствия этого поступка? А самое главное - не приведет ли данный поступок к нарушению законов государства, или законов международного права? Вот к чему призывает все народы мира прагматический метод воспитания данный в этой статье, который затрагивает жизненные интересы всего человечества и требует для своего решения коллективных усилий всех государств, всего мирового сообщества.

12 октября 2004 года после завершения официального визита в государство Румыния и возвращения в Азербайджан, Президентом Азербайджанской Республики Ильгамом Алиевым перед журналистами было также сказано:

«Конечно, территориальная целостность Азербайджана должна быть восстановлена. И чем раньше Армения это поймет, тем это будет хорошо». ( Адалят. 14 октября 2004 г. с.2.). Поэтому данная статья с позиций своего уровня, призывает и руководство республики Армения и армянский народ к справедливости и справедливому поступку. К соблюдению принципа территориальной целостности Азербайджана. Призывает отказаться от своих притязаний на территорию Нагорного-Карабаха, которая является законной территорией Азербайджана. Освободить оккупированные армянскими военными формированиями, территории районов Азербайджанской Республики. И увидев перспективу будущего справедливого сотрудничества, справедливых взаимовыгодных отношений, справедливой мирной жизни навсегда закончить конфликт между двумя народами. И тем самым сказать нет агрессивному национализму, терроризму и другим негативным, опасным явлениям современности. Известный народный писатель Азербайджана, академик АН Азербайджана Мирза Ибрагимов в своей статье «К читателям» писал следующее: «Прогрессивная педагогическая мысль Азербайджана всегда ставила проблемы, актуальные не только для родного, но и для других народов, проблемы, обращённые ко всем живущим на земле, призывая все народы к миру и дружбе. Сеять добрые семена в сердце каждого человека, в сердце каждого народа, помочь им осознать себя частицей великого, неразделимого, единого человечества – лучшая гарантия процветания и счастья всех». (А.А.Агаев, А.Ш.Гашимов. Антология педагогической мысли Азербайджана. Москва. Педагогика. 1989 г. с.6-7.).

Подтверждением факта, что все народы мира стремятся к упрочению мира и сотрудничеству, рассказывают материалы политических итогов Лиссабонского саммита



ОБСЕ 1996 года на высшем уровне. В этих материалах, которые нашли свое отражение, в книге известной азербайджанской журналистки Эльмиры Ахундовой «Мгновения истины», сказано следующее: «Все участники саммита были согласны с тем, что новая модель безопасности должна основываться не на конфронтации и разделении военных блоков, а на сотрудничестве, должна не возводить новые стены между народами Европы, а служить их объединению». (Эльмира Ахундова. Мгновения истины. Баку. 2003 г. с.138.).

Psixoloji sarsıntı ilk növbədə qəm, kədər, qorxu, acizlik hisslərinin keçirilməsi ilə müşahidə olunur. Psixoloji sarsıntı müxtəlif hadisələrin nəticəsidir. Adamın həyatında baş verən bəzi hadisələr onun psixikasına zərbə endirir və psixoloji sarsıntılar keçirməklə nəticələnir. Sarsıntı törədən hadisələrdən bir neçəsini qeyd etmək olar:

- xırda və ya ciddi, təbii istehsalat qəzaları (zəlzələ, daşqın, şimşəyin çaxması, qasırğa, atom reaktorunda qəza və s.);

- bədbəxt hadisələr - nəqliyyatda qəza (qatar, təyyarə, gəmi, avtomobil);
- bədbəxt hadisələr nəticəsində alınan ağır xəsarətlər (zədələnmə, yanma və s.);
- ailədə və ya ətrafda zorakılıq (girov götürülmək, uşaqların oğurlanması, quldur dəstəsi tərəfindən zora məruz qalma, snayper atəşi);
- etnik, dini, irqi zəmində törədilən zor (müharibə, terrorçuluq, işgəncə və istehza);
- ailədə ər-arvad arasında dava-dalaş, zorlama, öldürmə, sui-qəsd kimi halların şahidi olmaq;
- cinsi sataşma və istismar, yaxın qohumlar arasında cinsi əlaqə, fiziki zor;
- həyat üçün təhlükəli olan xəstəliklər və tibbi müayinələr.

Uşaqda psixoloji müdafiənin tam olmaması səbəbindən o, hər hansı sarsıntıya qarşı aciz, psixoloji cəhətdən yaraqsız qalır. Buna görə də, böhran keçirən cəmiyyətdə psixoloji sarsıntıya əsasən uşaqlar məruz qalır. Uşaqlıqda alınan psixoloji zərbə onun gələcək həyatı, inikşafı üçün xələl gətirə və onun şəxsiyyətinin inkişaını məhdudlaşdıra bilər. Uşaqda psixoloji sarsıntıya yuxarıda qeyd olunan amillərdən başqa aşatıdakı hadisələr də səbəb ola bilər:bir yerdən digər yerə köçmə, ölüm, boşanma, doğma yerlərin itirilməsi, dostların itirilməsi, məktəbin dəyişdirilməsi, valideynlərin itirilməsi, əlillik və s.

Yaxın adamın ölümü (xüsusilə gözlənilməz şəraitdə və zorakılıq halları nəticəsində baş verdikdə) ən güclü sarsıdıcı hadisələr siyahısına aiddir. Böyüklərin keçirdiyi qəm, qüssə hisslərini uşaqlar da keçirir. Böyüklər kimi onlar baş vermiş itkiyə inana bilmir, itirilən adamı tapmağa səy göstərir, xəyallarında və yuxularında onunla görüşməyə çalışır, qəzəblənir, kədərlənir, ağlayır, yalqızlıq və həyəcan hissinə düçar olurlar.

Dərd çəkmənin aşağıdakı mərhələləri var:



***__Başlanğıc dövr – şok və «donub qalma».__*** Bu mərhələdə keçirilən hal bir neçə saniyədən, bir neçə həftəyə qədər davam edə bilər. Bu dövrdə adam heç nə hiss etmir, ağrıya həssaslığı kütləşir. Onun bu biganəliyini ətrafdakılar eqoizm kimi qiymətləndirirlər. Halbuki onun belə halı çəkdiyi, iztirabın ağırlığının və dərinliyinin sübutudur. Bu dövrdə adamda iştahın itməsi, əzələlərin zəifliyi, tələsik hərəkətlər müşahidə olunur. Psixoloji şok halını keçirən adam bir növ keçmişə qayıdır, keçmiş dövrdə qalır, bu günkü həyatda iştirak etmir, qovuşa bilmir. Şok insanı mərhumun yaşadığı dövrdə saxlayır. Məsələn, bir qız uşağı xəstə anasına uzun müddət qulluq edir. Anası vəfat etdikdən sonra qız baş verən hadisəni yaxşı başa düşmür, yalnız mexaniki hərəkətləri təkrar edir. Bu hərəkətləri o, anasına qulluq edərəkən adət etmişdi. Şok zamanı insanın nitqi ifadəsiz, zəif intonasiya ilə müşayət edilir. Cavab reaksiyaları gecikir, cavabı dərhal verə bilmir. Adam hətta vaxtaşırı gülə bilər. Bu cür «sağlam» görünüşünə baxmayaraq o, hər an şiddətli reaksiya verə bilər. Belə halda adam özünü pəncərədən ata , başını divara vura bilər.

Əgər şok keçirən adama göz yaşları gəlirsə, deməк o, sonrakı mərhələyə keçir. Müxtəlif mədəni mərasimlər insana dərdin çəkilməsinə kömək edir və imkan yaradır. Məsələn, ağı deyən qadınların dəfn mərasiminə dəvət olunması adətini götürək. Bu qadınlar hıçqırıb ağlayaraq iztirabın xarici ifadəsindəki çətinlikləri aradan qaldırmağa kömək edir. Bunun nəticəsində dərd çəkəndə katarsisin əmələ gəlməsinə şərait yaradır. Katarsis- təmizlənmə, daxili boşalma nəticəsində yaranan emosional təsirin nəticəsidir.

***__İztirablı dövr__*** 6-7 həftə davam edir. Bu dövr ən çətin, əzab verən dövrdür. Adətən, dərd çəkənin xəyalında ölən adamın bir növ ideallaşdırılması baş verir. Adam tez-tez əsəbiləşir, tək qalmağa çalışır. O, işi axıra çatdırmaqda çə-

tinlik çəkir. Bu dövrdə insan emosional cəhətdən qeyri-sabit, çox tez təsirlənən olur.

*Qalmış təkanlar və yenidənqurma dövrü* hadisədən 40 gün keçəndən sonra başlayır və 1 il çəkir. Bu dövrdə həyat öz qaydasına düşür-yuxu, iştaha bərpa olur. Dərdçəkmə artıq aparıcı fəaliyyət kimi yox, arabir ayrı-ayrı tutmalar şəklində biruzə verir. Çox vaxt belə tutmaların əmələ gəlməsinə hansısa tarixi, ənənəvi hadisələr bəhanə olurlar (məsələn, Yeni il ilk dəfə onsuz, ölənin ad günü və s.).

Tamamlanma dövründə insan bəzən bir sıra mədəni xarakterli maneələrlə rastlaşır. Məsələn, belə bir təsəvvürlə – mərhuma olan məhəbbət qəm çəkmənin müddətindən asılıdır. Bu dövrdə dərdçəkmə prosesində əsas məqsədi- mərhumun surətinin daim həyatımızda canlanmasına yönəlir. Bu dövrdə adam dərd yox, kədər hissi keçirir.

Biz normal dərd çəkmə ilə tanış olduq. Bəs anormal dərd çəkmə nədir? Anormal dərd çəkmə zamanı dərdçəkmə hər hansısa bir mərhələdə ilişib qalır.

Anormal dərdçəkməni törədən səbəblərdən bir neçəsini qeyd edək.

-yaxın adamın ölümündən əvvəl onunla dava-dalaş, mübahisə;

-yerinə yetirilməyən vədlər;

-yaxın adamın ölümü ilə bağlı müəyyən hadisələr.

Bu situasiyadan insanı çıxarmaq üçün məşğələlər keçirib onları pataloji haldan xilas etmək lazımdır. Əks təqdirdə həmin adamlar bir çox psixi xəstəliklərə tutula bilərlər.

Biz stressin ümumi və xüsusi əlamətləri, hətta ondan qurtarmaq vasitələri ilə tanış olduq. Stressin emosional hal olduğunu, gərgin şəraitlə rastlaşanda baş verdiyini öyrəndik. Biz gələcəyin psixoloqları çalışmalıyıq ki, stress vəziyyətinə düşmüş adamlara vaxtında kömək edək.



**Çingiz Nəbiyev,**
**Fəlsəfə və Siyasi –Hüquqi Tədqiqatlar İnstitutunun dissertantı**

## Həyata ictimai-psixoloji baxış

Həyatın ictimai psixologiya baxımından anlaşılması onun təbii-elmi baxımdan və həmçinin də, fəlsəfi baxımdan anlaşılmasından ilk növbədə onunla fərqlənir ki, ictimai psixologiyanın baxış tərzi bütövlükdə rasional deyildir, burada həyatın rasional anlamı onun irrasional qavranışı ilə, emosional duyumu ilə qoşa yaşayır. Burada həyat anlaşılmaqdan daha çox duyulur. Həyatın ictimai psixologiya fonunda anlaşılması onun bilavasitə yaşanması ilə paralel baş verir. İctimai psixologiyanın özü bütövlükdə həyatın bilavasitə qayğılarının, gündəlik həyati ehtiyaclarının nəticəsi olaraq meydana çıxır.

Həyatın adi şüur tərəfindən, ictimai psixologiya kontekstində qiymətləndirilməsinin əsas cəhətləri olaraq aşağıdakıları göstərmək olar:

- həyata realist baxış;
- həyat üçün əxlaqi prinsipin ön plana çəkilməsi.

Həyatın ictimai psixologiya baxımından anlaşılması üçün digər mühüm cəhətlərdən biri də müxtəlif xalqların həyat tərzləri arasında paralellərin aparılmasıdır. İctimai psixologiya xalqların bəzilərini daha dəyərli, bəzilərini isə az əhəmiyyətli hesab edir. İctimai psixologiya nöqteyi-nəzərindən bəzi xalqlar öz həyatlarını ağlın, zəkanın əsasında qura bildikləri halda, bəziləri isə öz həyatlarını ağılsız mövcudluğa məhkum edirlər. Buna görə də, bəzi xalqlar həqiqətən yaşayır, bəziləri isə sadəcə olaraq mövcuddurlar.

Həyatın ictimai psixologiya nöqteyi-nəzərindən dəyərləndirilməsinin səciyyəvi cəhətlərindən biri də cəmiyyətin müxtəlif təbəqələrinin həyat tərzlərinin qarşı-qarşıya qoyulmasıdır.

Cəmiyyətin müəyyən bir təbəqəsi üçün səciyyəvi olan ictimai psixologiya özündə digər təbəqələrin həyat tərzinə qarşı bəzən rəğbət, bəzən isə qısqanclıq hisslərini yaradır. İctimai psixologiyanın anlaşılmasında sinfi yanaşma, bütövlükdə olmasa da, əsasən özünü doğruldur. Marksizm «burjua psixologiyası» ilə «proletar psixologiyası» arasında fərq qoyurdu. Bu fərq marksizmin səciyyələndirdiyi kimi olmasa da, həqiqətən də mövcuddur.

«Proletar psixologiyası» ilə «burjua psixologiyası» arasındakı fərq əsasən müxtəlif həyat şəraitlərindən irəli gələn fərqdir. «Faytonda gedən adam dünyanı piyadanın gördüyü kimi görmür, başqa cür görür» (Feyerbax). Lakin, müxtəlif təbəqələrin ictimai psixologiyaları arasındakı fərq onların həyat tərzləri arasındakı obyektiv fərqdən qaynaqlanmaya da bilər. Maksim Qorki «proletar yazıçısı» hesab edilsə də, proletar həyat tərzinin hakim olduğu mühitdən çıxsa da, öz psixologiyası nöqteyi-nəzərindən proletar deyildi. «Bəy psixologiyası» ilə «rəiyyət psixologiyası» arasında fərq əsrlər boyu mövcud olmuşdur. SSRİ-də ziyalı və xalq psixologiyaları arasındakı fərq rəsmi olmasa da, əslində aşkar bir şəkildə mövcud idi. Belə bir fərq müəyyən qədər indi də mövcuddur. Mülkiyyətə malik olanlarla mülkiyyətdən məhrum olanların, hakimiyyətə malik olanlarla hakimiyyətdən məhrum olanların, dünyaya münasibətində yaradıcı mövqedə duranlarla, dünyaya münasibətində istehlakçı mövqedə duranların həyata baxışlarında fərqlər, əlbəttə ki, mövcuddur və bu da həyatın ictimai psixologiya tərəfindən duyulmasında və anlaşılmasında müxtəliflik yaradır.

Eyni zamanda qeyd etmək lazımdır ki, ictimai psixologiya cəmiyyət və fərd qarşıdurmasında bir qayda olaraq cəmiyyətin mövqeyində durduğundan fərd ölümü də həyatın bir əksi olaraq qavramır. İctimai psixologiya fərdi bir qayda olaraq cəmiyyətə yararlılıq nöqteyi-nəzərindən qiymətləndirir və fərdi ölümü elə bu səbəbdən də cəmiyyətə yararlılıq imkanlarının



tükənməsi kimi dəyərləndirir. Əslində yaxınların ölümü ilə bağlı sarsıntıları yüngülləşdirmək məqsədinə xidmət edən mərasimlər də ictimai psixologiyanın təcəssümlərindən biridir.

Həyat, ictimai varlıq insanların şüurunda inikas olunur və bu inikasın xarakterindən asılı olaraq ictimai şüur müxtəlif şüur formalarına – ideologiyalara, ictimai nəzəriyyələrə, baxışlar sisteminə, siyasi və hüquqi ideologiyalara, dini, fəlsəfi, elmi, əxlaqi mənəviyyata bölünür. Eyni zamanda bura insanların hisslərinin, ehtiraslarının, vərdişlərinin, adətlərinin məcmusu olan cəmiyyətə, sinfə mənsub insanların ictimai psixologiyası aiddir. Xalqın və millətin psixi siması da ictimai psixologiyaya aiddir. Ümumiyyətlə, insanların ictmai psixologiyası həyatdan, ictimai varlıqdan, onun nəticəsi olaraq yaranmışdır. Ona görə həyatda yaranmış orijinal fikirləri, ideyaları cəmiyyətin maddi həyatında, insanların ictimai münasibətində müəyyənləşdirmək olar. İbtidai insanların yaşadığı həyat şəraitinə nəzər salaq. O vaxt ibtidai cəmiyyətdə xüsusi mülkiyyət yox idi. Ancaq kollektivçilik şüuru formalaşmışdı. Belə bir şəraitdə cəmiyyətdə yaşayan insanlar yaşayış vasitələrini birlikdə əldə edir və birlikdə ondan istifadə edirdilər. İnsanlar icmadan, icmanın təsərrüfat müvəffəqiyyətlərindən asılı olaraq yaşayırdı. Onlar ancaq öz zəhmətləri hesabına yaşayırdı. Bu cür həyat şəraiti insanlarda kollektivliçlik psixologiyası yaratmışdı. Onlardan heç biri başqa birisinin hesabına yaşamaq instinktləri yaratmamışdı. Varlanma, başqasının malına göz dikmə əlamətləri də yox idi. Quldarlıq cəmiyyətində isə artıq məhsulun yaranması ilə bağlı ilk istismarçı cəmiyyət formalaşdı. Cəmiyyətin yuxarı təbəqələrinin varlanma ehtirası öz işini gördü.

İnsanlar istehsal vasitələri üzərində ictimai mülkiyyətin həyata keçirilməsi nəticəsində marksizm-leninizm ideologiyasına əsaslanaraq yenidən kollektivçilik şüuru, əməkdaşlıq, qarşılıqlı yardım, beynəlmiləlçilik bərabərlik kimi ideyaları birləşdirən bir həyat yaratmaq istədilər.

Psixoloji cərəyana əsaslanan ideoloqlar kapitalizmə xas olan ideologiya arasında fərdiyyəçilikdən kollektivçiliyə doğru baş verən hadisələrin əsasını araşdırmağa çalışırdılar. Guya bu meyllər Qərb və Şərq adamlarının psixologiyasından yaranmış bir əlamətdir. Belə bir təhlil nə dərəcədə düzgündür? Kollektivçilik ideyasının Şərq mənşəli olduğu iddia edilirdi. Məlumdur ki, sosialist dövlət quruculuğunun ideoloqları Qərb dünyasının mütəfəkkirləri K.Marks və F.Engelsdir. Ona görə fərdiyyəçilik və kollektivçilik ideologiyaları adı altında Qərb və Şərq dünyasını ayırmaq və onu orada yaşayan insanların psixologiyası ilə bağlamaq düzgün deyildir. Başqa bir psixoloji yanaşmaya müraciət edək: Qərbdə və Şərqdə daxilində öz psixoloji baxışlarına görə müxtəlif olan insanlar mövcuddur. Həmin insanların həyata, həyatın hadisələrinə müxtəlif cür münasibət bəsləməsi psixoloji-ideoloji mübarizənin əsasını təşkil edir. Müxtəlif xalqların, millətlərin nümayəndərinin öz xüsusiyyətləri, öz psixoloji durumu vardır. Ancaq bu psixoloji durum o, insanların ayrı-ayrılıqda ideologiyasım müəyyən etmir. Dünyada əsasən kapitalist istehsal münasibətlərinə uyğun olan burjua ideologiyası, psixologiyası və sosialist istehsal münasibətlərinə uyğun olan sosialist ideologiyası, həmin ideologiyanı yaradan sosialist psixologiyası mövcuddur. Burjua ideologiyası burjua iqtisadi münasibətlərinin formalaşmağa başladığı dövrdə, yəni hələ feodalizm cəmiyyətində yarandığı kimi, sosialist ictimai psixologiyasına əsaslanan sosialist ideologiyası da kapitalizm cəmiyyətində formalaşmağa başlamışdır. İdealistlər ictimai-psixoloji hadisələri, insanların ideyalarının insan cəmiyyətindən kənarda obyektiv mütləq ideyadan yarandığını qeyd edirlər. Materializmə görə idealistlərin baxışları əsassızdır. Məsələn, Fransada ictimai-psixoloji hadisələrə, ictimai faktlar, yəni təsisatlara, qanunlara, adətlərə cəmiyyətin təkamülünün nəticəsi kimi baxmağı məsləhət bilirlər. Ancaq bu ideologiyanın tərəfdarları həyatda baş verən dəyişiklikləri, ictimai faktorları



kollektiv şüurun nəticəsi hesab edirlər. Cəmiyyət öz tarixini guya şüurlu şəkildə, şüurun mövcudluğu şəraitində yarada bilmişdir. Onlar obyektiv qanunauyğunluğu nəzərə almırlar. Onlar kollektiv şüurun inkişafında müxtəlif siniflərin mövcudluğunu və bu siniflərin müxtəlif ictimai psixologiya əsasında yaratdıqları ictimai ideologiyanı qəbul etmirlər. Nəhayət, onlar marksizmin qəbul etdiyi cəmiyyətdəki ictimai istehsalın mövcudluğu şəraitində bir-birinə zidd olan ictimai-psixoloji hadisələrə əsaslanan həyat tərzini və bu əsasda siniflər mübarizəsini görmək istəmirlər.

**Тагиева Матанат,**
**м.н.с. Институт Языкознания**
**им. Насими**

## Языковое выражение категорий диалектики.

В поле внимания диалектики оказываются самые различные связи, пронизывающие всё бытие (на всех уровнях материи). Среди основных категорий диалектики, сложившихся еще на ранней стадии формирования философской мысли и не утративших своего значения, можно отметить следующие: *единичное /общее, часть/ целое, вариант/ инвариант, форма / содержание, явление /сущее.*

Каждая из перечисленных категорий находит отражение в языке, но при этом в каждом языке имеются особые средства для выражения универсальных связей бытия.

Относительно категорий единичное / общее следует сказать, что как в философии, так и языке она предполагает противопоставление отдельно взятых предметов ( явлений, процессов) всему классу. В философии любые элементы обладают пространственно –временными характе-

ристиками, что и отличает их друг от друга (однотипных предметов). Единичное обладает всеми (или почти всеми) признаками, присущими всему классу. Неслучайно самым простым способом выражения в языке единичного / общего является грамматическая категория числа (ед. и мн. число): *книга - книги, город - города, teacher-teachers, кучя – кучяляр.*

Несмотря на универсальность категории числа, в каждом языке имеются свои особенности. Так, в арабском языке есть двойственное число: *валид, валиде / валидейн, Ирак / Иракейн.*

Нередко встречаются добавочные корреляты множественного числа. Так, в немецком языке *Mensch / Menschen, Leute.*

Часто в языке для выражения общих понятий используются слова в единственном числе. Например, во фразе «книга – источник знаний» мы имеем ввиду не одну конкретную книгу, а все полезные книги в целом.

В ряде случаев, наоборот, слова во множественном числе (включая имена собственные) могут обозначать единичные предметы: *часы, ножницы, Афины* и т. д. Дальнейшее рассмотрение вопроса приводит нас к роду - видовым отношениям, что не является темой настоящей статьи.

Важное место в философской мысли занимает проблема соотношения части и целого. Этот вопрос также волновал умы античных мыслителей, однако, сегодня постановка данного вопроса в корне отличается от прежних взглядов. Если под целым раньше понималось суммарное сложение частей, то сегодня под целым подразумевается структурная (упорядоченная, регламентированная) связь между составляющими. В отличие от рассмотренной выше категории *единичное / общее*, слова, обозначающие части



вовсе не являются однокоренными с названием целого. Например, квартира состоит из комнат (как минимум из одной), кухни, ванной, туалета, прихожей, балкона и т.д. Как видно из названий помещений, входящих в квартиру, каждые из них содержит информацию о выполняемой функции.

Однако, в высших уровнях материи (человеческих сообществах) мы можем обнаружить генетическую связь между составляющими. Так, например, члены таких коллективов как профессура, аспирантура, администратура, братство будут называться соответственно профессор, аспирант, администратор, брат (монах). Но в большинстве случаев всё же названия человеческих коллективов не совпадают с их членами: *команда/игрок, полк/солдат, класс/ученик (школьник).*

В ряде случаев с лингвистической точки зрения категория числа сближается с категорией часть целое. Так, огромное количество человеческих сообществ не имеет общего названия. Ярким примером служат этнонимы – названия наций, народностей, этнографических групп и т.д. Во фразе «англичане пьют чай с молоком» речь идет о целой нации; а во фразе «англичане обыграли немцев со счетом (5-1)» имеем дело с несколькими представителями английской нации. Подлинное значение слова «англичане» вытекает из контекста.

Центральное место в философской мысли занимает проблема соотношения поверхностных и глубинных, внешне наблюдаемых и скрытых от внешнего наблюдения проявлений реальной действительности. Рассмотрение устойчивого (глубинного) и поверхностного (изменяющегося) привело философов, в дальнейшем и ученых к постановке вопроса о явлении и сущем. Отделение изучения подлинной сущности вещей от обыденного повседневного познания послужило

толчком (предпосылкой ) к возникновению философии, а затем науки. Целью научного описания мира служит детальное рассмотрение, анализ внутренней структуры вещей, создания, внедрение и облегчение человеческой жизни. Соответственно, научное описание (научный стиль языка) призвано быть лишенным слов и оборотов с эмоциональной окрашенностью и субъективным отношением исследователя. Напротив, общеупотребительный язык как важное орудие познания возник и оформился за долго до образования науки. Поэтому в нашем общеупотребительном (доступно всем носителям) языке огромное количество метафор, сравнений, неточностей и т.д. Например, *золотые руки, (волосы, сердца, голоса), [Сердце]океана (Азербайджана, Мира), [голос] души, (океана, моря, Америки); спинка стула, ножка стола, игольное ушко, часы спешат, река бежит* и т. д.

Следует заметить, что нередко «ошибочные» обороты могут встречаться и в научных текстах: например зимой Солнце *встает* поздно и *садится* рано.

Существует также огромное количество терминов, представляющих собой переносное значение общеупотребительной лексики: корень слова, радио волна, плодоножка, сумчатые животные и т.д.

В подтверждение сказанному следует заметить, что научный стиль возник не на пустом месте, а на базе общеупотребительного языка (часто на родном языке исследователя). Создание научно-терминологического аппарата базируется на способах словообразования литературного языка.



**Багадур Гушкари,**
**экономист**

## Философия науки

Развитие наук приводит и к изменению самой философии науки. Унифицированная философская мысль подхваченная современниками той или иной эпохи является двигателем истории. В этом свете особое значение принимает философия мысли, возникшая на основе развития квантовой механики. Дело в том, что микро-мир, который описывает квантовая механика, обладает той отличительной (от макро-мира) особенностью, что элементарная частица здесь – это и частица и волна одновременно (корпускулярно – волновой дуализм), в отличии от частицы (например, камня) нашего макро-мира, где она всегда определена как частица, и только как частица (то есть, например, камень не может вдруг «исчезнуть» как волна). В микро-мире же «исчезновение» материи (электрона, например) вполне возможно, имеется ввиду волновые свойства частицы. Кроме того, если в классической механике, связанной с миром «средних» размеров нет проблемы определения местоположения и импульса тела, то в квантовой механике используется вероятностный подход, в определении частицы как корпускулы. И это связано с принципом неопределенности в описании поведения микрочастиц. Математический анализ в купе с экспериментированием проведенный В.Гейзенбергом, дал соотношение неопределенности явившейся центральным принципом во всей квантовой-механике.

Согласно этому принципу: Чем точнее определена координата ( $\Delta x \to 0$ ), тем менее точно определен импульс ( $\Delta p \to \infty$ ), и наоборот. (В.Л.Прокофьев, В.Ф.Дмитриева «Физика» М.Высшая школа, 1983 год, стр. 330), то есть в философском смысле существует зависимость материи (например,

электрона) от субъекта, а объективная реальность, по крайнее мере в квантовой механике, зависит от поставленного эксперимента, от наблюдателя (т.е. от вопроса исследования)..

Как видим, принцип неопределенности Гейзенберга, не действующий в макро-мире из за отсутствия корпускулярно-волнового дуализма, присущей только квантовому миру, рушит идею существования объективного мира независимого от наблюдающего его субъекта.

Вот как об этом пишет один из современных исследователей: «квантово-механический принцип неопределенности подрывает классическую концепцию объективности, то есть идею о том, что мир находиться во вполне определенном состоянии независимо от наблюдения его». (М.Клайн Математика. Поиск истины. Москва: Мир, 1988 г. стр. 216). И несмотря на то, что данный принцип характерен только для мира очень малых (элементарных) частиц, философы, отличающиеся предметной способностью обобщения концептуальных данных науки, обобщают и «фактор наблюдателя» в некотором смысле и для макро-частиц. Тут дело предстоит таким образом, что и макро-объектам соответствуют электромагнитные волны определенной длины, но размеры последних очень малы в сравнении с размерами самих макро-объектов. И поэтому невозможно наблюдать интерференционные и дифракционные явления макро-тел, аналогично наблюдению этих волновых явлений у микро-тел (например, интерференцию или дифракцию у электронов). И поэтому для макроскопических тел ограничения, накладываемые соотношением неопределенности Гейзенберга, совершенно несущественны. Например для маленькой капли диаметром 0,1 мм, движущейся со скоростью 10 см / с, неопределенность координаты в десять двадцатой степени раз меньше диаметра капли. (В.Л.Прокофьев, В.Ф.Дмитриева Физика. Москва: Высшей школа, 1983 г. стр. 331). То есть даже маленькая капля, в макро-мире – это несравненно большой масштаб для того, чтобы частица могла вести себя как в макро-мире двойственно – и как частица и как волна. Как видно, если пределом перехода от классической интерпретации мироздания к релятивисткой является скорость света в вакууме, то пределом перехода от классической механики к квантовой является определенное условие, когда частица имеет двойственную природу (корпускулярно-волновой дуализм). А это условие, зависит от кванта действия, или по другому от постоянной Планка. А так как постоянная Планка очень малая величина, то энергия колебаний частицы и, следовательно, двойственность природы становиться заметной при очень малых масштабах тел, то есть для микро-мира. Но опять – таки замечу, что для философии становится существенным не столько факт двойственности материи описываемый в квантовой механике, а сам факт возможности ее познания, предложенной квантовой механикой обусловленное, в свою очередь, невозможностью одновременного определения характеристик частицы: скорости (импульса) и его местоположения (координаты), и поэтому для познания у экспериментатора или наблюдателя существует (на выбор) только одна реальность – или координата, или импульс. Иначе, объективная реальность в мире элементарных частиц, зависит от постановки вопроса исследования – от «фактора наблюдателя». Вот как об этом судит один из исследователей, обращаясь к истории науки: «Классический ученый, если подвергнуть сомнению его убеждение в существовании объективного мира, ответил бы, что наблюдения не оказывают сколько-нибудь заметного влияния на наблюдаемый объект. Такой ученый стал бы утверждать, что наблюдатель действительно определяет, какой объект был до наблюдения и каким станет после. Однако это допущение в

классической физике выглядит в наши дни весьма шатким. Наблюдения оказывают воздействие на наблюдаемые объекты и, как показал Гейзенберга, для элементарных компонентов нашего мира это воздействие отнюдь не является неощутимо слабым». (М. Клайн. Математика. Поиск истины. Москва: Мир. 1988 г. стр. 273). Конечно, вера в существование объективной реальности независимой от наблюдающего субъекта и поныне незыблема среди многих ученых и эту веру подпитывает не только классическая наука, но и вера в то, что развитие науки даст объяснение корпускулярно-волновому дуализму с точки зрения уже «определенности» (детерминизма). Проблема здесь не в определении первичности или вторичности философских категорий, идеи и материи. Дело в том что детерминизм может быть обоснован и не эмпирически; проблема здесь в определении вопроса относительно того, что познаваемый мир это-определенный (в том числе и мир элементарный), а поэтому независимый от желаний и воли познающего субъекта. Иначе нужно признать, что квантово-механический путь познания не может быть сопряжен с детерминизмом.

### ЛИТЕРАТУРА


1. В.Л.Прокофьев, В.Ф.Дмитриева «Физика», Москва, «Высшая Школа», 1983 г.
2. М.Клайн «Математика. Поиск Истины», Москва, «Мир», 1988 г.





**Lütvi Haqverdi oğluƏliyev,**

***AMEA-nın Fəlsəfə və Siyasi, Hüquqi Tədqiqatlar İnstitutunun Politologiya şöbəsinin əməkdaşı***


## AZƏRBAYCANIN İCTİMAİ-SİYASİ FİKİR TARİXİNDƏ M.F. AXUNDOVUN ROLU

XIX -əsrin sonlarında Azərbaycanın iqtisadiyyatı tədricən ümumi Rusiya iqtisadiyyatının ayrılmaz hissəsinə çevrilmiş və getdikcə kapitalist təsərrüfatı sisteminə daxil olmuşdur. Bu dövr iqtisadi inkişaf baxımından Azərbaycanda kapitalist münasibətlərinin qərarlaşması və Azərbaycan millətinin təşəkkülü dövrüdür. M.F. Axundov mədəniyyətimizdə baş verən "fikri inqilaba" başçılıq etmişdir. O, həmçinin xalqın milli oyanış beşiyi başında durmuş, milli şüurun inkişafını dövrün tələblərinə uyğun istiqamətləndirmiş, XIX əsrdə təşəkkül tapan milli mədəniyyətin, sözün əsl mənasında, demokratik düşüncənin nüfuzlu nümayəndəsi olmuşdur. Bu dövrdə Azərbaycanda milli ideyanın yaranmasında bu böyük mütəfəkkirin rolu danılmazdır. Azərbaycanda milli şüurun oyanmasında Axundovun xidməti böyükdür. Axundova görə itaətkarlıq köləlik şüurudur. Onun fikrincə yeni dövrdə köləlik şüuru, əxlaq ilə qəflət və cəhalət içərisində yaşamaq olmaz, xalqda milli mənlik şüurunu inkişaf etdirmədən, milli ləyaqət, vətənpərvərlik hissi aşılamadan onu geniş sosial tərəqqi və milli müstəqillik yoluna çıxarmaq olmaz. M.F.Axundov Azərbaycanda maarifçilik ideyalarını, sadəcə olaraq,7 elan etmədi. O, bu ideyaları məişətdə, təfəkkürdə orta əsrlər geriliyinə qarşı mübarizəyə istiqamətləndirdi. Humanist, demokratik ideyalar Axundovun bütün yaradıcılığının əsas özəyini təşkil edir. Azərbaycan maarifçiliyin yaranması prosesini xeyli sürətləndirmişdir. M.F.Axundov uzun illər boyu müxtəlif köhnəpərəst, mühafi-

zəkar qüvvələrə qarşı yeni əlifba uğrunda mübarizə aparmışdır. Həmçinin Axundov milli ədəbiyyatı dövrün qabaqcıl, demokratik ideyaları ilə zənginləşdirdi, ana dilində ədəbiyyatın müstəqilliyini təsdiq etməklə, onu ümumbəşəri ədəbiyyat səviyyəsinə yüksəltdi. Onun dünyagörüşü, yaradıcılığı ictimai həyatın məzmununu təşkil edən sosial-siyasi amillərlə əlaqəli inkişaf etmişdir. Axundovun dünyagörüşündə sosial fəlsəfəyə dair məsələlər mühüm yer tutur. Onun bütün ictimai-siyasi, fəlsəfi və ədəbi-tənqidi fəaliyyəti böyük bir məqsədə-xalqının azadlığı, tərəqqisi və səadəti uğrunda mübarizəyə, özünün sözləri ilə desək həmvətənlərini, xalqını "qaranlıqdan işığa, tərəqqi və sivilizasiya yoluna" çıxarmaq məqsədinə yönəlmişdir. Axundovun başlıca sosial idealı mütləqiyyət quruluşunu devirib, onu demokratik cəmiyyətlə, ədalətli ictimai-siyasi quruluşla əvəz etmək, xalqına azadlıq, tərəqqi və xoşbəxtliyin yolunu göstərmək olmuşdur. O, özünün "Kəmalüddövlə məktubları" əsərində İranın o zamankı mütləqiyyət üsuli-idarəsinin timsalında, bütövlükdə isə hər cür feodal istibdad üsulunun dəhşətli mənzərəsini bütün çılpaqlığı ilə açıb göstərə bilmiş və bununla da istibdad üsul-idarəsinin dəyişdirilməsi zərurətini əsaslandıra bilmişdir. Axundovun feodal cəmiyyətinin orta əsrlərə məxsus eybəcərliklərinə qarşı yönəldilmiş acı gülüşü, kəskin sosial məsələləri qoymaq cəsarəti ilə öz müasirləri içərisində fərqlənirdi.

Onun sosial idealı ictimai həyatın inkişaf prosesi ilə əlaqədə, xalq kütlələrinin azadlıq mübarizəsi gedişində qərarlaşmış, inkişaf etmişdir. O, ictimai-siyasi fikirlərində nəinki İran feodal cəmiyyətinin ayrı-ayrı qüsurlarını, hətta despot sosial-siyasi quruluşunu ifşa edir və beləliklə, xalqları əslində şahlar, feodallar ilə haqq-hesab çəkməyə səsləyirdi. Axundov xalqına zülmə, əsarətə dözümsüzlik şüuru aşılayır, etiraz hissi oyadır ki, xalq kölə olmadığını anlasın, dərk etmiş olsun. Onun fikrincə, İngiltərə, Fransa ağıl və sağlam düşüncənin göstərişi ilə hərəkət edərək mövhumatdan xilas olmağa çalışır, elmin, incəsənətin bütün sahələrində sürətlə irəliləyir və bununla da yalnız özünə deyil, eyni zamanda bütün bəşəriyyətə fayda verirlər. Axundovun ictimai-siyasi görüşlərində inqilab ideyası getdikcə möhkəmləndi və o, belə hesab edirdi ki, inqilab respublika quruluşuna keçid üçün vasitədir. Onun "Yek kəlmə" haqqında məqaləsində deyilir: "İşin əlacı nəsihət və vəz etməkdə məsləhət verməkdə deyil, göz qabağında olan bu əsas istibdad quruluşu kökündən, dibindən qoparılmalıdır. Zülmü aradan qaldırmaq ancaq yuxarıda dediyim şəkildə mümkündür: yəni millətin özü bəsirət və elm sahibi olmalı, ittifaq və yekdillik əsaslarını əldə etməli, sonra zalıma müraciət edərək deməlidir: səltənət və hökumət büsatından əl çək! Hər millət özü zamanın vəziyyətinə uyğun olaraq qanun, konstitutsiya yazmalı və ona əməl etməlidir. Belə olduqda millət yeni həyat tapacaq və Şərq torpağı gözəl cənnət kimi olacaqdır.» M.F.Axundov bununla əlaqədar olaraq bir sıra Qərbi Avropa ölkələrində gedən ictimai inkişaf təcrübəsini yüksək qiymətləndirir və konstitutsiyalı parlament üsul-idarəsini nümunə göstərirdi. Onun fikrincə o dövrdə mövcud olan dövlət quruluşlarından ən yaxşısı konstitutsiyalı parlamentdir və belə hesab edirdi ki, parlamentin birinci əsası hüquq bərabərliyidir, yəni kişilərlə yanaşı qadınlara da bərabər hüquq verilməlidir. Axundov həmçinin qadının cəmiyyətdə rolu və yeri məsələsinə dönə-dönə toxunur, ictimai həyatın bütün sahələrində qadınlara kişilərlə bərabər hüquq verilməsi fikrini qətiyyətlə müdafiə edirdi. Onun fikrincə, konstitutsiyalı dövlətin ikinci mühüm vəzifəsi "Şəxsi azadlığı icra" etməkdir. O, yazırdı ki, "qul və kənizləri alıb-satmaq" qadağan edilməlidir, çünki bu azadlığa ziddir və insana ən alçaq zülmdür. Axundova görə, dövlət "insan şəxsiyyətinin tam əmniyyətini" və azadlığını təmin etməlidir. Onun fikrincə, azadlıq insanın təbii hüququdur və ümumbəşəri tərəqqinin zəruri şərtidir. Hər bir fərdə öz fikirlərini azad sürətdə söyləmək azad şəkildə yaymaq hüququ verilməlidir. Axundov azadlıq dedikdə ilk

növbədə fikir, düşüncə, söz, tənqid azadlığını, fərdlərin şəxsi azadlığını nəzərdə tuturdu. O, «bütün dövlət başçıları tədbirlərdə iştirak etməlidir» fikrini irəli sürərək, müsəlman Şərqi ölkələri xalqlarının acınacaqlı vəziyyətinə nəzər salır və diqqəti buna cəlb edirdi.

Axundov yazırdı: "Tam azadlıq iki növ azadlıqdan ibarətdir: biri ruhani azadlıqdır, o biri isə cismani azadlıqdır. Maddi bərabərlik probleminə realist bir şüurla yanaşan Axundov yazırdı: "Mali bərabərlik məsələsini anlamaq və dərk etmək, biz müasirlər üçün çox çətindir. Amma buna baxmayaraq Avropa alimlərindən bəziləri mali bərabərliyi də bəzi dəlillərə əsasən, bir neçə əsrdən sonra mümkün hesab edirlər, lakin başqa filosoflar, siyasi xadimlər isə onların fikirlərini rədd edən dəlillər gətirirlər. Bütün bunlarla bərabər Axundov maddi bərabərlik ideyasını XIX əsr üçün əməli bir vəzifə kimi qoymurdu. Onun fikrincə, bunun üçün əvvəlcə insanların "Əxlaq və təbiətini" dəyişdirmək lazımdır.

M.F.Axundov bununla da öz idealının həyata keçirilməsində elmə, maarifə böyük ümidlər bəsləyirdi. O, bir sıra hallarda ictimai tərəqqini elmin, maarifin inkişafı ilə eyniləşdirir, maarifçilik xülyalarına qapılır və belə hesab edirdi ki, cəmiyyətdəki bərabərsizliyə, zülmə, istismara, haqsızlıqlara son qoymaq üçün xalqın şüurunu inkişaf etdirmək kifayətdir.

Beləliklə də, Axundov yaşadığı cəmiyyəti tənqid və ifşa etməklə kifayətlənmirdi. O, cəmiyyəti ağılauyğun şəkildə dəyişmək, ədalətli cəmiyyətlə əvəz etmək uğrunda yorulmadan mübarizə aparmışdır.

***Ədəbiyyat siyahısı***

1. F. Köçərli. M.F. Axundovun dünyagörüşü. Bakı. Elm, 1999

2. Ş.F. Məmmədov, Axundov M.F. Axundovun dünyagörüşünün ideya mənbələri haqqında. Bakı, 1978.



3. Ə. Mirəhmədov. XIX əsrin realizmi Nizami adına Ədəbiyyat və Dil İnstitutun əsərləri. Bakı, 1953.

**Hökumə İbrahimli,**
**AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu sosial fəlsəfə şöbəsinin dissertantı**

## Demokratiyaya – demokratik seçkilərlə (Ukrayna təcrübəsi)

Demokratiya nə üçün lazımdır? Demokratiyanın üstünlükləri nədir? Yəqin ki, demokratiyadan danışan hər bir şəxs bu sualı cavablandırmağı bacarmalıdır. Bu cavablardan birini Robert Dal "Demokratiya haqqında" kitabında verir: "Demokratiyanın faydalı nəticələrinə aşağıdakılar daxildir: istibdaddan qurtulma, əsas hüquq və azadlıqlara riayət olunma, şəxsiyyət azadlığı, müqəddəratını təyin etmə, mənəvi avtonomiya, şəxsiyyətin inkişaf imkanları, şəxsiyyətin təməl maraqlarının qorunması, siyasi bərabərlik, sülhə can atma, tərəqqi .[1]

Yuxarıda sadalananlar doğrudan da çox diqqət çəkən və xoş səslənən sözlərdir. Zənnimcə, bu üstünlükləri özündə təcəssüm etdirən demokratiyaya birbaşa, açıq-aşkar "yox" deyən adamı indiki zamanda tapmaq çox çətin olar. Çünki hər dövrün öz reallığı var. Müasir dünyanın reallığı, əsas prioriteti demokratiyadır. Dünyanın hər yerində demokratiya, demokratik inkişaf uğrunda mücadilə edənlər və əksinə, bu inkişafıləngidən qüvvələr də var. Lakin bütün hallarda demokratiya əvvəl-axır hər yerdə qalib gələcək. Çünki demokratiya məsələsi heç də bir ölkənin daxili məsələsi deyil, bu həm də millətlərarası, dövlətlərarası münasibətlərin yeni, daha hamar səviyyəsi, deməli, dünya məsələsidir.

Dövlətin və cəmiyyətin inkişaf səviyyəsindən asılı olaraq demokratiya bir ölkədə tez, o birində isə bir az gec bərqərar ola bilər. "Demokratiya – həm dövlətin, həm də zamanın iştirak etdiyi bir prosesdir".[2]

Doğrudan da biz bunu Baltikyanı ölkələrinin timsalında gördük. Postsovet ölkələrindən ilk olaraq məhz həmin ölkələrdə demokratik dəyərlər bərqərar oldu. Ona görə ki, cəmiyyət özünü uzun illər ərzində bu prosesə hazırlayırdı. Zaman, uğurlu məqam yetişən kimi isə yerli dövlət və cəmiyyət bundan istifadə etdi və qazandı. Doğrudan da, "demokratiya- gediləsi uzun bir yol"dur.[3]

Amma istər-istəməz belə bir qıcıqlandırıcı sual da meydana çıxır: görəsən bu yolu az da olsa qısaltmaq, bu prosesi hansısa yolla sürətləndirmək olarmı və bu zaman cəmiyyətin prosesə təsiri hansı səviyyədə ola bilər?

Dünyanın bir çox ölkələrində, o cümlədən, postsovet ölkələri olan Gürcüstan və Ukraynada baş verən hadisələr yuxarıda qoyduğumuz sualları müsbət cavablandırmağa imkan verir: bu yolu bəzən qısaltmaq, prosesləri sürətləndirmək olarmış. Burada da dominant rol məhz cəmiyyətə, daha dəqiq desək, vətəndaş cəmiyyətinə məxsusdur.

Bütün bunlar isə məhz demokratiyanın mərkəzi institutu olan seçkilər vaxtı mümkündür.

Ümumiyyətlə, "seçkilər – demokratik siyasi sistemin orqanlarının formalaşdırılmasının əsas proseduru, onun institutlarının normal dirçəlişi şərti kimi çıxış edir".[4]

Digər tərəfdən aydındır ki, seçki keçirilən hər ölkə də demokratik adlandırıla bilməz: SSRİ-də də seçkilər keçirilirdi, İranda da keçirilir. Bu yaxınlarda isə 10 fevral 2005-ci ildə hətta Səudiyyə Ərəbistanında da ilk dəfə olaraq seçkilər keçirildi. Lakin, bu ölkələrdə demokratik siyasi sistem olmadığı və cəmiyyətin siyasi mədəniyyəti aşağı olduğu üçün seçkilər öz əsl funksiyasının yerinə yetirə bilmir. Deməli, bunun üçün dövlət və cəmiyyət müəyyən inkişaf yolu keçməlidir. İnsan haqqları, siyasi bərabərlik təmin olunmalıdır. Azad və ədalətli seçkilərin keçirilməsi üçün ən azı qanuni təminat formalaşdırılmalıdır. Çünki yalnız "azad seçkilər – real hakimiyyətin vacib atributudur. Seçkilər cəmiyyət həyatının bütün vacib məsələlərinin həllində vətəndaşların faktik, aktiv və daimi siyasi və hüquqi iştirakını təmin edir".[5]



Qeyd etdiklərimizin kontekstində Ukraynada keçirilən prezident seçkiləri və onun fonunda ölkədə baş verən prosesləri nəzərdən keçirək. Beləliklə, Ukraynadakı prezident seçkiləri 31 oktyabr 2004-cü ilə təyin olunmuşdu. Qeydə alınmış xeyli namizəd arasında daha çox iki namizəd – V. Yanukoviç və V. Yuşenko diqqət mərkəzində idi. Aydın idi ki, əsas mübarizə məhz bu iki namizəd arasında gedəcək. Hər iki namizəd çox aktiv, dinamik seçki kampaniyası aparırdı. Bu namizədlər arasındakı fərqlərin qabardılması, onlar arasındakı mübarizə ictimai rəyə təsir edir, vətəndaş cəmiyyəti elementlərinin – müxtəlif maraqlı qruplar, ictimai birlik və təşkilatlar şəklində – formalaşmasına təsir edirdi. Çox gərgin keçən səsvermə nəticəsində namizədlərdən heç biri, o cümlədən, V. Yuşenko (39,87%) və V. Yanukoviç (39,32%) lazım olan səs normasını (50%-dən çox) toplaya bilmədi və noyabrın 21-nə seçkilərin II turu təyin olundu. Seçkilərin I turu yerli və beynəlxalq müşahidəçilərin qənaətinə görə çoxsaylı pozuntularla keçirilmişdi. Lakin II turda pozuntular və saxtakarlıqlar daha kütləvi, daha geniş miqyaslı xarakter daşıyırdı. "21 noyabr səsverməsi kütləvi və seçki qanunvericiliyinin sistematik pozulması, insan haqları və düzgün seçkilərin beynəlxalq normalarının pozulması ilə keçirilib".[*]

Qeyd etmək lazımdır ki, "müşahidəçilər çoxlu sayda ciddi pozuntular, zorakılıq, həmçinin ayrı-ayrı seçicilərə, müşahidəçilərə, komissiya üzvlərinə qarşı yönəlmiş qorxutma halları qeydə alıblar".[**] Və bütün bu səbəblərdən "Seçkilərin nəticələri Ukrayna xalqının həqiqi iradəsini əks etdirmir.[***]

Bütün bunlar Ukrayna vətəndaşlarının, cəmiyyətin gözü qarşısında baş verdiyindən vətəndaşların dövlətin azad və ədalətli

seçkilər keçirmək niyyətinə olan inamını azaltmışdır. Bu isə onları ədalətı özlərinin və ictimai birliklərinin vasitəsilə bərpa etməyə sövq etmişdir.

Seçkilərin səhəri günü, 22 noyabrdan başlayaraq vətəndaşlar küçələrə çıxaraq öz haqlarını tələb etməyə başladılar. Tez bir zamanda etiraz aksiyaları, demək olar ki, bütün ölkəni əhatə etməyə başladı.

Noyabrın 24-də Ukrayna MSK-ı II turun nəticələrini elan edir: V. Yanukoviç 49,3%, V. Yuşenko 46,7%. Bu isə ehtirasları daha da coşdurur. Bir çox xarici dövlətlər və təşkilatlar öz etirazlarını ləngimədən bildirdilər. Dərhal bütün dünyanın məlumat agentlikləri və KİV-i tərəfindən ABŞ hökumətinin mövqeyini ifadə edən dövlət katibi Kolin Paulerin bəyanatı: "Biz bu nəticələri legitim kimi qəbul edə bilmərik, ona görə ki, seçkilər beynəlxalq standartlara uyğun keçirilməyib, həmçinin ona görə ki, saxtakarlıq və sui-istifadə ilə bağlı çoxsaylı məlumatlar araşdırılmamışdır", yayımlandı.

Noyabrın 25-də Kiyevin Azadlıq Meydanında toplaşanların sayı 100 000, noyabrın 27-də isə 200 000-dən artıq idi. Cəmiyyət get-gedə daha böyük qüvvə ortaya qoyur və öz tələblərində israr edirdi. Tələblər isə bunlar idi: saxtakarlıqla keçirilmiş seçkilərin nəticəsi etibarsız sayılsın, seçki məcəlləsi dəyişdirilsin və yeni səsvermə təyin olunsun və s.

Qeyd etmək istəyirəm ki, dövlət orqanları əvvəlcə bu tələblərə etinasızlıq göstərsə də, sonradan cəmiyyətin nümayiş etdirdiyi həmrəyliyin və gücün nəticəsində geri çəkildilər. Belə ki, dekabrın 3-də Ali Məhkəmə 21 noyabr səsverməsinin nəticələrini etibarsız elan edir və dekabrın 26-a yeni səsvermə təyin edir, dekabrın 8-də Ukrayna Ali Radası seçki qanunvericiliyinə dəyişikliklər edilməsinə və MSK-nın tərkibinin dəyişdirilməsinə səs verir. Beləliklə də, 26 dekabrda düzgün seçkilərin keçirilməsi üçün hüquqi baza təmin olunur, tərəfsiz MSK formalaşdırılır.



26 dekabr səsverməsi ərəfəsində və səsvermə günü orada olmuş və beynəlxalq müşahidəçi statusunda müşahidə aparmış şəxs kimi qeyd edə bilərəm ki, axırıncı səsvermə demək olar ki, demokratik keçdi. Kənar şəxslərin, yerli icra strukturları təmsilçilərinin, polisin seçkilərə birbaşa müdaxiləsinə yol verilmədi. Bu seçki məcəlləsinə edilən dəyişikliklərin və yaranmış demokratik mühitin nəticəsində mümkün oldu. Düzdür, bəzi yerlərdə buna zəif cəhdlər olsa da, qarşısı alındı. Ukrayna demokratik seçki keçirdi. Ukrayna vətəndaşları öz inandıqları və seçdiyi şəxsi hakimiyyətə gətirdi. Bu təkcə bir şəxsin hakimiyyətə gətirilməsi məsələsi yox, bir rejimdən digərinə keçid məsələsi idi. Ukrayna cəmiyyəti seçkilər vasitəsilə həqiqi demokratikləşmə prosesinin başlanğıcını qoydu. Baxmayaraq ki, bəzi araşdırmalarda bu seçkiləri "həm nəzəri, həm də praktiki olaraq demokratik prosesin axırıncı mərhələsi"[6] hesab edilir. Bütün bunları təmin edən isə Ukrayna cəmiyyətinin fəallığı və aktivliyi olub. Məhz vətəndaşların aktivliyi, öz hüquq və vəzifələri uğrunda mübarizəsi nəticəsində demək olar ki, demokratik institutlara, hakimiyyətin faktiki bölgüsünə nail olunmayan, insan hüquqlarına heç də həmişə riayət edilməyən, bir sözlə – qeyri-demokratik bir ölkədə demokratik seçki keçirildi. Cəmiyyət ölkədəki prosesləri öz əlinə aldı, həqiqi xalq hakimiyyətini təmin etdi.

Beləliklə, demokratiyanın əsas atributlarından olan Vətəndaş Cəmiyyəti məhz seçkilər vaxtı sürətlə formalaşa bilər. Formalaşan və aktivləşən vətəndaş cəmiyyəti isə ölkədə sürətli demokratikləşmə mühiti yarada bilər. Məhz vətəndaşların və aktiv cəmiyyətin birbaşa təsiri və təkidi ilə demokratik seçki qanunu qəbul oluna və demokratik seçki keçirilə bilər. Güclü və aktiv vətəndaş cəmiyyəti demokratiyaya gedən yolu qısalda, demokratikləşməni sürətləndirə bilər.

**Ədəbiyyat:**

1. Даль Роберт. О демократии. М.: Аспект. Пресс, 2000, стр. 48

2. Мирский Иегуда. Демократическая политика и культура демократии. Демократия 1990-х. Специальный выпуск журнала. Стр. 13.

3. Hacızadə H. Demokratiya – gediləsi uzun bir yol. Bakı, 2001.

4. Демидов А. И. Политические процессы.// Политология. М.: Юристъ. 1999, стр. 387.

5. Кабышев В. Т. Политика, права, выборы.// Политология. М.: Юристъ. 1999, стр. 403.

6. Мирский Иегуда. Демократическая политика и культура демократии. Демократия 1990-х. Специальный выпуск журнала. Стр. 13.

Qeyd:* Ukrayna Seçicilər Komitəsinin hesabatı.
** Seçkiləri Müşahidə üzrə Beynəlxalq Missiyanın hesabatı.
*** ENEMO – beynəlxalq monitorinq missiyasının hesabatı.



# FƏLSƏFƏ VƏ HƏYAT

**Elmi məqalələr toplusu**
**I buraxılış**

Çapa imzalanmış: 01.04.2005.
Formatı 60x84 1/16. Həcmi 30,75 ç.v.
Ofset çap üsulu. Tiraj 500

**«TƏKNUR» mətbəəsində çap olunmuşdur**
**H.Cavid pr-ti, 29**